# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# QIRX DOQQUZUNCU KİTAB

## NOYABR 2011 - FEVRAL 2012

AZƏRNƏŞR
BAKI - 2017

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2017

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiya Federasiyası, İsveçrə, Almaniya və Belçikaya səfərləri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə çoxşaxəli əlaqələrin inkişafına, enerji və qeyri-neft sektoru üzrə bağlanmış müqavilələr və sazişlərə, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsinə dair materiallar toplanmışdır.

Kitabda Azərbaycanın uğurlu daxili və xarici siyasətinə, ordu quruculuğuna, regionların sosial inkişafının həyata keçirilməsinə, cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Azərbaycan prezidentinin bütün görüş və danışıqlarında Ermənistanın işğalçılıq siyasəti diqqətə çatdırılır, Dağlıq Qarabağ problemi və bu problemin həlli yolları beynəlxalq hüquq normaları çərçivəsində müzakirə edilir..

Bu cilddə, həmçinin cənab Prezidentin ölkəmizə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşləri, kütləvi informasiya vasitələrinə və xarici telekanallara müsahibələri yer almışdır.

**İSBN 978-9952-8100-7-3**

**Я** $\frac{\mathbf{0801000000}}{\mathbf{M - 651(07) - 2017}}$ **ББК - 32**

© Azərnəşr, 2017

## «BAKUTEL–2011» XVII AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi – «Bakutel–2011» XVII Beynəlxalq sərgi və konfransının iştirakçılarını bu möhtəşəm tədbirin keçirilməsi münasibətilə təbrik edirəm.

Ölkəmizdə hər il keçirilən beynəlxalq sərgi və konfrans müxtəlif ölkələrin informasiya cəmiyyətlərinin formalaşması üzrə təcrübə mübadiləsi, əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi, qabaqcıl texnologiyaların təqdimatı, şirkətlər arasında biznes əlaqələrinin genişləndirilməsi üçün əlverişli şərait yaradır.

Azərbaycan İKT-nin inkişafına böyük qayğı göstərir. 2003-cü ildən İKT-nin inkişaf strategiyası və bu sahəyə dair bir neçə Dövlət Proqramı qəbul edilmiş, hüquqi baza formalaşmış, islahatlar həyata keçirilmiş, normal rəqabət mühitinə malik böyük həcmdə investisiya qəbul edən müasir İKT bazarı yaradılmışdır. Avrasiya transmilli informasiya magistralı, Avropa–Yaxın Şərq yüksəksürətli informasiya şəbəkəsi kimi layihələr buna misaldır.

İnanıram ki, «Bakutel–2011» XVII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransı müasir texnoloji nailiyyətlərin nümayişi, şirkətlərin, hökumət və dövlət təşkilatlarının, alim və mütəxəssislərin birgə müzakirələri, biznes əlaqələrinin qurulması, regional və beynəlxalq əməkdaşlığın inkişafı, eləcə də Azərbaycanla yaxından tanışlıq üçün əlverişli mühit olacaqdır.

Sərgi və konfransın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2011-ci il*

## ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN III QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay nümayəndələri və qonaqlar!

Sizi öz tarixi Vətəninizin müstəqilliyinin bərpa edilməsinin 20 illiyinin bayram edildiyi ildə keçirilən Ümumrusiya Azərbaycan Konqresinin III qurultayında səmimi salamlayıram.

Azərbaycan bu yubileyi müxtəlif sahələrdə sanballı nailiyyətlərlə qarşılayır. Davamlı inkişaf sahəsində uğurlarımız nüfuzlu beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir. Biz öz tarixi-mədəni irsimizi qoruyub saxlamaqla və ona qayğıkeş münasibət sahəsində çoxəsrlik ənənələri inkişaf etdirməklə yanaşı, eyni zamanda, milli-mənəvi dəyərlərimizin ümumbəşəri ideallarla harmonik əlaqəsində varisliyi təmin edə bilmişik. Biz Azərbaycan cəmiyyətinin tolerantlığının və açıqlığının yüksək səviyyəsi ilə haqlı olaraq fəxr edirik. Respublikanın sosial-iqtisadi, ictimai-siyasi və elmi-mədəni həyatının bütün sahələrində təmsil olunmuş Azərbaycanın 120 minlik rus icmasının fəaliyyəti ölkəmizdə millətlərarası münasibətlər sahəsində yaranmış vəziyyətin parlaq təzahürüdür.

Bu gün Rusiya Federasiyası ilə siyasi, iqtisadi, mədəni və digər sahələrdə strateji tərəfdaşlığın səviyyəsi olduqca yüksək qiymətə layiqdir. Beynəlxalq təşkilatlar çərçivəsində uğurlu qarşılıqlı fəaliyyətə çoxlu sübutlar göstərmək, o cümlədən bu faktı vurğulamaq olar ki, bu il Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü seçilərkən dost Rusiya da bizim namizədliyimizi dəstəkləmişdir.

İkitərəfli münasibətlərimizin inkişafında və dərinləşməsində Rusiyada yaşayan azərbaycanlıların rolu böyükdür. Sevindirici haldır ki, onlar çoxmillətli Rusiya cəmiyyətinin ayrılmaz hissəsidir; Rusiya Federasiyasının inkişafına və tərəqqisinə layiqli töhfə verirlər.

Azərbaycanlıların diaspor təşkilatları və ilk növbədə Ümumrusiya Azərbaycan Konqresi Rusiya vətəndaş cəmiyyətinin ayrılmaz hissəsinə çevrilmişdir. Ölkənin, demək olar ki, bütün regionlarında öz strukturlarını yaratmış Konqres qısa müddətdə nüfuzlu ictimai birliklərdən birinə çevrilə bilmişdir. Bununla bərabər, Dünya azərbaycanlılarının qurultayında göstərildiyi kimi, xalqımızın tarixinin və mədəniyyətinin təbliği, Azərbaycan haqqında həqiqətin Rusiya ictimaiyyətinə çatdırılması da onun işinin prioritet istiqamətlərindən biridir.

Əziz dostlar!

Əminəm ki, III qurultay Ümumrusiya Azərbaycan Konqresinin, eləcə də bütün Azərbaycan diasporunun fəaliyyətində mühüm hadisə olacaq, hərtərəfli Rusiya–Azərbaycan əlaqələrinin möhkəmlənməsinə və inkişafına kömək edəcəkdir. Qurultayın bütün iştirakçılarına uğurlu iş, xoşbəxtlik, cansağlığı və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 noyabr 2011-ci il*

## «BAKUTEL–2011» XVII BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*23 noyabr 2011-ci il*

*Noyabrın 23-də Bakı Sərgi Mərkəzində «Bakutel–2011» XVII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransı açılmışdır.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgi ilə tanış oldular.*

*Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov dövlətimizin başçısına sərgi barədə məlumat verdi. Bildirildi ki, informasiya-kommunikasiya texnologiyalarının bütün seqmentlərini əhatə edən «Bakutel–2011» XVII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransı Azərbaycanda rabitənin yaranmasının 130 illiyi ilə üst-üstə düşür. BMT və Beynəlxalq Telekommunikasiya İttifaqı kimi beynəlxalq qurumların dəstəyi, həmçinin Dünya Sərgi Sənayesi Assosiasiyasının «Bakutel» sərgisini «Keyfiyyət nişanı»na layiq görməsi tədbirə beynəlxalq səviyyədə verilən əhəmiyyətin göstəricisidir.*

*Dövlətimizin başçısı sərgi ilə tanışlığa Azərbaycanın ilk mobil operatorlarından olan «Bakcell» şirkətinin pavilyonundan başladı.*

*Azərbaycan prezidentinə şirkətin təklif etdiyi 3G və 4G, həmçinin digər xidmətlər barədə ətraflı məlumat verildi.*

*«DELTA Telecom» şirkətinin pavilyonu ilə tanışlıq zamanı qeyd olundu ki, qurum respublikamızın İKT bazarında xüsusi mövqeyi ilə seçilir. Şirkət region səviyyəsində mühüm əhəmiyyət kəsb edən bir neçə uğurlu layihə həyata keçirir. Dünyanın ən iri rabitə operatorlarının qoşulduğu EPEG layihəsini, paytaxt*

Bakıda böyük DATA mərkəzinin qurulmasını və digər layihələri buna misal göstərmək olar. «DELTA Telekom»un reallaşdırdığı layihələrin hamısı region əhəmiyyətlidir.

Respublikamızda «Aztelekom» İstehsalat Birliyinin CDMA – simsiz telefon şəbəkəsi 2005-ci ilin sentyabrında istifadəyə verilmişdir. Bu xidmətin regionlarda tətbiqi istiqamətində qısa müddətdə ardıcıl tədbirlər görülüb. Hazırda ölkəmizin 22 rayonu və 4 şəhərinin ərazisində «Aztelekom»un 32 baza stansiyasından ibarət simsiz telefon şəbəkəsi təşkil olunmuşdur. Bu xidmətin digər bölgələrdə də tətbiqi üçün konkret tədbirlər həyata keçirilir.

«Bakutel–2011» XVII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində 18 ölkənin milli ekspozisiyası da fəaliyyət göstərir.

İsrailin milli pavilyonunda «NGSoft», «NFC» və digər şirkətlərin yenilikləri təqdim olunur. Burada İsrail şirkətlərinin proqram təminatı, mobil ödəmə sistemləri, Kontentlərin İdarə Edilməsi Sistemi, mobil və internet bankinq və digər xidmətlər barədə ətraflı informasiya almaq mümkündür.

«Gələcəyin məktəbi» ekspozisiyasında 261 saylı məktəb-liseyin 5-ci sinif şagirdləri «multitouch» monitor və ağıllı lövhə vasitəsilə prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya İKT sahəsində biliklərini nümayiş etdirdilər.

«Bakutel–2011» sərgisində ilk dəfə Kanadanın 6 şirkəti təmsil olunur.

Türkiyənin milli pavilyonu ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, qardaş ölkənin şirkətləri müstəqilliyimizin ilk illərindən Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları bazarında geniş təmsil olunur. Hazırda Azərbaycan və Türkiyə İKT sektorunda sıx əməkdaşlıq edir və respublikamızda ən son elmi-texniki yeniliklərin tətbiqi üçün birgə ardıcıl iş aparırlar.

Latviya da Azərbaycan ilə İKT sektorunda əlaqələrini ilbəil genişləndirir. Sərgidə bu ölkənin «DPA» və digər şirkətləri silsilə yenilikləri ilə təmsil olunur.

*Avstriya şirkətləri də respublikamızın İKT bazarına ciddi maraq göstərirlər. Bu ilk növbədə, ölkəmizdə istər yerli, istərsə də xarici iqtisadi qurumlar üçün yaradılan əlverişli biznes mühitindən qaynaqlanır. Avstriyanın «Skidata» və digər şirkətləri artıq respublikamızda «Şahdağ» qış kurortu kimi bir sıra iri layihələrə qoşulmuşlar.*

*Azərbaycanın strateji tərəfdaşı olan Rumıniya iki ölkə arasında imzalanan sənədlərə əsasən, respublikamızın İKT sektorunda da fəaliyyətini genişləndirmək niyyətindədir. «SİVECO Romania SA» şirkəti Azərbaycanın «Milli təhsil sisteminin idarə edilməsi və elektron tədris» kimi mühüm əhəmiyyətli layihələrə qoşulmuşdur.*

*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 17 yaşlı qadınlar arasında futbol üzrə dünya çempionatının start sayğacını işə saldı.*

*«Bakutel–2011» XVII Beynəlxalq sərgidə İran şirkətləri də ilbəil geniş təmsil olunur, öz yeniliklərini təqdim edirlər.*

*Belarusun pavilyonu da zənginliyi ilə fərqlənir. Azərbaycan bu ölkə ilə də İKT sektorunda əməkdaşlığını genişləndirir. Bu baxımdan «Bakutel» sərgiləri mühüm rol oynayır.*

*MDB məkanında ən qabaqcıl İKT xidmətlərini Azərbaycanda tətbiq edən şirkətlərdən biri də «Azərfon» MMC-dir.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı şirkətin ekspozisiyasında «Nar Mobile» mobil operatorunun simaları, «Eurovision–2011» mahnı müsabiqəsinin qalibləri Nigar Camal və Eldar Qasımov qarşıladılar.*

*Məlumat verildi ki, 2012-ci ilin aprelindən şirkətin təklif etdiyi yeni xidmət sayəsində «Azərbaycan Hava Yolları» QSC-nin reysləri zamanı təyyarədə mobil telefon xidmətindən istifadə etmək mümkün olacaqdır. Şirkət respublikamızda 3G mobil rabitəsinin sosial sahələrə tətbiqi ilə bağlı və digər istiqamətlərdə konkret layihələr həyata keçirir.*

*Sərgi ilə yaxından tanış olan prezident İlham Əliyev iştirakçılara uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.*

# BEYNƏLXALQ TELEKOMMUNİKASİYA TƏŞKİLATININ BAŞ KATİBİ HAMADUN TURE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Beynəlxalq Telekommunikasiya Təşkilatının Baş katibi Hamadun Tureni qəbul etmişdir.*

*Beynəlxalq Telekommunikasiya Təşkilatının Baş katibi Hamadun Ture ölkəmizdə «Bakutel–2011» XVII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransının təşkilini yüksək qiymətləndirdi. İnformasiya təhlükəsizliyinin dünyada aktual məsələlərdən biri olduğunu vurğulayan Hamadun Ture bu sahədə Azərbaycanda görülən işlərdən məmnunluğunu bildirdi. Ölkəmizdə informasiya və kommunikasiya texnologiyaları sahəsinin sürətlə inkişaf etdiyini qeyd edən qonaq Azərbaycanın Beynəlxalq Telekommunikasiya Təşkilatının Afrika ölkələrinin yardım kampaniyasına qoşulmasının önəmini qeyd etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev neft-qaz sahəsi ilə yanaşı, informasiya və kommunikasiya texnologiyaları sektorunun dövlətin önəm verdiyi prioritet sahələrdən biri olduğunu vurğuladı. Prezident İlham Əliyev enerji sahəsində olduğu kimi, Azərbaycanın informasiya və kommunikasiya texnologiyaları ilə bağlı regional layihələrdə iştirakı istiqamətində fəaliyyətini daha da artıracağını qeyd etdi.*

*Dövlətimizin başçısı Beynəlxalq Telekommunikasiya Təşkilatının fəal üzvü kimi, Azərbaycanın qurumun təklif etdiyi bütün layihələrdə uğurla iştirak edəcəyini dedi.*

*Görüşdə Azərbaycanın Beynəlxalq Telekommunikasiya Təşkilatı ilə əməkdaşlığının perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ HARUHİKO KURADONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Asiya İnkişaf Bankının prezidenti Haruhiko Kuradonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzi Asiya ölkələrinin Əməkdaşlıq Proqramının X Nazirlər Konfransının Bakıda keçirilməsindən məmnunluğunu bildirdi və qarşılıqlı regional əməkdaşlığın və tərəfdaşlıq əlaqələrinin önəmini qeyd etdi. Son illər Azərbaycanda genişmiqyaslı sosial və infrastruktur layihələrinin icrası istiqamətində mühüm işlərin görüldüyünü, elektrik enerjisinin istehsalı, xüsusilə alternativ və bərpa olunan enerji layihələrinin icrasını, yol-nəqliyyat infrastrukturunun yaradılmasını, yeni aeroportların tikintisi və dəniz nəqliyyatının inkişafını, Bakı şəhərində yeraltı nəqliyyat şəbəkəsinin genişləndirilməsi, su təchizatı və kanalizasiya sistemlərinin yaradılması istiqamətində həyata keçirilmiş proqramlardan bəhs etdi.*

*Haruhiko Kurado Azərbaycanda, o cümlədən Bakı şəhərində həyata keçirilən abadlıq və quruculuq tədbirlərini yüksək qiymətləndirdi. O, prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurla həyata keçirilən sosial infrastruktur layihələrinin rəhbərlik etdiyi banka üzv ölkələrin inkişaf strategiyasına tamamilə uyğun olduğunu vurğuladı. Haruhiko Kurado Asiya İnkişaf Bankının ölkəmizdə reallaşdırılan bu layihələrdə daha yaxından iştirak etməkdə maraqlı olduğunu dedi. Görüşdə ölkəmizdə həyata keçirilən bu layihələr müzakirə edildi, Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BMT-nin AVROPA İQTİSADİ KOMİSSİYASININ İCRAÇI BAŞ KATİBİ YAN KUBİŞ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də BMT-nin Avropa İqtisadi Komissiyasının icraçı Baş katibi Yan Kubişi qəbul etmişdir.*

*Yan Kubiş Slovakiyanın Xarici İşlər naziri və Avropa Şurası Nazirlər Komitəsinin sədri vəzifəsində çalışarkən Azərbaycana səfər etdiyini xatırladaraq ötən dövr ərzində ölkəmizdə çox böyük dəyişikliklərin şahidi olduğunu dedi və qazanılan uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi. Azərbaycanın enerji siyasətini və regional nəqliyyat layihələrini yüksək qiymətləndirən Yan Kubiş BMT-nin xüsusi qətnaməsi və Azərbaycanın koordinatorluğu ilə həyata keçirilən Avrasiya informasiya magistralı layihəsinin icrasına görə BMT rəhbərliyi adından dövlətimizin başçısına minnətdarlığını bildirdi. BMT-nin müxtəlif sahələr üzrə beynəlxalq mərkəzlər yaratdığını vurğulayan qonaq ölkəmizdə informasiya texnologiyaları sektorunun sürətli inkişafını nəzərə alaraq təmsil etdiyi qurumun bu sahə üzrə beynəlxalq mərkəzi Azərbaycanda yaratmaqda maraqlı olduğunu dedi.*

*Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan enerji və regional nəqliyyat layihələrinin həyata keçirilməsi işində artıq özünü etibarlı tərəfdaş kimi göstərib. Ölkəmizdə informasiya texnologiyaları sektorunun sürətlə inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının gələcək inkişafında bu sahənin rolunu yüksək qiymətləndirdi. Dövlətimizin başçısı BMT-nin informasiya texnologiyaları sahəsi üzrə beynəlxalq mərkəzin Azərbaycanda yaradılması fikrinin də önəmli olduğunu vurğuladı.*

## MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNİN ƏMƏKDAŞLIQ PROQRAMININ BAKIDA KEÇİRİLMİŞ X NAZİRLƏR KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 noyabr 2011-ci il*

*Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzi Asiya Ölkələrinin Əməkdaşlıq Proqramının (CAREC) Bakıda keçirilmiş X Nazirlər Konfransının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli qonaqlar, mən sizi Azərbaycanda ürəkdən salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

CAREC Proqramının X Nazirlər Konfransının Azərbaycanda keçirilməsi böyük hadisədir, ölkəmiz üçün böyük şərəfdir. Azərbaycan bu mötəbər beynəlxalq proqram təşkilatının fəal üzvüdür. Əminəm ki, bu proqramın uğurlu inkişafı regional əməkdaşlığın dərinləşməsinə xidmət edəcək, bölgədə sülhün, əmin-amanlığın, rifahın təmin edilməsi işinə çox önəmli töhfə verəcəkdir.

Azərbaycanda son illər ərzində aparılan iqtisadi islahatlar gözəl nəticələr verməkdədir. CAREC Proqramının 3 əsas istiqaməti üzrə Azərbaycanda çox ciddi proqramlar icra edilir. Ticarət, nəqliyyat, enerji məsələlərinə ölkəmizdə çox böyük diqqət var və tərəfimizdən irəli sürülmüş təşəbbüslər əməkdaşlığın genişlənməsinə xidmət göstərir. Son 8 ildə Azərbaycanda iqtisadi inkişaf çox yüksək templərlə ölçülürdü: ümumi daxili məhsul 3 dəfə, yəni 300 faiz, sənaye istehsalı təxminən 3 dəfə artmışdır. Ölkə iqtisadiyyatına 10 milyardlarla dollar sərmayə qoyulmuşdur.

Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və xarici sərmayələrin cəlb edilməsi işində ölkəmiz böyük uğurlar

qazanmışdır. Hazırda bu investisiyalar təkcə neft-qaz sektoruna deyil, qeyri-neft sektoruna da qoyulur və bu bizim indiki siyasətimizdə prioritet təşkil edir. Qeyri-neft sektorunun inkişafı bu il də çox yüksəkdir, təxminən 9 faiz səviyyəsindədir. Xarici ticarət dövriyyəmiz də artmaqdadır. CAREC Proqramının iştirakçılarının və Azərbaycan hökumətinin fəaliyyəti nəticəsində iqtisadi sahədə əlaqələrimiz ikitərəfli formatda da çox müsbət, uğurla inkişaf edir.

Azərbaycan tərəfindən nəqliyyat sektorunda irəli sürülmüş təşəbbüslər də beynəlxalq xarakter daşıyır. Son illər ən çox sərmayə bu sektora qoyulmuşdur və uğurlu coğrafi vəziyyətimiz bizə imkan verir ki, Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirək. Son 7 ildə Azərbaycanda 5 beynəlxalq hava limanı istifadəyə verilmişdir. Bu hava limanları istənilən ən ağır yük təyyarələrini qəbul edə bilər.

Dəmiryol nəqliyyatında islahatlar aparılır və yeni dəmiryol xətləri çəkilir. Avropanı Asiya ilə birləşdirən Bakı–Tbilisi–Qars dəmiryol tikintisi uğurla gedir. Əminəm ki, 2013-cü ilin əvvəlində dəmiryol layihəsi başa çatacaq və beləliklə, biz Dəmir İpək yolunun bərpasını təşkil edəcəyik. Bu layihə bütün CAREC Proqramına üzv olan ölkələr üçün böyük əhəmiyyət daşıyacaqdır.

Hava nəqliyyatı ilə bağlı yeni təyyarələr alınır. Azərbaycanda yükdaşımaları üzrə fəaliyyət göstərən transmilli şirkətlər artıq dünyada çox müsbət imicə malikdir.

Dəniz nəqliyyatının inkişafı üçün əlavə tədbirlər görülür. Gəmilər, bərələr, tankerlər alınır. Artıq Azərbaycan bəzi Orta Asiya ölkələri üçün tranzit funksiyalarını icra edir. Gələcəkdə bizim tranzit ölkə kimi rolumuz ancaq və ancaq artacaqdır. Burada söhbət təbii resursların tranzitindən gedir və qeyri-enerji mənşəli yüklərin Azərbaycan ərazisindən Qərb istiqamətinə çatdırılması üçün əlavə tədbirlər görülür. Xəzər dənizinin ən böyük beynəlxalq ticarət limanı hazırda tikilməkdədir. Bakıda yeni gəmiqayırma zavodu tikilməkdədir. Bu zavodun məhsulları bütün Xəzəryanı ölkələrin sərəncamında olacaq və Xəzəryanı olmayan ölkələrin

təşəbbüslərinin icrası üçün də bu gəmiqayırma zavodunun böyük rolu olacaqdır.

Enerji sektoru da CAREC Proqramının tərkib hissəsidir. Azərbaycan qədim neft ölkəsidir. Hazırda Azərbaycan özünü dünyaya qaz ölkəsi kimi təqdim edir. Bizim son bir il ərzində aşkar etdiyimiz qaz ehtiyatları təqribən 600–700 milyard kubmetr həcmindədir. Beləliklə, bizim ümumi təsdiq edilmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetr səviyyəsindədir.

Hazırda Azərbaycanı beynəlxalq bazarlarla birləşdirən 7 neft və qaz kəməri vardır. Onların hamısı işlək vəziyyətdədir. Biz neft və qazımızı bütün istiqamətlər üzrə ixrac edirik. Bu sahədə şaxələndirmə məqsədlərimizə tam şəkildə çatmışıq. Hazırda tranzit ölkələrlə, istehlakçılarla və potensial istehlakçılarla danışıqlar aparılır ki, gələcəkdə Azərbaycan zəngin neft-qaz potensialını maksimum dərəcədə işə sala bilsin.

Yeni investisiya layihələri hazırlanır və dünyanın ən böyük qaz yataqlarından biri olan «Şahdəniz» qaz yatağının ikinci fazasının işlənilməsi ilə bağlı hazırlıq işləri aparılır. Təkcə «Şahdəniz» yatağının qaz ehtiyatları 1,2 trilyon kubmetr həcmindədir. Alternativ və bərpa olunan enerji növlərinin yaradılması üçün işlər aparılır. Birinci pilot layihə icra edilmişdir. Hibrit külək-günəş elektrik stansiyası fəaliyyətdədir. Alternativ və bərpa olunan enerjinin Azərbaycanda istehsalı gələcəkdə daha da böyük həcmlə ölçüləcəkdir. Bu bizim üçün prioritet məsələdir.

Bilirsiniz, CAREC Proqramının əsas istiqamətləri üzrə Azərbaycanda çox böyük işlər aparılıb. Azərbaycan hər istiqamət üzrə üzərinə düşən vəzifələri icra etməyə davam edəcəkdir.

Mən çox şadam ki, CAREC Proqramının X Nazirlər Konfransı Bakıda keçirilir. Əminəm ki, konfransın yaxşı nəticələri olacaqdır və bizə qonaq gəlmiş dostlarımız da öz vətənlərinə xoş təəssüratlarla qayıdacaqlar. Bir daha xoş gəlmisiniz.

# SLOVAKİYADA ƏSASLI TƏMİR EDİLƏRƏK BAKIYA GƏTİRİLMİŞ SƏRNİŞİN VAQONLARINA BAXIŞ

*24 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Bakı dəmiryol stansiyasında «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Slovakiyada əsaslı təmir edilərək paytaxta gətirilmiş sərnişin vaqonları ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə «Azərbaycan Respublikasında dəmiryol nəqliyyat sisteminin 2010–2014-cü illərdə inkişafına dair Dövlət Proqramı» çərçivəsində görülmüş işləri əks etdirən stendlərə baxdı.*

*Nəqliyyat naziri Ziya Məmmədov prezident İlham Əliyevə Dövlət Proqramının ölkənin dəmiryol şəbəkəsinin hərtərəfli inkişafına təkan verdiyini bildirdi. Qeyd olundu ki, proqrama əsasən dəmir yollarında təhlükəsizliyin gücləndirilməsi və hərəkətin beynəlxalq standartlar səviyyəsinə çatdırılması, o cümlədən sərnişinlərə xidmətin yaxşılaşdırılması, elektron idarəetmə sisteminin tətbiqi qarşıda duran əsas prioritetlərdəndir. Bildirildi ki, Çexiya «İxrac» Bankının krediti ilə «Azərbaycan Dəmir Yolları» QSC-nin Bakı–Böyük Kəsik sahəsində 317 kilometr yolun əsaslı təmiri uğurla davam etdirilir. Bu günədək həmin yolun 22 kilometrlik hissəsinin əsaslı təmiri başa çatdırılıb. Prezident İlham Əliyev Bakı–Tbilisi–Qars dəmiryol layihəsi üzrə görülmüş işləri əks etdirən stendə baxdı. Məlumat verildi ki, hazırda Azərbaycan dövlətinin vəsaiti hesabına Gürcüstan ərazisində uzunluğu 153 kilometr olan Marabda–Tetritskaro sahəsində tikinti-bərpa işləri həyata keçirilir. Axalkalaki və Türkiyə sərhədində yerləşən Kartsaxi stansiyasında işlərin 2012-ci ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.*

*Dövlətimizin başçısı Çexiya «İxrac» Bankı ilə imzalanan müqavilə əsasında indiyədək alınmış material və texnikanı, həmçinin dəmir yollarının tikintisində və təmirində istifadə olunmuş avadanlığın istehsalı, daşınması və quraşdırılmasını əks etdirən fotostendə də baxdı.*

*Sonra prezident İlham Əliyevə məlumat verildi ki, istismar müddətini başa vuran kupe tipli 5 sərnişin vaqonu 2009-cu ilin fevralında əsaslı təmir üçün Slovakiyanın «Sazvrudki» zavoduna göndərilmişdi. Əsaslı təmiri 2 il çəkən bu vaqonlar oktyabrın sonlarında Bakıya gətirilmişdir. Vaqonlar ekspress marşrutlarda istifadəyə uyğunlaşdırılmış, hər birində müasir havalandırma sistemi quraşdırılmışdır. Vaqonlar ekoloji qurğularla təchiz olunmuş, daxili dizaynı yenilənmiş, kreslo tipli oturacaqlarla təchiz edilmişdir.*

*Prezident İlham Əliyev internetə qoşulmuş kompüter vasitəsilə «onlayn» bilet sifarişi prosesini izlədi. Bildirildi ki, bu sistem vasitəsilə həm yerli, həm də xarici marşrutlar üzrə bilet sifariş etmək və qatarların hərəkət cədvəlini izləmək mümkündür.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, sərnişin vaqonları ilə yanaşı, «Sazvrudki»nin Çexiyadakı filialında əsaslı təmir olunmuş ÇM-3 tipli mazutla işləyən manevr teplovozu, Dövlət Proqramı çərçivəsində «Azərbaycan Dəmir Yolları» QSC-nin vəsaiti hesabına yeni alınmış MPT-4 markalı 3 kran-drezin də Bakıya gətirilmişdir. Onlardan dəmiryolçuların iş yerlərinə çatdırılmasında və yol çəkilişində istifadə olunan materialların yüklənməsində, daşınmasında istifadə olunacaqdır.*

*Görülmüş işlərdən razılığını bildirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## «NİZAMİ» KİNOTEATRININ BİNASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*24 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 24-də Bakının «Nizami» kinoteatrının binasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etmişlər.*

*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına və Azərbaycanın birinci xanımına əvvəlcə «Nizami» kinoteatrının fasadında aparılmış yenidənqurma işləri barədə məlumat verdi. Bildirildi ki, «Nizami» kinoteatrı görkəmli memar Mikayıl Hüseynovun layihəsi əsasında tikilmiş və 1934-cü ildə istifadəyə verilmişdir. İlk dövrlərdə bu sənət ocağı «Bədaye» kinoteatrı adı altında fəaliyyət göstərmişdir. Sonra dahi Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyi ilə əlaqədar «Nizami» kinoteatrı adlandırılmışdır.*

*Prezident İlham Əliyev kinoteatrın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva binanın foyesində kinoteatrın əvvəlki vəziyyətini, bərpa işlərinin gedişini və yenidənqurmadan sonrakı görüntülərini əks etdirən fotolardan ibarət stendə baxdılar.*

*Bildirildi ki, uzun illər bu kinoteatrda milli və xarici filmlərin nümayişindən başqa, festivallar, müxtəlif mədəni tədbirlər təşkil edilmişdir. Kinoteatrın yay zalının istismarı 1990-cı ildə dayandırılmış, ciddi təmirə ehtiyac duyulan böyük qış zalı isə 2005-ci ildən bağlanmışdır. Azərbaycan prezidentinin sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan kinosunun 2008–2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı» çərçivəsində burada aparılmış əsaslı təmir və yenidənqurma işləri yüksək səviyyədə*

*başa çatdırılıb. Su və kanalizasiya xətlərinin nasazlığı, yeraltı sular binanın özülünü yararsız hala saldığından bünövrəsi tamamilə qazılmış, yükdaşıyan konstruksiyalar gücləndirilmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əsas zalda «Üç müşketyor» filmindən fraqmentləri izlədilər.*

*Dövlətimizin başçısı üçüncü mərtəbədə kino avadanlığı bölməsində oldu. Bildirildi ki, ilk dəfə olaraq kinoteatrda piratçılığa qarşı şifrələnmiş rəqəmsal kinokopiyanın peyk, internet və ya sərt disk vasitəsilə çatdırılması, yüksək keyfiyyətlə nümayiş etdirilməsi və bütün kinozalların bir məntəqədən idarə olunması nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kinoteatrın beşinci mərtəbəsində 250 yerlik «Cinema» restoranına baxdılar. Bildirildi ki, retro üslubunda qurulan restoranda səhnə yaradılmış, divarlar məşhur Azərbaycan filmlərindən fraqmentləri əks etdirən fotolarla bəzədilmişdir. Restoranda tamaşaçıların istirahəti üçün hər cür şərait vardır.*

*Dövlətimizin başçısına və xanımına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının yenidən qurulması layihəsi də təqdim olundu.*

*Prezident İlham Əliyev layihə ilə bağlı təkliflərini bildirdi.*

*Diqqətə çatdırıldı ki, «Nizami» kinoteatrında inzibati otaqlarla yanaşı, mətbuat mərkəzi, televiziya qovşağı da yaradılıb. Aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra kinoteatr tamaşaçılar üçün yüksək rahatlığın təmin olunduğu mədəniyyət ocağına çevrilmişdir. Bu da kinoteatrda yeni filmlərin premyeralarının və möhtəşəm kinofestivalların keçirilməsinə imkan verəcəkdir.*

*«Nizami» kinoteatrında yaradılmış şəraiti yüksək qiymətləndirən dövlətimizin başçısı tövsiyə və tapşırıqlarını verdi.*

## NATO BAŞ KATİBİNİN MÜAVİNİ HÜSEYN DİRİÖZ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də NATO Baş katibinin müavini Hüseyn Diriözü qəbul etmişdir.*

*Azərbaycana səfərindən məmnunluğunu bildirən Hüseyn Diriöz ölkəmizdə keçirəcəyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi. Bakıda «Sərhəd təhlükəsizliyi və narkotik vasitələrin yayılmasına qarşı mübarizə» mövzusunda beynəlxalq seminarın təşkilinin əhəmiyyətli hadisə olduğunu qeyd edən Hüseyn Diriöz bu tədbiri Avroatlantik məkanda ümumi təhlükəsizliyə töhfə kimi dəyərləndirdi. O, NATO ilə Azərbaycan arasında əməkdaşlığın geniş sahələri əhatə etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Sərhədlərin təhlükəsizliyi ilə bağlı məsələlərin ölkəmiz üçün böyük əhəmiyyət daşıdığını vurğulayan prezident İlham Əliyev NATO ilə geniş əməkdaşlıq çərçivəsində Bakıda «Sərhəd təhlükəsizliyi və narkotik vasitələrin yayılmasına qarşı mübarizə» mövzusunda beynəlxalq seminarın keçirilməsinin önəmini qeyd etdi.*

**QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YƏHYA CAMMEHƏ**

Hörmətli cənab Prezident!

Qambiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Qambiya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, dost Qambiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2011-ci il*

## TÜRKİYƏNİN İZMİR VİLAYƏTİNİN VALİSİ MUSTAFA CAHİT KIRACIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Türkiyə Respublikası İzmir vilayətinin valisi Mustafa Cahit Kıracın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İzmir şəhərindən böyük nümayəndə heyəti ilə Bakıya səfər etdiyini deyən Mustafa Cahit Kırac paytaxtımızda həyata keçirilmiş abadlıq və quruculuq işlərinin onlarda çox böyük təəssürat yaratdığını bildirdi. O, Azərbaycan prezidentinin rəhbərliyi ilə Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməkdə olduğunu qeyd etdi. Mustafa Cahit Kırac Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə İzmirdə keçirilmiş tədbirin ölkəsi və eləcə də İzmir şəhəri üçün böyük önəm daşıdığını vurğuladı.*

*Bakı ilə İzmirin qardaşlaşmış şəhər olduğunu vurğulayan dövlətimizin başçısı hazırda bu əlaqələri daha da inkişaf etdirmək üçün yaxşı imkanların olduğunu qeyd etdi. Prezident İlham Əliyev İzmirə səfərini məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı İzmir valisi Mustafa Cahit Kıracın Bakıya səfərindən sonra bu əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

## TBİLİSİ ŞƏHƏRİNİN MERİ QİQİ UQULAVA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Tbilisi şəhərinin meri Qiqi Uqulavanı qəbul etmişdir.*

*Tbilisi şəhərinin meri Qiqi Uqulava Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfəri zamanı Azərbaycanda gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu bildirdi.*

*Prezident İlham Əliyev ölkəmizdə, o cümlədən paytaxtımızda abadlıq və quruculuq işlərinə, eyni zamanda, tarixi binaların əvvəlki görkəmini qoruyub saxlamaqla əsaslı şəkildə bərpa olunmasına böyük önəm verildiyini qeyd etdi.*

*Dövlətimizin başçısı prezident Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ MƏRKƏZİ ELMİ KİTABXANASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*28 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı kitabxananın eskiz layihəsi ilə tanış oldu.*

*AMEA-nın prezidenti Mahmud Kərimov və layihənin icraçısı «Azəraqrartikinti» Səhmdar Cəmiyyətinin sədri Ağalar Vəliyev məlumat verdilər ki, kitabxana üçün 0,9 hektar torpaq sahəsi ayrılmışdır. Binanın ümumi tikinti sahəsi isə 24 min 180 kvadratmetrdir.*

*Bildirildi ki, kitabxanada yaradılacaq qapalı və xüsusi şəraitli fondlar 3 milyon 500 min nüsxə ədəbiyyatın saxlanılması üçün nəzərdə tutulmuşdur. Fondlar xüsusi havalandırma sistemləri ilə təchiz olunacaqdır. Açıq kitab fondları isə mərtəbələr üzrə mövzulara uyğun yerləşdiriləcək və burada ümumilikdə bir milyon nüsxəyədək ədəbiyyatın saxlanılması mümkün olacaqdır. Kitabxananın oxu zalları eyni vaxtda 700-dək oxucuya xidmət göstərəcəkdir. Abunə xidməti eyni vaxtda 80 oxucuya hesablanmışdır. Kitabxananın 2013-cü ildə istifadəyə verilməsi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev metal gilizi bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunu işə saldı.*

*Dövlətimizin başçısı tikintinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ), Fransadan olan sabiq həmsədr Bernar Fasyeni və yeni həmsədr Jak Foru, həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

# RUSİYA FEDERASİYASININ HƏŞTƏRXAN ŞƏHƏRİNİN MERİ SERGEY BOJENOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 noyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Rusiya Federasiyasının Həştərxan şəhərinin meri Sergey Bojenovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Sergey Bojenov Həştərxan Şəhər Dumasının qərarı ilə Azərbaycan prezidenti İlham Əliyevin «Həştərxan şəhərinin fəxri vətəndaşı» diplomuna layiq görüldüyünü dedi, diplomu və medalı dövlətimizin başçısına təqdim etdi. O, «Həştərxan şəhərinin Fəxri vətəndaşı» diplomuna bu yaxınlarda Rusiya Federasiyasının Baş naziri Vladimir Putinin də layiq görüldüyünü vurğulayaraq Azərbaycan prezidentinin və Rusiyanın Baş nazirinin rəhbərlik etdiyi şəhərin fəxri vətəndaşları olmasından qürur hissi keçirdiyini dedi.*

*Dövlətimizin başçısı «Həştərxan şəhərinin Fəxri vətəndaşı» diplomu ilə təltif edilməsinə görə Həştərxan Şəhər Dumasına və şəhər rəhbərliyinə təşəkkürünü bildirdi. Azərbaycan ilə Rusiya Federasiyası arasında münasibətlərin uğurlu inkişafından məmnunluğunu bildirən dövlətimizin başçısı Həştərxana səfərini və xalqımızın ümummilli lideri Heydər Əliyevə Həştərxan şəhər sakinlərinin ehtiramının əlaməti olaraq ucaldılmış abidənin açılışında iştirakını xatırlatdı. Həştərxan şəhər təsərrüfatının və infrastrukturun yenidən qurulmasında, təhsil sahəsinin inkişaf etdirilməsində azərbaycanlı iş adamlarının iştirakını qeyd edən prezident İlham Əliyev bu tədbirlərin ölkələrimiz və şəhərlərimiz arasında əlaqələrin daha da yaxşılaşması işinə xidmət etdiyini vurğuladı.*

## RUSİYANIN «VTB» BANKININ PREZİDENTİ, İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Rusiya Federasiyası «VTB» bankının prezidenti, İdarə Heyətinin sədri Andrey Kostini qəbul etmişdir.*

*Görüşdə MDB-yə üzv olan dövlətlərin «MDB-nin maliyyə bazarları: qlobal qeyri-sabitlik şəraitində sabit inkişaf yolları» mövzusunda IV Bakı Beynəlxalq Bank Konfransının önəmi qeyd olundu, Andrey Kostinin Azərbaycana səfərinin onun rəhbərlik etdiyi bankla ölkəmizin maliyyə qurumları arasında əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə edildi.*

# HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA YENİ AEROVAĞZAL KOMPLEKSİNDƏ APARILMIŞ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*3 dekabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 3-də Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni aerovağzal kompleksində aparılmış inşaat işlərinin gedişi ilə tanış olmuş, mövcud aerovağzal binasının fasadında həyata keçirilmiş əsaslı təmir və yenidənqurma işlərilə maraqlanmış, yeni gətirilmiş YEVROCOPTER YC-135 tipli helikopterlərə baxış keçmişdir.*

*«Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni aerovağzal kompleksində aparılan inşaat işlərinin və mövcud binada görülən bərpa və yenidənqurma işlərinin yüksək keyfiyyətlə həyata keçirilməsi ilə bağlı müvafiq göstərişlərini verdi.*

*Sonra dövlətimizin başçısı yeni gətirilmiş YEVROCOPTER YC-135 tipli təcili yardım helikopterlərinə baxış keçirdi. Cahangir Əsgərov helikopterlərin texniki göstəriciləri barədə prezident İlham Əliyevə məlumat verdi ki, fövqəladə hallar şəraitində xilasetmə əməliyyatları zamanı istifadə olunacaq yeni helikopterlər ən müasir təcili tibbi yardım avadanlığı ilə təchiz olunub. İstənilən coğrafi şəraitdə qalxıb-enməyi asanlıqla həyata keçirən bu helikopterlər xüsusilə də dənizə enmə imkanlarına malikdir. Dənizdə baş verə biləcək hər hansı fövqəladə vəziyyət zamanı bu helikopterlər asanlıqla suya enərək, lazımi təcili tibbi yardım və xilasetmə tədbirlərini həyata keçirir. Azərbaycan prezidenti İlham Əliyev təcili yardım helikopterləri ilə yaxından tanış oldu.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Rusiya Federasiyasının Federal Məclisinin Dövlət Dumasına seçkilərdə siyahısına Sizin başçılıq etdiyiniz «Yedinaya Rossiya» Partiyasının qələbəsi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə qələbə Sizin həyata keçirdiyiniz, ölkədə dövlətçiliyin və hüquqi qaydanın möhkəmlənməsinə, cəmiyyət həyatının bütün sahələrinin modernləşməsinə, dünya birliyində Rusiyanın mövqelərinin və nüfuzunun möhkəmlənməsinə yönəlmiş fəaliyyət xəttinin dost Rusiya xalqı tərəfindən dəstəklənməsini bir daha nümayiş etdirdi.

Əminəm ki, Azərbaycan ilə Rusiya arasında ənənəvi dostluq, mehriban qonşuluq münasibətləri, çoxtərəfli əməkdaşlığımız və strateji tərəfdaşlığımız xalqlarımızın mənafeyi, regionda sülh, təhlükəsizlik və tərəqqi naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Hörmətli Dmitri Anatolyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Rusiya xalqına tərəqqi və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2011-ci il*

**RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ, «YEDİNAYA ROSSİYA» PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyasının Federal Məclisinin Dövlət Dumasına seçkilərdə «Yedinaya Rossiya» Partiyasının qələbəsi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizin başçılıq etdiyiniz partiyanın seçkilərdə qələbəsi rusiyalıların Sizə yüksək etimadının, Sizin yürütdüyünüz, dinamik sosial-iqtisadi inkişafa, bütün sahələrdə demokratik dəyişikliklərin həyata keçirilməsinə, ölkədə qanunçuluğun və hüquqi qaydanın möhkəmlənməsinə yönəlmiş fəaliyyət xəttinə onların sadiqliyinin təsdiqidir.

Əminəm ki, Azərbaycan ilə Rusiya arasında çoxəsrlik dostluq və mehriban qonşuluq münasibətləri, hərtərəfli əməkdaşlıq xalqlarımızın və ölkələrimizin rifahı naminə bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, Sizə, «Yedinaya Rossiya» Partiyasının bütün üzvlərinə xoşbəxtlik, uğurlar və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2011-ci il*

## YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

Əlahəzrət!

Yaponiyanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Azərbaycan–Yaponiya münasibətlərinin hazırkı yüksək səviyyəsi böyük məmnunluq doğurur. Xalqlarımızı bir-birinə yaxınlaşdıran möhkəm dostluq əlaqələri siyasi, iqtisadi və humanitar zəmində səmərəli əməkdaşlığımız ilə öz məzmununu zənginləşdirir.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, qarşılıqlı maraq kəsb edən əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda atdığımız addımlar bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar, dost Yaponiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2011-ci il*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

Hörmətli Nursultan Abişeviç!

Qazaxıstan Respublikasının müstəqilliyinin 20 illiyi münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ötən illər ərzində Qazaxıstan hərtərəfli və dinamik inkişaf yolu keçmişdir. Siyasi, iqtisadi və humanitar sahələrdə həyata keçirilən islahatlar, dünya birliyinə inteqrasiya istiqamətində atılmış mühüm addımlar müasir Qazaxıstanın simasını formalaşdırmış, ölkənizə beynəlxalq aləmdə böyük nüfuz qazandırmışdır.

Ortaq mənəvi dəyərlərdən qaynaqlanan Azərbaycan–Qazaxıstan münasibətləri bu gün özünün ən yüksək səviyyəsi ilə səciyyələnir. Tarixən möhkəm dostluq və qardaşlıq telləri ilə bir-birinə bağlı olmuş xalqlarımızın yekdil iradəsi ilə bu münasibətlər daim inkişaf etməkdə və zənginləşməkdədir.

Məmnunluqla qeyd etmək istərdim ki, qarşılıqlı etimada və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz bütün digər sahələrdə səmərəli əməkdaşlığımız üçün münbit zəmindir. Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq və regional təşkilatlar çərçivəsində birgə işimizi müvəffəqiyyətlə davam etdirmək üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə, hörmətli Nursultan Abişeviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qazaxıstan xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2011-ci il*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan ilə Qətər arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin xoş ənənələri mövcuddur. Əminəm ki, bu ənənələri daim yaşatmaq, əlaqələrimizi hərtərəfli genişləndirmək yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qətər xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2011-ci il*

## QƏTƏR DÖVLƏTİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Qətər dostluğu və əməkdaşlığının inkişafı və möhkəmlənməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qardaş xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2011-ci il*

**BƏHREYNİN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ**

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Bəhreyn arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Bəhreyn xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2011-ci il*

## NƏSİMİ RAYONUNDAKI 96 SAYLI UŞAQ BAĞÇASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*10 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Nəsimi rayonundakı 96 saylı uşaq bağçasının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala* Abutalıbov *görülmüş işlərlə bağlı prezident İlham Əliyevə məlumat* verdi. Bildirildi ki, *bağçanın binası 1963-cü ildə inşa* olunub. Bu, *Bakı şəhərində ən böyük uşaq bağçalarından* biridir. *Dövlət başçısı bağçanın binasında görülmüş işlərlə, ayrı-ayrı* otaqlarda *yaradılmış şəraitlə yaxından tanış* oldu. Qeyd edildi ki, 240 yerlik *bağçada 12 qrup fəaliyyət göstərir. İkimərtəbəli 3* korpusdan *və 1 inzibati binadan ibarət* olan *bağçanın həyətyanı sahəsi* hektar *yarımdır. Bağçada əsaslı təmir və yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib. Əsaslı yenidənqurma işləri ilə yanaşı, bağçanı* daimi olaraq isti su *ilə təchiz etmək üçün əlavə* qazanxana da *inşa edilib. Bağçada yanğın əleyhinə xüsusi* sistem *yaradılıb, təhlükəsizlik kameraları quraşdırılıb.* Burada *uşaqların istirahəti üçün hər cür şəraitin yaradıldığı* qeyd olundu. *Bağçanın əsas binasında aparılan yenidənqurma işləri ilə yanaşı, həyətyanı sahədə də abadlıq və* quruculuq *tədbirləri görülüb. Uşaqların əylənməsi üçün xüsusi guşələr yaradılıb. Binanın və ərazinin işıqlandırma* sistemi *tamamilə yenidən* qurulub, *işıq dirəkləri yeniləri ilə əvəz* edilibdir.

## MEKSİKA SENATININ ÜZVÜ KARLOS XİMENES MASİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Meksika Senatının üzvü Karlos Ximenes Masiasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanın Meksika ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Prezident İlham Əliyev əlaqələrimizin inkişafı üçün əməkdaşlığımızı bütün istiqamətlərdə, o cümlədən parlamentlər səviyyəsində genişləndirməyin zəruriliyini qeyd etdi. Meksika Senatının nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi baxımından önəmini vurğulayan dövlətimizin başçısı bundan sonra bu cür qarşılıqlı səfərlərin bir ənənəyə çevriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Karlos Ximenes Masias Meksika Senatının müxtəlif siyasi partiya təmsilçilərindən ibarət nümayəndə heyəti ilə ölkəmizə səfər etdiklərini bildirdi. O, ölkəmizin sürətli inkişafı barədə məlumatlı olduqlarını dedi. Karlos Ximenes Masias vurğuladı ki, Meksika parlamenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsində Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəkləyir və bundan sonra da dəstəkləməkdə davam edəcəkdir. Meksikalı qonaq ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə inkişaf etdirməkdə maraqlı olduğunu dedi. Karlos Ximenes Masias Azərbaycanın energetika sahəsində zəngin təcrübəyə malik olduğunu vurğulayaraq Meksikanın bu sahədə ölkəmizlə əməkdaşlıq etməsinin önəmini də qeyd etdi.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2011-ci il*

*Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmişdir.*

*Ulu öndərin Fəxri xiyabandakı məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilmişdir. Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır.*

*Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının səkkizinci ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyurlar. Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarə rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri, müxtəlif ölkələrin təmsilçiləri də Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoydu.*

*Ulu öndərin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

# ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN NƏQLİYYAT KOMANDANI UİLYAM FREYZER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də ABŞ Silahlı Qüvvələrinin nəqliyyat komandanı Uilyam Freyzeri qəbul etmişdir.*

*ABŞ Silahlı Qüvvələrinin nəqliyyat komandanı Uilyam Freyzer bu vəzifəyə təyin olunduqdan sonra ilk səfərini Azərbaycana etdiyini vurğuladı. 12 dekabrın Azərbaycan xalqı üçün xüsusi bir gün olduğunu deyən Uilyam Freyzer bu gün Fəxri xiyabana gedərək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edəcəyini bildirdi. Beynəlxalq terrorizmə qarşı mübarizədə ölkəmizin fəaliyyətinə toxunan Uilyam Freyzer Əfqanıstandakı sülhməramlı missiyanın fəaliyyəti ilə bağlı nəqliyyat təminatında Azərbaycanın rolunu yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı ABŞ Silahlı Qüvvələrinin nəqliyyat komandanı Uilyam Freyzerin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi. Azərbaycanın ilk gündən Əfqanıstandakı beynəlxalq sülhməramlı missiyanın tərkibində fəaliyyət göstərdiyini vurğulayan prezident İlham Əliyev missiya ilə bağlı humanitar sahədə əməkdaşlığın getdikcə genişləndiyini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizədə birgə fəaliyyəti, təhlükəsizlik, enerji sahələrində və digər sahələrdə əməkdaşlığın bundan sonra da davam etdirilməsinə dair fikir mübadiləsi aparıldı.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

«Kolskaya» qazma qurğusunun qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirmişdir.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına başsağlığımı qəbul edin, zərərçəkənlərin hamısının halına ürəkdən acıdığımı bildirirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2011-ci il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Çexiya Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Vatslav Havelin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Çexiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2011-ci il*

## KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI ALİ XALQ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM YEN NAMA

Hörmətli cənab Sədr!

Koreya Xalq Demokratik Respublikasının Ali rəhbəri, Dövlət Müdafiə Komitəsinin sədri, görkəmli dövlət xadimi Kim Çen İrin vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2011-ci il*

## MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏRHUM SULTAN BADLİ ŞAHA

Əlahəzrət!

Malayziyanın Ali Başçısı seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–Malayziya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Malayziya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2011-ci il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MUNSEF ƏL-MƏRZUQİYƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tunis arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, dost Tunis xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2011-ci il*

## KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

Hörmətli cənab Sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və Sizin simanızda bütün Kuba xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Kuba münasibətləri, ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə bundan sonra da ardıcıl şəkildə inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2011-ci il*

**MYANMA İTTİFAQI RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB THEYN SEYNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün Myanma xalqına təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Myanma arasında təşəkkül tapmış münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Myanma xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2011-ci il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM EVELİNE VİDMER-ŞLUMPFA**

Hörmətli xanım Prezident!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–İsveçrə əlaqələrinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq münasibətləri, çoxşaxəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İsveçrə xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2011-ci il*

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*19 dekabr 2011-ci il*

*Dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydular.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya ölkəmizin ən iri sənaye mərkəzlərindən biri olan Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilmiş mühüm tədbirlər barədə məlumat verildi.*

### Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 19-da Sumqayıt Olimpiya İdman Kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Məlumat verildi ki, bu kompleks Azərbaycan prezidentinin göstərişinə əsasən Gənclər və İdman Nazirliyinin sifarişi əsasında inşa edilmişdir. Kompleksin tikintisi üçün şəhərin 7-ci mikrorayonu ərazisində 3 hektar torpaq sahəsi ayrılmışdır. İnşasına 2007-ci ildə başlanılan kompleks 3 hissədən ibarətdir.*

*Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Kompleksin foyesində ümummilli lider Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanda idmanın inkişafına və idmançılara göstərdikləri diqqət və qayğını əks etdirən fotostend yaradılmışdır. Kompleksdəki trenajor və ağır*

atletika zallarında, həmçinin tir otağında gənclərin idmanın bu növləri ilə məşğul olmaları üçün ən müasir avadanlıq quraşdırılmışdır. Kompleksdəki kinozalda isə müxtəlif treninqlərin və digər tədbirlərin keçirilməsi mümkün olacaqdır.

Diqqətə çatdırıldı ki, kompleksin ağır atletika, hovuz və idman zallarının hər biri üçün soyunub-geyinmə, duş, sauna kabinəsi, masaj otaqları və digər texniki otaqlar yaradılmışdır. Baş plana əsasən, idman qurğusunun ərazisində uzunluğu 65, eni 40 metr olan süni örtüklü futbol meydançası yaradılmışdır. Burada, həmçinin uzunluğu 110 metr olan qaçış zolağı, açıq basketbol, voleybol, tennis meydançaları inşa edilmişdir.

Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Sumqayıt Olimpiya İdman Kompleksi ərazisində inşa edilmiş üçmərtəbəli mehmanxanada yaradılmış şəraitlə tanış oldular. Dövlətimizin başçısına və xanımına 2012-ci ildə Londonda keçiriləcək Olimpiya oyunlarında Azərbaycan idmançılarının milli geyim formaları barədə məlumat verildi.

Sumqayıt Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra prezident İlham Əliyev 2011-ci idman ilinin yekunları ilə bağlı idman ictimaiyyətinin nümayəndələri və sumqayıtlılar ilə görüşdü.

## SUMQAYIT ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 dekabr 2011-ci il*

– Əziz dostlar, əziz sumqayıtlılar! Mən sizin hamınızı ürəkdən salamlayıram və Sumqayıt Olimpiya İdman Mərkəzinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Çox şadam ki, Sumqayıtda belə gözəl, möhtəşəm olimpiya mərkəzi yaradılıbdır. Burada idmanla məşğul olmaq üçün bütün imkanlar, şərait var, gözəl, yaraşıqlı və rahat olimpiya mərkəzi sumqayıtlıların sərəncamına verilir. Bu Mərkəzin yaradılması onu göstərir ki, Azərbaycan dövləti idmanın inkişafına çox böyük diqqət ayırır və son illər ərzində Sumqayıtda bir neçə idman obyekti tikilib istifadəyə verilib. 3 il bundan əvvəl Paralimpiya Mərkəzi tikilmişdir. Bu il Uşaq İdman Mərkəzi yaradılmışdır. İndi isə biz Olimpiya İdman Mərkəzinin açılışında iştirak edirik.

Adətən, biz hər ilin sonunda idman yekunlarını müzakirə edirik. Bu tədbirlər əsasən Bakıda Milli Olimpiya Komitəsinin binasında keçirilir. Bu dəfə isə bu tədbiri burada keçirəcəyik. Həm kompleksin açılışını qeyd edirik, həm də ki idmançılarımızı, idman ictimaiyyətinin nümayəndələrini bu gün burada mükafatlandıracağıq.

2011-ci il Azərbaycan idmanı üçün uğurlu il olmuşdur. İdmançılarımız müxtəlif beynəlxalq yarışlarda böyük qələbələr əldə etmişlər. 700-dən çox medal əldə etmişik və bu proses uğurla davam etdirilir. Mən ümid edirəm ki, 2012-ci il də idmanımız üçün uğurlu olacaqdır. 2012-ci ildə Olimpiya oyunları keçiriləcəkdir. Biz Olimpiya oyunlarında idmançılarımıza qələbələr arzulayırıq.

İdman hər bir ölkənin inkişafı üçün çox vacib olan sahədir. Azərbaycan artıq dünyada idman ölkəsi kimi tanınır və idmançılarımızın qələbələri bizi ürəkdən sevindirir.

Azərbaycanın idman şöhrəti yüksək səviyyədədir. 2011-ci ildə ölkəmizdə beynəlxalq idman yarışları, o cümlədən boks üzrə dünya çempionatı keçirilmişdir. Birinci dəfə deyil ki, biz bu beynəlxalq yarışları Azərbaycanda keçiririk. Hər dəfə bütün qonaqlar qeyd edirlər ki, yarışlar yüksək səviyyədə keçirilir və bizim təşkilatçılıq imkanlarımız çox yüksək səviyyədədir. Bu il bölgələrdə yeni idman kompleksləri istifadəyə verilmişdir. Dörd Olimpiya İdman Kompleksi tikilmişdir – Tovuzda, İmişlidə, Qəbələdə və Sumqayıtda. Bu proses davam etdirilir. Hazırda 10 olimpiya kompleksi tikilir, yaxud da ki, tikintisi üçün hazırlıq işləri aparılır. Bu komplekslərdə həm idmançılar, həm yeniyetmələr, gənclər, uşaqlar məşq edirlər. Yeniyetmələr arasında Ümumdünya Olimpiya oyunlarında Azərbaycan çox ləyaqətlə təmsil olunmuşdur. Bu proses uzun illərdir ki, aparılır. Həm peşəkar idmançılar öz imkanlarını göstərirlər, Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırırlar, həm də gənc idmançılar, uşaqlar yetişir. Bu sahədə kütləvilik təmin edilmişdir. Bu çox gözəl hadisədir, bizi çox sevindirir. Gənc nəsil sağlam olmalıdır. Həm fiziki cəhətdən sağlam olmalı, həm ölkə vətəndaşı kimi çox böyük mənəvi dəyərlərə malik olmalıdır.

Ümid edirik ki, bu gözəl meyillər gələn illərdə də davam etdiriləcəkdir. Gələn il olimpiya ilidir. Həm də gələn il Azərbaycanda qızlar arasında futbol üzrə dünya çempionatı keçiriləcəkdir. Bu, böyük, mötəbər yarış olacaqdır. Bu yarışı ləyaqətlə keçirmək üçün indi Tofiq Bəhramov adına Respublika stadionunda təmir-bərpa işləri aparılır. Biz yaxın zamanlarda Sumqayıt şəhər stadionunun təmirinə başlayacağıq. Digər şəhərlərdə stadionlar tikilir. Azərbaycan dünyada idman ölkəsi kimi özünü artıq təsdiqləyib və bu, görülən işlərin nəticəsidir. Ümid edirik ki, Olimpiya oyunlarında böyük uğurla çıxış edəcəyik. Bunu deməyə kifayət qədər əsaslar vardır. Son illər idmançılarımız dünya və Avropa çempionatlarında qələbələr qazanmışlar.

Bir sözlə, Azərbaycanda idman inkişaf edir, idman infrastrukturu yaradılır. İdmanla məşğul olmaq üçün hər bir

bölgədə gözəl imkanlar vardır. Yaxın gələcəkdə hər bir rayon mərkəzində gözəl olimpiya idman kompleksləri istifadəyə veriləcəkdir. İdmanın inkişafı hər bir ölkənin ümumi inkişafını göstərir. Bu sahədə əldə edilən uğurlar bizi gələcək uğurlara sövq edir. Biz əldə edilmiş nəticələrlə kifayətlənə bilmərik. Yalnız gələcəyə baxmalıyıq ki, daha da böyük qələbələr əldə edək.

Biz Sumqayıtın inkişafına çox böyük diqqət göstəririk. Sumqayıtı müasir sənaye mərkəzinə çevirmək üçün konkret planlar vardır. Əslində Sumqayıt sənaye şəhəri kimi formalaşmışdır, yaradılmışdır. İndi isə Sumqayıt müasir sənaye şəhəri kimi inkişaf edir. Burada yaradılan və tikilməkdə olan, tikiləcək sənaye müəssisələri Azərbaycanda sənayeləşmə proqramının icrası üçün çox vacib rol oynayacaqdır. Artıq bu proqramın icrasının birinci mərhələsindəyik. Burada böyük Sumqayıt Texnologiya Parkı yaradılıb, 10-a yaxın müasir müəssisə fəaliyyət göstərir. Bu müəssisələrdə istehsal olunan məhsullar xaricə də ixrac edilir, ölkə daxilində də istehlak olunur.

Növbəti dövrdə Sumqayıtda yeni kimya müəssisələrindən ibarət sənaye şəhərciyi yaradılacaqdır. Bu məqsədlə müvafiq göstərişlər verilmişdir. Burada həm dövlət, həm özəl sektorun iştirakı ilə böyük müəssisələr, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı üçün gözəl şərait yaradılacaqdır. Azərbaycan dövləti bu proqramı həll etmək üçün böyük miqdarda vəsaitin təşkilində israrlıdır – biz bunu edəcəyik. Sumqayıtın bütün sənaye potensialını icra etmək üçün əlavə infrastruktur layihələri nəzərdə tutulur. Vaxtilə burada tikilmiş elektrik stansiyası müəyyən dərəcədə bu məsələlərin həllinə köməklik göstərir. Ancaq Sumqayıtın və ümumiyyətlə, ölkəmizin uğurlu inkişafını nəzərə alaraq yəqin ki, gələcəkdə yeni enerji güclərinin yaradılmasına da ehtiyac olacaqdır.

Bu gün Sumqayıtda ən müasir texnologiyalara malik olan azot gübrəsi – karbamid zavodunun təməl daşı qoyulur. Bu zavodun ölkə daxilində çox böyük əhəmiyyəti olacaqdır. Biz hazırda kənd təsərrüfatının inkişafı üçün əsas gübrələri xaricdən idxal edirik. Zavodun fəaliyyətə başlaması nəticəsində biz artıq

nəinki özümüzü təmin edəcəyik, eyni zamanda, ixrac potensialımız da yaradılacaqdır. Nəzərə alsaq ki, kəndlilərə, fermerlərə güzəştli şərtlərlə gübrələr verilir, bu zavodun Azərbaycanda məhz Sumqayıtda tikilməsi böyük əhəmiyyətə malikdir. Bizim digər sahələr üzrə fikirlərimiz vardır. Sumqayıtı müasir sənaye mərkəzinə çevirmək üçün konkret proqramlarımız, icra mexanizmlərimiz var və biz bunu edəcəyik.

Şəhərin bütün infrastrukturu, bütün kommunal infrastrukturu yenilənməlidir. Su, kanalizasiya xətləri, qazlaşdırma, elektrik xətlərinin çəkilişi – bu işlərin böyük əksəriyyəti öz həllini tapmışdır. Sumqayıtı memarlıq baxımından gözəl şəhərə çevirmək üçün artıq konkret proqramlar icra edilir. Mən bu məsələləri nəzarət altında saxlayıram və Sumqayıtı gözəlləşdirmək üçün konkret planlarımız vardır. Parklar abadlaşır, biz yeni dənizkənarı bulvarın tikintisinin başlanmasına qərar vermişik. Mən keçən dəfə də burada olarkən demişdim, Sumqayıtda memarlıq sahəsində, tikintidə Bakı standartları tətbiq edilməlidir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Sumqayıt da geri qalmamalıdır. Əvvəlki dövrdə tikilmiş binalar bərpa edilməlidir, gözəlləşdirilməlidir.

Beləliklə, həm şəhərin sosial-iqtisadi, kommunal məsələləri həll olunacaqdır, həm də Sumqayıt böyük sənaye mərkəzinə və çox gözəl, abad şəhərə çevriləcəkdir. Mən Sumqayıtın inkişafına xüsusi diqqət göstərirəm.

Əziz dostlar, 2011-ci il başa çatır. 2011-ci il də ölkəmiz üçün uğurlu olmuşdur. Azərbaycan dünyadakı mövqelərini möhkəmləndirə bilmişdir. Hər yerdə inkişaf, hər yerdə tikinti, quruculuq, abadlıq işləri aparılır – böyük şəhərlərdə, kiçik kəndlərdə, hər yerdə Azərbaycan uğurla inkişaf edir, uğurla irəliyə gedir. Gələcəkdə görüləcək işlərimiz çoxdur. Əminəm ki, nəzərdə tutduğumuz bütün planlar həyatda öz əksini tapacaqdır. Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, bütün sumqayıtlılara xoşbəxtlik və cansağlığı arzulayıram.

## Sumqayıt şəhər dənizkənarı Mədəniyyət və istirahət parkında görülmüş əsaslı yenidənqurma və abadlıq işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 19-da Nəsimi adına Sumqayıt şəhər dənizkənarı Mədəniyyət və istirahət parkında görülmüş əsaslı yenidənqurma və abadlıq işlərinin gedişi ilə tanış olmuşlar.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya parkda həyata keçirilmiş əsaslı yenidənqurma və abadlıq işləri ilə bağlı məlumat verildi. Bildirildi ki, əsası 1956–1960-cı illərdə qoyulmuş bu park 1967-ci ildə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin qərarına əsasən, Mədəniyyət və istirahət parkı kimi fəaliyyətə başlamışdır. Sahəsi 23 hektar olan parkda küləyə və quraqlığadavamlı müxtəlif növ ağaclar əkilmişdir. 1978-ci ildə parka dahi Azərbaycan şairi İmadəddin Nəsiminin adı verilmiş, 2003-cü ildə isə burada Nəsiminin heykəli ucaldılmışdır.*

*Bildirildi ki, Nazirlər Kabinetinin qərarına əsasən, 2001-ci ildən Nəsimi adına Sumqayıt şəhər dənizkənarı Mədəniyyət və istirahət parkı ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri siyahısına daxil edilmişdir. Azərbaycan prezidenti İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə parkın yeni layihəsi hazırlanmışdır.*

*Dövlətimizin başçısı və xanımı parkın gələcək görüntülərini əks etdirən stendlərə baxdılar. Bildirildi ki, əsaslı yenidənqurma və abadlıq işlərindən sonra ərazi şəhər əhalisinin və qonaqların ən sevimli istirahət mərkəzinə çevriləcəkdir. Parkın ətrafındakı yaşayış binalarının fasadlarının və damlarının yenilənərək şəhərin müasir görkəminə uyğunlaşdırılacağı da qeyd olundu.*

*Parkda görülmüş işlərlə tanış olan prezident İlham Əliyev abadlıq və yenidənqurma tədbirləri ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## Azot gübrəsi – karbamid zavodunun təməlqoyma mərasimi

*Dekabrın 19-da Sumqayıtda Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin azot gübrəsi – karbamid zavodunun təməlqoyma mərasimi olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlət başçısı zavodun sxemi və burada inşa olunacaq binaların eskiz layihələrini əks etdirən stendlərə baxdı.*

*Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına məlumat verdi ki, ölkəmizdə karbamid zavodunun inşası layihəsi «2008–2015-ci illərdə Azərbaycanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»na əsasən hazırlanmışdır. Zavodun tikintisi üçün «Azərkimya» İstehsalat Birliyinin istifadəsində olan ərazidə 24 hektar torpaq sahəsi ayrılmışdır. Müəssisənin tikintisi dövlət investisiyaları hesabına maliyyələşdiriləcək və 2012–2014-cü illərdə həyata keçiriləcəkdir. Zavod ammonyak, maye karbamid və əmtəəlik karbamid istehsalı bölmələrindən ibarət olacaqdır. Gündəlik istehsal gücü 1200 ton ammonyak, 2000 ton karbamid təşkil edəcək müəssisədə əsas xammal kimi təbii qazdan istifadə olunacaqdır.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, layihənin həyata keçirilməsi istiqamətində qısa müddətdə müvafiq tədbirlər görülmüşdür. Ərazi Dövlət Neft Şirkətinin müvafiq struktur bölmələri tərəfindən tikinti işlərinin aparılması üçün təmizlənmiş, burada mövcud olan yararsız köhnə obyekt sökülmüş, yollar çəkilmiş, ətrafda abadlıq işləri görülmüşdür.*

*Bildirildi ki, zavodun inşası zamanı 3 min nəfər, müəssisə fəaliyyətə başladıqdan sonra isə 500 nəfər işlə təmin olunacaqdır.*

*Prezident İlham Əliyev metal gilizi bünövrəyə buraxdı, düyməni basaraq beton qarışığı tökən qurğunu işə saldı.*

*Dövlətimizin başçısı tikinti işlərinin yüksək səviyyədə aparılması üçün müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## ATƏT-in MİNSK QRUPUNUN FRANSALI SABİQ HƏMSƏDRİ BERNAR FASYE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da ATƏT-in Minsk qrupunun Fransadan olan sabiq həmsədri Bernar Fasyeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı Bernar Fasyenin fəaliyyətini yüksək qiymətləndirdiyini vurğuladı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqlar prosesində fəal işinə görə təşəkkürünü bildirdi və gələcək fəaliyyətində ona uğurlar arzuladı.*

*Bernar Fasye onun fəaliyyətinə verdiyi qiymətə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirdi.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*20 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak etmək üçün dekabrın 20-də Rusiya Federasiyasının paytaxtı Moskvaya işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak etmək üçün dekabrın 20-də Rusiya Federasiyasının paytaxtı Moskvaya işgüzar səfərə gəlmişdir.*

*MDB-nin üzvü olan ölkələrin dövlət bayraqlarının dalğalandığı Vnukovo-2 Beynəlxalq Aeroportunda Azərbaycan prezidentini Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ QEYRİ-RƏSMİ İCLASINDA İŞTİRAK

*Moskva*

*20 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Rusiyanın paytaxtı Moskvada MDB Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak etmişdir.*

*Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və iclasda iştirak edən digər dövlət başçılarını qarşıladı.*

*Yubiley iclasını açan Rusiya prezidenti Dmitri Medvedev MDB-nin 20-ci ildönümünün qeyd edildiyi bir vaxtda keçirilən tədbirdə iştirak etdiklərinə görə Birliyin üzvü olan ölkələrin dövlət başçılarına təşəkkürünü bildirdi. Dmitri Medvedev qeyd etdi ki, bu cür qeyri-rəsmi görüşlərin keçirilməsi MDB-nin təcrübəsində bir ənənəyə çevrilmişdir.*

*Sonra Birliyin sədri, Tacikistan prezidenti Emoməli Rəhmon çıxış edərək əmin olduğunu bildirdi ki, aparılan müzakirələr və qəbul edilən qərarlar üzv ölkələr arasında əlaqələrin möhkəmlənməsinə, əməkdaşlığın gücləndirilməsinə xidmət edəcəkdir.*

*Daha sonra çıxış edən Özbəkistan prezidenti İslam Kərimov iclasın əhəmiyyətini qeyd edərək bildirdi ki, bu, MDB çərçivəsində əməkdaşlığa mühüm töhfə verəcəkdir.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin MDB qarşısındakı xidmətlərindən danışan prezident İslam Kərimov dedi ki, Birlik yaradılan dövrdə Heydər Əliyev ən tanınmış liderlərdən biri, bütün baş verənləri görən və yaşayan ən müdrik insanlardan idi. Heydər Əliyevin təcrübəsi təkcə Azərbaycan*

*xalqı üçün deyil, həm də çox mənalı və əziyyətli yol keçən insanlar üçün parlaq nümunədir.*

*İclasda çıxış edən Qırğız prezidenti Almazbek Atambayev MDB xalqları arasındakı tarixi əlaqələrdən bəhs etdi. O, xalqının Böyük Vətən müharibəsindəki iştirakını vurğulayaraq yaşlı nəsillərin keçmiş Sovet İttifaqının inkişafındakı rolundan da danışdı.*

*Sonra Qırğız prezidenti Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin xatirəsini ehtiramla yad etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Dmitri Anatolyeviç!

Əvvəla, Moskvanı ziyarət etmək və iclasda iştirak etmək üçün dəvətinizə görə təşəkkürümü bildirirəm. İndi aparılan qeyri-formal və səmimi diskussiya təşkilatımızın nə qədər mühüm olduğunun parlaq göstəricilərindən biridir. Həmçinin İslam Əbdüqəniyeviçə və Qırğız prezidentinə atam Heydər Əliyev haqqında dedikləri xoş sözlərə görə təşəkkür etmək istərdim. Bu yəqin ki, ikiqat rəmzi məna kəsb edir. O bu binada xeyli illər çalışıb. O, Azərbaycanın, Sovet İttifaqının rifahı naminə işləyib. XX əsrin 70-ci illərində Bakıda işləyərkən Azərbaycanın rifahı naminə, 80-ci illərdə Sovet İttifaqı hökumətində işləyərkən Sovet İttifaqının rifahı naminə çalışaraq, müstəqil Azərbaycanın prezidenti kimi, 10 il ərzində dövlətçiliyin təməlini qoymaqla bizə inamla, uğurla irəliləməyə imkan verdi. Buna görə də onun dostlarına təşəkkür etmək istərdim. Ona görə ki, MDB-nin 20 illiyinin qeyri-formal şəraitdə keçirildiyi bu görüşdə Heydər Əliyevi xatırlayırlar. 20 il böyük müddətdir, həm də tarixi nöqteyi-nəzərdən o qədər də böyük müddət deyildir. Bu gün artıq həmkarlarım 1980–1990-cı illər arasında baş verən prosesləri qiymətləndirdilər. Bəziləri dəyişikliklərdə özləri də iştirak edərək ölkələrinin dövlətçiliyinin bünövrəsini qoyublar. 90-cı illərin əvvəllərində baş verənlərin əsas yekunu bu oldu ki, yeni dövlətlərin yaranması nisbətən dinc yolla həll edildi. Bu

hamı üçün dinc keçmədi. Bizim ölkəmizə gəlincə, Sovet İttifaqının dağılması ərəfəsində torpaqlarımız işğala məruz qaldı. Bütövlükdə MDB-nin üzvü olan əksər ölkələr arasındakı bugünkü münasibətlər dostluq, tərəfdaşlıq münasibətləridir. 20 il ərzində biz büsbütün dəyişmişik. İqtisadi sistemi tamamilə dəyişmişik.

Siyasi sistem də dəyişdi. Xaos, qarşıdurma, qarşılıqlı ittihamlar şəraitində bütün bunlar mümkün olmaya bilərdi, yaxud çox çətin başa gələrdi. Bu gün, 20 il ötəndən sonra keçmiş Sovet İttifaqı respublikalarının əksəriyyətinin iştirak etdiyi bu tərkibdə biz irəliyə necə getmək barədə danışırıq. Bu da çox mühümdür. Mən həmkarlarımın tarixi keçmiş barədə fikirləri ilə tam razıyam. Müxtəlif, ziddiyyətli fikirlər mövcuddur. Yəqin ki, bu cür ziddiyyətli fikirlərin mövcud olmağa haqqı vardır. Yaxşı işlər də olub, narahatlıq doğuran məsələlər də. Ən başlıcası necə irəliləməkdir. Bu gün ölkəmizin MDB-nin üzvü olan, demək olar ki, bütün ölkələrlə çox gözəl ikitərəfli, etimad doğuran dostluq münasibətləri mövcuddur.

Müstəqillik illərində Azərbaycan müasir ölkəyə çevrildikdən sonra da Rusiya ilə Azərbaycan arasındakı münasibətlər bizim üçün həmişə xüsusi əhəmiyyət kəsb edib. Bu gün mənim üçün qeyd etmək xoşdur ki, ikitərəfli planda heç bir həll edilməmiş problem qalmayıb. MDB-nin gələcəyi ilə bağlı onu deyə bilərəm ki, Azərbaycan bütün proseslərdə konstruktiv, fəal iştirak edəcəkdir.

Biz humanitar sahədə əməkdaşlığı çox fəal dəstəkləyirik. Bu məsələdə hazırladığımız tədbirlər də humanitar əlaqələrin hərtərəfli və çoxtərəfli inkişafı üçün yaxşı əsasdır. Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə bu ilin sonlarında Bakıda I Beynəlxalq Humanitar Forum keçirildi. Bu da artıq ənənəyə çevrilib. Hər il bu tədbiri keçirəcəyik. Bizim münasibətlərimizin təməli humanitar amildir. Bunsuz heç bir inteqrasiya və iqtisadi kooperasiya prosesi bizim istədiyimiz kimi gedə bilməz. Biz gələcəkdə də MDB məkanında humanitar əməkdaşlığın inkişaf etməsinə çalışacağıq. Gənc nəslin bu

prosesə cəlb olunmasına səy göstərəcəyik. Gələcək nəslə onilliklər ərzində yaranmış dostluq, mehriban qonşuluq münasibətlərini ötürmək istərdik. Bu gün həmkarlarım veteranları da xatırladılar. Mən də bu gün həmin tezisə qoşularaq veteranlarımızı salamlamaq istəyirəm. Onlar vətənin azadlığı uğrunda öz sağlamlıqlarını veriblər, çoxları həyatlarını itiriblər. Bu hamı üçün Vətən müharibəsi idi. Azərbaycanın İkinci dünya müharibəsində iştirak edən hər iki sakinindən biri qayıtmayıb. Azərbaycanın və Bakının ümumi qələbəyə töhfəsi isə kifayət qədər əhəmiyyətli olub. Tanklarımıza və təyyarələrimizə doldurulan neft məhsullarının 90 faizi Azərbaycanın idi, Bakıda istehsal edilən sovet neft məhsulları idi. Bu bizim ümumi tariximizdir. Tarixi saxtalaşdırmağa yol verməməliyik. İkinci dünya müharibəsinin hadisələrinin təhrif edilmiş şəkildə təqdiminə yol vermək olmaz. Məsələ ondadır ki, bəzi ölkələrdə faşizmin qəhrəmanlaşdırılması özünü göstərir.

Gələcək üçün mühüm məsələlərdən danışarkən hesab edirəm ki, informasiya-kommunikasiya texnologiyaları mövzusuna müraciət indi tamamilə yerinə düşərdi.

Bir daha demək istərdim ki, Azərbaycan MDB çərçivəsində öz iştirakına və fəal əməkdaşlığa sadiqdir, gələcəkdə də münasibətlərimizi möhkəmləndirmək üçün səy göstərəcəkdir.

# QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK ATAMBAYEV İLƏ GÖRÜŞ

*Moskva*

*20 dekabr 2011-ci il*

*Rusiya Federasiyasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Moskvada Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev ilə görüşmüşdür.*

*Görüşdə dövlətimizin başçısı Almazbek Atambayevi Qırğız Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi, ona uğurlar arzuladı.*

*Dövlətlərimiz arasında münasibətlərin yaxşı perspektivlərə malik olduğunu deyən prezident İlham Əliyev əminliyini bildirdi ki, ölkələrimiz bir-birini daim dəstəkləyəcəkdir.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin gördüyü işləri xatırladan Almazbek Atambayev prezident İlham Əliyevin ulu öndərin layiqli davamçısı olduğunu dedi, Azərbaycanda, paytaxt Bakıda son 20 ildə böyük dəyişikliklərin baş verdiyini vurğuladı.*

*İqtisadi əməkdaşlığın və humanitar əlaqələrin genişləndirilməsi üçün böyük işlərin həyata keçirilməsi imkanlarından danışan prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini dedi.*

*Dövlətimizin başçısı Qırğız Respublikasının Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

## Səfər başa çatdı

*Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.*

*Moskvanın Vnukovo-2 Beynəlxalq Aeroportunda Azərbaycan prezidentini Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün axşam Bakıya qayıtmışdır.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## «MODERNLƏŞMƏ SİYASƏTİ: YENİ İQTİSADİ VƏ SOSİAL ÇAĞIRIŞLAR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Bakı şəhərində «Modernləşmə siyasəti: yeni iqtisadi və sosial çağırışlar» mövzusunda təşkil edilmiş beynəlxalq konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayıram.

XXI əsrin ilk onilliyi insan cəmiyyətinin inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoyulduğunu ortaya çıxarmış oldu. Bəşəriyyətin üzləşdiyi qlobal problemler ənənəvi iqtisadi və sosial inkişaf modelinə yenidən baxmağı tələb edir. Gələcək nəsillərin inkişaf və rifah içində yaşaması bugünkü çağırışlara düzgün cavabların tapılmasından çox asılıdır. Bu səbəbdən dünyanın 30-dan artıq ölkəsindən gəlmiş nümayəndələrin iştirakı ilə sözügedən çağırışlar ətrafında fəal dialoqun təşkil edilməsini təqdirəlayiq hadisə sayıram.

Dövrümüzün aktual problemlərinə çevrilən yeni iqtisadi və sosial çağırışlara dair fikir mübadiləsi aparmaq niyyəti ilə Bakıya toplaşan siyasətçilər, alimlər, ictimai xadimlər ölkəmizdə həyata keçirilən islahatların nəticələrini əyani olaraq görmək imkanına malikdir. Müasirləşmək, yeniləşmək siyasətimizin əsas mənasını, bizi inkişafa aparan yolun baş xəttini təşkil edir. Bu mənada Azərbaycanı «Modernləşmə siyasəti: yeni iqtisadi və sosial çağırışlar» mövzusunda müzakirələrin aparılması üçün uğurlu məkan hesab etmək olar. İnanıram ki, müxtəlif milli təcrübələr barəsində təqdimatlar müasir cəmiyyəti düşündürən problemlərin həllinə yönəlmiş səylərə əhəmiyyətli dəstək ola biləcək.

Konfrans iştirakçılarına faydalı müzakirələr, cansağlığı və xoş əhval-ruhiyyə arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2011-ci il*

## LATVİYANIN SABİQ PREZİDENTİ, «ZATLERSİN İSLAHATLARI PARTİYASI»NIN SƏDRİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Latviyanın sabiq prezidenti, «Zatlersin İslahatları Partiyası»nın sədri Valdis Zatlersi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan və Latviya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, prezident İlham Əliyevlə Valdis Zatlersin bundan əvvəlki görüşləri məmnunluqla xatırlandı, ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.*

## MONTENEQRONUN SABİQ PREZİDENTİ VƏ BAŞ NAZİRİ, MONTENEQRO SOSİALİSTLƏRİ DEMOKRATİK PARTİYASININ SƏDRİ MİLO ÇUKANOVİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Monteneqronun sabiq prezidenti və Baş naziri, Monteneqro Sosialistləri Demokratik Partiyasının sədri Milo Çukanoviçi qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Monteneqro Respublikası arasında ikitərəfli münasibətlərin son illər inkişaf edərək yaxşı səviyyəyə çatdığını dedi. Bu yaxınlarda Monteneqronun dövlət başçısının ölkəmizə, Azərbaycan nümayəndə heyətinin isə Monteneqro Respublikasına səfər etdiklərini vurğulayan dövlətimizin başçısı əlaqələrimizin inkişafında qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Qısa vaxt ərzində əməkdaşlığımızın fəal şəkildə genişləndiyini deyən prezident İlham Əliyev Milo Çukanoviçin ölkəmizə səfərinin əlaqələrimizin daha da inkişafına xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Monteneqronun sabiq prezidenti və Baş naziri, Monteneqro Sosialistləri Demokratik Partiyasının sədri Milo Çukanoviç sonuncu dəfə 2006-cı ildə prezident İlham Əliyevlə konfransda çıxış etdiklərini məmnunluqla xatırlatdı. Azərbaycanda gedən sürətli inkişaf proseslərini diqqətlə izlədiyini deyən Milo Çukanoviç ölkə daxilində əldə olunan böyük uğurlara və Azərbaycanın beynəlxalq aləmdə tutduğu mövqeyə görə dövlətimizin başçısını təbrik etdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

# AVROPA XALQLARI PARTİYASININ PREZİDENTİ UİLFRİD MARTENSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Avropa Xalqları Partiyasının prezidenti Uilfrid Martensin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizin Avropa institutları ilə əlaqələrinin sürətlə inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bu ilin sentyabrında Polşada «Şərq Tərəfdaşlığı» Proqramına qoşulan ölkələrin uğurla keçən sammitinin önəmini qeyd etdi. Avropa Komissiyasının sədri Jose Manuel Barrozunun Azərbaycana və özünün Brüsselə səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev bütün bu tədbirlərin ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı baxımından əhəmiyyətli olduğunu dedi. Dövlətimizin başçısı Uilfrid Martensin ölkəmizə səfərinin Avropa Xalqları Partiyasının Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığının daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Avropa Xalqları Partiyasının prezidenti Uilfrid Martens «Avropa: Mən mübarizə aparıram, mən qalib gəlirəm» kitabının Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini dövlətimizin başçısına təqdim etdi. Uilfrid Martens Yeni Azərbaycan Partiyasında keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi. O, rəhbərlik etdiyi Avropa Xalqları Partiyasının Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığının genişləndirilməsinə maraqlı olduğunu bildirdi.*

## AVROPA PARLAMENTİNİN DEPUTATI, PARİSİN 7-ci RAYONUNUN MERİ XANIM RƏŞİDƏ DATİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 21-də Avropa Parlamentinin deputatı, Parisin 7-ci rayonunun meri xanım Rəşidə Dati ilə görüşmüşlər.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Fransa arasında əlaqələrin geniş sahələri əhatə etdiyini bildirdi. Fransa prezidenti Nikola Sarkozinin Azərbaycana səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev fransalı nazirlərin və iş adamlarının da mütəmadi olaraq ölkəmizə səfərlər etdiklərini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın ilk telekommunikasiya peykinin Fransa şirkəti tərəfindən səmaya qaldırılacağını qeyd edərək Fransa şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiklərini dedi. Mədəniyyət sahəsində də əməkdaşlığın son vaxtlar sürətlə inkişaf etdiyini bildirən prezident İlham Əliyev bu baxımdan Heydər Əliyev Fondunun Parisdə keçirdiyi tədbirlərin önəmini vurğuladı. Bir neçə ildən sonra Bakıda fransız məktəbinin fəaliyyət göstərəcəyini qeyd edən prezident İlham Əliyev Azərbaycan ilə Fransa arasında bütün sahələrdə yaxşı nəticələr əldə olunduğunu dedi.*

*Avropa Parlamentinin deputatı, Parisin 7-ci rayonunun meri xanım Rəşidə Dati Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyeva ilə Parisdə keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Azərbaycan mədəniyyətı günlərinin Parisdə böyük uğurla keçirildiyini vurğulayan xanım Rəşidə Dati mədəniyyətimizin təbliği baxımından tədbirin mühüm əhəmiyyət daşıdığını qeyd etdi.*

## ƏJDƏRBƏY MƏSCİDİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİNDƏ* İŞTİRAK

*22 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 22-də Bakıdakı Əjdərbəy məscidinin əsaslı təmir və yenidənqurmadan sonra açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı məscidin təmirdən əvvəlki və sonrakı vəziyyətini əks etdirən fotostendə baxdılar.*

*Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycan prezidentinə və xanımına məsciddə görülmüş işlər barədə məlumat verdi. Bildirildi ki, 2010-cu ildə dövlətimizin başçısı müsəlmanların birliyinin rəmzi kimi, ilk vaxtlar «İttifaq» məscidi adı ilə tanınan bu məbədin bərpası ilə əlaqədar tədbirlər haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, məsciddə yenidənqurma işlərinin yüksək keyfiyyətlə, Azərbaycanın çoxəsrlik milli memarlıq irsi*

---

* Бакыдакы Яждярбяй мясъидинин йенидянгурмадан сонра иштифадяйя верилмяси мярасиминдя Гафгаз Мцсялманлары Идарясинин сядри шейхцлислам Аллащшцкцр Пашазадя, Русийа Федерасийасынын Адыэей Республикасы вя Краснодар вилайятинин мцфtиси Йемиж Нурбий, Бакы Ислам Университетинин ректору Щаъы Сабир Щясянли, Татарыстан Президенти Апаратынын Дини Гурумларла Ямякдашлыг Идарясинин ряиси Марат Габим, Гафгаз Мцсялманлары Идарясинин Москвадакы сялащиййятли нцмайяндяси Шафиг Психачев, Шимали Осетийа–Аланийа Республикасынын мцфтиси Щаъы Мурад Гатсалов вя Русийа Федерасийасынын Чеченистан Республикасынын мцфтиси, Гафгаз Халглары Али Дини Шурасы сядринин биринъи мцавини Солтан Мирзяйев чыхыш етдиляр.

*ənənələrinə uyğun şəkildə aparılması üçün dövlət büdcəsində Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır.*

*Qeyd edildi ki, Əjdərbəy məscidi 1912–1913-cü illərdə tanınmış xeyriyyəçi Əjdərbəy Aşurbəyov tərəfindən tikilmişdir. Günbəzi göy rəngdə olduğuna görə xalq arasında «Göy məscid» kimi də tanınan və Bakının memarlıq incilərindən sayılan bu məbəd əvvəllər 400 nəfərin ibadəti üçün nəzərdə tutulmuşdu. Ancaq Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra məscidə gələnlərin sayı xeyli artdığından ərazidə böyük sıxlıq yaranırdı. Buna görə də məsciddə təmir-bərpa ilə yanaşı, genişləndirmə işlərinə də zərurət yaranmışdı. Milli- mənəvi dəyərlərimizə xüsusi diqqət və qayğı göstərən prezident İlham Əliyevin təşəbbüsü ilə bu tarixi abidəyə yeni həyat verildi. Əjdərbəy məscidində aparılan bərpa və genişləndirmə tədbirlərini daim diqqətdə saxlayan dövlətimizin başçısı mütəmadi olaraq tikinti işlərinin gedişi ilə tanış olmuş, tapşırıq və tövsiyələrini vermişdir. Bununla da paytaxtımıza xüsusi yaraşıq verən Əjdərbəy məscidində bərpa işləri sürətləndirilmiş və qısa müddətdə bu ibadət ocağı möhtəşəm görkəm almışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərini salamladılar.*

*Məsciddə yaradılmış şəraitlə tanış olan Azərbaycan prezidentinə və xanımına məlumat verildi ki, təmir-bərpa işlərindən sonra burada eyni vaxtda 3000-ə yaxın mömin ibadət edəcəkdir. Ümumi sahəsi 4 min kvadratmetr olan məscidin həyatində də ibadət üçün xüsusi sahə ayrılmışdır. Burada Mədinədəki Peyğəmbər məscidində olduğu kimi, hərəkətli tavanlar quraşdırılmışdır. Məscidin Qurani-Kərimdən surələr yazılmış divarları və sütunları Azərbaycan naqqaşlıq məktəbinin və Şərq ornamentlərinin nadir nümunələrindən istifadə olunmaqla dini rəmzlərlə bəzədilmişdir. Məscidin girişində Əjdərbəy Aşurbəyovun məzarı yerləşir.*

*Görülmüş işləri yüksək qiymətləndirən prezident İlham Əliyev Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Bu gün hamımız üçün əlamətdar bir gündə – Əjdərbəy məscidinin fəaliyyətinin bərpa olunduğu gündə birlikdə olmaq ikiqat xoşdur. Sağ olun ki, gəlmisiniz. Ziyarətgahların bərpa edilməsi fəaliyyətimizin ən mühüm istiqamətlərindən biri, mənəvi borcumuzdur.

Bu məscid zəngin tarixə malikdir. Mənə çox xoşdur ki, biz onu təkcə bərpa etməmişik, həm də genişləndirmişik. O bəlkə də 10 dəfədən çox genişləndirilmişdir və yüzilliklər boyu qalacaqdır.

Azərbaycanda bütün dini abidələr mühafizə olunur, bərpa edilir. Təzəpir məscidindəki görüşümüz yadımdadır. Həmin məscid də bərpa olunandan və yenidən qurulandan sonra onu birlikdə açmışdıq. Azərbaycanın ən qədim məscidlərindən biri – Şamaxı şəhərindəki Cümə məscidi bərpa olunur, əslində yenidən inşa edilir. Ümid edirəm ki, lap yaxın vaxtlarda, yaxın 1-2 ildə biz gözəl Şamaxı şəhərində həmin məscidin açılışına birlikdə toplaşacağıq.

Mənə çox xoşdur ki, sizin hamınızın bir-birinizlə bu cür gözəl dostluq münasibətləriniz vardır. Bu münasibətlər ölkələrimizin, respublikalarımızın qədim ünsiyyət mədəniyyəti ənənələrinə malik olan xalqları arasında münasibətləri də çox cəhətdən möhkəmləndirir. Mənə xoşdur ki, irəli sürülmüş təşəbbüsləri biz birlikdə reallaşdırırıq. Sizin respublikalarla Azərbaycan arasında bu cür fəal əməkdaşlıq yeni mərhələyə, yeni formaya keçir. Bu, bütün xalqlar üçün, eləcə də Rusiya–Azərbaycan münasibətləri üçün mühüm əhəmiyyət kəsb edir.

*Sonra Prezident mərasimdə çıxış etdi.*

* * *

Hörmətli şeyx həzrətləri!

Hörmətli Şimali Qafqaz respublikalarının müftiləri!

Hörmətli din xadimləri!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl və əlamətdar bir gündür. Əjdərbəy məscidi əsaslı təmirdən

sonra istifadəyə verilir, qapılarını dindarların üzünə açır. Əjdərbəy məscidi bizim milli sərvətimizdir. Bu məscid bir əsr əvvəl məşhur xeyriyyəçi Hacı Əjdərbəy Aşurbəyov tərəfindən tikilmişdir. Oktyabr inqilabından sonra bağlanmış, 1940-cı illərdə yenidən fəaliyyətə başlamışdır. Ancaq son illər məscidin həm xarici görünüşü, həm daxili vəziyyəti böyük vəsait tələb edirdi. Bir neçə il əvvəl mənim sərəncamımla Prezidentin ehtiyat fondundan vəsait ayrılmış və məscidin əsaslı təmiri başlanmışdır. Mən təmir gedən zaman vəziyyətlə dəfələrlə tanış olmuşdum və hörmətli şeyx həzrətlərinin təklifi ilə məscidin sahəsi xeyli genişləndirilmişdir. Deyə bilərəm ki, bu gün məscidin sahəsi əvvəlkindən ən azı 10 dəfə böyükdür. Burada bütün təmir və yenidənqurma işləri zövqlə həyata keçirilmişdir. Şadam ki, bu tarixi dini abidəmiz bu gün yüksək səviyyədə təmir edilib və öz qapılarını üzümüzə açır.

Dinimiz, tariximiz, milli-mənəvi dəyərlərimiz bizim üçün müstəsna əhəmiyyət kəsb edir. Son illər tarixi, dini abidələrimiz, ziyarətgahlar, ibadət yerlərimiz dövlət tərəfindən qorunur, təmir edilir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Bibiheybət məscidinin əsas korpusu 1998-ci il iyulun 12-də istifadəyə verilmişdir. Bibiheybət ziyarətgahı böyük, çoxəsrlik tarixə malik olan bir ziyarətgahdır. XIII əsrdə orada məscid tikilmişdir. Keçən əsrin 30-cu illərində sovet rəhbərliyinin göstərişi ilə Bibiheybət məscidi dağıdılmışdır. Bibiheybət məscidinin bərpası ulu öndərin təşəbbüsü ilə həyata keçirilmişdir və qeyd etdiyim kimi, 1998-ci ildə birinci – əsas korpus istifadəyə verilmişdir. 10 il sonra – 2008-ci il iyulun 12-də Bibiheybət məscidinin əlavə tikililəri istifadəyə verilmişdir. Məscid xeyli genişləndirilmişdir və bu gün Azərbaycanın ən gözəl məscidlərindən biridir.

2009-cu ildə yenə də dövlət vəsaiti ilə Təzəpir məscidində yenidənqurma, bərpa, genişləndirmə işləri aparılmışdır. Hörmətli qonaqlarımızla birlikdə biz Təzəpir məscidinin yenidən açılışını bərabər qeyd etmişdik.

Bu gün, 2011-ci ilin sonunda Əjdərbəy məscidinin yenidən gözəl bir formada dindarların sərəncamına verilməsi də böyük və əlamətdar hadisədir. Onu da qeyd etmək istəyirəm ki, hazırda xalqımız üçün çox böyük mənəvi dəyər daşıyan Şamaxı Cümə məscidində yenidənqurma, bərpa işləri aparılır. Şamaxı Cümə məscidi Azərbaycanın ən qədim məscididir. 743-cü ildə tikilmiş məscid təbii dağıntılara, zəlzələyə məruz qalmış, bir hissəsi dağılmış, sonra bərpa edilmişdi. 1918-ci ildə ermənilər tərəfindən Şamaxı məscidi dağıdılmış, yandırılmışdır. Ancaq yenə də məscid dini ocaq, tarixi-memarlıq abidəsi kimi qalırdı və bizim qəlbimizdə yaşayırdı.

Şamaxı Cümə məscidinin bərpası müqəddəs borcumuz idi. Çox şadam ki, biz bu işlərə başlamışıq, dövlət tərəfindən vəsait ayrılmışdır. Mən dəfələrlə təmir-tikinti işləri ilə maraqlanmışam. Şamaxı Cümə məscidi yəqin ki, bütün təmir-tikinti işləri başa çatdıqdan sonra Azərbaycanın ən böyük, ən möhtəşəm məscidlərindən biri olacaqdır. Xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Gəncədəki İmamzadə tarixi-dini kompleksinin yenidən qurulması prosesi gedir. Əminəm ki, yaxın gələcəkdə biz İmamzadənin yenidən açılışını bərabər qeyd edəcəyik.

Mən ancaq böyük əhəmiyyət daşıyan bir neçə məscidlərin bərpası ilə bağlı görülmüş işlər haqqında fikirlərimi bildirdim. Azərbaycanda 2 minə yaxın məscid fəaliyyət göstərir. Təkcə son 8 il ərzində Azərbaycanda 117 məscid tikilmişdir. Onların bir hissəsi dövlət, bir hissəsi dini icmalar, bir hissəsi isə Heydər Əliyev Fondu tərəfindən tikilmiş və təmir edilmişdir. Azərbaycan xalqı dini və mənəvi ənənələrinə sadiq xalqdır. Hesab edirik ki, bu sahədə işlər daha da sürətlə aparılmalıdır. Azərbaycanda din, vicdan azadlığı tam şəkildə təmin edilibdir. Biz islam dininə sadiq xalqıq. Dinimizi həm təbliğ etməliyik, həm də əsassız hücumlardan qorumalıyıq. Əfsuslar olsun ki, bəzi hallarda biz belə hallarla üzləşirik – islam dininə qarşı ədalətsiz hücumlarla, islamofobiya meyilləri ilə rastlaşırıq, bəzi kütləvi informasiya vasitələrində islam dininə qarşı böhtan

kampaniyaları aparılır. Bütün bu xoşagəlməz hallara dərhal reaksiya verməliyik və veririk. İslam dini sülh dinidir, qardaşlıq dinidir, xeyirxahlıq dinidir, mərhəmət dinidir.

Azərbaycan islam həmrəyliyinin gücləndirilməsi üçün səylərini əsirgəmir. Biz İslam Əməkdaşlığı Təşkilatına üzv olduqdan sonra bütün bu müsbət meyillərin gücləndirilməsinə töhfəmizi vermişik. İki il əvvəl Bakı «İslam mədəniyyətinin paytaxtı» elan edilmişdi. Bu bizim üçün çox böyük şərəf, həm də çox böyük məsuliyyət idi. Bizim təşəbbüsümüzlə 2018-ci ildə Azərbaycanın digər qədim şəhəri – Naxçıvan «İslam mədəniyyətinin paytaxtı» elan edilibdir.

Bu səpkidə aparılan tədbirlər davam etdiriləcək və Azərbaycanda dini məsələlərin müzakirə edilməsi üçün müxtəlif beynəlxalq tədbirlər keçirilir. Mən çox şadam ki, Azərbaycan bu məsələlərin müzakirəsində fəal rolunu artırır. Dünya ictimaiyyəti və dünya birliyi də belə tədbirlərin Azərbaycanda keçirilməsinə çox müsbət yanaşır. Bir müddət bundan əvvəl şeyx həzrətlərinin yubiley günlərində böyük beynəlxalq tədbirə müxtəlif dinlərin nümayəndələri gəlmişlər, iştirak etmişlər, ürək sözlərini demişlər. Ondan sonra Bakıda dünya dinlərinin rəhbərlərinin zirvə görüşü keçirilmişdir. Ötən il Bakıda keçirilmiş I Beynəlxalq Humanitar Forumunda da məhz dini dözümlülük, tolerantlıq, müxtəlif dinlərə mənsub olan insanların əməkdaşlığı mövzuları diqqət mərkəzində idi. Azərbaycan bu məsələlərin həlli üçün öz təcrübəsini bölüşməyə hazırdır. Mən çox şadam ki, bizim təcrübəmiz artıq öyrənilir. Azərbaycanda bütün dinlərin nümayəndələri rahat, bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt dini, yaxud da milli zəmində heç bir qarşıdurma, heç bir anlaşılmazlıq olmamışdır və əminəm ki, olmayacaqdır. Mən tam əminəm ki, öz dininə hörmət edən insan mütləq başqa dinlərə də hörmətlə yanaşmalıdır. Dinlərarası dialoq daha da gücləndirilməlidir. Bu məsələ ilə bağlı müxtəlif fikirlər, müxtəlif yanaşmalar vardır.

Mən qeyd etməliyəm ki, I Beynəlxalq Humanitar Forumunun mövzularından biri də multikulturalizm mövzusu idi.

Bizim təşəbbüsümüzlə bu mövzu gündəliyə salınmışdı, çünki buna böyük ehtiyac vardır. Dünyada müxtəlif yanaşmalar mövcuddur, fikirlər səslənir, bəziləri deyir ki, multikulturalizm artıq ölüb, gələcəyi yoxdur. Azərbaycanın misalında görülən işlər göstərir ki, multikulturalizm yaşayır və ünvanlarının biri məhz Azərbaycandır. Multikulturalizmə alternativ özünütəcriddir.

Biz istəyirik ki, dünyada müsbət meyillər, əməkdaşlıq, dostluq, qardaşlıq meyilləri güclənsin və burada din xadimlərinin çox böyük rolu vardır. Azərbaycan burada yaşayan bütün xalqların doğma vətənidir. Hər bir xalqın nümayəndəsi bizim dəyərli vətəndaşımızdır. Bütün dinlərin nümayəndələrinə böyük hörmətlə və rəğbətlə yanaşırıq. Bu gün Azərbaycanda xristian kilsələri, katolik kilsəsi, yəhudi sinaqoqları məscidlərlə yanbayan dayanır. Bunlar Azərbaycanın reallıqlarıdır və dünya xəzinəsinə verdiyimiz töhfələrdir. Mən hesab edirəm ki, bizim təcrübəmiz hələ ki lazımi səviyyədə öyrənilməyib. Öyrənilərsə əminəm ki, bizdə mövcud olan vəziyyət nümunə kimi istifadə oluna bilər.

Hər bir ölkənin uğurlu inkişafı üçün din–dövlət əlaqələri çox böyük əhəmiyyət daşıyır. Bu əlaqələr Azərbaycanda çox yüksək səviyyədə həll olunur. Din–dövlət əlaqələrinin sağlam zəmində qurulması hər bir cəmiyyət üçün çox vacibdir. Azərbaycanda bu məsələlər yüksək səviyyədə təşkil edilir. Din–dövlət münasibətlərinin bu səviyyədə qurulmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Onun şeyx həzrətləri ilə şəxsi dostluğu din–dövlət münasibətlərinin inkişafına böyük töhfə vermişdir. Bu gün şeyx həzrətləri ilə şəxsi dostluğumuz və bir-birimizə olan rəğbətimiz din–dövlət əlaqələrinin güclənməsinə də öz töhfəsini verir.

Çalışmalıyıq ki, ölkəmizi daha da inkişaf etdirək, gücləndirək. Bizim çox gözəl perspektivlərimiz vardır. Biz bu il müstəqilliyimizin bərpasının 20 illik yubileyini böyük təntənə və böyük uğurlarla qeyd etmişik. İyirmi il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Bütün başqa sahələrdəki uğurlarla bərabər, iqtisadi, sosial məsələlərin həlli ilə yanaşı,

Azərbaycanda ictimai vəziyyətin çox müsbət səviyyədə olması bizim böyük sərvətimizdir. Bu sahədə nüfuzlu insanların sözləri böyük əhəmiyyət daşıyır.

Mən bu gün bu gözəl tədbirdə bizimlə bərabər iştirak edən qonaqları xüsusi salamlayıram, onları xüsusilə alqışlayıram. Bu gün bizim qardaşlarımız, Şimali Qafqaz respublikalarının hörmətli müftiləri bizimlə bərabər bu gözəl tədbirdə iştirak edirlər. Bu bizim dostluğumuzun rəmzidir. Biz dəfələrlə görüşmüşük və görüşəcəyik. Nüfuzlu insanların sözlərinə böyük ehtiyac vardır. Şadam ki, Qafqazda indi əməkdaşlığın yeni mərhələsi başlayır və bu mərhələnin yaradılmasında din xadimlərinin çox böyük zəhməti vardır. Biz Bakıda Qafqaz respublikalarının gənclərini bir yerə yığa bilmişik və bütün Şimali Qafqaz respublikalarının gəncləri Bakıya Qafqaz Gənclər Forumuna gəlmişlər. Bu yaxınlarda Şimali Qafqaz respublikalarının rəhbərləri bizim qonağımız idi. Ondan sonra bizim böyük hökumət nümayəndə heyətimiz bütün Şimali Qafqaz respublikalarına səfər etmişdir, əlaqələr yaratmışdır. İqtisadi və investisiya sahələrində imkanlar araşdırılmışdır. Bu gün Qafqazda əməkdaşlığın yeni mərhələsi başlayır. Bu mərhələnin başlanmasında Şimali Qafqaz respublikaları və Azərbaycan xüsusi rol oynayır. Bu münasibətlər Rusiya–Azərbaycan münasibətlərinin inkişafına çox müsbət təsir göstərir və Rusiya–Azərbaycan əlaqələrində Qafqaz mövzuları daim gündəlikdədir. Bizim ümumi fikrimiz ondan ibarətdir ki, Qafqazda sülhü gücləndirək, əməkdaşlığı təmin edək, insanların yaxşı yaşaması üçün birgə səylər göstərək.

Çox şadam ki, bu gün Şimali Qafqaz respublikalarının və Azərbaycanın din xadimləri bir yerdədirlər. Əvvəlki dövrdə də, əlbəttə ki, bütün Qafqaz xalqları bir-biri ilə daim əlaqədə idilər. Bizi tarixən dostluq, qardaşlıq əlaqələri bağlayır. Biz Qafqazda sabitliyin, əməkdaşlığın təmin edilməsi üçün çox ciddi addımlar atırıq. Şimali Qafqaz müftilərinin fəaliyyəti, öz respublikalarındakı və beynəlxalq səviyyədə nüfuzu onu göstərir ki, bu insanlar öz xalqlarının dəyərli nümayəndələridir.

Mən bu gözəl gündə şeyx həzrətlərinin fəaliyyətini bir daha qeyd etmək istəyirəm. Şeyx həzrətləri böyük təcrübəyə malik olan həm din xadimidir, həm ictimai xadimdir, həm də dünyada böyük nüfuza malik olan şəxsiyyətdir. Hazırda Qafqazı narahat edən problemlərin həlli üçün şeyx həzrətlərinin fəaliyyəti xüsusi əhəmiyyətə malikdir. O, dəfələrlə Qafqaz respublikalarına səfər edib. Şimali Qafqaz respublikalarında şeyx həzrətlərinin çox böyük nüfuzu vardır. Ona digər ölkələrdə böyük hörmət vardır.

Bayaq qeyd etdiyim kimi, din–dövlət əlaqələri yüksək səviyyədə olduqda bu, bölgədə yaşayan insanların xeyrinədir. Bütün bölgə üçün çox vacibdir. Hazırda Azərbaycan bölgədə sabitləşdirici amil kimi, artıq dünya tərəfindən tanınır. Azərbaycana olan hörmət artmaqdadır və bunun ən gözəl göstəricisi Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv olmasıdır. Dünyanın 155 ölkəsi bizi dəstəkləmişdir, bizə inanmışdır və öz səsini bizə vermişdir. Bu, ölkəmizin 20 illik müstəqillik tarixində xarici siyasət sahəsində əldə edilən ən böyük uğurdur.

Əziz dostlar, bu gün Əjdərbəy məscidi qapılarını tamamilə yeni görkəmdə dindarların üzünə açır. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm, bütün qonaqları bir daha salamlayıram. Sizə cansağlığı və uğurlar arzulayıram. Sağ olun!

## YENİ GƏTİRİLMİŞ HƏRBİ HELİKOPTERLƏRƏ BAXIŞ

*22 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də yeni gətirilmiş hərbi helikopterlərlə yaxından tanış olmaq üçün aeroporta gəlmişdir. Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının Komandanı general-leytenant Elçin Quliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə hərbi helikopterlər barədə məruzə etdi. O bildirdi ki, Mi-35m tipli döyüş helikopterləri hazırda dünyada mövcud olan ən müasir helikopterlərdən hesab olunur və hərbi tapşırıqları yerinə yetirmək üçün geniş imkanlara malikdir. Bu tipli helikopterlər yüksək uçuş imkanlarına malikdir.*

*Hərbi helikopterlərin ən müasir silahlarla təchiz olunduğu qeyd edildi. Bildirildi ki, bu silahlar hədəfi dəqiq zərərsizləşdirmək qabiliyyətinə malikdir. Helikopterlərin heyəti pilot komandirindən və operatordan ibarətdir. Zərurət yaranarsa, 10 nəfərədək desant əməliyyatlarının həyata keçirilməsinə cəlb oluna bilər. Helikopterlər S-8 və S-13 idarəolunmayan raket kompleksləri, QŞ-23 qoşalüləli pulemyot və «şturm», «ataka» tipli idarə olunan raketlərlə təchiz edilib. Helikopterlərdə hazırda dünyada mövcud olan ən müasir avionika quraşdırılıbdır ki, bunun köməyi ilə istənilən hava şəraitində 360 dərəcə altında bütün hədəfləri müşahidə etmək və zərərsizləşdirmək mümkündür.*

*Dövlət başçısı helikopterin texniki göstəriciləri ilə yaxından tanış oldu.*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Xalqımızın birlik və mütəşəkkilliyinin, milli təəssübkeşlik və Vətənə sədaqətinin rəmzi olan 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi səmimiqəlbdən salamlayıram.

Ümummilli lider Heydər Əliyevin 20 il əvvəl irəli sürdüyü təşəbbüs nəticəsində təsis edilən bu əziz bayram dünyadakı bütün soydaşlarımızın qəlbini Vətən hərarəti ilə isidir və müstəqil Azərbaycan dövlətinə məhəbbət hissi aşılayır.

Həmvətənlərimizin milli birliyinə xüsusi əhəmiyyət verən Azərbaycan hökuməti diaspor quruculuğu işini daim diqqət mərkəzində saxlayır. Bu ilin yayında Bakıda Dünya azərbaycanlılarının III qurultayının keçirilməsi xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması və Vətənlə əlaqələrinin möhkəmləndirilməsi yolunda yeni mərhələnin başlanğıcını qoydu. Qurultayda diaspor qurumlarının fəaliyyəti qiymətləndirildi, soydaşlarımızın mütəşəkkilliyinin və təşkilati çevikliyinin artırılmasına təkan verən mühüm qərarlar qəbul olundu.

Vətənimizin hüdudlarından kənarda yaşayan soydaşlarımız arasında azərbaycançılıq ideyalarının və milli təəssübkeşlik duyğularının günü-gündən güclənməsi olduqca fərəhləndirici haldır. İndi xaricdəki həmvətənlərimiz məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında getdikcə öz mövqelərini genişləndirir, Azərbaycanın dünyada tanıdılmasına, mədəniyyətimizin təbliğinə sanballı töhfələr verirlər. Bu ilin yazında keçirilmiş nüfuzlu beynəlxalq mədəniyyət yarışmasında – «Eurovision – 2011» mahnı müsabiqəsində təmsilçilərimizin qazandığı qələbədə Avropa ölkələrində yaşayan soydaşlarımızın da payı olmuşdur. Ümidvaram ki, diaspor təşkilatlarımız bundan sonra da əldə

edilən nailiyyətlərlə kifayətlənməyəcək, Diasporla İş üzrə Dövlət Komitəsi və xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizlə əməkdaşlığı gücləndirəcək, yeni çağırışlara daha mütəşəkkil və təsirli cavab verəcəklər.

Əziz həmvətənlər!

Biz bu il dövlət müstəqilliyimizin 20 illiyini geniş qeyd etdik. Azərbaycanın 20 il ərzində nail olduğu uğurlar vətəndaşlarımızın əməksevərliyini, yüksək intellektual qabiliyyətini və qurub-yaratmaq əzmini bütün dünyaya əyani şəkildə nümayiş etdirir. Müstəqilliyin ilk illərində ölkəni bürümüş böhranlı vəziyyət, xalqımızın düçar olduğu çətinlik və məhrumiyyətlər indi arxada qalmış, yoxsulluq və işsizliyin səviyyəsi minimuma enmişdir. Düşünülmüş və planlı şəkildə aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanı dinamik inkişaf edən güclü və demokratik bir dövlətə çevirmiş, nüfuzlu və etibarlı tərəfdaş kimi dünyada tanıtmışdır. Bu il Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına keçirilən seçkilərdə qələbə qazanmış Azərbaycanı 155 dövlətin dəstəkləməsi dünya birliyinin ölkəmizə olan hörmət və inamının parlaq təzahürüdür.

Müasir dövrdə dünyada gedən proseslərin axarı sürətlə dəyişir. Qlobal, regional və lokal səviyyələrdə meydana çıxan problemlər, təhlükəli meyillər ağır iqtisadi böhranlara və sosial təlatümlərə yol açır, beynəlxalq əlaqələrə güclü təsir göstərir. Belə şəraitdə qazandığımız nailiyyətlərin möhkəmləndirilməsi və ölkəmizin davamlı inkişafının təmin olunması mühüm əhəmiyyət kəsb edir. Bu yaxınlarda imzalanmış «Azərbaycan–2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının hazırlanması haqqında prezidentin sərəncamı məhz həmin sahədə perspektiv vəzifələrin və onların həlli yollarının aydın müəyyən olunmasına yönəlib.

Azərbaycan dövlətinin gücü, xalqımızın yaradıcı potensialı müəyyənləşdirdiyimiz yeni məqsədlərə çatacağımıza əminlik yaradır. Lakin hələ də qarşımızda həllini tapmayan vəzifə –

Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin pozulmuş ərazi bütövlüyünün bərpası, qaçqın və məcburi köçkünlərin öz doğma ocağına dönməsinin təmin edilməsi dayanır. Şübhə etmirəm ki, biz tezliklə bu çətin problemin də öhdəsindən gələcək, dünyanın gözü qarşısında törədilən işğala və haqsızlığa son qoyacağıq.

Əziz bacı və qardaşlar!

Qələbəyə, ədalətin təntənəsinə gedən yolu qısaltmağın vacib şərtlərindən biri də bizim birliyimiz və həmrəyliyimizdir. Ona görə də bütün azərbaycanlıları daha sıx birliyə, dünyada yaşayan soydaşlarımızın milli və vətəndaş haqlarının müdafiəsi, müstəqil dövlətimizin mənafelərinin ardıcıl qorunması və beynəlxalq nüfuzunun artırılması işinə bundan sonra da öz töhfələrini verməyə çağırıram.

Bu sevimli bayram münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə cansağlığı və səadət, işlərinizdə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 dekabr 2011-ci il*

# İRAQIN XARİCİ İŞLƏR NAZİRİ HOŞYAR ZEBARİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də İraq Respublikasının Xarici İşlər naziri Hoşyar Zebarinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Hoşyar Zebari İraq prezidenti Cəlal Tələbaninin, Baş nazir Nuri əl-Malikinin salamlarını dövlətimizin başçısına çatdırdı. Hoşyar Zebari beynəlxalq sülhməramlı missiyanın tərkibində Azərbaycan sülhməramlılarının İraqdakı fəaliyyətinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında güclü tərəfdaşlıq əlaqələrinin yaradılması üçün yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev yaxın vaxtlarda İraqda Azərbaycanın səfirliyinin açılacağına əminliyini qeyd etdi. Ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlığından məmnunluğunu bildirən prezident İlham Əliyev BMT-nin Baş Məclisində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə bağlı keçirilən müzakirələrdə və Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçildiyi zaman keçirilən səsvermədə İraqın ölkəmizə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. İraq Respublikasının Xarici İşlər naziri Hoşyar Zebarinin Azərbaycana səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev İraq prezidenti Cəlal Tələbaninin, Baş nazir Nuri əl-Malikinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İraqın dövlət başçısına və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## ƏLƏT–ASTARA YOLUNUN 9-cu KİLOMETRLİYİNDƏ YENİ SALINMIŞ DAİRƏVİ YOLUN VƏ İKİ YOL QOVŞAĞININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*23 dekabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 23-də Ələt–Astara yolunun 9-cu kilometrliyində yeni salınmış dairəvi yolun və iki yol qovşağının açılışında iştirak etmək üçün Ələt qəsəbəsinə gəlmişdir.*

*Azərbaycanın sürətli iqtisadi inkişafı bütün sahələrdə olduğu kimi, ölkənin yol-nəqliyyat strukturunda da əsaslı dəyişikliklərə səbəb olub. Çox qısa müddət ərzində respublikanın bütün beynəlxalq əhəmiyyətli magistralları tamamilə yenidən qurulub və genişləndirilib. İndi həmin yollarda hərəkətin tənzimlənməsi üçün tədbirlər davam etdirilir. Prezident İlham Əliyevin tapşırığına əsasən 2009-cu ilin noyabrında Ələt–Astara yolunun Ələt qəsəbəsi ərazisindən keçən hissəsində yeni yolun və 2 yol qovşağının tikintisinə başlanıldı. Nəqliyyat Nazirliyinin sifarişi ilə «Azərinşaatservis» Məhdud Məsuliyyətli Cəmiyyət 2 il müddətində inşaat işlərini başa çatdırmışdır.*

*Beynəlxalq əhəmiyyətli bu magistralda nəqliyyatın sıxlığı və ağırtonnajlı avtomobillərin hərəkəti nəzərə alınaraq layihədə bu yolun möhkəmliyinə və davamlılığına xüsusi diqqət yetirilib. Bildirildi ki, yolun Ələt qəsəbə mərkəzindən kənara çıxarılması bu yaşayış məntəqəsində də nəqliyyat vasitələrinin yaratdığı gərginliyi aradan qaldırır. Yol üzərində tikilmiş 2 qovşaq isə nəqliyyat vasitələrinin maneəsiz və təhlükəsiz hərəkətini təmin edir.*

*Sonra prezident İlham Əliyev yeni yolun açılışını bildirən lenti kəsdi, yeni salınmış dairəvi yola və yol qovşaqlarına baxdı.*

# «ROSSİYA» DÖVLƏT TELEKANALININ «HAKİMİYYƏT FORMULU» VERİLİŞİNƏ MÜSAHİBƏ

*23 dekabr 2011-ci il*

*Dekabrın 23-də «Rossiya» Dövlət Telekanalında Mixail Qusmanın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr edilmiş «Hakimiyyət formulu» müəllif proqramı göstərilmişdir.*

**İ l h a m Ə l i y e v:** Azərbaycan müsəlman Şərqində demokratik respublika quran, demokratik parlament yaradan, qadınlara səsvermə hüququ verən ilk ölkədir. Müasirlik və maarifçilik ənənələri ölkəmizdə çox dərin köklərə malikdir. Biz də müasir dövlətimizi bu bünövrə üzərində qururuq. Mən ölkəmizi müasir, demokratik, ali qanunvericilik və çox güclü sosial siyasətə malik, iqtisadi cəhətdən inkişaf etmiş və regionda güclü mövqe tutan ölkə kimi görürəm. Dediklərimin əksəriyyətinə artıq nail olunub.

**M ü ə l l i f d ə n:** İlham Heydər oğlu Əliyev. 1961-ci il dekabrın 24-də Bakıda anadan olub. 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. 1994–2003-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti olub. 2003-cü il avqustun 4-dən ölkənin Baş naziri vəzifəsini icra edib. 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilib.

**M i x a i l Q u s m a n: Azərbaycanın həm sənayedə, həm iqtisadiyyatda, həm kənd təsərrüfatında, həm də beynəlxalq aləmdə uğurları xoş təəssürat yaradır. Sizcə bu uğurların özəyi nədədir?**

**İ l h a m Ə l i y e v:** Mən prezident vəzifəsinə başlayanda, ondan da əvvəl, seçkiqabağı dövrdə də bildirmişdim ki, mənə etimad göstərilərsə, atamın siyasətini davam etdirəcəyəm. Atam Azərbaycanı xaotik hadisələr, hakimiyyətsizlik və faktiki olaraq parçalanma girdabından çıxarmışdır. Qəbul olunan mühüm qərarlara gəlincə, mən Azərbaycanın strateji inkişafına təsir

göstərənləri qeyd etmək istərdim. Bu, ilk növbədə ölkənin regional inkişaf proqramıdır. Bu mənim ilk siyasi addımlarımdan, təşəbbüslərimdən biri idi. Çünki paytaxtla regionlar arasında fərqi azaltmaq və aradan qaldırmaq zərurətə çevrilmişdi.

**M ü ə l l i f d ə n:** Son 8 il ərzində Azərbaycanın iqtisadiyyatı 300 faiz, sənaye istehsalı bir neçə dəfə artıb, 950 min yeni iş yeri açılıb.

**İ l h a m Ə l i y e v:** Nəhəng artım prosesi başlayan kimi, inersiya qüvvəsi də işə qoşuldu. Yerlərdən yeni təşəbbüslər meydana çıxdı, cəmiyyətdə tamamilə nadir yaradıcılıq ruhu yarandı. Belə bir ictimai canfəşanlıq bizə çox kömək edir.

**M e h r i b a n x a n ı m Ə l i y e v a:** İnsan, siyasətçi və dövlət başçısı arasındakı belə bir əlaqə şübhəsiz ki, göz qabağındadır. Bu mənada İlhamın regionlara səfərləri, müxtəlif peşə sahibi olan insanlarla səmimi söhbətləri barədə danışmaq olar. Bu adamların İlhama olan səmimiliyi, sevgi duyğuları ürəkdən gəlir. Bu, tam səmimi duyğulardır.

**M ü ə l l i f d ə n:** 2011-ci il. Azərbaycan... Adambaşına düşən ümumi daxili məhsul 6 min dollar təşkil edir. Əhalinin pul gəlirləri 19 faiz artıb. Pensiyaların məbləği orta əməkhaqqının 40 faizinə bərabərdir.

**M i x a i l Q u s m a n: Bu yaxınlarda Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Siz Azərbaycanın Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi, vəzifələrini, imkanlarını nədə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Bu qələbə müstəqil Azərbaycanın bütün tarixi ərzində bəlkə də ən vacib, ən əhəmiyyətli və sanballı qələbədir. Bu qələbə bizim həm ölkə daxilində, həm də beynəlxalq aləmdə gördüyümüz bütün işləri əks etdirir. Müstəqilliyin 20 ili ərzində biz buna nail olmuşuq ki, 155 ölkə gərgin mübarizədə bizim namizədliyimizi dəstəkləyib. Əminəm ki, nüfuz, imic xarakterindən əlavə, bizim Təhlükəsizlik Şurasında üzvlüyümüzün praktiki səmərəsi olacaqdır. Özü də təkcə ölkəmizin maraqlarını təmin etmək üçün yox, o cümlədən

bizim üçün ən mühüm və çətin məsələ olan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində maraqlarımızı təmin edəcəkdir. Biz bu mövzunu daim Təhlükəsizlik Şurasının diqqət mərkəzində saxlayacağıq. Həm də sülhün, təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsi işinə töhfəmizi verməyə çalışacağıq.

**M i x a i l Q u s m a n: Siz ağrılı, ən çətin siyasi problemə – Dağlıq Qarabağ probleminə toxundunuz. Fikrinizcə, bu problemin düyününü açmaq mümkündür, yaxud bütün ipləri kəsib-doğramaq daha məqbuldur?**

**İ l h a m Ə l i y e v:** Həqiqətən də yalnız iki yol vardır. Münaqişənin nizamlanması yolu yalnız beynəlxalq hüquq normaları, indi bizim üzv olduğumuz BMT Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməsi üzərindən keçir. Bu qərarlar yerinə yetirilməlidir. 4 belə qətnamə vardır. Hamısı da eyni tələbi irəli sürür: Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bu bizim suveren hüququmuzdur. Dövlətimizin ərazi bütövlüyünün təkcə siyasi vasitələrlə deyil, hərbi vasitələrlə də bərpa edilməsinə suveren hüquqlarımız var. Bu, BMT nizamnaməsinə tam uyğundur. Sadəcə olaraq, biz bundan istifadə etmək istəmirik.

**M i x a i l Q u s m a n: Siz ölkənin bölgələrinə tez-tez baş çəkirsiniz. Məncə, hər həftə regionlardan birində olursunuz. Başa düşürəm ki, bu regional siyasətə neft rentası kömək edir. Bəs bu gün magistral hədəf nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, neft amili bizə çox kömək edib. Axı bu da bizim xidmətimizdir. Neft çox yerlərdə var. Bəzi ölkələrdə bizdəkindən də qat-qat çoxdur, lakin resurslardan düzgün istifadə edilməsi, xalqın sərvətinin ədalətli bölgüsü, habelə vəsaitlərin xərclənməsində və akkumulyasiyasında maksimum şəffaflıq elə vəziyyətə nail olmağa imkan verib ki, valyuta ehtiyatlarımız ilbəil artır və 8 ildə yoxsulluq səviyyəsi 5 dəfə azalaraq 49 faizdən 9 faizə düşüb. Gələn il biz Azərbaycanın ilk telekommunikasiya peykini buraxacağıq. Biz kosmik sənaye yaradırıq. Bəzilərinin

fikrincə, Azərbaycanın baxmalı olduğundan çox-çox uzağa baxırıq.

**M ü ə l l i f d ə n:** 2011-ci il... Azərbaycanın valyuta ehtiyatları 11 milyard artaraq 40 milyard dolları keçdi. Qeyri-neft iqtisadiyyatı 8,2 faiz, kənd təsərrüfatı 7,8 faiz artdı.

**M i x a i l Q u s m a n: Azərbaycan müstəqilliyinin bərpasının 20 illiyini «Eurovision»da qazandığı böyük uğurla bayram etdi...**

**İ l h a m Ə l i y e v:** Bu həqiqətən böyük qələbədir. Bütün Avropa bizə səs verdi. Böyük bir fərqlə qalib gəldik. Bu bizim ifaçılarımızın qələbəsidir. Həmin qələbə həm də daha geniş mənada qəbul olunur və xalqı səfərbər edir.

**M e h r i b a n x a n ı m Ə l i y e v a:** Canlı yayım gedirdi və Bakının küçələri göstərilirdi, təkcə gənclər deyil, müxtəlif yaşlardan olan insanlar bayraqlarla küçələrdə idilər, gözlərində sevinc görünürdü. İndi biz artıq zirvəni fəth etmişik, qalib gəlmişik. Amma bu o demək deyil ki, biz dayanmalıyıq. 2012-ci ilin «Eurovision»unu Bakıda keçirməyə hazırlaşırıq.

**İ l h a m Ə l i y e v:** Mən həmçinin idmandakı qələbələri qeyd edərdim. Bu sahədə idmançılarımızın hər bir qələbəsi böyük milli bayrama çevrilir. Olimpiya, dünya çempionlarımız var. İdman sahəsindəki qələbələr sanki bütün cəmiyyətdə irəliyə doğru bir təkan yaradır.

**L e y l a x a n ı m Ə l i y e v a:** Atam Azərbaycanın iştirak etdiyi hər bir yarışda qələbəyə elə sevinir, yaxud məğlub olanda elə məyus olur ki, bəlkə də heç idmançılar özləri belə məyus olmurlar.

**İ l h a m Ə l i y e v:** Mənim dediyim qələbələrin çox böyük əhəmiyyəti vardır. Bunlar yeni yol, yeni məktəb, süni peyk, yeni qaz kəməri və sair deməkdir.

**M i x a i l Q u s m a n: Düşünürəm ki, Siz bunu heç vaxt görməmisiniz, hərçənd Sizə həsr olunub. Bu, tələbə İlham Heydər oğlu Əliyevin şəxsi işidir. Düşünmürəm ki, Siz onu nə vaxtsa görmüsünüz.**

**İ l h a m Ə l i y e v:** Bu, məxfi sənəddir.

**M i x a i l   Q u s m a n: Burada Sizin barənizdə maraqlı, bütövlükdə müsbət olan çox məlumatlar vardır. Bilirsiniz ki, hər bir kursdan sonra xüsusi attestasiya verirdilər. Ümumiyyətlə, Sizi həmişə tərifləyiblər. Amma müəllimlər birinci kursda Sizin tez-tez dərs buraxmağınızdan şikayətlənirdilər. Ona görə də Sizə belə bir adi sual vermək istəyirəm: tələbə İlham Əliyev Moskvada Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun hələ köhnə binasından hara gedirmiş?**

**İ l h a m   Ə l i y e v:** Qeyd etdiyiniz kimi, bu, yalnız birinci kursda olub.

**M i x a i l   Q u s m a n: İkinci kursda daha yaxşıdır. Düzünü deyirəm, burada hər şey yazılıb. Burada rəsmi sənədlər, möhürlər, imzalar, müəllimlərin soyadları var.**

**İ l h a m   Ə l i y e v:** Zənnimcə, 10 il Bakıda oxuyan gənc üçün Moskva kimi böyük bir şəhərdə yeni mühitə düşərkən, xüsusən birinci kursda görməli yerlərlə tanışlıq üçün vaxtından səmərəli istifadə etməsi təbiidir. Amma qeyd etdiyiniz kimi, bu hadisə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun köhnə binasında baş verdiyinə görə, hara getdiyim anlaşılar. Bilirsiniz ki, küçənin o biri tərəfində Qorki adına Mədəniyyət və istirahət parkı yerləşirdi. Biz də oraya...

**M i x a i l   Q u s m a n: Ora Moskvada ən sevimli yer idi.**

**İ l h a m   Ə l i y e v:** Bəli, bu, instituta ən yaxın yer idi.

**M i x a i l   Q u s m a n: Oraya qaçmaq olardı.**

**İ l h a m   Ə l i y e v:** Oraya qaçmaq və qayıtmaq olardı. Buna görə sağ olun.

**M i x a i l   Q u s m a n: Bilirəm ki, gənclik illəriniz yaddaşınızdan silinməyib. Siz bugünkü gənc nəsli də görürsünüz. Fikrinizcə, bugünkü gənc nəsli Sizin gənclik illərinizlə müqayisə etsək, hansı müsbət və mənfi cəhətlər var?**

**İ l h a m   Ə l i y e v:** Hesab edirəm ki, indiki gənclik daha müstəqil, daha motivasiyalı və daha peşəkardır. Bizim ölkədə baş verənlərə əsasən görürəm ki, indiki gənclərin uğur

qazanmaq arzusu çox böyükdür. Onlar başa düşürlər ki, bu, yalnız yaxşı təhsil almaqla mümkündür. Mənə çox xoşdur ki, gənclərimiz köklərinə çox bağlıdırlar. Qloballaşmaya, yeni fikirlərə baxmayaraq, bizim gənclərin çox böyük qismi Azərbaycan musiqisini dinləyir.

**Mehriban xanım Əliyeva:** Muğam mütləq olaraq xüsusi maraq doğurur. Çünki zəngin musiqidir. Muğamda çox böyük dərinlik var, ruhu qidalandırır. Biz muğam konsertləri, muğam müsabiqələri keçirməyə başladıq. Getdikcə daha çox gənc bu musiqi ilə maraqlanmağa başladı.

**Mixail Qusman: Bu qovluq sizə tanışdır?**

**İlham Əliyev:** Yox.

**Mixail Qusman: Bu sizin dissertasiyanızın referatıdır. Bu dissertasiya Böyük Britaniyada ilkin mərhələdə müharibə əleyhinə hərəkata və siyasi partiyaların ona münasibətinə həsr olunub.**

**İlham Əliyev:** Bu mövzu yadımdadır.

**Mixail Qusman: Bununla əlaqədar hər halda, sualım Sizə peşə cəhətdən yaxın olan xarici siyasətlə bağlıdır. Azərbaycan nadir geosiyasi mövqeyə malikdir. Geosiyasi amillər Sizin siyasətinizə necə təsir edir?**

**İlham Əliyev:** Biz regionun bir hissəsiyik və istər-istəməz regionda baş verən proseslər bizə təsir edir. Amma prezident kimi, mənim vəzifəm region xarakterli hadisələrin Azərbaycana təsirini azaltmaq və əksinə, Azərbaycanın regional proseslərə təsirini maksimum dərəcədə artırmaqdır. İqtisadiyyata gəlincə, Azərbaycanın iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 83 faizini təşkil edir. Gələcəkdə də bu rəqəm yalnız artacaqdır. Bu gün Azərbaycanın iştirakı olmadan heç bir layihənin həyata keçməsi mümkün deyildir. Nə enerji, nə nəqliyyat, nə də xarici siyasət.

**Mixail Qusman: Rusiya Azərbaycanın qonşusudur. Sizin Rusiyanın həm keçmiş prezidenti Putinlə və hazırkı prezident Dmitri Medvedevlə çox yaxşı siyasi, peşəkar əlaqələriniz vardır. Bu mövzuda Moskva Dövlət**

**Beynəlxalq Münasibətlər İnstitutu kimi zəngin təcrübəniz vardır. Rusiya ilə Azərbaycan arasında hansı əməkdaşlıq perspektivlərini görürsünüz? Burada hansı ağrılı nöqtələr, açılmayan düyünlər var, digər tərəfdən, bu inkişafın perspektivləri nədədir?**

**İ l h a m  Ə l i y e v:** Mənə elə gəlir ki, perspektivlər çox müsbətdir. Mənim həm Rusiya prezidenti ilə, həm də Baş nazirlə çox sıx əlaqələrim vardır. Deməliyəm ki, Rusiya ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsi məhz 2000-ci illərin əvvəlində, Rusiyaya Vladimir Putin başçılıq edəndə başlayıb. Elə o vaxt Rusiya prezidenti Azərbaycana ilk rəsmi səfər edib. Bu 10 il ərzində çox iş görülüb. İkitərəfli münasibətlərin bütün ağrılı və çətin məsələləri həll olunub. Hamısı. Sonuncu problem prezident Dmitri Anatolyeviç Medvedevin Azərbaycana son səfəri zamanı həll olunub. Həmin vaxt dövlət sərhədi haqqında sənəd imzalanıb.

**M i x a i l  Q u s m a n: Qeyd etdiyimiz kimi, Siz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda çox gözəl təhsil almısınız. Amma siyasət, diplomatiya, həyata baxış, dünyaya baxış sahəsində əsas dərsləri Heydər Əliyevdən almısınız desəm, yəqin ki, səhv etmərəm. Necə deyərlər, Siz bu gün Heydər Əliyevin hansı dərslərindən istifadə edirsiniz?**

**İ l h a m  Ə l i y e v:** Hər kəs üçün ata yaxın, doğma insandır. Mən bu insana sonsuz hörmət, etimad və iftixarla yanaşırdım. Çünki onun bütün həyatı, mübarizəsi, taleyi və dəyanəti hamı üçün əsl nümunədir. Yəqin hamı xatırlayır ki, həyatının son dövründə kursantlar qarşısında çıxış edərkən halı pisləşdi, yıxıldı, sonra çıxdı, qayıtdı, çıxış etdi, yenə yıxıldı, yenə çıxdı və yenə üçüncü dəfə qayıtdı. Nitqini başa çatdırdı. Düşünmürəm ki, onun yaşda və vəziyyətdə olan daha kimsə bunu edə bilərdi. Axı 80 yaşlı bu insanın 8 qabırğası sınmışdı. Amma o, başqa cür edə bilməzdi. Onun iradəsi də elə bundadır. Bu mərdlik, dəyanət hamımız üçün nümunədir. Həm mənim üçün, həm də bütün azərbaycanlılar üçün.

**M i x a i l Q u s m a n: Təsəvvür etsək ki, hansısa zaman maşınında keçmiş hadisələrə qayıda bilərsiniz, onda hansı hadisələri bir daha duymaq istərdiniz?**

**İ l h a m Ə l i y e v:** Düşünürəm ki, mən istəməzdim. Yaşanan hadisələr nə qədər sevincli olsa da əvvəlki təsiri göstərməyəcək. İmkan olsaydı 10 il irəli gedərdim. Baxardım ki, düşündüklərim baş tutubmu, nə dərəcədə alınıb? Bunu böyük məmnuniyyətlə edərdim. Keçmişə gəlincə, əgər mümkün olsaydı, anamın və atamın yanına qayıdardım.

**M e h r i b a n x a n ı m Ə l i y e v a:** Tezliklə İlhamla birlikdə olmağımızın 29 ili tamam olacaqdır. Hər bir ailədəki kimi, bizim həyatımızda da xeyli xoşbəxt, sevincli, parlaq hadisələr olub. Problemlər və çətinliklər, ağrılı itkilər, kədər, qüssə də olub. Əsas odur ki, biz bunları birlikdə yaşamışıq, yaşayırıq və eyni istiqamətə baxaraq irəli gedirik.

**İ l h a m Ə l i y e v:** Gün ərzində istirahətdə yox, axşam ailə içində olmaq ən gözəl vaxtdır. Axşam mən evin kandarından içəri keçəndə tamamilə başqa, onilliklər ərzində olduğum mühitə düşürəm.

**M e h r i b a n x a n ı m Ə l i y e v a:** Belə çətin işlə məşğul ola-ola səmimiliyi, həssaslığı, açıqlığı və xeyirxahlığı qorumaq böyük ləyaqətdir. Buna görə mən ona çox minnətdaram. Onun necə ata olduğu barədə danışsam... Yəqin bu barədə də qızları danışarlar. Amma qızları, ilk növbədə onun dostlarıdır.

**L e y l a x a n ı m Ə l i y e v a:** Baxmayaraq ki, bizi çox nadir hallarda danlayır, heç bir fikrini sırımır, mənim üçün həyatda ən başlıcası onu heç bir cəhətdən məyus etməməkdir.

**A r z u x a n ı m Ə l i y e v a:** Bilirəm ki, hər necə olsa atam həmişə məni eşidəcək, dəstəkləyəcəkdir. Onun hər bir məsləhəti mənim üçün son dərəcə əsasdır.

**L e y l a x a n ı m Ə l i y e v a:** Mən daha çox atamın qarşısında məsuliyyət hiss edirəm.

**A r z u x a n ı m Ə l i y e v a:** Bütün ailə – mən, Leyla, balaca Heydər, nəvələr birlikdə olanda, görürəm ki, atam belə

anlarda həqiqətən böyük sevinc hissi keçirir, bunu görəndə bizim də hamımızın ürəyi fərəhlə dolur.

**M i x a i l Q u s m a n: Bu günlərdə Sizin həyat yoldaşınız, ölkənin birinci xanımı Mehriban Əliyevanın başçılıq etdiyi Heydər Əliyev Fondu Romada, Vatikanda Azərbaycanın təbliği üzrə genişmiqyaslı tədbirlər həyata keçirib. O, nəhəng işlər görür. YUNESKO-nun Xoşməramlı səfiridir, parlamentin deputatıdır. Bütün bunlar çox gözəldir. Amma bildiyimə görə, o həmişə evə can atır. Bəs nisbət necədir və onun vəzifələri sizinkinə necə uyğun gəlir?**

**İ l h a m Ə l i y e v:** Onun çox böyük ictimai yükü vardır. Hətta birinci xanım vəzifəsi, protokol tədbirləri və sairə böyük səylər tələb edir. Deyək ki, il ərzində bizim birlikdə olmadığımız anlar çox deyildir. Amma hansısa tədbirlərdə iştirak etmək lazım gələndə belə hallar olur. Buna görə də biz bir yerdə olmaq üçün bir-birimizə qarşı can atırıq. O hər cəhətdən çox istedadlı insandır, işinin öhdəsindən gəlir. Bütün işləri yüksək səviyyədə görür.

**M i x a i l Q u s m a n: İlham Heydər oğlu, istər-istəməz artıq 50 yaşa çatmısınız. Çox iş görülüb. Uğurlara güvənmək olardı. Sizi tanıdığıma görə deyə bilərəm ki, bu Sizin təbiətinizə uyğun deyildir. Şəxsən Siz öz qarşınızda növbəti yarım əsr üçün hansı vəzifələri qoyursunuz?**

**İ l h a m Ə l i y e v:** Mən həyatda qabaqcadan qarşıma heç bir vəzifə qoymuram. Amma Prezident kimi, bunu özümə rəva görə bilmərəm, çünki gələcəyi düşünməsəm, bu günün problemlərini həll etmək çox çətin olar. Bizim bu gün həll etdiyimiz problemlər gələcəyə yönəlibdir. Dünya tərəqqi edir, biz də ona çatmalıyıq. Yaxın onilliklərdə dünyanı yalnız ağıllı insanlar idarə edəcək.**M i x a i l Q u s m a n: Gələcəkdən danışarkən keçmişdən nə götürmək istərdiniz və Sizi nə müşayiət edərdi?İ l h a m Ə l i y e v:** Ləyaqəti keçmişdə qoymaq olmaz. Ədəb-ərkan hissini, insanlara xoş münasibət və vətənpərvərlik hissini. Hər bir kəs, hamı bu əsas məqamları özü ilə irəli aparmalıdır. Həmişə öz Vətənini sevmək lazımdır.

## AĞCABƏDİ RAYONUNDA QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN İNŞA EDİLMİŞ YAŞAYIŞ BİNALARINDAN İBARƏT MƏHƏLLƏDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*24 dekabr 2011-ci il*

*Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağcabədi rayonunda qaçqın və məcburi köçkün ailələri üçün inşa edilmiş yaşayış binalarından ibarət məhəllədə görülmüş işlərlə tanış olmuşlar.*

*Dövlətimizin başçısı əvvəlcə məhəllənin baş planını əks etdirən stendə baxdı.*

*Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov məlumat verdi ki, dövlətimizin başçısının doğma yurdlarından didərgin düşmüş soydaşlarımıza diqqət və qayğısı sayəsində Ağcabədi rayonunda da çadır düşərgələri ləğv olunmuş, qaçqınlar və məcburi köçkünlər üçün yeni qəsəbələr salınmış, onların sosial problemlərinin həlli istiqamətində mühüm tədbirlər görülmüşdür.*

*Qaçqınların və məcburi köçkünlərin müvəqqəti yaşayış yerlərindən və çadırlardan mükəmməl infrastruktura malik yeni qəsəbələrə köçürülməsi dövlətin bu insanlara həssas münasibətinin təzahürüdür. İndiyədək qaçqın və məcburi köçkünlər üçün ölkəmizin müxtəlif yerlərində bütün infrastruktura malik 70 qəsəbə salınmışdır. Diqqətə çatdırıldı ki, son 7 ildə qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı Azərbaycan prezidenti 27 fərman və sərəncam imzalamış, bir Dövlət Proqramı və ona əlavələri təsdiqləmişdir. Bu sənədlərin icrası ilə əlaqədar Nazirlər Kabinetinin 88 qərar və sərəncamı verilmiş, Milli Məclisdə qanun qəbul olunmuşdur. Hazırda qaçqınlara və məcburi köçkünlərə Azərbaycan hökumətinin ayırdığı vəsait nisbət etibarilə dünyada ən yuxarı göstəricilər sırasında yer alır.*

*Yeni yaşayış massivinin əsas texniki göstəriciləri barədə prezident İlham Əliyevə məlumat verilərkən bildirildi ki, bu məhəllənin salınmasına dövlətimizin başçısının 2004-cü ildə təsdiq etdiyi Dövlət Proqramına əlavələr edilməsi haqqında 2007-ci ildə imzaladığı sərəncama əsasən bu ilin iyununda başlanılmışdır. İnşaat işlərinə ölkənin 14 tikinti şirkəti cəlb olunmuşdur. Yeni məhəllə gələn ilin əvvəlində tam istifadəyə veriləcəkdir.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva hazır mənzilə baxdılar.*

*Bildirildi ki, bu binalardakı mənzillərdə yaşayış üçün maksimum şərait yaradılmışdır. Məhəllədə 360 şagird yerlik məktəb binası, 50 yerlik uşaq bağçası inşa edilmişdir. Məhəlləni daimi elektrik enerjisi ilə təmin etmək məqsədi ilə transformator yarımstansiyası quraşdırılmış, sakinlərin içməli su tələbatını ödəmək üçün hər biri 500 kubmetr olan iki su anbarı inşa edilmiş, yeni su xətləri çəkilmişdir.*

*Məhəllə ilə tanış olan dövlətimizin başçısı işlərin yüksək səviyyədə başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış qəsəbəsinin açılışı mərasimi

*Dekabrın 24-də Azəraycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağcabədi rayonunun Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış qəsəbəsinin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin qəsəbənin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

*Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov məlumat verdi*

*ki, ölkəmizdə aparılan tikinti-quruculuq işləri Laçından olan məcburi köçkünlərin məskunlaşdıqları Taxtakörpü ərazisində də vüsət almışdır. Buradakı parklarda, Şəhidlər kompleksində və Laçın Rayon İcra Hakimiyyətinin inzibati binasının ətrafında abadlıq işləri həyata keçirilmiş, yaşıllıqlar salınmışdır. Bu ilin əvvəlindən Taxtakörpü ərazisinə 21 kilometr uzunluğunda təbii qaz xəttinin çəkilişi başa çatdırılmış, 4 kilometrlik içməli su xəttində təmir-bərpa işləri aparılmış, köhnə borular yeniləri ilə əvəzlənmişdir.*

*Respublikamızın ümumilikdə 58 rayon və şəhərində müvəqqəti məskunlaşan 71,2 min laçınlıdan 13 mini Taxtakörpü ərazisində yerləşib. Burada məcburi köçkünlər üçün yeni yaşayış qəsəbələri salınır. Bu qəsəbələrdən biri də dövlət başçısının 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramına əlavələr olunması haqqında 2007-ci il 31 oktyabr tarixli Sərəncamına əsasən Ağcabədi rayonu Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün salınan yeni qəsəbədir. Bu qəsəbənin salınması Azərbaycan prezidentinin məcburi köçkünlərin sosial-iqtisadi və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi növbəti mühüm addımlardan biridir.*

*Dövlətimizin başçısına və xanımına yeni qəsəbənin tikintisi üzrə əsas texniki-iqtisadi göstəricilər barədə məlumat verildi ki, zəruri infrastrukturun yaradıldığı qəsəbədəki evlərin 49-u birotaqlı, 194-ü ikiotaqlı, 237-si üçotaqlı, 72-si isə dörd-otaqlıdır. Qəsəbədə 2 transformator stansiyası, 6 qaztənzim-ləyici məntəqə yaradılmış, biraşırımlı körpülər inşa olunmuş, geniş yaşıllıq zolaqları salınmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məcburi köçkün Cənnət Əliyevin evində yaradılan şəraitlə tanış oldular.*

*Azərbaycan prezidenti çay süfrəsi arxasında ev sahibi ilə söhbət etdi.*

**C ə n n ə t  Ə l i y e v:** Xoş gəlmisiniz!

**İ l h a m  Ə l i y e v:** Ev necədir? Xoşunuza gəlir?

**C ə n n ə t  Ə l i y e v:** Bizə gözəl şərait yaratdığınıza, gözəl qəsəbə tikdirdiyinizə, çox əlamətdar gündə laçınlılarla görüşə gəldiyinizə görə Sizə ailəmiz adından və öz adımdan səmimi minnətdarlığımı və təşəkkürümü bildirirəm.

**İ l h a m  Ə l i y e v:** Çox şadam ki, bu gün sizinlə birlikdə bu gözəl hadisəni qeyd edirik. Yeni qəsəbənin istifadəyə verilməsi gözəl hadisədir. Bildiyiniz kimi, Azərbaycanda son illər ərzində onlarla yeni qəsəbə salınmışdır, on minlərlə köçkün yeni evlərə köçürülmüşdür. Bütün şəraiti, həyət sahəsi, bütün infrastruktur – işıq, su, qaz vardır, yaşamaq üçün hər şey yaradılıb. Əvvəlki dövrdə məişət şəraitiniz o qədər də lazımi səviyyədə deyildi. İndi Azərbaycan dövlətinin imkanları var və ən əsası bizim siyasətimiz bundan ibarətdir ki, çətin vəziyyətdə yaşayan soydaşlarımızı gözəl şəraiti olan evlərlə təmin edək.

Burada indi böyük qəsəbə salınıbdır, 552 ev tikilibdir. Görürəm, keyfiyyətlə tikilib, gözəl, geniş, rahat evlərdir. Bu münasibətlə sizi təbrik edirəm, burada rahat yaşayasınız.

**C ə n n ə t  Ə l i y e v:** Ulu öndərimizin gördüyü bütün işlərə görə Azərbaycan xalqı ona borcludur. Sizin kimi kadr yetişdirib, Azərbaycana bəxş edibdir. Ulu öndərimiz həmişə deyirdi ki, mən İlhama özüm qədər inanıram, o mənim yarımçıq qalan işlərimi başa çatdıracaqdır. Siz 2003-cü ildən ölkəmizə rəhbərlik edirsiniz. Bu illər ərzində respublikamızda gedən tikinti, quruculuq, abadlıq işləri, sənaye, kənd təsərrüfatı, elm, mədəniyyət, sosial-iqtisadi sahələrdəki nailiyyətlər, siyasi sabitlik, sürətli inkişaf Azərbaycanı dünyada inkişaf etmiş respublikalar sırasına çıxartdı. Bu Sizin əməyiniz nəticəsində oldu.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, tamamilə haqlısınız. Bu sahədəki işləri də vaxtilə ulu öndər başlamışdı. Çünki ölkəyə daxil olan ilk vəsait məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmişdir. 1999-cu ilin sonunda Neft Fondu yaradıldıqdan sonra neftdən əldə edilən ilk gəlirlər

köçkünlər üçün yeni qəsəbələrin salınmasına sərf edilmişdir. Biz bu siyasəti davam etdiririk. İndi dövlətimizin maliyyə imkanları xeyli dərəcədə artmışdır, biz çalışırıq və çalışmalıyıq ki, bütün köçkünlərin problemlərini həll edək və həll edirik də.

**C ə n n ə t  Ə l i y e v:** Ulu öndərimiz laçınlıların sevimlisi olub. Bir sözü vardı: «Laçın rayonu həm təbiətinə, həm də insanlarına görə Azərbaycanın ən dəyərli guşələrindən biridir». Bu gün onun övladı – Siz işinizin çoxluğuna baxmayaraq vaxt tapıb biz laçınlılarla görüşə gəldiyinizə görə hədsiz dərəcədə sevinirik. Siz doğrudan da ulu öndərin siyasətini şərəflə davam etdirirsiniz.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, doğrudan da elədir. Ulu öndərin Laçına, laçınlılara xüsusi münasibəti var idi. Mən də laçınlıları çox sevirəm və bu gün laçınlılarla birlikdəyəm. Bir şeyi qeyd etmək istəyirəm ki, əgər ulu öndər o vaxt, Azərbaycan üçün həlledici anlarda hakimiyyətdə olsaydı, Laçın heç vaxt işğal altına düşməzdi, heç vaxt. O vaxtkı iqtidarın və hakimiyyət uğrunda mübarizə aparan antimilli qüvvələrin yarıtmaz fəaliyyəti nəticəsində Laçın işğal edildi və demək olar ki, torpaqlarımızın işğalı elə Laçının işğalından başladı. 1992-ci ilin mayında Laçının işğal altına düşməsi Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqənin yaranmasına səbəb oldu.

**C ə n n ə t  Ə l i y e v:** Ermənilər Laçını «Alaqapı» adlandırırdılar. O vaxtkı səriştəsiz rəhbərlərin xəyanətkarlığının nəticəsində 1992-ci ildə ermənilər Laçını işğal etdilər.

**İ l h a m  Ə l i y e v:** Ondan sonra laçınlılar gəldilər susuz səhraya, heç kim onların problemi ilə məşğul olmurdu. Qalmışdılar səhrada başlı-başına, susuz, şəraitsiz. Siz o ağır günləri yaşamısınız, o faciəni görmüsünüz.

**C ə n n ə t  Ə l i y e v:** O günlər getsin, gəlməsin. Məcburi köçkünlərə soyuq münasibətlə, problemlərimizlə əlaqədar mən 4 nəfərlə birlikdə komitə sədrinin qəbulunda oldum. Onlar hansı stulda oturduqlarını bilmirdilər.

Ulu öndərimiz 1971-ci ildə dağ rayonlarının iqtisadiyyatını yüksəltmək haqqında qərar qəbul etdi. 1974-cü ildə də Laçın

şəhərinin yaradılmasının 50 illiyi ilə bağlı qərar qəbul etdi. Bu qərarların hesabına Laçın sürətlə inkişaf etdi. İstər iqtisadi cəhətdən, istər abadlıq-quruculuq sahəsində dağ rayonları sırasında Laçın birinci yerdə dururdu. O vaxt məni Sizin rəhmətlik atanız Laçının 50 illiyi ilə əlaqədar təltif etdi. Siz isə 2009-cu ildə mənə mübarək imzanızla «Tərəqqi» medalı verdiniz. Ailəmiz adından, bütün əzizlərim adından əllərinizi sıxaraq Sizi bağrıma basıram və minnətdarlığımı, təşəkkürümü bildirirəm.

**İ l h a m Ə l i y e v:** Torpaqlarımız işğalçılardan azad olunacaq və ondan sonra Laçında, Kəlbəcərdə, Ağdamda, hələ ki işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm. Biz öz ərazi bütövlüyümüzü mütləq bərpa edəcəyik. İndi baxın, son 20 il ərzində Azərbaycan nə qədər böyük uğurlu yol keçmişdir. Beynəlxalq təşkilatlarda nüfuzumuz, ölkə daxilindəki təşəbbüslərimiz, ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişafı və güclü hərbi potensialın yaradılması deməyə əsas verir ki, biz bu işğala son qoyacağıq. Bu qaçılmazdır. Ermənistan və Ermənistanın indiki rəhbərliyi əminəm ki, bunu dərk edir. Bunun yeganə yolu vardır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, bütün köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar. Dağlıq Qarabağa, o cümlədən Şuşaya qayıtmalıdırlar. Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilməlidir. Beynəlxalq hüquq normaları bunu tələb edir. Haqq-ədalət bunu tələb edir və Azərbaycan xalqı bunu tələb edir. Oraya qayıtmaq üçün indi biz diplomatik səylər göstəririk. Əgər görsək ki, bu səylər nəticə vermir, onda istənilən anda biz hərbi yolla torpağımızı qaytarmalıyıq. Beynəlxalq hüquq normaları bizə bu haqqı tanıyır. Biz çalışırıq ki, məsələni danışıqlar yolu ilə həll edək və eyni zamanda, daha da güclənək. Biz güclü hərbi potensial yaratmışıq. Növbəti illərdə Ermənistan ilə Azərbaycan arasındakı fərq ancaq böyüyəcəkdir. Bu fərq hər yerdə özünü göstərir – iqtisadiyyatda, ölkələrimizin siyasi çəkisində, beynəlxalq dəstəkdə, hərbi potensialda və

demoqrafik göstəricilərdə. Bizim əhalimiz artır, Ermənistan əhalisi azalır. Azərbaycanda 9 milyon 300 min əhali var, Ermənistanda 1 milyon 800 min. Bu ilin ilk yarısında onların rəsmi statistikasına görə – bu statistika həmişə saxtakarlıq üzərində qurulub – 60 min vətəndaş bu ölkəni tərk edib. İl ərzində bu 100 mindən artıq olacaqdır.

Bizim dünyada tərəfdaşlarımızın sayı artır. 155 ölkə Azərbaycanı dəstəkləyib. Dünyada 200-dən bir qədər az ölkə var. Onun 155-i Azərbaycana səs verib. Dünyada dünya problemlərini həll edən ölkələr var. Onlar 155 ölkənin dəstəyini ala bilərmi?! Heç vaxt! Azərbaycan gənc, müstəqil ölkədir, cəmi 20 ildir dünya siyasi xəritəsində yerimiz var. 155 ölkə bizi dəstəkləyir və bu dəstək getdikcə daha da artacaqdır. Növbəti iki il ərzində Təhlükəsizlik Şurasında bizə səs verən bütün ölkələr görəcəklər ki, onlar səhv etməmişlər. Çünki biz onların maraqlarını müdafiə edəcəyik, ədaləti müdafiə edəcəyik, qanunu müdafiə edəcəyik.

Biz indi danışıqları davam etdiririk və bir müddət davam etdirəcəyik. Ancaq biz siyasi-iqtisadi, hərbi gücümüzü, bölgədəki təsir imkanlarımızı, dünyadakı mövqelərimizi bilirik. Bizə əlavə güc verən xalqın siyasətimizə verdiyi dəstəkdir. Bu məni daha da ruhlandırır və bütün məsələlərdə ölkəmizin maraqlarını müdafiə etmək üçün daha da gözəl imkanlar yaradır.

* * *

*Sonra prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva laçınlı məcburi köçkünlərin istehsal etdikləri məhsullara baxdılar, sacda yuxa çörəyinin bişirilməsi və nehrə yağının hazırlanması prosesini izlədilər. Azərbaycan prezidentinə və xanımına arıçılıq ləvazimatları və arı məhsulları nümunələri, o cümlədən təbii yolla alınan səbət arısı barədə məlumat verildi.*

*Dövlətimizin başçısı qəsəbənin sakinlərini salamladı.*

**İ l h a m Ə l i y e v:** Sabahınız xeyir olsun! Hamınızı ürəkdən salamlayıram. Bu gözəl qəsəbənin açılışı münasibətilə

sizi təbrik edirəm. 552 ev tikilibdir, rahat, gözəl evlərdir, məktəbi vardır. Bütün infrastruktur yaradılıbdır – su, işıq, qaz. Birinci dəfə deyildir ki, biz məcburi köçkünlərlə yeni qəsəbələrin açılışlarında görüşürük, ildə bir neçə gözəl qəsəbə salınır. Son illər 70 gözəl qəsəbə yaradılmışdır. Bildiyiniz kimi, vaxtilə çadır şəhərcikləri var idi. Onların hamısı 2007-ci ilin sonunda ləğv edildi, yerində gözəl qəsəbələr yaradıldı. Bu qəsəbələrdə 100 mindən artıq məcburi köçkün məskunlaşdı.

Bu gözəl təşəbbüs vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Keçən əsrin 90-cı illərinin sonlarında Azərbaycanda yaradılmış Dövlət Neft Fondunun ilk ödəmələri məhz məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına xərclənmişdir. Bu siyasət bu gün də davam etdirilir. Ağcabədi rayonunda hazırda tikilməkdə olan 556 mənzildən ibarət qəsəbə mövcuddur. Qəsəbənin tikintisi ilə bu gün tanış olmuşam. Yəqin ki, gələn ilin əvvəlində məcburi köçkünlər o qəsəbəyə də köçürüləcəkdir. Mənə verilən məlumatlara görə, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün 4 milyard dollardan çox vəsait xərclənmişdir. Onun 3,7 milyardı Azərbaycan dövləti tərəfindən xərclənmişdir. Həm Dövlət Neft Fondu, həm də Azərbaycan büdcəsi tərəfindən bu məsələlər həllini tapmışdır. Növbəti illərdə, xüsusilə gələn ildən başlayaraq daha da böyük məbləğdə vəsait nəzərdə tutulacaqdır ki, hazırda çətin vəziyyətdə yaşayan köçkünlərin problemlərini tezliklə həll edək. İndiki mərhələdə biz fin qəsəbələrində, məktəblərdə, yataqxanalarda, hərbi hissələrin ərazilərində məskunlaşmış köçkünlərin problemlərini həll edirik. Siz də bu vaxta qədər fin qəsəbələrində çox ağır, çətin vəziyyətdə yaşamısınız. Burada yaşamaq üçün bütün imkanlar vardır. Ancaq bu da müvəqqəti yaşayış məntəqəsidir. Torpaqlarımız işğalçılardan azad edildikdən sonra işğal altında olan bütün torpaqlarda, o cümlədən Laçında bundan da gözəl qəsəbələr, kəndlər salınacaqdır. Əminəm ki, bunu etmək üçün imkanımız, gücümüz olacaqdır. Hazırda işğal altında olan torpaqlara

vətəndaşlarımızı qaytarmalıyıq. Bunu etmək üçün danışıqlar aparılır, səylər göstərilir. Azərbaycan dövlətinin qarşısında bundan vacib məsələ yoxdur. Nə vaxta qədər ki, danışıqlar prosesindəyik, Qarabağ məsələsində hər şey təkcə bizdən asılı deyildir. Danışıqların iki tərəfi var – bir tərəf Azərbaycan, digər tərəf Ermənistan. Danışıqları aparmaq üçün beynəlxalq format, Minsk qrupu 20 ilə yaxındır ki, fəaliyyət göstərir. Amma heç bir nəticə yoxdur. Baxmayaraq ki, bütün beynəlxalq təşkilatların qərarları, qətnamələri Azərbaycanın haqlı mövqeyini müdafiə edir, məsələ öz həllini tapmır. Çünki dünyadakı erməni lobbisi, ermənilərin havadarları buna imkan vermirlər. Erməni lobbisi bəzi böyük ölkələrin siyasətinə də öz təsirini göstərir. Bizə qarşı təkcə Ermənistan mübarizə aparmır. Ermənistan bizim qabağımızda böyük qüvvə deyildir. Dünya erməniliyi və onların çirkli pulları ilə idarə edilən riyakar siyasətçilər də mübarizə aparırlar. Təxminən 20 ildir Minsk qrupu fəaliyyət göstərir, amma heç bir nəticə yoxdur. Nəticəni əldə etmək üçün çox böyük addımlara ehtiyac yoxdur. Beynəlxalq təşkilatların, BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. Beynəlxalq ictimaiyyət tələb etməlidir ki, işğalçı qüvvələr işğal etdiyi torpaqlardan çəkilsin və imkan versin ki, Azərbaycan vətəndaşları yurdlarına qayıtsınlar. Çünki bütün dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü tanıyır, amma qətnamələr icrasız qalır. Çünki dünya erməniliyinin və arxalarında dayanan antiazərbaycan qüvvələrinin fəaliyyəti nəticəsində bu məsələ, bax, belə dondurulmuş vəziyyətdədir. Nə qədər ki, torpaqlarımız işğal altındadır, biz çalışacağıq və çalışırıq ki, bu məsələni tezliklə ədalətli şəkildə həll edək. Ədalətli həll də Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. İşğal edilmiş bütün torpaqlarda Azərbaycanın suverenliyi təmin edilməlidir və ediləcəkdir. Mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu deməyə əsas verən bir neçə amil vardır. Artan siyasi çəkimiz, iqtisadi gücümüz, ən önəmlisi də lazımi səviyyədə hərbi gücümüz. İllər keçdikcə biz daha da güclənəcəyik, Ermənistan isə zəifləyəcəkdir. Nə qədər ki,

torpaqlarımız işğal altındadır, Ermənistana qarşı bütün cəbhələrdə mübarizə aparılır və aparılacaqdır.

Əziz dostlar, laçınlılar bütün dövrlərdə azərbaycançılıq fəlsəfəsinə sadiq olmuşlar. Laçının işğal altına düşməsi təkcə sizin deyil, bizim hamımızın böyük faciəsidir. Laçının gözəl abidələri, dini abidələri dağıdılıbdır. Muzey eksponatlarımız talan edilibdir, evlər dağıdılıbdır. Evin sökülməsi dərddir, amma evdə düşmənin yaşaması ondan da böyük dərddir. Laçın rayonunun mərkəzində, sizin evlərinizdə indi düşmənlər yaşayır. Bu vəziyyətlə barışmaq mümkün deyil və biz bu vəziyyətlə barışmayacağıq. Laçının işğal edilməsi başqa rayonların işğal edilməsinə gətirib çıxarıb. 1992-ci ilin mayında əvvəl Şuşa, ondan bir neçə gün sonra Laçın işğal altına düşdü. 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşdü. Beləliklə, Ermənistan ilə Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaradıldı. Heç vaxt bu bağlantı yox idi.

Vaxtilə Heydər Əliyev hələ Bakıdan Moskvaya işləməyə gedəndə ona qarşı kampaniya başlamışdı. Ləkələmə, qaralama, qarayaxma kampaniyasına başlamışdılar – həm ermənilər, erməni millətçiləri, həm də burada, Azərbaycanda yaşayan antimilli qüvvələr. Heydər Əliyev Siyasi Bürodan istefa verəndən bir neçə gün sonra ermənilər Qarabağ məsələsini qaldırmışlar və ondan sonra müharibə başlamışdır. Əfsuslar olsun ki, o vaxt Azərbaycanın başında dayanan insanlar xalqın etimadını nəinki doğrulda bilməmişlər, cinayət törətmişlər. İndi biz bu vəziyyətlə üzləşmişik.

Mən bir daha demək istəyirəm ki, bu məsələ həll olunmayana qədər Azərbaycan xalqı rahat yaşaya bilməz və biz sakitləşməyəcəyik. Biz bu məsələni öz xeyrimizə, ədalətli şəkildə həll etməliyik. Azərbaycan çoxmillətli dövlətdir. Heç vaxt Azərbaycanda milli, dini zəmində heç bir qarşıdurma olmamışdır. Dağlıq Qarabağda ermənilər də suveren Azərbaycan dövlətinin tərkibində yaşaya bilərlər və yaşamalıdırlar. Hazırda Azərbaycanda ermənilər yaşayırlar. Heç kim onlara bir

söz demir, onlar bizim vətəndaşlarımızdır. Azərbaycan tolerant, dözümlü ölkədir, xalqımız tolerantdır.

Dağlıq Qarabağ məsələsi yalnız bu prinsiplər əsasında öz həllini tapmalıdır. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Bütün köçkünlər öz ata-baba torpağına qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağa. Ondan sonra Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları bir yerdə yaşayacaqlar. Azərbaycanlılar Şuşaya qayıtmalıdırlar, orada yaşamalıdırlar və yaşayacaqlar. Biz istəyirik ki, bunu sülh yolu ilə edək. Əgər bu mümkün olmasa, onda lazım olan anda Azərbaycan Ordusu öz sözünü deyəcəkdir.

Əziz dostlar, mən bu gün bir daha sizi salamlayıram, demək istəyirəm ki, bu, sadəcə olaraq müvəqqəti yaşayış yeridir. Ancaq biz istəyirik ki, müvəqqəti də olsa, şərait yaxşı olsun. Hesab edirəm ki, burada yaxşı şərait yaradılmışdır. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin fəaliyyətini yüksək qiymətləndirirəm. Bütün bu işləri çox böyük peşəkarlıqla, böyük məhəbbətlə görürlər. Biz daim əlaqə saxlayırıq, bütün bu layihələr məruzə edilir. Komitə tərəfindən irəli sürülən bütün təşəbbüslər mənim tərəfimdən dəstəklənir. Gələn il bu məqsədlər üçün – yeni qəsəbələrin salınması üçün daha da çox vəsait ayrılacaqdır. Azərbaycan Dövlət Neft Fondu da bu sahədə böyük işlər görür. Bu bir daha onu göstərir ki, xalqın sərvəti olan neft və ondan əldə olunan gəlir insanların sərəncamındadır. Azərbaycanda bu gəlirlər ədalətli şəkildə bölünür. Neft Fondu artıq dünya miqyasında çox böyük nüfuza malik olan təşkilatdır. Neft Fondunun gəlirləri artır. Belə olan halda yeni qəsəbələrin tikilməsinə daha da böyük məbləğdə vəsait ayrılacaqdır.

Bir daha sizi salamlayıram və uğurlar arzulayıram.

* * *

*Daha sonra dövlətimizin başçısı və xanımı 360 yerlik məktəb binasında yaradılmış şəraitlə tanış oldular. Bildirildi ki, məktəbin həyatində abadlıq və yaşıllaşdırma işləri aparılmış, futbol meydançası inşa olunmuşdur. İdman zalında basketbol, güləş və voleybol kimi idman növlərinə aid avadanlıq quraşdırılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva zalda idmançıların nümunəvi çıxışlarını izlədilər.*

*Prezident İlham Əliyev Laçından olan məşhur şəxsiyyətlər haqqında məlumatların əks olunduğu stendə də baxdı. Qeyd olundu ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri Xosrov bəy Sultanov Laçında doğulub boya-başa çatmışdır.*

*Məktəbdə sinif otaqları ilə yanaşı, fizika və biologiya kabinetləri yerləşir. Kitabxananın zəngin fondu vardır. Məktəbdə ulu öndər Heydər Əliyev və prezident İlham Əliyevin təhsilimizə olan diqqət və qayğısını əks etdirən fotoguşələr yaradılmışdır. Burada Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələrdən bəhs edən guşə də vardır.*

*Bildirildi ki, qəsəbənin ərazisində inşa olunan 50 çarpayılıq uşaq bağçası isə balacaların daha çox sevincinə səbəb olacaqdır. Geniş və işıqlı otaqlar, müxtəlif oyun zalları, məktəbəqədər hazırlıq guşəsi balacaların ixtiyarına veriləcəkdir.*

*Sakinlərin ərazi idarəetmə təşkilatlarına və digər sosial obyektlərə müraciətini asanlaşdırmaq üçün qəsəbənin mərkəzində ayrıca inzibati bina da inşa olunmuşdur. Qəsəbə ərazisində zəruri avadanlıqla təchiz olunan ambulatoriya inşa edilmişdir. Ərazidə müxtəlif yığıncaq və tədbirlərin keçirilməsi üçün klub-icma mərkəzi də yaradılmışdır.*

*Dövlətimizin başçısı yeni qəsəbədə yaradılmış şəraitdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## «BAKI AĞ ŞƏHƏR»İN TƏMƏL DAŞININ QOYULMASI MƏRASİMİNDƏ İŞTİRAK

*24 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də yeni salınacaq «Bakı Ağ şəhər»in təməl daşının qoyulması mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı İlham Əliyev ailə üzvləri ilə birlikdə yeni salınacaq «Ağ şəhər»in təməl daşının qoyulması mərasimində iştirak etmək üçün Bakının Xətai rayonuna gəldilər.*

*«Bakı Ağ şəhər» layihəsi üzrə görülən və görüləcək işlər barədə prezident İlham Əliyevə məlumat verildi. Bildirildi ki, Bakının ekoloji cəhətdən ən yararsız, neft və neft tullantıları ilə çirklənmiş ərazilərində yeni inkişaf layihəsinə uyğun olaraq ən müasir və böyük yaşayış mərkəzi yaradılacaqdır. Həmçinin inzibati binalar, müxtəlif ticarət mərkəzləri tikiləcək, istirahət parkları və yeni yaşayış mərkəzini dənizlə birləşdirəcək bulvar salınacaqdır. «Bakı Ağ şəhər»də sosial infrastruktur ən müasir tələblər səviyyəsində qurulacaqdır.*

*Layihənin planı ilə tanışlıqdan sonra dövlətimizin başçısı təmizlənmiş ərazilərə baxdı, burada görülmüş işlərlə yerində tanış oldu.*

*Qeyd edildi ki, Bakı buxtasının mərkəzində yerləşən və 221 hektar sahəni əhatə edən bu ərazi vaxtilə «Qara şəhər» kimi tanınırdı və ekoloji baxımdan tamamilə yararsız vəziyyətdə idi. «Bakı Ağ şəhər» layihəsi Azərbaycan prezidenti İlham Əliyevin xüsusi fərmanı ilə təsdiq olunmuşdur. Layihənin hazırlanmasında yerli mütəxəssislərlə yanaşı, xarici şirkətlərin əməkdaşları da iştirak etmişlər.*

*Ərazi ilə yaxından tanış olan dövlətimizin başçısı «Ağ şəhər»in rəmzi təməl daşının üzərindən örtüyü götürdü.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ərazidə ağac əkdilər.*

*Dövlətimizin başçısı mərasim iştirakçılarını salamladı.*

**İ l h a m  Ə l i y e v:** Sizi təbrik edirəm. Bakı şəhərində çox gözəl layihə başlayır. Şəhər içində şəhər yaradacağıq. «Ağ şəhər» layihəsi bundan sonra icra edilməyə başlayır. Bu, ölkəmiz, şəhərimiz üçün çox əlamətdar hadisədir. Bu şəhərin adı da gözəldir, memarlığı, quruluşu da. Bu şəhərin Bakıda yaradılması rəmzi məna daşıyır. Çünki «Qara şəhər» ərazisində «Ağ şəhər» yaradılır. Bakının, Azərbaycanın zəngin neft yataqlarından müxtəlif insanlar istifadə etmişlər. Öz maddi imkanlarını yaxşılaşdırmışlar. Ancaq şəhərimizin ekoloji vəziyyətinə çox böyük zərbələr vurmuşdular. Ekoloji normalara riayət etmədən neft əməliyyatlarının aparılması nəticəsində bura «Qara şəhər»ə çevrildi. İndi bu ərazini təmizləmək üçün böyük səylər göstərilir. Bir neçə metr dərinlikdən neft tullantıları çıxarıldı, ekoloji tədbirlər görüldü. Ümumiyyətlə, bu ərazinin təmizlənməsi Bakının ekologiyası üçün əvəzsiz məsələdir.

Bu şəhər tikiləcək. Şəhər içində «Ağ şəhər»də on minlərlə insan yaşayacaq. Gözəl ofislər, yaşayış binaları tikiləcək, ictimai yerlər, dənizkənarı yeni bulvar salınacaqdır. Planlarımız çoxdur. İndi Bakının gözəlləşməsi ilə bağlı çox böyük tədbirlər görülür. Bakı bulvarı hazırda 4 kilometrdir. Bir neçə aydan sonra biz yeni bulvarın açılışını qeyd edəcəyik. Yeni bulvar Dövlət Bayrağı Meydanı ilə birlikdə 10 kilometrdən daha da böyük məsafəni əhatə edəcəkdir. Həm şəhər sakinləri üçün, gəzinti üçün, istirahət etmək üçün yeni imkanlar yaradılır, həm də şəhərin bu tərəfini abadlaşdıracağıq. Burada da yeni bulvarlar salınacaqdır. Beləliklə, sahilboyu bəlkə də 10 kilometrlərlə ölçülən yeni ictimai yerlər yaradılacaqdır.

Əminəm ki, bu şəhərin tikintisində həm yerli, həm xarici investorlar iştirak edəcəklər. Bu layihə çox böyük peşəkarlıqla işlənilib. Bu layihə artıq mötəbər beynəlxalq tədbirlərdə, konfranslarda təqdim edilib və ən yüksək mükafatlar alıb. Dünya miqyasında ən gözəl memarlıq layihələrinin birinə

çevrilibdir. Bu layihənin hazırlanmasında yerli şirkətlər, yerli memarlar, mütəxəssislər iştirak etmişlər. Eyni zamanda, dünyanın ən qabaqcıl memarlıq, dizayn və inşaat şirkətləri də bu layihənin hazırlanmasında öz səylərini göstərmişlər. Beləliklə, gün gəldi ki, biz «Ağ şəhər»in təməl daşını qoyduq. Bir müddət bundan əvvəl bütün hazırlıq işləri təşkil edilmişdir. Mənim tərəfimdən müvafiq sərəncam verilmişdir. Mən ümid edirəm ki, yaxın zamanlarda bu ərazilərdə gözəl binalar tikiləcək, ucaldılacaqdır. Hər bir bina memarlıq abidəsi olmalıdır, zövqlə, səliqə ilə, peşəkarlıqla tikilməlidir ki, bizim gözəl şəhərimiz daha da gözəlləşsin.

Bu layihənin hazırlanmasında və icrasında iştirak etmiş bütün insanları salamlayıram, onlara minnətdarlığımı bildirmək istəyirəm. Bu layihənin bu il icrası ona görə əlamətdardır ki, dünyada indi iqtisadi-maliyyə böhranı hökm sürür. Bəzi mütəxəssislər deyirlər ki, böhranın yeni dalğası gözlənilir, bəlkə də başlamışdır. Azərbaycanda isə biz böyük milyardlarla dollar həcmində ölçülən layihənin təməlini qoyuruq. Biz bilirik ki, investorlar gələcəklər. Çünki şəhəri tikən özəl sektor olacaqdır. Dövlət burada yalnız infrastruktur layihələrini icra edir. Metro stansiyası da tikiləcəkdir. Bütün xətlər, kommunal xidmətlər dövlət tərəfindən icra ediləcəkdir.

Sizə bu işlərdə uğurlar arzulayıram, xüsusilə inşaatçılara. Bütün işlər yüksək səviyyədə olmalıdır ki, şəhərimiz daha da gözəlləşsin. Qarşıdan gələn Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə sizi və bütün Azərbaycan xalqını təbrik edirəm. Sağ olun.

**Ruslan Sadıqov** *(«Ağ şəhər» layihəsinin baş direktoru)*: Cənab Prezident, biz də Sizin və ailənizin Yeni ilini təbrik edirik. Belə bir təməlqoyma mərasiminin Sizin məhz ad gününüzdə olması hamımız üçün böyük şərəfdir. Təbrik edirik! Sizə ailə səadəti arzulayırıq və təməlini qoyduğunuz bütün işlərdə müvəffəqiyyət arzulayırıq.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*24 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini anmış, məzarı önünə gül dəstələri qoymuşlar.*

*Sonra dövlət başçısı və ailə üzvləri görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın və yaxınlarının məzarlarını ziyarət etmişlər.*

# QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNDA İNŞA EDİLMİŞ MUZEYİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*26 dekabr 2011-ci il*

*Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda inşa edilmiş muzeyin açılışında iştirak etmiş və ərazidə aparılmış yenidənqurma işləri ilə tanış olmuşlar.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev muzey haqqında dövlətimizin başçısına və xanımına məlumat verdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzey və inzibati binanın, eləcə də qoruqda atçılıq turizmi üçün nəzərdə tutulan sahənin planı ilə tanış oldular.*

*Bildirildi ki, Qobustan Tarixi-Bədii Qoruğunda prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun tikilmiş muzey və inzibati bina kompleksinin ümumi sahəsi 2 min 460 kvadratmetrdir. Muzeyin girişində petroqliflərin qonaqlara təqdim edilməsi üçün şərait yaradılmışdır. Burada rəsmlərin halqavarı zolaqlar şəklində düzülməsi canlı rəqsin hərəkətlərini təcəssüm etdirir. Muzeydəki məlumat mərkəzində qonaqlar sensor ekrandan istifadə etməklə müxtəlif dillərdə ətraflı informasiya əldə edə bilərlər. Müasir innovativ texnologiya ilə təchiz olunmuş muzeydə xüsusi multimedia proqramları ilə hazırlanmış sensor ekranları, maarifləndirici və əyləncəli oyunlar, interaktiv stendlər, 3D video və s. turistlərin ixtiyarına veriləcəkdir.*

*Qeyd edildi ki, muzeydə qoruq əməkdaşları üçün 15 xidməti otaq yaradılmışdır. Kitabxana ilə yanaşı, burada fotolaboratoriya, elmi-tədqiqat şöbəsi də fəaliyyət göstərir.*

*Bildirildi ki, muzeyin sərgi zalı müxtəlif bölmələrdən təşkil olunmuşdur. «Qobustan: YUNESKO-nun ümumdünya mədəni irsi» zalında dünyadakı 200-ə yaxın oxşar abidə haqqında məlumatlar əks olunmuşdur. «Qobustanın təbii mühiti» zalında*

isə turistlər özlərini real landşafta uyğunlaşdırılan texnogen illüstrasiyalı mühitdə hiss edəcəklər. Sensor ekranda minilliklər ərzində Xəzər dənizinin necə dəyişdiyini əks etdirən animatik təqdimatı müşahidə etmək, Qobustanın təbiəti, florası haqqında məlumatlar almaq mümkündür. Muzeyin «Qobustanda arxeoloji kəşf» zalında petroqliflərin aşkar edilməsi və öyrənilməsi, qazıntıların aparılması prosesləri əks olunmuşdur. Burada insan sümükləri, arxeoloji təbəqələrdən tapılan daşlar, saxsı qablar və digər eksponatlar maraq doğurur. «Zamana səyahət» zalı isə tarixin müxtəlif dövrlərində Qobustandakı həyatı əks etdirir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Qobustanda həyata keçiriləcək layihələrdən bəhs edən video-çarxa baxdılar. Layihə üzrə Qobustandakı Böyükdaş zirvəsində açıq səma altında muzeyin yaradılması nəzərdə tutulmuşdur. Buraya səyahət tunel vasitəsilə kiçik vaqonlarda həyata keçiriləcəkdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Qobustan Dövlət Tarixi-Bədii Qoruğu ərazisində aparılmış yenidənqurma işləri ilə də tanış oldular.

Məlumat verildi ki, qoruq ərazisində ümumi sahəsi 283 kvad-ratmetr olan və 2 teleskopun quraşdırıldığı baxış meydançası inşa edilmişdir.

Dövlətimizin başçısı və xanımı qədim musiqi aləti olan qavaldaşa baxdılar.

Anazağa mağarası ilə tanışlıq zamanı Azərbaycan prezi-dentinə və xanımına məlumat verildi ki, ibtidai dövrdə insanlar burada çoxlu petroqliflər yaratmışlar. Bu, qoruqda tətbiq edilən xüsusi məlumat aparatında da əksini tapmışdır.

Beləliklə, qədim qayaüstü təsvirlər Azərbaycan insanının keçmişini dövrümüzə daşımış, müasir azərbaycanlıların ulu əcdadlarının min illər ərzində yaratdıqları maddi-mədəniyyət nümunələrini xalqımızın yaddaşından silinməyə qoymamış və bəşəriyyətə dünyamiqyaslı tarixi abidəni – Qobustanı bəxş etmişdir.

## İTAR–TASS AGENTLİYİ VƏ «ROSSİYA-24» TELEKANALINA MÜSAHİBƏ

*26 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İTAR–TASS-ın baş direktorunun birinci müavini Mixail Qusmana İTAR–TASS agentliyi və «Rossiya-24» telekanalı üçün müsahibə vermişdir.*

**M i x a i l  Q u s m a n: Cənab Prezident, Sizinlə görüşmək imkanına görə çox sağ olun.**

**İcazə versəniz, söhbətimizi, adətən, bizim «Hakimiyyət formulu» adlanan proqramın sonunda verilən sual ilə – hakimiyyət haqqında sual ilə başlamaq istərdim. Siz 8 ildir ki, hakimiyyətdəsiniz. Hakimiyyətin ləzzətini və onun bütün cəhətlərini bilirsiniz. Prezident vəzifəsində 8 il işlədikdən sonra Sizin üçün hakimiyyət nədir və Sizin fikrinizcə, hakimiyyətin hansı alətləri daha vacibdir?**

**İ l h a m  Ə l i y e v:** İlk növbədə deməliyəm ki, mən prezident hakimiyyətini və gördüyüm işləri xalq qarşısında böyük məsuliyyət və ölkənin taleyi üçün məsuliyyət kimi qəbul edirəm. Prezident respublikalarında bu hakimiyyət yəqin ki, ikiqat məsuliyyətli olmalıdır. Bundan əlavə, hakimiyyət dövləti qurmaq və yaratmaq, möhkəmlətmək, siyasi təsisatları inkişaf etdirmək, insanların günbəgün daha yaxşı yaşaması üçün şərait yaratmaq imkanı verir. Mən xalqın mənə verdiyi səlahiyyətləri məhz bu baxımdan – böyük məsuliyyət kimi və öz ölkəsi üçün bəlkə hər kəsdən artıq iş görmək imkanı kimi qəbul edirəm. Bu vəzifədə olduğum 8 ildə mənim hakimiyyət haqqında təsəvvürlərim dəyişməmişdir. Bu qiymətləri prezidentliyimin ilk dövrlərində də söyləmişəm. Bu gün hakimiyyət haqqında bu anlayış məndə yalnız möhkəmlənmişdir.

**M i x a i l  Q u s m a n: Amma hər halda, yada salmağa çalışın, bu səkkiz ildə hansı qərarları qəbul etmək Sizin**

**üçün daha çətin olmuşdur, belə qərarlar yəqin ki, olmuşdur. Məsələn, hansı qərarların qəbul edilməsi prezident İlham Əliyevə yuxusuz gecələr bahasına başa gəlmişdir?**

**İ l h a m Ə l i y e v:** Deməliyəm ki, yuxusuz gecələrim olmamışdır. Dövlətimizin inkişafında mürəkkəb dövrlər olmuşdur. Xüsusən mən prezident vəzifəsinə seçiləndə mürəkkəb dövr idi, müəyyən qüvvələr şəraitin sabitliyini pozmağa cəhdlər göstərirdi. Prezident seçkilərindən sonra, 2005-ci ildə keçirilən ilk parlament seçkiləri və istər ölkənin daxilində, istərsə də hüdudlarından kənarda müəyyən dairələrin sabitliyi pozmaq cəhdləri. Bu iki mürəkkəb dövrdən başqa, tarixi prosesin qalan hissəsi kifayət qədər sakit, rəvan keçmişdir. Buna görə də mən elə bir mürəkkəblik hiss etməmişəm.

Qəbul edilmiş mühüm qərarlara gəldikdə isə, onların arasında Azərbaycanın strateji inkişafına təsir göstərənləri qeyd etmək istərdim. Bu, ilk növbədə ölkənin regional inkişafı proqramıdır. Bu, ilk ciddi siyasi addımlarımdan, təşəbbüslərimdən biri idi. Aydın idi ki, paytaxt ilə regionlar arasında qeyri-mütənasibliyi azaltmaq və tamamilə aradan qaldırmaq zəruridir. Bu proqram konkret maliyyə resursları ilə qəbul edilmiş qərarların icrasının idarə edilməsi və onlara nəzarət üzrə çox səmərəli siyasətlə dəstəklənmişdi. Lakin bu proqram dövlətin ümumi inkişafı, Azərbaycanın artıq postsovet ölkəsindən gələcək üçün çox böyük perspektivləri olan, dinamik inkişaf edən ölkəyə rəvan transformasiyasının və strateji inkişafının proqramına çevrildi. Əslində Azərbaycanın bütün gələcək inkişafı məhz 2004-cü ildə qəbul edilmiş bu proqramla müəyyən olunmuşdur.

Həyat bir yerdə dayanmır və bu gün biz elə layihələr haqqında düşünürük ki, 8 il bundan əvvəl onları bəlkə heç xəyala da gətirmək mümkün deyildi. Bu onu göstərir ki, ölkə irəliyə doğru inkişaf edir. Keçən dövrü mən belə səciyyələndirərdim. Həm daxili həyatda, həm də xarici siyasət sahəsində qəbul edilməli qərarlar çox idi. Bu illərdə Azərbaycan öz müstəqil fəaliyyət xəttini həyata keçirən ölkə kimi

möhkəmlənmişdir. Bu çox xoşdur, lakin heç də həmişə asan deyil. Buna görə də xarici siyasi təşəbbüslər, ətrafda baş vermiş və baş verən hadisələrə münasibət, dürüst ölçülüb-biçilmiş xarici siyasət kursu, habelə bizim milli mənafelərin qorunması kifayət qədər cəsarət tələb edir.

**M i x a i l Q u s m a n: Siz dəf edilməli çətinliklərdən danışdınız. Amma hamı etiraf edir ki, Azərbaycanın uğurları çox güclü təsir bağışlayır – sənayedə, iqtisadiyyatda, kənd təsərrüfatında, beynəlxalq aləmdə. Bu uğurların rəhni, əsas amili nə olmuşdur? Bu uğuru təmin edərkən nəyə güvənirdiniz?**

**İ l h a m Ə l i y e v:** Şübhəsiz, bu uğurun və bütövlükdə Azərbaycanın bu uğurlu tarixinin rəhni, ilk növbədə siyasi kursun varisliyidir. Prezident vəzifəsində işə başlayanda və hətta ondan əvvəl, seçkiqabağı dövrdə elan etmişdim ki, mənə etimad göstəriləcəyi təqdirdə atamın siyasətini davam etdirəcəyəm. Zaman sübut etmişdir ki, bu, yeganə düzgün siyasətdir. Bu siyasət Azərbaycanı hərc-mərclik, nizamsızlıq və faktiki parçalanma dövründən çıxarmışdır. Bu siyasətə sadiqlik yeganə düzgün seçim idi və Azərbaycan xalqı, o cümlədən 2003-cü ildə də bu seçimi dəstəklədi.

Bununla yanaşı, hakimiyyətin varisliyi və rəvan tərzdə keçməsi faktı Azərbaycan xalqının böyük əksəriyyəti tərəfindən dəstəkləndi və həm də bu fakt müasir Azərbaycanın tarixində yeni məqam oldu. Bu, uğurun əsas rəhni idi. Lakin təbii ki, yerində saymaq və yalnız bugünkü günlə yaşamaq olmazdı. Azərbaycanın hərtərəfli inkişafı strategiyası işlənib hazırlandı. Qarşıya olduqca iddialı məqsədlər qoyuldu. Birinci mərhələdə onlar bəlkə də həyata keçirilməsi mümkün olmayan, hətta qeyri-real və vaxtından əvvəl müəyyənləşdirilmiş məqsədlər kimi görünürdü. Mən isə hesab edirdim ki, məhz əlçatmaz görünən hədəfə daha asanlıqla nail olmaq mümkündür. Ölkənin inkişafının düzgün seçilmiş strategiyası Azərbaycandakı şəraitin bütün müsbət və mənfi cəhətləri ilə bərabər, düzgün təhlilinə, habelə dövlətin səmərəli idarə edilməsinə və qəbul olunmuş

qərarların həyata keçirilməsinə çox təsirli nəzarətə əsaslanırdı. Əlbəttə, gizli deyil, çox vaxt elə olur ki, düzgün qərarlar qəbul edilir, sonra onlar unudulur, ya da bürokratiya onları bir növ pərdələyir. Buna görə də qərarların qəbul edilməsi, onların yerinə yetirilməsi, nəzarət mexanizmi, ən başlıcası, bizim bütün proqramlar və qərarlar həm maliyyə bazası ilə, həm də reallaşdırılma mexanizmi ilə möhkəmləndirilmişdi. Uğurlu inkişaf üçün imkan yaradan da bunlar olmuşdu. Güclü artım prosesi başlanan kimi, inersiya qüvvəsi işə düşdü. Yeni təşəbbüslər irəli sürülməyə başlandı, onlar bizim proqramları tamamlayır, gücləndirirdi. Cəmiyyətdə tamamilə nadir quruculuq ruhu yaranmışdı, hər bir vətəndaş öz sahəsində, öz həyatında, öz küçəsində həyatı daha yaxşı və daha gözəl etməyə çalışır. Bax, bu cür ictimai ruh yüksəkliyi bizə çox kömək edir. Əvvələn, biz bütün təşəbbüslərimizin dəstəklənməsini hiss edirik, digər tərəfdən, bu proseslərdə bütün cəmiyyətin iştirakı olmadan uğur qazanmaq mümkün deyil. Düşünürəm ki, mənim qeyd etdiyim bu strateji istiqamətlər bu gün belə deməyə imkan verir ki, Azərbaycan həqiqətən çox dinamik və səmərəli inkişaf edir.

**M i x a i l Q u s m a n: Siz Azərbaycanın beynəlxalq aləmdə uğurunu xatırlatdınız. Bu yaxınlarda Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu çox böyük nailiyyətdir. Özü də çox dramatik, bir neçə turdan ibarət mübarizə gedirdi – məncə 16 tur oldu. Azərbaycana azarkeşlik edənlərin hamısı bu mübarizəni onlayn rejimdə izləyirdi. Lakin reputasiya hissəsindən əlavə, praktiki baxımdan Siz Azərbaycanın Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi vəzifələrini, imkanlarını nədə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Əvvələn, deməliyəm ki, bu qələbə müstəqil Azərbaycanın bütün tarixi ərzində bəlkə də ən vacib, ən əhəmiyyətli və sanballı qələbədir. Bizim həm ölkə daxilində, həm də beynəlxalq aləmdə gördüyümüz bütün işləri əks etdirir. Müstəqilliyin 20 ili ərzində biz buna nail olmuşuq ki, 155 ölkə, sizin dediyiniz kimi, gərgin mübarizədə bizim namizədliyimizi

dəstəkləmişdir. Lakin deməliyəm ki, Azərbaycan bu mübarizədə ilk turdan başlayaraq liderlik edirdi və bütün mərhələlərdə böyük fərqlə irəlidə gedirdi. Nəticədə biz beynəlxalq birliyin çox böyük dəstəyini qazandıq. Məhz beynəlxalq birliyin – çünki yalnız bu cür format elə dünya birliyi, beynəlxalq birlik deməkdir. Bu çox böyük siyasi qələbə, diplomatik qələbə, çox böyük məsuliyyət və ölkəmizə, siyasətimizə hörmətin ifadəsidir.

Açığını deyim ki, bu 155 ölkənin heç də hamısı ilə bizim çox fəal münasibətlərimiz yoxdur. Əksəriyyəti ilə var, lakin bəzi ölkələr sadəcə, bizə inanmış və etimad göstərmişdir. Onlar inanmışlar ki, Azərbaycan Təhlükəsizlik Şurasında və bütövlükdə xarici siyasətdə müstəqil xətt yeridəcəkdir, inanmışlar ki, biz orada ədalət ideallarını müdafiə edəcəyik. Mənim fikrimcə, buna çox böyük zərurət var – bugünkü aləmdə ədalət və beynəlxalq hüquq ideallarını müdafiə etmək lazımdır. Bu məsuliyyət bizim üzərimizə yeni funksiyalar qoyur. Bu, ilk təcrübədir, hələ başlamamışıq, biz yenicə hazırlaşırıq. Əminəm ki, reputasiya, imic xarakterindən əlavə, bizim Təhlükəsizlik Şurasında üzvlüyümüzün praktiki səmərəsi olacaqdır. Özü də təkcə ölkəmizin maraqlarını təmin etmək üçün yox. Hərçənd, çalışırıq ki, qarşıdakı 2 ildən maksimum səmərə ilə istifadə edək, maraqlarımızı, o cümlədən bizim üçün mürəkkəb və çətin məsələdə – Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində maraqlarımızı təmin edək. Bu mövzunu daim Təhlükəsizlik Şurasının diqqət mərkəzində saxlayacağıq. Lakin biz həm də qlobal miqyasda sülhün, təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsi işinə töhfəmizi verməyə çalışacağıq. Bu gün beynəlxalq birliyin bu yeri bizə etibar etməsi faktının özü ona dəlalət edir ki, Azərbaycan dünyada baş verən qlobal proseslərə töhfə verən və daha çox töhfə verə biləcək bir ölkə kimi qəbul edilir.

**M i x a i l  Q u s m a n: Siz mənim başa düşdüyümə görə, ən ağrılı problemə – Dağlıq Qarabağ probleminə toxundunuz. Siyasi problemlərin həlli tələb olunan**

**mürəkkəb düyününə. Sizin fikrinizcə, bu, ipləri bir-bir dartmaqla açmaq mümkün olan düyündür, yaxud kəsib doğramaq mümkün olan «Qordi düyünü»dür?**

**İ l h a m Ə l i y e v:** Siz öz sualınızda diqqəti məhz mövcud yollar üzərində çox düzgün cəmləşdirdiniz. Doğrudan da yalnız iki yol vardır. Sizin dediyiniz yol beynəlxalq hüquqa əsaslanan qarşılıqlı məqbul həll tapmaq cəhdidir. Ya da yenə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində başqa vasitələrdən istifadə edilməlidir. Azərbaycan buna çox ciddi tərəfdardır. Üçüncü yol yoxdur və bunu hamı başa düşməlidir – həm qarşı tərəf, həm də vasitəçilər bunu başa düşürlər. Üçüncü yol – staqnasiya, konservasiya, dondurulma yoludur. Bu, mümkün deyil və elə şey yoxdur. Bu gün biz Minsk qrupunun həmsədr ölkələrinin – bunlar isə Təhlükəsizlik Şurasının üç daimi üzvüdür – rəhbərlərinin ən yüksək tribunalardan çıxışlarında eşitdiyimiz status-kvonun qəbuledilməz olması və onun dəyişdirilməsi barədə fikirlər belə ümid doğurur ki, siyasi tənzimləmə yolları vardır. Biz bu yolun tərəfdarıyıq. Əks halda, Azərbaycan 20 ilə yaxın müddətdə, 1992-ci ildən danışıqlar prosesində olmazdı. Münaqişənin tənzimlənməsi yolları beynəlxalq hüquq müstəvisindədir. Bizim indi iştirak edəcəyimiz BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi təmin edilməlidir. Bu cür 4 qətnamə vardır. Onlar Ermənistanın işğalçı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının, digər təşkilatların qətnamələri vardır. Onların hamısı eyni şeyi tələb edir – Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Bu bizim suveren hüququmuzdur, dövlətimizin ərazi bütövlüyünün siyasi vasitələrlə deyil, açıq deyək, hərbi vasitələrlə bərpa edilməsi də bizim suveren hüququmuzdur. BMT Nizamnaməsinə uyğun olaraq bizim belə hüququmuz vardır. Biz sadəcə olaraq, bundan istifadə etmək istəmirik. Ümid edirik ki, sağlam düşüncə qalib gələcək, Ermənistan tərəfi, nəhayət, qəti başa düşəcəkdir ki, münaqişə

tənzimlənməsə onların bu regionda olması getdikcə mürəkkəbləşəcəkdir. Biz həm də vasitəçilərin – Minsk qrupunun, həmsədrlərin səylərinin fəallaşacağına, münaqişənin mümkün qədər tezliklə həll edilməsinə və vətəndaşlarımızın öz torpaqlarına qayıda biləcəyinə ümid edirik.

**M i x a i l Q u s m a n: Siz dediniz ki, lap əvvəldən siyasətinizin əsas xətlərindən biri olan regional siyasəti seçmisiniz. Mənim fikrimcə, Siz hər həftə regionların birində, uzaq kəndlərdə, sənaye obyektlərində, humanitar sahəyə aid obyektlərdə olursunuz. Bunu hamı görür. Bu regional siyasətə neft rentası kömək edir. Bu aşkardır. Amma hər halda, indiki mərhələdə, regionların diqqətə ehtiyacı olduğu, qarşıda isə yeni məqsədlər durduğu bir vaxtda magistral hədəf, strateji xətt nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Çox qısa desək, bu, Azərbaycanı tam transformasiya etmək və onu inkişaf etmiş ölkəyə çevirməkdir. Qarşımızda duran məqsəd budur. O, olduqca çoxşaxəlidir, bütün sahələri əhatə edir. Bizim həyata keçirdiyimiz modernləşmə də məhz bütün sahələri əhatə edir. İqtisadiyyat öz yerində, Azərbaycan iqtisadi inkişaf üzrə böyük uğurlar qazanmışdır və bütün aparıcı beynəlxalq iqtisadi qurumlar bunu etiraf edir. Siyasi transformasiya da belədir. Əgər siyasi islahatlar iqtisadi islahatlardan geri qalarsa, biz inkişaf etmiş ölkə ola bilmərik. Məqsədimiz siyasi və iqtisadi islahatları paralel olaraq həyata keçirmək, regionda və qlobal miqyasda, dünyada qonşularımızla əlaqələri möhkəmlətməkdir.

Bunun üçün imkanlarımız vardır. Son 8 ildə biz iqtisadiyyatı 3 dəfə artıra bilmişik, ÜDM 300 faiz artmışdır. Bunlar onu göstərir ki, potensial vardır. Bu gün qarşımızda başqa məsələlər durur. Əlbəttə, neft amili bizə çox kömək etmişdir. Lakin bu da bizim xidmətimizdir. Nefti bizdəkindən qat-qat çox olan ölkələr də çoxdur. Lakin resurslardan düzgün istifadə edilməsi, xalqın sərvətinin ədalətli bölgüsü, habelə vəsaitlərin xərclənməsində və akkumulyasiyasında maksimum şəffaflıq elə vəziyyətə nail olmağa imkan vermişdir ki, valyuta ehtiyatlarımız ilbəil artır və

8 ildə yoxsulluq səviyyəsi 5 dəfə azalaraq 49 faizdən 9 faizə düşmüşdür. Neft amili bu gün sabitləşdirici amildir, lakin məsələn, beş il əvvəl olduğu qədər əhəmiyyətli deyildir. Bu gün müasir texnologiyaların inkişafı, informasiya-kommunikasiya texnologiyaları sahəsi prioritetdir. Gələn il biz Azərbaycanın ilk telekommunikasiya peykini buraxacağıq, kosmik sənaye yaradırıq. Bəzilərinin fikrincə, Azərbaycanın baxmalı olduğundan çox-çox uzağa baxırıq. Bizim planlarımız kimlərinsə düşünə biləcəyi kimi, Azərbaycanın malik olduğu imkanlardan bəlkə də qat-qat geniş və əhatəlidir. Qlobal mənada bu, yüksək həyat səviyyəsinə, inkişaf etmiş sənayeyə və regionda daha da möhkəmlənmiş mövqelərə malik olan müasir, dinamik inkişaf etmiş ölkədir.

**M i x a i l Q u s m a n: Zənnimcə, ölkənin uğurla inkişaf etməsi üçün daxili aləm çox vacibdir. Azərbaycan ənənəvi olaraq multimilli, multimədəni ölkədir. Hərçənd multikulturalizm mövzusunun özü siyasi lüğətdə 25 il əvvəl yer almışdır. Elə bu yaxınlarda Sizin həmkarlarınız Kansler Merkel, prezident Sarkozi – bir az əvvəl Hollandiyanın Baş naziri Ryutte ilə söhbət etmişəm – onların hamısı əlbir olub multikulturalizm anlayışının özünü «dəfn» etməyə başladılar. Sizcə, bu anlayışdan imtina etməyin vaxtı nə dərəcədə çatmışdır? Ümumiyyətlə, multikulturalizm Azərbaycana nə dərəcədə xasdır?**

**İ l h a m Ə l i y e v:** Bizim üçün yüz illər, min illər boyu təşəkkül tapmış təbii mühitdir. Müasir Azərbaycanın ərazisində həmişə müxtəlif dinlərə etiqad edən müxtəlif etnik mənşəli insanlar yaşamışlar. Bütün tariximiz ərzində ictimai-siyasi vəziyyətdən və ya yaşadığımız quruluşdan asılı olmayaraq ölkəmizdə məskunlaşan xalqlar arasında həmişə sülh olmuşdur. Bu, Azərbaycan Rusiya imperiyasının bir hissəsi olmamışdan əvvəl də, həmin dövrdə də, Sovet İttifaqı zamanında da belə idi və müasir dillə desək, multikulturalizmin həmin ənənələri müstəqillik dövründə daha da möhkəmlənmişdir. Bu bizim üçün təbii həyat tərzidir və biz bunu başqa cür təsəvvür etmirik.

Müəyyən mərhələdə başa düşdük ki, bu heç də hər yerdə belə deyildir və çox təəccübləndik və bunun mümkünlüyünü göstərmək üçün biz müxtəlif beynəlxalq tədbirlər təşəbbüsü ilə çıxış etdik. Azərbaycanda dünya dinlərinin liderlərinin zirvə görüşü böyük müvəffəqiyyətlə keçdi. Rusiya–Azərbaycan Humanitar Forumu çox böyük uğurla keçdi və bu yaxınlarda keçirilən Beynəlxalq Humanitar Foruma çevrildi. Bu tədbirlər gözdən pərdə asmaq üçün keçirilmir, onların böyük praktiki əhəmiyyəti və mütərəqqi ictimaiyyətin multikulturalizmə təbii yaşayış mühiti kimi baxan hissəsinin səylərini birləşdirmək əhəmiyyəti vardır.

Azərbaycan tarixinə nəzər salsaq – dünyada belə ölkələr az deyildir – birmənalı şəkildə deyə bilərəm ki, multikulturalizm yaşayır. Hesab edirəm ki, Azərbaycan yalnız onun daha məşhur ünvanlarından biridir. Digər tərəfdən, bu prosesləri və sizin danışdığınız məsələni – Avropa ictimaiyyətinin həmin proseslərdə iştirakının müəyyən məyusluq doğurduğunu təhlil edərkən soruşmaq lazımdır ki, «bəs alternativ nədir?». Multikulturalizmin alternativi varmı? Əgər onu «dəfn» edirlərsə, deməli, alternativ olmalıdır. Bəs bu hansı alternativdir? Əgər bu, multikulturalizm deyilsə, bəs nədir? Əgər məntiqi düşünsək, deməli, özünütəcriddir. Deməli, ictimaiyyətin qəbul etmədiyi müxtəlif dinlərin, xalqların nümayəndələrinin deportasiyası, rədd edilməsidir. Bu heç bir yerə aparmayan yoldur. Bu yol çox təhlükəlidir. Təəssüf ki, bəşəriyyət tarix boyu, o cümlədən XX əsrdə belə səhv siyasətin və mən deyərdim ki, cinayətkar diqqətsizliyin, yaxud da irqi, etnik və dini zəmində ədavət toxumlarının şüurlu şəkildə səpilməsinin nəticələri ilə üzləşmişdir. Bu çox təhlükəli meyildir. Hesab edirəm ki, humanitar xarakterli beynəlxalq tədbirlərin məhz Bakıda və əlbəttə ki, digər yerlərdə keçirilməsi ona gətirib çıxaracaqdır ki, bizim kimi multikulturalizmin yaşadığını, onu qorumaq, müdafiə və çox təbliğ etmək lazım gəldiyini düşünən insanların siyasi elitada çox olmasına və bunun ictimai şüurda üstünlük təşkil etməsinə kömək edəcəkdir.

Bəzən, deyək ki, multikulturalizmin qəbul edilməməsi üzrə siyasi təşəbbüslər ictimaiyyət tərəfindən qəbul edilməmək kimi inspirasiya olunur. İctimaiyyət tərəfindən qəbul edilməmə öz növbəsində bəzi kütləvi informasiya vasitələri tərəfindən təbliğ olunur. Həmin KİV-lər xeyirxahlığı təbliğ etmək əvəzinə, irqi dözümsüzlüyü, nifrəti, müxtəlif fobiyaları təbliğ edir. Bu çox təhlükəlidir. Tarixən təşəkkül tapmış multimədəni, çoxmillətli, çoxkonfessiyalı bir ölkə olan Azərbaycan üçün belə təhlükəli meyillər sadəcə, milli təhlükəsizliyimizə təhdiddir. Dünyada nələr baş verdiyinə baxmayaraq, biz həm öz siyasətimiz, həm də təşəbbüslərimizlə həmin proseslərdə Azərbaycanda multikulturalizmi möhkəmləndirəcəyik. Çalışacağıq ki, ölkəmizdə bütün dinlərin və etnik qrupların nümayəndələri bundan sonra da özlərini vahid ailə kimi hiss etsinlər, mehribanlıq, qardaşlıq və qarşılıqlı anlaşma şəraitində yaşasınlar. Bizim üçün bu, təbii yaşayış mühitidir və qoruyacağımız dəyərlərimizdir.

**M i x a i l Q u s m a n: Müstəqil Azərbaycanın 20 illiyidir. Bu çox böyük hadisədir. Bütün ölkə tərəfindən təntənə ilə qeyd edilmişdir. Lakin tarixi planda bir göz qırpımıdır. Sizcə müstəqil Azərbaycanın hansı dövlət təsisatlarını möhkəmləndirmək, inkişaf etdirmək tələb olunur. Sirr deyildir ki, kimsə bir dövlət mexanizmində, fərz edək, korrupsiyanın, digərində süründürməçiliyin baş alıb getməsindən şikayətlənir. Bunlar gənc dövlət üçün bir növ normal haldır. Ölkədə real dövlət hakimiyyəti təsisatlarının möhkəmləndirilməsi vasitələri, yolları hansıdır?**

**İ l h a m Ə l i y e v:** Hər şey siyasi iradədən və qəbul edilən qərarların düzgünlüyündən asılıdır. Əgər siyasi iradə varsa, hər şeyə nail olmaq mümkündür. Ölkəmizə gəldikdə isə, axı 20 il əvvəl Azərbaycanın inkişaf yollarını əvvəlcədən görmək mümkün deyildi.

**M i x a i l Q u s m a n: Xaotik idi.**

**İ l h a m Ə l i y e v:** Tamamilə doğrudur. Müstəqilliyin ilk illəri hamımızın yaddaşında faciəli illər, itkilər, müəyyən mənada milli rüsvayçılıq illəri kimi qalmışdır. Müstəqil-

liyimizin ilk 2 ilində təəssüf ki, hakimiyyətdə olanlar bu məsuliyyəti başa düşməmiş və bəlkə də başa düşmək istəməmişlər, ölkəmizi fəlakətə, parçalanmaya doğru sürükləmişlər. Heydər Əliyevin ölkəyə başçılıq etdiyi 1993-cü ildən Azərbaycanın davamlı inkişafı başlamışdır. Lakin elə o vaxt da ölkənin necə inkişaf edəcəyi əhalinin böyük əksəriyyətinə bəlkə də aydın deyildi. Onda yollar və seçimlər olduqca çox idi. Azərbaycan hansı yolla gedəcəkdir? Azərbaycan necə bir ölkəyə çevriləcəkdir? Məhz siyasi təsisatların təşəkkülünə, siyasi sistemin yaradılmasına, demokratik təsisatların, bazar iqtisadiyyatının möhkəmləndirilməsinə söykənən düzgün strateji seçim və müasir inkişaf əslində bu gün ona gətirib çıxarmışdır ki, Azərbaycan artıq dünyada daha dinamik inkişaf edən ölkə kimi qəbul edilir. Növbəti 20 il üçün qarşıda duran vəzifələr bundan ibarət olacaqdır ki, dediyim kimi, bu müsbət təcrübəyə əsaslanan inkişaf etmiş dövlət yaradaq. Demokratikləşmə, şəffaflıq, qanunun aliliyi olmadan inkişaf etmiş ölkə yaratmaq qeyri-mümkün olacaqdır. Əlbəttə, Azərbaycanın iqtisadi potensialı, təbii ehtiyatları, insan potensialı və coğrafi vəziyyəti elədir ki, siyasi yolun seçimindən asılı olmayaraq, Azərbaycan həmişə inkişaf edəcəkdir. Buna heç bir şübhəm yoxdur. Lakin məsələ bundadır ki, necə? Hansı sürətlə? Biz bu inkişafın nəticəsində nə əldə edəcəyik? Mən ölkəmizi qanunun aliliyinin bərqərar olduğu, çox güclü sosial siyasəti, inkişaf etmiş iqtisadiyyatı və regionda möhkəm mövqeləri olan müasir və demokratik bir ölkə kimi görürəm. Dediklərimin böyük hissəsi artıq əldə edilmişdir. Lakin, necə deyərlər, təkmilləşmə sərhəd tanımır. Gözümüzün qarşısında inkişaf etmiş ölkələrin müsbət təcrübəsi vardır və biz bu təcrübəni öyrənirik, lazım gəldikdə tətbiq edirik. Açığını deyim ki, kor-koranə istifadə etmirik, məhz bizə uyğun gələni və doğru saydığımızı tətbiq edirik. Əminəm ki, yaxın perspektivdə qarşıya qoyduğumuz məqsəd və vəzifələr həyata keçiriləcəkdir. Əgər 8 ildə ümumi daxili məhsulun 3 dəfə artırılmasına nail olmuşuqsa, indi artıq üçqat artırılmış ümumi daxili məhsulu 2013–2023-cü illərdə iki

dəfə artırmaq vəzifəsini qarşımıza qoyur və ona hazırlaşırıq. Hazırda hökumətdə həmin vəzifənin konsepsiyasının hazırlanması və həyata keçirilməsi istiqamətində iş gedir. Əgər üçqat artırılmış ÜDM-i iki dəfə artırmaq kimi iddialı bir vəzifə qarşıya qoyulursa, onda həm ehtiyatlar, həm vasitələr, həm elmi fikir, həm də intellektual potensial – hər şey bu vəzifəyə uyğun səfərbərliyə alınır. Odur ki, belə gözəl iqtisadi göstəricilərə malik olduğumuz halda, biz siyasi sistemin transformasiya edilməməsini özümüzə rəva görə bilmərik və biz bunu edirik. Axı Azərbaycan 10 il əvvəl Avropa Şurasına təsadüfən daxil olmamışdır. Həmin quruma daxil olanda başa düşürdük ki, bu, üzərimizə böyük məsuliyyət qoyur və biz sərt tənqid atəşinə məruz qalacağıq.

**M i x a i l  Q u s m a n:  Avropa baxışı altında...**

**İ l h a m  Ə l i y e v:** Bəli, monitorinq ilə və bu tənqid heç də həmişə xoş, heç də həmişə ədalətli deyildir. Biz buna şüurlu surətdə getdik. Bu təşkilatın üzvü olmayan çox ölkələr vardır, lakin bu onların seçimidir. Biz ölkəmizi transformasiya etmək istəyirik. İstəyirik ki, həm ictimai şüurun səviyyəsi, həm də mövcud tarixi təcrübə siyasi sistemin bizim düşündüyümüz meyarlarına cavab versin. Çünki Azərbaycan müsəlman Şərqində demokratik respublika qurmuş, demokratik parlament yaratmış, bir çox Avropa ölkələrindən xeyli əvvəl qadınlara seçmək hüququ vermiş ilk ölkədir. Azərbaycanda müasirlik və maarifçilik ənənələrinin dərin kökləri vardır. Biz müasir dövlətimizi bu baza üzərində qururuq və onu mütləq quracağıq.

**M i x a i l  Q u s m a n:  Azərbaycan müstəqilliyinin 20 illiyini «Eurovision»da qazandığı böyük uğurla bayram etdi. Bu həqiqətən böyük qələbə idi. Həmin gecə bütün gənclərin küçəyə axışdığını müşahidə etmək olardı. Yeri gəlmişkən, elə Moskvada da gənclər – Azərbaycandan olan tələbələr bayram edirdilər. Belə hadisələr cəmiyyəti çox birləşdirir. Onlar ölkəyə bayram gətirir və bir növ, əhval-ruhiyyəni daha da yaxşılaşdırır. Belə hadisələr nə dərəcədə vacibdir?! Prinsipcə heç nə göydən düşmür, böyük zəhmətin nəticəsidir. İnsanları**

**birləşdirən belə bayramları, hadisələri yaratmaq üçün hazırda hansı istiqamətlərdə işlər aparılır?**

**İ l h a m Ə l i y e v:** Bu həqiqətən də böyük qələbədir. İlk növbədə Azərbaycanın tanınmasıdır. Mənə çox xoşdur ki, ictimai səsvermənin nəticələri bizim üçün daha əlverişli oldu. Bildiyiniz kimi, «Eurovision»da qələbə iki komponentdən – münsiflər heyətinin səs verməsindən və ...

**M i x a i l Q u s m a n: Demək olar, bütün tamaşaçıların səs verməsindən asılıdır.**

**İ l h a m Ə l i y e v:** Bəli. Bütün Avropa bizə səs vermişdir, demək olar ki, bütün Avropa! Biz böyük fərqlə qalib gəldik. Bu bizim ifaçıların qələbəsidir. Gözəl mahnı, gözəl ifa və ifaçılarımızın obrazı – məhz gənc, dövlətimiz kimi müasir, gənc obraz. Lakin qələbə burada daha geniş mənada qələbə kimi qəbul edilir. Heç şübhəsiz, belə qələbələr insanları birləşdirir.

Əslində hər ay qələbələr əldə edirik. Lakin bəzən onlar görünmür, çünki cüzi və ya quru, cansıxıcı statistik məlumatların arxasında gündəlik həyatımızda ölkənin inkişafında nail olduğumuz böyük qələbələr dayanır. Lakin elə qələbələr də var ki, onları hamı görür. İndiki halda musiqi müsabiqələrində qələbələrin xüsusi əhəmiyyəti vardır. Mən həmçinin idmandakı qələbələri qeyd edərdim. Burada idmançılarımızın hər bir qələbəsi böyük milli bayrama çevrilir. Bizim olimpiya çempionlarımız, dünya çempionlarımız vardır. Hər bir idman qələbəsi cəmiyyətdə müsbət emosional təkan yaradır. Həmçinin BMT Təhlükəsizlik Şurasına seçilməyi qeyd edərdim. İqtisadiyyatdakı qələbələri də təbii ki, idmandakı kimi olmasa da, amma hər halda, görmək və ailə büdcəsində hiss etmək mümkündür. Lakin xarici siyasətdə bu sanki gözdən daha uzaqdır. Həmişə deyirəm ki, Azərbaycan milli mənafeyə söykənən, olduqca səmərəli, çevik xarici siyasət yeridir. Təbii ki, bunlar arxasında çox işlərin dayandığı sözlərdir. Lakin Təhlükəsizlik Şurasına seçilmək həm ölkə daxilində, həm də xaricdə hamıya göstərdi ki, bu bizim layiq olduğumuz qələbədir. Təhlükəsizlik Şurasına seçilmək Azərbaycanın necə

bir ölkə olduğu barədə bütün dünyaya siqnaldır. Bir çoxları üçün bu qələbə gözlənilməz oldu. Ancaq bizim üçün yox. Biz buna inanırdıq və əmin idik. Odur ki, belə əlamətdar hadisələr birləşdirir, müsbət enerji verir.

**M i x a i l Q u s m a n: Yeni qələbələr tələb olunur.**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, dünya çempionatında və ya Olimpiya oyunlarında qələbədən sonra bir-iki həftə, bəlkə də bir ay ərzində eyforiya yaşanır, sonra hər şey normal həyata qayıdır. Belə qələbələr cəmiyyətin birləşməsi üçün vacibdir, lakin barəsində danışdığım qələbələr heç də az əhəmiyyətli deyildir. Bu, gündəlik, həftəlik, aylıq zəhmətdir. Yeni yol, yeni məktəb, süni peyk, yeni qaz kəməri və sair və ilaxır.

**M i x a i l Q u s m a n: Cənab Prezident, Sizə bir neçə şəxsi sual da vermək istərdim. Burada bir qovluq var. Düşünürəm ki, Siz bunu heç vaxt görməmisiniz, halbuki bütünlüklə Sizə həsr olunub. Bu, tələbə Əliyev İlham Heydər oğlunun şəxsi işidir.**

**İ l h a m Ə l i y e v:** Bəli, maraqlıdır.

**M i x a i l Q u s m a n: Düşünmürəm ki, Siz bunu nə vaxtsa görmüsünüz.**

**İ l h a m Ə l i y e v:** Bu, məxfi sənəddir?

**M i x a i l Q u s m a n: Məxfi deyildir. Mən onu söhbətimiz üçün Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) rektoru Vasili Torkunovdan iki günlüyə xahiş edib götürmüşəm. O bunu mənə verdi. Mən onunla tanış olmuşam. Burada Sizin barənizdə maraqlı, bütövlükdə müsbət olan çox şeylər vardır. Qəbul olunmaq haqqında əmrdən tutmuş, Sizə – MDBMİ-nin məzununa müvafiq ixtisasın verilməsi barədə əmrədək. Maraqlı sənədlər, arayışlar, şərhlər çoxdur. Bilirsiniz ki, MDBMİ-də hər bir kursdan sonra xüsusi attestasiya verirdilər. Ümumiyyətlə, Sizi həmişə tərifləyirlər, tərifləmişlər. Diqqət yetirdim ki, birinci kursda müəllimləriniz Sizin dərslərdən qaçdığınızdan şikayətləniblər. Bununla belə, qiymətlər yaxşıdır, dərslərdən isə qaçırdınız. Ona görə də Sizə belə bir sadə sualım vardır. Tələbə İlham Əliyev Moskvada**

**MDBMİ-nin hələ köhnə binasından hara qaçırdı? Birinci kurs tələbəsinin qaçıb getdiyi o sirli yerlər hara idi?**

**İ l h a m Ə l i y e v:** Lakin qeyd etdiyiniz kimi, bu yalnız birinci kursda olmuşdur.

**M i x a i l Q u s m a n: İkinci kursda daha yaxşıdır. Düzünü deyirəm, burada hər şey yazılmışdır. Burada rəsmi sənədlər, möhürlər, imzalar, müəllimlərin soyadları vardır.**

**İ l h a m Ə l i y e v:** Özünüz düşünün. Bakıda məktəbdə oxuyan gənc üçün...

**M i x a i l Q u s m a n: 6 nömrəli məktəbdə. Burada, yeri gəlmişkən, Sizin attestatınız vardır. Orada yalnız fizikadan dörddür, qalanları beşdir.**

**İ l h a m Ə l i y e v:** Mən yaxşı oxuyurdum.

**M i x a i l Q u s m a n: Yaxşı, şikayətlənmək günahdır. Bu pedaqoji sənədlər olmasaydı, mən sadəcə, gülərdim. Lakin bunlar əsl pedaqoji sənədlərdir və oradakı qiymətlərin hamısı yaxşıdır...**

**İ l h a m Ə l i y e v:** Baxın, indi mən əsaslandırmaq istəyirəm. Hərçənd düzünü desəm, tez-tez qaçdığımı bir o qədər də xatırlamıram. Lakin...

**M i x a i l Q u s m a n: Yox, burada var. Rəsmi surətdə, açıq-aydın. Hətta rəy də vardır. Bir neçə dərs buraxmısınız.**

**İ l h a m Ə l i y e v:** O vaxt deyildiyi kimi, fakt toplamaq...

**M i x a i l Q u s m a n: Lakin yaxşı sözlər danışırlar. Xasiyyətcə şən, yumor hissinə malik, ünsiyyətcildir, qrupun hörmətini və məhəbbətini qazanmışdır, ictimai işləri yaxşı yerinə yetirir. Burada hər şey yazılıb.**

**İ l h a m Ə l i y e v:** Zənnimcə, 10 il Bakıda, 6 nömrəli doğma məktəbdə oxuyan, atası Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi olan gənc insanın Moskva kimi gözəl və böyük bir şəhərdə yeni mühitə düşərək, xüsusən birinci kursda görməli yerlərlə tanışlıq üçün öz vaxtından maksimum istifadə etməsi tamamilə təbiidir.

**M i x a i l Q u s m a n: Yeri gəlmişkən, bir detalı qeyd etmək istəyirəm. Burada Sizin əlinizlə doldurulmuş bir**

**anket var. Siz doğru dediniz ki, o vaxt Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi idi. Lakin onun Birinci katib olduğunu yazmırsınız. Siz yazırsınız: Azərbaycan KP MK-da işləyir. Onun MK-da birinci şəxs olmasını heç xatırlatmırsınız.**

**İ l h a m Ə l i y e v:** Elədir, ümumiyyətlə, mən həmişə bu məsələni qabartmamağa və özümü maksimum sadə aparmağa çalışmışam. Lakin sizin qeyd etdiyinizdən belə başa düşdüm ki, bu hadisə MDBMİ-nin köhnə binasında olmuşdur...

**M i x a i l Q u s m a n: Bəli, Moskvanın mərkəzində.**

**İ l h a m Ə l i y e v:** Yəqin onda başa düşmək çətin deyil, mən hara qaçırdım. Bilirsiniz ki, Qorki adına Mədəniyyət və istirahət parkı yolun o tərəfində yerləşir. Biz də oraya....

**M i x a i l Q u s m a n: Ora Moskvada sevimli yer idi.**

**İ l h a m Ə l i y e v:** Bəli, bu, instituta ən yaxın yer idi...

**M i x a i l Q u s m a n: Oraya qaçmaq olardı.**

**İ l h a m Ə l i y e v:** Oraya qaçmaq və qayıtmaq olardı. Buna görə sağ olun.

**M i x a i l Q u s m a n: Lakin bu, hədiyyə deyil. Mən onu qaytarmalıyam, qol çəkib götürmüşəm.**

**İ l h a m Ə l i y e v:** Başa düşürəm ki, siz bunu qaytaracaqsınız, amma heç olmasa verin baxım.

**M i x a i l Q u s m a n: Burada ciddi şərhlər var. Fotoşəkilləriniz də var. Bu sualı Sizə hədər yerə vermədim. Bilirdim ki, gənclik illəriniz yaddaşdan silinməyib. Əlbəttə, bu gün gənc nəsil başqadır. O, kompüter gəncliyi, internet gəncliyidir – başqadır. Siz kifayət qədər gəncsiniz, bu mənada ki, həmin gənc nəsli yaxşı xatırlayırsınız, bugünkü gənc nəsli də görürsünüz. Sizin fikrinizcə, bugünkü gənc nəsli Sizin gənclik illərinizlə müqayisə etsək, onun müsbət və mənfi cəhətləri nədədir?**

**İ l h a m Ə l i y e v:** Müqayisə etmək mənim üçün çətin olacaq. Ona görə ki, bu gün verdiyim qiymət artıq mənim təcrübəmə əsaslanır. O vaxt baş verənlərə gəldikdə, mən özüm indi haqqında nəsə deməli olduğum həmin gəncliyin bir hissəsi

idim. Lakin çalışaram ki, maksimum obyektiv olum. Hesab edirəm ki, indiki gənclik daha müstəqil, daha motivasiyalı və daha peşəkardır. Bizim ölkədə baş verənlərə əsasən görürəm ki, indiki gənclərin uğur qazanmaq arzusu çox böyükdür. Onlar tamamilə başa düşürlər ki, bu, yalnız yaxşı təhsil olduqda mümkündür. Artıq diplom, yaxud hansısa sertifikat, yaxud hansısa qohumluq əlaqələri həmişə kömək edə bilmir. Potensialın yoxdursa, peşəkar deyilsənsə, həyatda çətin olacaqdır. Əgər istedadlısansa, yaxşı qabiliyyətlərin, vərdişlərin varsa, yaxşı oxu-musansa, onda təbii ki, yerini tapacaqsan və yaxşı yaşayacaqsan. Zənnimcə, bu anlayış hələ o vaxt bizim gənclərdə yox idi. Əlbəttə, o vaxt da oxumaq istəyənlər vardı. Lakin elələri də vardı ki, onlar sadəcə, diploma sahib olmaq istəyirdilər ki, anketlərində bu yazılsın. Sonrası heç kəsi maraqlandırmırdı.

Həm də düşünürəm ki, indiki gənclər daha vətənpərvərdir. Bu təbiidir, çünki Azərbaycanın indiki gəncləri müstəqillik şəraitində yaşayır və böyüyür, onlar müstəqil Azərbaycan dövlətinin bir hissəsidir. Bu da mənə çox xoşdur ki, qloballaşmaya, bütün yeni fikirlərə baxmayaraq, bizim gənclər öz köklərinə çox bağlıdır. Bizim gənclərin əsas hissəsi, böyük əksəriyyəti Azərbaycan musiqisini dinləyir. Bu gənclər Azərbaycan xalqının ənənələri, mənəvi dəyərlərimiz, mədəniyyətimiz, tariximiz əsasında tərbiyə olunmuşlar. Bu mənə çox xoşdur və mən prezident olaraq, milli ruhun daha da möhkəmlənməsi üçün hər şeyi etməyə çalışıram. Əlbəttə, qlobal dünyada yaşamağımızı, bizim bu dünyanın bir hissəsi olduğumuzu başa düşməli, yaxşı nə varsa hamısını və ən mütərəqqi texnologiyaları Azərbaycana gətirməliyik və bunu edirik. Buna görə də mən bugünkü gəncləri ideallaşdırmadan bu amilləri qeyd edərdim. Bundan əlavə, bugünkü gənclər bizim nəsillə müqayisədə daha çox risklərə, təhdidlərə məruz qalır və ümumiyyətlə, bəşəriyyətin müasir coşğun inkişafının mənfi cəhətləri yəqin ki, bunlardır. Keyfiyyət baxımından mənə belə gəlir ki, indiki gənclər bizim nəsli qabaqlayır. Yəqin ki, belə də olmalıdır. Lakin növbəti nəsil...

**M i x a i l  Q u s m a n: Dialektika, yəqin ki, Siz onu öyrənmisiniz...**

**İ l h a m  Ə l i y e v:** İndiki nəsli qabaqlamalıdır.

**M i x a i l  Q u s m a n: Mən yenə Sizin şəxsi işinizə qayıtmaq istəyirəm. Burada çox maraqlı məsələlər var. İlham Heydər oğlu, Siz qəbul imtahanında yazdığınız inşanın mövzusunu xatırlayırsınızmı?**

**İ l h a m  Ə l i y e v:** Yox, xatırlamıram.

**M i x a i l  Q u s m a n: Mən yadınıza salaram. «Puşkinin «Yevgeni Onegin» poemasında rus zadəganlığı və nümayəndələri» mövzusu. Əla yazılmışdır. Aleksandr Sergeyeviçdən bütöv bəndləri əzbərdən sitat gətirirsiniz.**

**İ l h a m  Ə l i y e v:** O vaxt hər şeyi əzbərləməyə məcbur edirdilər.

**M i x a i l  Q u s m a n: Bəli, əla inşadır. Özü də şifrələnmişdir, onu yoxlayan müəllim müəllifin kim olduğunu bilmirdi. Bəs zadəganlıq nədir? Mən belə başa düşürəm ki, zadəganlıq cəmiyyətin elitasıdır. Bilmirəm, təsadüfdür, yoxsa nəyi rəhbər tutaraq Siz «Rus cəmiyyətində elitanın rolu» mövzusunu seçmisiniz. Zadəganların rolu. Sizin fikrinizcə, müasir cəmiyyətin elitası nədir və Azərbaycan cəmiyyətinin elitasının bütövlükdə Şərq elitasına münasibəti necədir?**

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, elitalar mövzusunda çox deyilmiş, çox müdrik sözlər yazılmış və təhlillər aparılmışdır. Hər hansı fəlsəfi mühakimələr yürütmək istəmirəm, hərçənd elitanın nə demək olması və ölkələrin, xalqların, bütövlükdə bəşəriyyətin inkişafında onun rolu haqqında öz təsəvvürüm vardır. Hər bir ölkə üçün tərəqqinin hərəkətverici qüvvəsidir. Ölkənin uğurlarını müəyyən dərəcədə, bəzən həlledici dərəcədə onun elitası müəyyən edir. Cəmiyyətin inkişafı da elitanın hazırlıq və motivasiya dərəcəsindən asılıdır. Mənim fikrimcə, əsas məsələ odur ki, tarazlıq, çox düzgün tarazlıq gözlənilsin və elita özünü bütövlükdə cəmiyyətdən təcrid olunmuş hiss etməsin. Ona görə ki, elita cəmiyyətin bir hissəsidir. Ən

peşəkar, hazırlıqlı, istedadlı hissəsidir və buna görə ən məsuliyyətli hissə olmalıdır. Hesab edirəm ki, bizim cəmiyyətdə tarazlığa riayət olunmuşdur. Əvvələn, bizdə istər siyasi idarəçilikdə, istər biznes strukturlarında, istərsə də hər hansı başqa sahədə ayrı-seçkilik yoxdur. Maksimum dərəcədə çalışırıq ki, hamı bərabər olsun – həm qanun, həm də cəmiyyət qarşısında. Buna görə də tarazlıq pozulmamışdır. Toxunulmazlar yoxdur. Xüsusi statusa malik adamlar da yoxdur. Elitanın davranışına gəldikdə isə ideya və tərəqqi daşıyıcısı kimi, yerinə yetirdiyi funksiyadan əlavə, o özünü cəmiyyətdən ayrılmış hiss etməsin, özündən bədgüman olmasın, yetərincə təvazökar və vətənpərvər olsun. Bu halda bütövlükdə cəmiyyətin elitaya münasibəti müsbət olacaqdır. Görürəm ki, Azərbaycanda vəziyyət belədir. Cəmiyyətimizdə uğur qazananlara münasibət əsasən müsbətdir. Hər hansı böyük maddi nemətlərə nail olmuş, yaxud çoxlu pul qazanmış adamlara, yaxud işləri uğurla gedən biznesmenlərə münasibət müsbət ehtiramlıdır. Əlbəttə, hisslər rəngarəngdir. Mənim fikrimcə, bu hisslər arasında paxıllıq hissi Azərbaycan cəmiyyətində birinci yerdə deyildir.

Mənə belə gəlir, bəlkə də hörmət hissi birinci yerdədir. Hərçənd müxtəlif adamlar, müxtəlif yanaşmalar vardır. Elitanın nümayəndələri də müxtəlifdir. Qınanmağa, bəzən cəzalandırılmağa layiq olanlar da var və bu təbii ki, qanun çərçivəsində baş verir. Bunlar üzvi şəkildə əlaqələndirilməlidir, elita təkəbbürlü olmamalıdır və belə deyək, hələ elita olmayanların da mənfi və narazılıq hissləri olmamalıdır.

**M i x a i l Q u s m a n: Siz beynəlxalq münasibətlər üzrə təhsil almısınız. Bu Sizin diplomunuzda göstərilmişdir və mən deyə bilərəm ki, Siz həqiqətən bu sahənin mütəxəssisisiniz. Sizin bütün həyatınız bunu göstərmişdir. Əlimdə daha bir kiçik qovluq var. Mən söhbətə hazırlaşmışam. Bu qovluğu tanıyırsınız? Yox?**

**İ l h a m Ə l i y e v:** Yox.

**M i x a i l  Q u s m a n: Sizin dissertasiyanızdır. Burada onun referatı var. Bu dissertasiya müasir mərhələdə Böyük Britaniyada müharibə əleyhinə hərəkata və siyasi partiyaların ona münasibətinə həsr edilmişdir.**

**İ l h a m  Ə l i y e v:** Bu ad yadımdadır.

**M i x a i l  Q u s m a n: Bəli, bu həmin dissertasiyadır. Yeri gəlmişkən, ona tələbat olmuşdur. Burada mənim əlimdə kitabxana kartı var. Mən onu MDBMİ-nin kitabxanasından götürmüşəm. Sizin dissertasiyanı oxumaq üçün tez-tez götürmüşlər. Görünür, iş aktual olub, onunla maraqlanıblar. Yeri gəlmişkən, bundan əvvəl Siz Leyboristlərin parçalanması haqqında diplom işi yazmısınız.**

**İ l h a m  Ə l i y e v:** Tamamilə doğrudur. Mən Folklend münaqişəsi haqqında da yazmışdım.

**M i x a i l  Q u s m a n: Bununla əlaqədar, mənim Sizə xarici siyasətlə bağlı bir sualım var. Azərbaycan nadir geosiyasi məkanda yerləşir. Burada çox müxtəlif tarixi amillər vardır. Sizin üçün öz ölkənizə tətbiqən geosiyasət nə deməkdir? Geosiyasi amillər Sizin siyasətə necə təsir göstərir?**

**İ l h a m  Ə l i y e v:** Bu bizim təbii varlığımızın, mövcudluğumuzun tərkib hissəsidir. Yəqin ki, bu sözlər bəlkə qonşuları olmayan adalar istisna olmaqla, hər bir ölkə üçün aktualdır, lakin onlar da siyasətə cəlb edilir.

**M i x a i l  Q u s m a n: Siz onlar haqqında da iş yazmısınız. Folklend adaları haqqında.**

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, biz regionun bir hissəsiyik və regionda baş verən proseslər istədik-istəmədik bizə təsir göstərir. Lakin prezident kimi, mənim vəzifəm regional xarakterli proseslərin Azərbaycana mənfi təsirini minimuma endirmək və əksinə, Azərbaycanın regional proseslərə təsir göstərmək imkanlarını maksimum artırmaqdır. Buna nail olmaq üçün xarici siyasət oriyentirlərini çox dürüst başa düşmək, xarici siyasət təşəbbüslərini düzgün seçmək zəruridir. Bəzən onlar iqtisadi, nəqliyyat xarakterli

olur. Lakin son nəticədə bu bizim xarici siyasət proqramının və ya paketinin bir hissəsidir. Azərbaycanın beynəlxalq miqyasda rolunu və yerini möhkəmlətməliyik. Regional formata gəldikdə isə deməliyəm ki, bu gün bizim regionla məşğul olan mütəxəssislərin, analitiklərin əksəriyyəti başa düşür ki, Azərbaycan regional planda xüsusi yer tutur. İqtisadiyyata gəldikdə, Azərbaycan iqtisadiyyatı bütün Cənubi Qafqaz iqtisadiyyatının 83 faizini təşkil edir. Gələcəkdə bu rəqəm yalnız artacaqdır, çünki bizim planları, investisiyaları və iqtisadi inkişaf proqramlarını nəzərə alsaq, bu rəqəm haçansa 90-a da çatacaqdır. Lakin əsas məqsəd bu deyil. Biz heç vaxt qarşıya belə məqsəd qoymamışıq. Sadəcə, gördüyümüz işlər avtomatik olaraq buna gətirib çıxarmışdır.

Regional təşəbbüslərə gəldikdə, biz nəqliyyat, energetika, təhlükəsizlik məsələləri ilə əlaqədar əsas, ən mühüm regional proqramların təşəbbüsçüləri olmuşuq. Bu gün Azərbaycanın iştirakı olmadan regionda heç bir layihəni həyata keçirmək mümkün deyildir. İstər energetika, istər nəqliyyat, istərsə də xarici siyasət sahəsində. Nisbətən yaxın keçmişdə baş vermiş hadisələr göstərmişdir ki, kimin nə qədər səy göstərməsindən asılı olmayaraq, Azərbaycanın mənafeləri nəzərə alınmadan regionda xarici siyasi layihələr həyata keçirilə bilməz. Biz buna nail olmuşuq. Fikrimcə, indi artıq hamı bunu başa düşür. Hər bir ölkə çalışır ki, onun ölkə hüdudlarından kənarda təsiri daha çox olsun. Biz bu məsələyə həm də regional əməkdaşlığın möhkəmlənməsi baxımından yanaşırıq. Ölkənin xarici siyasət təşəbbüslərinə və geosiyasi mövqeyinə müsbət yanaşırıq. Təzyiq göstərmək, şantaj, mənfi münasibət vasitəsilə deyil, müsbət münasibət vasitəsilə. Biz həmhüdud ölkələrdə investisiya qoyuluşunu həyata keçiririk. Qonşu ölkələrdən qaynaqlanan, məqbul hesab etdiyimiz təşəbbüsləri müəyyən qədər dəstəkləyirik. Bizim iqtisadi təşəbbüslərimiz və Azərbaycanın hüdudlarından kənarda reallaşdırdığımız investisiyalar sərmayə qoyulan ölkələrə kömək edir. Həm regionda, həm də Avropada dostlarımızın və tərəfdaşlarımızın çoxu Azərbaycanı özlərinin strateji sərmayədarları sırasında görmək istəyir. Bizə sənayenin strateji

sahələrinə, energetikaya, nəqliyyata sərmayə qoyuluşunda iştirak etmək təklif olunur və biz bu təklifləri çox diqqətlə nəzərdən keçiririk. Bu o deməkdir ki, Azərbaycan etibarlı dost, tərəfdaş kimi qəbul edilir. Biz regionda öz mənafelərimizi geniş mənada təmin edirik və gələcəkdə bizim iqtisadi potensialın bir hissəsi bu gün Azərbaycanın hüdudlarından kənarda qoyduğumuz sərmayələr hesabına formalaşacaqdır. Bu bizim həyata keçməkdə olan yeni iqtisadi siyasətimizin tərkib hissəsidir. Son dövrün bəlkə də ən xoş mövzusuna – Təhlükəsizlik Şurasına seçilməyimizə qayıdaraq demək istəyirəm ki, bu da bizim həyata keçirdiyimiz siyasətin bir hissəsi və dünyada Azərbaycanın rolunun başa düşülməsi göstəricisidir. Biz Xəzər regionunda, Qafqaz regionunda və daha geniş regionda real sabitləşdirici amilik. Güman edirəm və əminəm ki, gələcəkdə nüfuzumuz yalnız artacaqdır.

**M i x a i l  Q u s m a n: Siz həyatınızın müəyyən hissəsini Moskvada yaşamısınız. Sovet İttifaqının paytaxtı, indi isə Rusiyanın paytaxtı Moskvada oxumusunuz. Hazırda rəsmi və qeyri-rəsmi səfərlərlə tez-tez Rusiyada olursunuz. Rusiya Azərbaycanın qonşusudur. Sizin Rusiya Federasiyasının həm keçmiş prezidenti Vladimir Putinlə, həm də hazırkı prezidenti Dmitri Medvedevlə müəyyən siyasi, peşəkar əlaqələriniz yaranmışdır. Sizdə MDBMİ-də bu movzu ilə bağlı deyildiyi kimi, «personal chemistry» vardır. Rusiya–Azərbaycan əməkdaşlığının perspektivlərini necə görürsünüz? Orada ağrılı nöqtələr və ya hansısa açılmayan düyünlər varmı? Digər tərəfdən, bu inkişafın hansı perspektivləri vardır?**

**İ l h a m  Ə l i y e v:** Perspektivlər mənə çox müsbət görünür. Son 10 ilin tarixi çox müsbətdir. Qeyd etdiyiniz kimi, mənim Rusiyanın həm prezidenti, həm də Baş naziri ilə çox sıx qaşılıqlı əlaqələrim, münasibətim vardır. Əlbəttə, şəxsi münasibətlər də ikitərəfli və regional xarakterli bir çox məsələlərin həll olunmasına kömək edir. Rusiya və Azərbaycan arasında münasibətlərin inkişafının yeni mərhələsi elə 2000-ci illərin əvvəlində – Vladimir Putin Rusiyaya başçılıq edəndə

başlamışdır. O, Rusiya prezidenti kimi, ilk rəsmi səfərini Azərbaycana etmişdi. Bununla da keçən əsrin 90-cı illərinin heç də həmişə bizim istədiyimiz kimi alınmayan münasibətləri dövrünə yekun vurulmuş və münasibətlərin yeni səhifəsi açılmışdır. 10 il ərzində çox iş görülmüşdür. Müxtəsər desək, ikitərəfli münasibətlərdə bütün ağrılı və ya mürəkkəb məsələlərin hamısı həll edilmişdir. Sonuncu məsələ prezident Dmitri Anatolyeviç Medvedevin Azərbaycana son səfəri zamanı həllini tapmış, dövlət sərhədi haqqında müqavilə imzalanmışdır. Bu, tarixi sənəddir. Həmin sənəd bu illər ərzində razılaşdırılmış və imzalanmış bütün sənədlərin zirvəsidir. Bizim gözəl qarşılıqlı siyasi fəaliyyətimiz, siyasi əlaqələrimiz var. Əmtəə dövriyyəsi 10 faizlərlə artmaqdadır. Bu il az qala 50–60 faiz olmuşdur. Mədəniyyət sahəsində, humanitar əməkdaşlıqda vəziyyət, deyərdim ki, idealdır. Bu həm bizim, həm də Rusiya tərəfinin qiymətidir. İstisnasız olaraq bütün hüquq mühafizə strukturları arasında əməkdaşlıq çox səmərəli və təsirlidir. Soruşsanız ki, daha nə etmək lazımdır, mənə cavab vermək çətin olacaqdır, çünki biz hər şeyi həll etmişik. Əlbəttə, növbəti mərhələdə müsbəti artırmaq, əməkdaşlığı maksimum möhkəmləndirmək, regionda təhlükəsizliyin möhkəmləndirilməsi məsələlərinə maksimum kömək etmək lazım gələcəkdir. İki qonşu ölkə, sizin də qeyd etdiyiniz kimi, iki Xəzər ölkəsi, iki Qafqaz ölkəsiyik. Bunlar bizim ümumi problematikamızdır. İkimiz də elektrik enerjisi, neft və qaz hasilatçısıyıq. Təbii ki, təchizatçı kimi maraqlarımız üst-üstə düşür. Burada da əməkdaşlıq yolları tapırıq. Rəqabət deyil, məhz əməkdaşlıq.

**M i x a i l  Q u s m a n: Qarşıdurma deyil.**

**İ l h a m  Ə l i y e v:** Tamamilə doğrudur, məhz əməkdaşlıq. Bu isə tamamilə mümkündür və biz buna artıq nail olmuşuq. Mən perspektivləri bugünkü kimi müsbət görürəm. 20 illik bütün qarşılıqlı fəaliyyət dövrünü təhlil etsək, görərik ki, bu gün Rusiya ilə Azərbaycan arasındakı münasibətlər daha

səmərəli və daha yüksək səviyyədədir. Bu da özlüyündə beynəlxalq siyasətin mühüm amilidir.

**Mixail Qusman: Siz Rusiya MDBMİ-də gözəl təhsil almısınız. Lakin siyasətdə, diplomatiyada, həyata, dünyaya baxışda əsas dərsləri hər halda, Azərbaycanın ümummilli lideri Heydər Əliyevdən aldığınızı desəm, çətin ki, səhv edərəm. Biz Sizinlə bu barədə danışmışıq. Hətta sırf praktiki planda götürsək, bu gün Siz Heydər Əliyev məktəbinin hansı əsas dərslərindən istifadə edirsiniz?**

**İlham Əliyev:** Əgər sadalamağa başlasam çox vaxt aparacaq. Hər bir adam üçün atası necə yaxın və əzizdirsə, mənim üçün də atam elə yaxın və əziz insan idi. Mənim üçün elə bir insandır ki, ona sonsuz hörmət, etimad və heyranlıqla yanaşmışam və yanaşıram. Onun bütün həyatı, mübarizəsi, taleyi, yenilməzliyi bir örnəkdir. Ömrünün son illərini yəqin ki, çoxları xatırlayır: gənc kursantlar qarşısında çıxış edəndə vəziyyəti pisləşdi, müvazinətini itirərək yıxıldı, sonra getdi, qayıtdı və yenə yıxıldı, yenə də getdi, qayıtdı və nitqini bitirdi. Düşünmürəm ki, onun yaşında və belə vəziyyətdə olan kimsə – səksən yaşı olan insanın səkkiz qabırğası sınmışdı – eyni cür hərəkət edərdi. Lakin o bunu etdi, başqa cür edə bilməzdi. Bu onun bütün xarakterinin göstəricisidir, mərdliyi və yenilməzliyidir. Bu hamımız üçün – həm mənim üçün, həm də bütün azərbaycanlılar üçün örnəkdir. Mənim xoşbəxtliyim sadəcə bundadır ki, onun yanında olmuşam. Mənim belə yaxın formatda ondan öyrənmək, ən mürəkkəb məqamlarda yanında olmaq imkanım olmuşdur. Bu bir məktəbdir. Sadəcə, onu məktəb kimi qəbul etmirsən, axı bu tədris prosesi deyildir. Barəsində danışdığım bütün keyfiyyətlərlə yanaşı, o qavramaqdır, misilsiz təcrübədir və həm də siyasi müdriklikdir. Onu əzən və təqib edən böyük bir sistemə, aparata qarşı təkbaşına müqavimət göstərirdi. Hələ 1990-cı ildə Azərbaycana qayıdanda, hər tərəfdən hücumlara və parlamentdə obstruksiyaya məruz qalanda təkbaşına idi. Həmin parlament ki, bir neçə aydan sonra onu ayaq üstə alqışlamışdı. Bunlar mənim gözlərim qarşısında olmuşdur. Ölkəni xaosdan, anarxiyadan necə çıxarması da, güclü

dövlət yaratması da bir örnəkdir. Ona görə də azərbaycanlıların qəlbində onun daim öz yeri olacaqdır. Mənim bəxtim gətirmişdir ki, o mənim atam, mən isə onun oğluyam. Bu mənim üçün fəxrdir və bu gün praktiki baxımdan etdiyim hər şey onun başladıqlarının davamıdır. Əlbəttə, yeni formalar, yeni çağırışlar, dünya dəyişib, mahiyyət isə olduğu kimi qalıb. Bu, layiqli siyasətdir, mərd siyasətdir, lazım gəldikdə cəsarətli siyasətdir. Qəbul etdiyin qərarın düzgünlüyünə əminsənsə, heç nəyə baxmayaraq, onu həyata keçirmək lazımdır.

**Mixail Qusman: Cənab Prezident, bizim söhbətimiz, Sizin danışdığınız hər şey sanki gələcəyin ssenarisidir. Təsəvvürünüzə gətirin ki, zaman maşınında keçmişə qayıda bilərsiniz. Siz keçmişin hansı hadisələrini bir daha hiss etmək istərdiniz? Keçmişin hansı hadisələrini bir daha yaşamaq istərdiniz?**

**İlham Əliyev:** Mən bunu istəməzdim. Ən fərəhli hadisə də baş verdiyi vaxtdakı effekti ikinci dəfə verməyəcəkdir. Odur ki, keçmişə qayıtmaq imkanı olsaydı, mən yəqin ki, getməzdim. İmkan olsaydı gələcəyə gedərdim. Fərz edək, 10 il qabağa. Planlarımın baş tutub-tutmadığına və nə dərəcədə alındığına, əgər alınmamışsa, bunun üçün nə etmək lazım gəldiyinə baxmaq istərdim. Keçmişə qayıtmaq imkanı olsaydı, anamın və atamın yanına qayıtmaq istərdim.

**Mixail Qusman: Mən heç yerdə rast gəlməmişəm ki, Sizin hansısa ənənəvi hobbiniz vardır. Heç yerdə oxumamışam ki, haradasa tilovla oturmusunuz, yaxud marka və ya kəpənək toplayırsınız. Psixoloji gücünüzü haradan alırsınız? Psixoloji baxımdan necə bərpa olunursunuz, necə dincəlirsiniz?**

**İlham Əliyev:** Fiziki gücümü idman zalında bərpa edirəm. İdmanla məşğul olmaq mənə özümü 20-30 il əvvəlki kimi hiss etmək imkanı verir. Psixoloji cəhətdən isə evdə və yalnız evdə yaxınlarımın əhatəsində, ailəm arasında. Gün ərzində ən yaxşı vaxt axşam evdə, ailəmlə birlikdə olmaqdır.

**M i x a i l  Q u s m a n: Prezidentin işinin harada başa çatdığının və şəxsi həyatının harada başlandığının bölgüsünü aparmaq olarmı? Yoxsa bunlar bir-birinə qarışmışdır? Bilirsinizmi, bəzilərində belədir: vəssalam, ofisi bağladım, sonra evə, səhər isə yenə də işə.**

**İ l h a m  Ə l i y e v:** Qismən. İş heç vaxt qurtarmır. Yəqin ki, bu təkcə məndə deyil, bütün prezidentlərdə belədir. Evdə də işdəsən, evdə də işlə əlaqə saxlayırsan, təbii ki, bir hadisə baş versə 24 saat işləyirsən. Buna görə də işin qurtardığını və indi şəxsi həyatın başladığını demək mümkün deyil. Lakin əlbəttə, işlə şəxsi həyat bir-birinə qarışmır. Axşam evimin kandarından içəri keçəndə, əgər heç bir fövqəladə hadisə, zəng yoxdursa, bütünlüklə, tamam başqa mühitə – onilliklər boyu olduğum ailə həyatı mühitinə düşürəm. Mən problemləri, narahatlıqları, iztirabları, əsəbiliyi evə gətirmirəm, yaxınlarımı qoruyuram. Evdə də hər şey 20-25 il əvvəlki kimidir, dəyişiklik yoxdur.

**M i x a i l  Q u s m a n: Məhz indi, Sizinlə söhbət etdiyimiz bu vaxtda Sizin həyat yoldaşınız, ölkənin birinci xanımı Mehriban Əliyevanın başçılıq etdiyi Heydər Əliyev Fondu Romada, Vatikanda Azərbaycanın təbliği üzrə genişmiqyaslı tədbirlər keçirir. Mehriban xanımın fəal ictimai işlərindən hamının xəbəri vardır. O, möhtəşəm iş aparır, YUNESKO-nun, İSESKO-nun Xoşməramlı səfiri, Gimnastika Federasiyasının prezidenti, parlamentin deputatıdır. Belə başa düşürəm ki, bu, total məşğulluqdur. İndicə Siz də dediniz, mən də bilirəm ki, o özü hər dəfə evə can atır. Bu prioritetlər necə bölünür və onun prioritetləri sizinkilərə nə dərəcədə uyğundur?**

**İ l h a m  Ə l i y e v:** Biz axşamlar, yaxud bazar günü vaxtımızı evdə keçirməyi hər şeydən çox xoşlayırıq. Bizim üçün bu, vaxt keçirməyin ən yaxşı yoludur. O sizin qeyd etdiyiniz çox mühüm funksiyaları yerinə yetirir. Hazırda İtaliyada keçirilən bu günlər müstəqilliyimizin 20 illiyinə həsr edilmiş silsilə tədbirlərdir. Dünyanın bütün iri paytaxtlarında Azərbaycan günləri keçirilir. Moskvada, Parisdə, Berlində Azərbaycan günləri keçirilmişdir, indi isə Romada keçirilir. Bu,

tədbirlər silsiləsidir, onun ictimai yükü çox böyükdür. Hətta birinci xanımın funksiyaları da – protokol tədbirləri və s. çox böyük qüvvə tələb edir. Bunlar onu sevimli məşğuliyyətindən, evdə, uşaqların və nəvələrin əhatəsində olmaq, sadəcə divanda əyləşmək və söhbət etmək, adi ömür sürmək imkanından ayırır. Lakin belə deyək, bizim bir yerdə olmadığımız hallar il ərzində çox deyil. Tədbirlərdə iştirak etmək lazım gələndə belə alınır. Biz həmişə bir-birimizə can atırıq, yanaşı olmaq istəyirik. Çox istedadlı insandır, hər işdə istedadlıdır. Buna görə də hər işi görməyə, özü də yüksək səviyyədə görməyə macal tapır.

**M i x a i l  Q u s m a n: İlham Heydər oğlu, Siz istəsəniz də, istəməsəniz də 50 yaşın astanasındasınız. Çox iş görülmüşdür. Söhbətinizdən görünür ki, xidmətləriniz çox olub. Ümumiyyətlə, indiyə qədər qazanılmış uğurlardan həzz almaq və bu baqaja arxalanaraq irəli getmək olar. Lakin Sizi yaxşı tanıdığımdan bilirəm ki, bu Sizin xarakterinizə uyğun gəlmir. Növbəti yarım əsrdə şəxsən özünüz üçün qarşınıza hansı məsələləri qoyursunuz?**

**İ l h a m  Ə l i y e v:** Səmimi deyim, həyatda heç vaxt heç nəyi qabaqcadan ürəyimdə tutmuram. Çalışıram tutmayım. Əminəm ki, bunun heç bir yaxşı nəticəsi olmayacaq.

**M i x a i l  Q u s m a n: Belə bir məsəl var, deyərlər Allahı güldürmək istəyirsənsə, sabahkı planların barədə ona danış.**

**İ l h a m  Ə l i y e v:** Tamamilə doğrudur. Lakin mən prezident olaraq, bunu özümə rəva görə bilmərəm. Gələcək haqda düşünməsək, bugünkü məsələləri həll etmək çox çətin olacaq. Gündəlik məsələlərlə, prezidentin mütəmadi işləri ilə kifayətlənmək, yaxud bunlara siyasi mübarizə və ya müəyyən siyasi səmərə prizmasından baxmaq mümkündür. Lakin mən məhz sizin dediyiniz kimi, yarım əsr qabağa baxıram. Ona görə yox ki, 50 ildən sonra sizinlə burada əyləşib söhbət etmək fikrindəyəm.

**M i x a i l  Q u s m a n: Mən etiraz etmirəm.**

**İ l h a m  Ə l i y e v:** Bizim həyata keçirdiyimiz təşəbbüslərin çoxu gələcəyə yönəlmişdir. Energetika sahəsində yüz illik planlarımız var. Ən azı 100 il Azərbaycan beynəlxalq enerji bazarında əvəzedilməz və çox mühüm oyunçu olacaqdır. Nəqliyyat sahəsində biz elə infrastruktur yaradırıq ki, əsrlər boyu ölkəmizin rifahına xidmət edəcəkdir. Ölkəmizin coğrafi şəraiti nəzərə alınmaqla güclü logistik, nəqliyyat infrastrukturu külli miqdarda vəsait qazanmağımıza, ölkəmizin geosiyasi əhəmiyyətini möhkəmlətməyə imkan verəcəkdir. Təhsil sahəsində gördüyümüz işlər də bir neçə onilliyi əhatə edir. Kadrlar hazırlanması, informasiya texnologiyaları məsələlərində də belədir.

**M i x a i l  Q u s m a n: Bunlar gələcək üçün investisiyalardır.**

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, mənim planlarımda Azərbaycan–2050 və ya Azərbaycan–2060 perspektivləri vardır. Bu gün Azərbaycan–2023 proqramları ilə daha çox məşğul oluram. Bu proqram iki ildən sonra başlanacaqdır. Onun uğurla həyata keçirilməsi Azərbaycan–2060, 2070 və sonrakı dövrləri təmin edəcəkdir. Bu gün məsələn, su təchizatı üzrə həyata keçirdiyimiz infrastruktur layihələri 2035-ci ilə qədər hesablanmışdır – əhalinin, iqtisadiyyatın, müəssisələrin artması nəzərə alınmaqla. 2035-ci ilə qədər nəzərdə tutulan işləri görürük ki, bizdən sonra gələnlər 2030-cu ildə artıq 2067-ci ilə qədər lazım olan işləri görsünlər. Ölkə yalnız bu cür inkişaf edə bilər. Sonra nə olacağı barədə strateji təsəvvür yoxdursa, idarə etmək olar, lakin bütün bunlar dayana bilər, halbuki dayanmamalıdır. Dünya irəliyə doğru hərəkət edir. Biz də onunla ayaqlaşmalıyıq. Yaxın onilliklərdə dünyada kimlər üstünlük təşkil edəcəkdir? Kimin biliyi çoxdursa onlar. Bir müddətdən sonra yüksək texnologiyalar sahəsində Azərbaycanın birinci yerdə olacağını gözləmək çətindir. Lakin biz harada olmalıyıq? Həmin texnologiyaları yaradanlardan bir addım arxada olmalıyıq. Bir şey yaradıblarsa, biz orada olmalıyıq, yeni bir şey istehsal ediblərsə, onu mənimsəməliyik.

Bunun üçün təkcə vəsaitə malik olmaq yetmir, kadrlara, infrastruktura, konsepsiyaya, strategiyaya malik olmaq lazımdır. Vaxt gələcək, biz də dünya əhəmiyyətli məhsullar istehsal edəcəyik. Bəzən elə ambisiyalı planlarla yaşayırıq ki, onlar həyata keçirilə bilməyəcək planlar təsiri bağışlayır. Lakin söhbətimizin əvvəlində dediyim kimi, onlar reallaşır. İstək, siyasi iradə və yaxşı təşəbbüskarlıq olsa, çox şey etmək olar.

**M i x a i l  Q u s m a n: Bununla bağlı sonuncu sualım. 1961-ci il ailənizin həyatında Sizin dünyaya gəlməyinizlə əlamətdar olub. 1961-ci il bəşəriyyət tarixində Yuri Qaqarinin kosmosa uçuşu ilə yadda qaldı desəm, inciməzsiniz. Bu, tarixə belə düşdü. Azərbaycan 50 ildən sonra öz peykini orbitə çıxaracaqdır. Dünya əsaslı şəkildə dəyişmişdir – yeni kompüterlər, yeni texnologiyalar. Köhnəliklə, vaxtı ötənlərlə vidalaşmışıq. Gələcək haqqında, bu gün haqqında danışarkən, özümüzlə keçmişdən nəyi götürməliyik ki, bizi həmişə müşayiət etsin?**

**İ l h a m  Ə l i y e v:** Gələcək ilk növbədə insanın sırf mənəvi keyfiyyətləri müstəvisində olacaqdır. Tərəqqiyə, texnologiyalara, qloballaşmaya, insan amilinin müəyyən dərəcədə nivelirlənməsinə baxmayaraq, mənəvi dəyərlər olmasa, bəşəriyyət inkişaf edə bilməz. Biz robotların gələcəyinə doğru getmirik. Daha çox inkişaf etmiş və daha müasir bəşəriyyətin gələcəyinə doğru gedirik. Minilliklər boyu dünyanı dəyərlər idarə etmişdir. Elə belə də olmalıdır. Buna görə də heç bir şəraitdə ləyaqət hissini keçmişdə qoymaq olmaz. Abır-həya və insanlara xeyirxah münasibət hissi həmişə olmalıdır. Sözün yaxşı mənasında vətənpərvərlik hissi inkişaf üçün əsas motivlərdən biri kimi daim olmalıdır. Mən vətənpərvərlik hissini ölkəmizin inkişafı üçün əsas motivlərdən biri hesab edirəm. Heç bir halda öz Vətənini sevməmək olmaz. Vətəni həmişə sevmək lazımdır. Mənim fikrimcə, hər kəs bu əsas məqamları həmişə özü ilə irəli aparmalıdır.

**M i x a i l  Q u s m a n: Çox sağ olun, cənab Prezident.**

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## QARADAĞ RAYONUNDA «AAC» MÜASİR TİKİNTİ MATERİALLARI ZAVODUNUN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*26 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Qaradağ rayonunda «AAC» müasir tikinti materialları zavodunun açılışında iştirak etmişdir.*

*Məlumat verildi ki, tikintisinə 2008-ci ilin mayında başlanılan və müasir standartlara cavab verən zavodun ümumi sahəsi 10 hektardır.*

*Burada məsaməli beton, yandırılmış və sönmüş əhəng istehsalı və kvars qumunun yuyulması sahələri yerləşir.*

*Qeyd edildi ki, zavodun ərazisində xammal və hazır məhsul anbarları, inzibati bina, dəmiryol xətti, nəqliyyat vasitələrinin saxlanılma və texniki xidmət sahəsi və digər təsərrüfat obyektləri yerləşir. İstehsal olunan məhsulların yüksək standartlara cavab verməsini təmin etmək üçün zavodda ən son mikrobioloji, fiziki-kimyəvi avadanlıqla təchiz olunan laboratoriya da fəaliyyət göstərir.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, zavodun tikintisində İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun ayırdığı 10 milyon manat güzəştli kreditdən istifadə olunmuşdur.*

*Məlumat verildi ki, xammal əhəng anbarından istehsal sahəsinə yönəldilməmişdən əvvəl yuyulma prosesindən keçir, sonra qapalı şəkildə emal olunaraq ekoloji cəhətdən təmiz məhsul əldə olunur. İstehsal prosesi beynəlxalq standartlara uyğun, ekoloji cəhətdən təmiz və ətraf mühitə ziyansız şəkildə həyata keçirilir. Bu istehsal sahəsində 100 ton yandırılmış və 120 ton sönmüş əhəng istehsal edilir.*

*Hazır məhsulların nümunələrinə baxan dövlətimizin başçısına məlumat verildi ki, yandırılmış və sönmüş əhəngdən*

*tikinti, metallurgiya, mədən və qida sənayesində geniş istifadə olunur. Zavodda emal və istehsal prosesində istifadə olunan texnika və avtomobillər də dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Burada da keyfiyyət və ekoloji təmizlik əsas götürülmüşdür.*

*Sonra prezident İlham Əliyev məsaməli beton istehsalı sahəsinin fəaliyyəti ilə tanış oldu.*

*Zavodun maketinə baxan Azərbaycan prezidentinin diqqətinə çatdırıldı ki, istehsal prosesində yerli xammal olan kvars qumu və əhəng daşından istifadə edilir. Xammal yerli Umbakı kvars qumu yatağından birbaşa zavoda gətirilir. Əhəng daşı isə Qazax rayonunda yerləşən karxanadan dəmir yolu ilə müəssisəyə çatdırılır.*

*Prezident İlham Əliyev məsaməli beton istehsalı sahəsinin fəaliyyətindən bəhs edən videoçarxa baxdı.*

*Sonra dövlətimizin başçısı istehsal sahəsini işə saldı və estakadadan istehsal prosesini izlədi.*

*Bildirildi ki, istehsal olunan məsaməli beton blokları istilik keçirməmək xüsusiyyətinə görə kərpicdən 6 dəfə üstün, ekoloji baxımdan təhlükəsiz, yanğına və zəlzələyə davamlıdır. Yüngül çəki və dəqiq ölçüləri olan bu beton bloklar iqtisadı cəhətdən daha qənaətlidir. Bu müəssisə daxili bazar üçün məhsul istehsal etməklə yanaşı, gələcəkdə xarici ölkələrə də ixracı nəzərdə tutur.*

*Bildirildi ki, zavodda peşəkar kadr heyəti formalaşmışdır. Bu məqsədlə əməkdaşlar xarici ölkələrin müvafiq müəssisələrində təlim kurslarında iştirak etmişlər. Hazırda zavodda 130 nəfər işləyir. Onların orta aylıq əməkhaqqı 760 manatdır.*

*Zavodun fəaliyyətindən razılığını bildirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## ABŞ-ın AZƏRBAYCANDAKI SƏFİRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də ABŞ-ın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Mətyu Brayzəni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Səfir Mətyu Brayzə dövlətimizin başçısına anadan olmasının 50 illiyi münasibətilə təbriklərini çatdırdı. O, Azərbaycan prezidenti İlham Əliyevin anadan olmasının 50 illiyi münasibətilə ABŞ prezidenti Barak Obamanın dövlətimizin başçısına ünvanladığı təbrik məktubunu Birləşmiş Ştatların Azərbaycanla tərəfdaşlıq əlaqələrinə nə dərəcədə yüksək qiymət verməsinin göstəricisi kimi dəyərləndirdi. Azərbaycandakı diplomatik fəaliyyəti dövründə müxtəlif regionlara səfərlər etdiyini vurğulayan Mətyu Brayzə bu səfərlər zamanı ölkəmizin gözəl təbiətə, zəngin mədəniyyətə və müxtəlif dini-mənəvi dəyərlərə malik olduğunu müşahidə etdiyini dedi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluğunu bildirdi. Mətyu Brayzənin ölkəmizdəki diplomatik fəaliyyətini yüksək qiymətləndirən prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında əlaqələrin inkişafına verdiyi töhfəyə görə minnətdarlığını bildirdi, gələcək fəaliyyətində ona uğurlar arzuladı.*

## UŞAQ NEVROLOJİ XƏSTƏXANASINDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*27 dekabr 2011-ci il*

*Dekabrın 27-də Bakıdakı Uşaq Nevroloji Xəstəxanası əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva xəstəxanada yaradılmış şəraitlə tanış olmuşlar.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına və xanımına xəstəxana ilə bağlı məlumat verdi. Bildirildi ki, Azərbaycanda ilk dəfə 1969-cu ildə uşaq nevroloji kursları açılmışdır. Sonradan həmin kurslar əsasında 150 çarpayılıq xəstəxana yaradılmışdır. 1980-ci ildə isə əməkdar elm xadimi, professor Törə Qədirovanın təşəbbüsü və ümummilli lider Heydər Əliyevin dəstəyi ilə Uşaq Nevroloji Xəstəxanası üçün 300 çarpayılıq yeni bina tikilmişdir. Xəstəxananın açılışı mərasimində ulu öndər Heydər Əliyev iştirak etmişdir.*

*Prezident İlham Əliyev və xanımı foyedə ulu öndər Heydər Əliyevin iştirakı ilə xəstəxananın 1980-ci ildə açılışını, eləcə də dövlətimizin başçısının və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizdə səhiyyənin inkişafındakı xidmətlərini əks etdirən fotolara baxdılar.*

*Məlumat verildi ki, SSRİ məkanında ilk dəfə olaraq Azərbaycanda istifadəyə verilən Uşaq Nevroloji Xəstəxanasında ötən müddətdə bir neçə dəfə təmir işləri aparılsa da, son dövrlərdə bina yararsız vəziyyətə düşmüşdü. Ölkəmizin səhiyyə sisteminin təkmilləşdirilməsinə dair Dövlət Proqramlarına uyğun olaraq xəstəxananın altımərtəbəli binasında bu ilin*

fevralında başlanılmış əsaslı təmir və yenidənqurma işləri yüksək səviyyədə yerinə yetirilmişdir.

Dövlətimizin başçısı və xanımı xəstəxananın birinci mərtəbəsindəki kompüter tomoqrafiyası kabineti ilə tanış oldular. Bildirildi ki, burada quraşdırılan müasir avadanlıq tez və dəqiq diaqnoz qoymağa imkan verəcəkdir. Birinci mərtəbədə, həmçinin intensiv terapiya palatası, ultrasəs müayinəsi, exokardioqramma, qanalma otaqları, oftalmologiya, elektroensefaloqrafiya – beyin rentgeni kabineti və laboratoriyalar fəaliyyət göstərir.

Sonra dövlətimizin başçısı və xanımı ikinci mərtəbədəki intensiv terapiya şöbəsində yaradılan şəraitlə maraqlandılar. Bildirildi ki, burada əsasən ağır xəstəliklərin müalicəsi üçün müasir kardiomonitor, süni tənəffüs aparatı, defibrillyator və sair avadanlıq quraşdırılmışdır.

Qeyd olundu ki, tibb ocağının üçüncü mərtəbəsində ümumi nevroloji, dördüncü mərtəbədə isə neyroneatoloji – yeni doğulan uşaqların patologiyası şöbəsi yerləşir. Xəstəxanada gündüz stasionar şöbəsi də fəaliyyət göstərəcəkdir.

Bütün otaqlar və palatalar uşaqların zövqünə uyğun tərtib olunmuşdur. Balacaların müayinəsi və müalicəsi zamanı onların əyləncəsi, rahat qidalanmaları da nəzərə alınmışdır. Nevroloji qüsurları olan uşaqların müayinəsi və müalicəsi burada yüksək səviyyədə həyata keçiriləcəkdir.

Vurğulandı ki, 80 çarpayılıq bu müasir tibb ocağında xəstələrə 65-i həkim olmaqla, 250-dən çox tibbi heyət xidmət göstərəcəkdir.

Xəstəxanada yaradılmış şəraiti yüksək qiymətləndirən dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.

## ƏZİZ ƏLİYEV ADINA AZƏRBAYCAN DÖVLƏT HƏKİMLƏRİ TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTUNUN ƏSASLI TƏMİRDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*27 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 27-də Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun əsaslı təmirdən sonrakı vəziyyəti ilə tanış olmuşlar.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim edildi.*

*Səhiyyə naziri Oqtay Şirəliyev prezident İlham Əliyevə məlumat verdi ki, görkəmli ictimai-siyasi xadim, mahir elm təşkilatçısı Əziz Əliyevin adını daşıyan Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu ölkəmizdə və qonşu respublikalarda işləyən həkimlərin diplomdan sonrakı hazırlığına böyük ehtiyac duyulduğundan 1935-ci ilin noyabrında yaradılmışdır. İnstitutun təşkilində azərbaycanlı mütəxəssislərlə yanaşı, Rusiyanın bir sıra alimləri də yaxından iştirak etmişlər.*

*Bildirildi ki, bu institutun tarixinin bir çox şanlı səhifələri görkəmli alim Əziz Əliyevin adı ilə bağlıdır. Əziz Əliyev 1959-cu ildən ömrünün sonunadək Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifəsində səmərəli fəaliyyət göstərmişdir. 1962-ci il sentyabrın 27-də institutun professor-müəllim heyətinin vəsatəti əsasında Nazirlər Sovetinin qərarı ilə instituta tanınmış ictimai-siyasi xadim, elm təşkilatçısı Əziz Əliyevin adı verilmişdir.*

*Hazırda institutun əməkdaşlarının sayı 427 nəfərdir. İnstitutun professor-müəllim heyəti arasında Azərbaycan, Rusiya və digər xarici ölkələrin elmlər akademiyalarının həqiqi, müxbir və Fəxri üzvləri, 34 elmlər doktoru, 127 elmlər*

*namizədi, 7 nəfər əməkdar elm xadimi, 7 nəfər Əməkdar həkim vardır.*

*Binada rektorluq, 3 dekanlıq, 30 kafedra, 130 çarpayılıq cərrahiyyə klinikası, tədris şöbəsi, tədris-metodiki şöbə, mərkəzi elmi-tədqiqat laboratoriyası, rezidentura, elmi-tədris məlumat şöbəsi, elmi kitabxana və yataqxana fəaliyyət göstərir. Binanın əsaslı təmirinə 2010-cu ildən başlanılmış, burada yüksək standartlara cavab verən iş şəraiti yaradılmışdır. Foyedə görkəmli dövlət xadimi, professor Əziz Əliyevin büstü qoyulmuş, həyat və fəaliyyətinə həsr olunan muzey fəaliyyət göstərir.*

*Məlumat verildi ki, bu institutun fəaliyyəti ulu öndərin respublikamıza rəhbərliyi dövründə daha uğurlu olmuşdur. Akademik Zərifə xanım Əliyeva institutun inkişafına əvəzsiz töhfələr vermişdir.*

*Bina ilə tanışlıqdan sonra dövlətimizin başçısı institutun kollektivi ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v**: Həkimləri Təkmilləşdirmə İnstitutunun əsaslı təmirdən sonra açılışı münasibətilə sizi təbrik edirəm. Çox gözəl hadisədir. Çox gözəl təmir olunub. Ən müasir şərait yaradılıbdır.

Yadımdadır, bir müddət əvvəl mənə məlumat gəldi ki, bu institutun təmirinə böyük ehtiyac vardır. Dərhal göstəriş verdim, vəsait ayrıldı və qısa müddət ərzində institut yeni görkəm aldı. Çox gözəl, yaraşıqlı, işıqlı, rahat institut yaradılıbdır. Burada işləyənlər, buraya gəlib biliklərini artıranlar üçün çox gözəl, müasir şərait yaradılmışdır.

Hər bir tibb ocağının tikilməsi, yenidən qurulması məni sevindirir. Xüsusilə bu institut. Bu institut 1962-ci ildən mənim babam Əziz Əliyevin adını daşıyır. O bu institutda rektor vəzifəsində çalışıb. İnstitutun formalaşmasında, burada gözəl ənənələrin yaradılmasında onun çox böyük dəstəyi olmuşdur.

Əziz Əliyev həm gözəl peşəkar həkim, həm təşkilatçı, həm dövlət xadimi idi. Onun çoxşaxəli fəaliyyəti həm Azərbaycanda, həm Azərbaycandan kənarda yüksək qiymətləndirilirdi.

İkinci dünya müharibəsi zamanı – 1940-cı illərin əvvəllərində o, Dağıstana ezam edilmişdir. Dağıstanın rəhbəri vəzifəsində işləmişdir. Orada gördüyü işlər hələ də onu tanıyanların və onun haqqında eşidənlərin qəlbində yaşayır. Çox gözəl, təvazökar, xeyirxah insan idi. Azərbaycanda tibb elminin inkişafında, səhiyyə sisteminin təkmilləşdirilməsində onun çox böyük zəhməti, fəaliyyəti olmuşdur.

Bu institutun çox böyük funksiyaları, böyük rolu vardır. Həkimlər burada biliklərini artırırlar və artırmalıdırlar. Buna böyük ehtiyac vardır, xüsusilə indiki zəmanədə ki, Azərbaycanda səhiyyə sahəsində çox böyük islahatlar aparılır, yeni, gözəl müəssisələr, tibb müəssisələri açılır. Mən bu gün bu gözəl institutun və ondan əvvəl Uşaq Nevroloji Xəstəxanasının təmirdən sonra açılışında iştirak edirəm. Diaqnostika mərkəzi əsaslı təmirdən sonra açılışa hazırdır.

Elə ay yoxdur ki, Azərbaycanın hansısa bölgəsində yeni tibb müəssisəsi yaradılmasın, yaxud da təmirdən sonra açılmasın. Həm bölgələrdə, həm Bakıda bütün tibb infrastrukturumuzu, maddi-texniki bazanı yeniləşdiririk, möhkəmləndiririk, yeni xəstəxanalar tikilir, yeni avadanlıq gətirilir. Bu gün Azərbaycanın xəstəxanalarında quraşdırılan avadanlıq dünyanın aparıcı klinikalarında olan avadanlıqdan geri qalmır. Bu avadanlıqla işləyən insanların peşəkarlığı artmalıdır.

İndi dünya tibb elmində çox böyük inkişaf, böyük irəliləyiş vardır. Əvvəlki dövrdə müalicə olunmayan xəstəliklər indi müalicə edilir. Həkimlərimiz də gərək öz biliklərini artırsınlar, beynəlxalq əlaqələr daha da gücləndirilməlidir. Bu institutda mühazirə oxumaq üçün xaricdən aparıcı tibb mərkəzlərindən qonaqlar dəvət edilməlidir. Bildiyimə görə, bu proses artıq başlanmışdır. Elə etməliyik ki, həkimlərimiz yaradılan müasir şəraitə uyğun fəaliyyət göstərsinlər. Biz yeni avadanlıqla yeni şəraitdə işləməyi, tibb elminin yeniliklərini bilməliyik. Xəstələrə çox gözəl xidmət göstərilməlidir.

Bu institutun səhiyyədə aparılan islahatların dərinləşməsi üçün çox böyük rolu vardır. Burada biliklərini təkmilləşdirən

həkimlər qayıdıb öz xəstəxanalarında daha da uğurla və peşəkarlıqla xidmət etməlidirlər.

Səhiyyə sahəsində aparılan islahatlar təkcə Azərbaycanda deyil, dünyada da artıq yüksək qiymətləndirilir. Bu yaxınlarda Dünya Səhiyyə Təşkilatının xətti ilə Bakıda keçirilmiş böyük tədbirdə bu qiymətlər səslənmişdir, statistik göstəricilər də onu göstərir. Uşaq, ana ölümü azalır, insanların ömrü uzanır. Əlbəttə, bunu şərtləndirən müxtəlif amillər vardır. İnkişaf etmiş ölkələrdə də tibbi xidmət və tibbi qulluq insanın ömrünü uzadan ən vacib amillərdən biridir. Azərbaycanda da bu göstəricilər yaxşılaşır. Elə etməliyik ki, daha yaxşı olsun. Diaqnozun düzgün qoyulması, insanların mütəmadi qaydada müayinədən keçməsi çox vacibdir. İnsanların müalicəsi və sağalması üçün biz əlimizdən gələni etməliyik.

Azərbaycan dövləti bu məsələləri diqqət mərkəzində saxlayır. İldən-ilə səhiyyə məsələlərinə ayrılan xərclər artır. Eiraf etməliyəm ki, hələ istədiyimiz səviyyədə deyil, daha da artmalıdır. Hələ ki, bu göstəriciyə görə biz inkişaf etmiş ölkələrdən geri qalırıq. Tədricən bunu aradan qaldıracağıq. Maliyyə, maddi imkanlarımız artdıqca səhiyyə sahəsinə daha da çox investisiyalar qoyulacaqdır. Ancaq son bir neçə ildə səhiyyəyə ayrılan vəsait dəfələrlə artmışdır. Əsas odur ki, həm infrastruktur, maddi-texniki baza möhkəmlənsin, həm xidmət, peşəkarlıq lazımi səviyyədə olsun. Bundan sonra da ən müasir cihazları gətirəcəyik.

Mən sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Təqribən iki il əvvəl buradakı vəziyyətlə tanış oldum. Gördüm ki, bu vəziyyət dözülməzdir, böyük təmirə ehtiyac vardır. Göstəriş verdim ki, təmir yüksək səviyyədə aparılsın. Arzu edirəm ki, yaxşı işləyəsiniz və Azərbaycan səhiyyəsini irəli aparasınız. Sizi qarşıdan gələn Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm.

## RESPUBLİKA DİAQNOSTİKA MƏRKƏZİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*27 dekabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 27-də Respublika Diaqnostika Mərkəzinin əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etmişlər.*

*Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, Respublika Diaqnostika Mərkəzi dünyada mövcud olan ən son texnoloji nailiyyətlərə əsaslanan avadanlıq və cihazlarla təchiz olunmuşdur. Burada ümumi havalandırma, mərkəzləşdirilmiş oksigen və azot qazları sistemi yaradılmışdır ki, bunun köməyi ilə istənilən anda hər bir otağı intensiv terapiya palatasına çevirmək mümkündür. Mərkəzdə endoskopik diaqnostika şöbəsi, həmçinin cərrahiyyə və reanimasiya şöbələri yaradılmışdır. Cərrahiyyə şöbəsində alman texnologiyası ilə «ağıllı» əməliyyat otağı quraşdırılmış, onun sistem və proqram təminatı da Almaniyadan idxal olunmuşdur. Cərrahiyyə otaqlarının hamısı LED lampaları ilə işıqlandırılıb. Burada quraşdırılmış videokameralarla telemetriya məqsədilə videoçəkiliş aparılır ki, bu da əməliyyat gedərkən ona onlayn rejimdə xaricdə baxmağa və xarici mütəxəssislərlə məsləhətləşmələr aparmağa imkan verir. Cərrahiyyə otaqları yüksək keyfiyyətli avadanlıqla, elektron idarə edilən stollarla, narkoz aparatları ilə təchiz olunub. Burada müasir laparoskopik cihazların quraşdırıldığı endoskopik cərrahiyyə otağı da fəaliyyət göstərir. Reanimasiya şöbəsi isə mərkəzləşmiş monitor sistemi ilə təchiz edilibdir. Bu şöbədə xaricdə istehsal olunan yüksək səviyyəli süni tənəffüs aparatları, defibrilyatorlar və xəstəyə təcili yardım göstərmək üçün digər cihazlar da vardır.*

*Mərkəzin mama-ginekoloji şöbəsində 2 doğuş zalı, 1 cərrahiyyə otağı və neonatoloji bölmə yerləşir. Buradakı doğuş otaqlarından*

birində Azərbaycanda ilk dəfə xüsusi suda doğuş vannası quraşdırılıb. Neonatoloji bölmə ən son texnoloji cihazlarla təchiz edilib. Mərkəzin stasionar şöbəsində 70-ə yaxın birnəfərlik palata yaradılıb.

İkinci mərtəbədə poliklinika yerləşir. Burada LOR otağında və audiokabinetdə eşitmə problemləri olan insanlara yüksək səviyyəli tibbi xidmət göstəriləcəkdir. Kardiologiya şöbəsi, nevrologiya və oftalmologiya kabinetləri də müasir tibbi avadanlıqla təchiz edilibdir. Poliklinika şöbəsində son diaqnostik aparatlarla təmin olunmuş ümumi terapevtik, endokrinoloji, uroloji, ginekoloji, pediatrik, cərrahi kabinetlər fəaliyyət göstərir. Mərkəzin radiologiya şöbəsində quraşdırılan 256 kəsikli nadir kompüter tomoqrafiya cihazı postsovet məkanında ikinci, Cənubi Qafqazda isə ilk və yeganə belə aparatdır. Radiologiya şöbəsində, həmçinin çox yüksək texnologiyalı və müasir proqram təminatlı maqnit rezonans tomoqrafı da fəaliyyət göstərəcəkdir. Nadir rentgenoqrafiya aparatı ilə bütün onurğa sütununu birdəfəyə müayinə edib qrafik çəkilişini almaq mümkündür.

Bununla yanaşı, Mərkəzin hər iki binasını birləşdirən vakuum poçt sistemi də yaradılıb, bütün şöbələr arasında təcili analiz və sənəd daşımaları onun vasitəsilə aparılır. Burada həmçinin Almaniya istehsalı olan mərkəzi sterilləşdirmə sistemi də quraşdırılıbdır. Mərkəzin ikinci korpusunda Azərbaycanda ilk və yeganə tam avtomatlaşdırılmış laboratoriya yerləşir. Laboratoriyada ümumi klinik, bakterioloji, PSR analizlər aparılır. Buradakı genetik laboratoriyada dölün prenatal müayinəsi həyata keçirilir ki, bu da irsi xəstəliklərin profilaktikası məqsədi ilə tibbi genetik məsləhətlər üçün önəmlidir.

Mərkəzin hər mərtəbəsində həm tibbi heyət, həm də xəstələr üçün iki yeməkxana otağı da istifadəyə verilmişdir. Səhiyyə ocağında müxtəlif tədbirlər keçirmək üçün böyük konfrans zalı da vardır.

Görülən işləri yüksək qiymətləndirən prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ APARILMIŞ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*27 dekabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 27-də paytaxtın Nərimanov rayonunda Heydər Əliyev Mərkəzində aparılmış inşaat işlərinin gedişi ilə tanış olmuşlar.*

*Tikintinin layihəsi əsasında görülən və görüləcək işlər barədə prezident İlham Əliyevə məlumat verildi. İnşaat işlərinin ən müasir standartlara uyğun şəkildə həyata keçirildiyi bildirildi.*

*Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin həyətyanı sahəsində görülən inşaat işləri ilə tanış oldu. Burada aparılan işlər barədə prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi.*

*Azərbaycan prezidenti inşaat işlərinin aparıldığı ayrı-ayrı tikinti sahələrini gəzdi, görülən işlərlə yerindəcə tanış oldu.*

*İnşaatda istifadə olunacaq tikinti materialları barədə bildirildi ki, müasir Azərbaycan dövlətçiliyinin banisi və qurucusu Heydər Əliyevin adını daşıyan memarlıq abidəsi kimi ucaldılacaq bu Mərkəz ölkənin ictimai-siyasi və mədəni həyatında böyük rol oynamaqla yanaşı, beynəlxalq səviyyəli tədbirlərin, konfransların, müsabiqələrin, festivalların, sərgi, konsert və ziyafətlərin təşkilinə imkan verəcəkdir.*

*Prezident İlham Əliyev inşaat işlərinin davam etdirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## «JUMEİRAH BİLGAH BEACH HOTEL» KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri dekabrın 28-də Bakının Bilgəh qəsəbəsində beşulduzlu «Jumeirah Bilgah Beach Hotel» kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya gül dəstələri təqdim edildi.*

*Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, «Jumeirah Bilgah Beach Hotel» kompleksi dünyanın 12 ölkəsində beşulduzlu otellərin sahibi olan «Jumeirah Group»un MDB məkanında ilk otelidir. Beynəlxalq səviyyəli nadir memarlıq incilərindən olan bu otelin Bakıda tikilməsi ölkəmizdə turizmin inkişafının, istər yerli, istərsə də xarici şirkətlər üçün yaradılan əlverişli investisiya mühitinin bariz göstəricisidir.*

*Diqqətə çatdırıldı ki, «Jumeirah Bilgah Beach Hotel» kompleksi orijinal arxitektura üslubu ilə yanaşı, yüksək keyfiyyəti və çoxsaylı xidmət növləri təklif etməsi ilə də fərqlənir. Müasir dizaynı ilə seçilən bu kompleksdə beynəlxalq və milli memarlıq üslubu peşəkarlıqla uzlaşdırılmışdır.*

*Qeyd edildi ki, 20 mərtəbədən ibarət oteldə ən müasir standartlara cavab verən texnologiya quraşdırılmışdır. Burada ümumi sahəsi 4 min 670 kvadratmetr olan 350 yerlik avtomobil qarajı vardır.*

*Otel kompleksi ilə tanışlıqdan sonra dövlət başçısı kollektivlə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Sabahınız xeyir olsun. Bu gün şəhərimizin tarixində çox əlamətdar bir gündür. Bakı şəhərində

çox gözəl, müasir otel açılır. «Jumeirah–Bilgah» otelinin fəaliyyətə başlaması çox əlamətdar hadisədir. Otel çox gözəldir. Mən indi otelin bütün yerləri ilə tanış oldum. Çox gözəl otaqlar, çox gözəl dizayn. Otaqların hamısı dəniz mənzərəli. Bu, otelin, əlbəttə ki, dəyərini artırır. İctimai yerlər çox böyük zövqlə yaradılmışdır. Mənə verilən məlumata görə, burada 9 restoran, idman zalı, qapalı, açıq üzgüçülük hovuzları fəaliyyət göstərəcəkdir. Burada iclasların, beynəlxalq tədbirlərin, şənliklərin keçirilməsi üçün bir neçə gözəl yer mövcuddur. Mən artıq «Jumeirah Group»un rəhbərinə dedim ki, bu oteldə hər bir gözəl oteli fərqləndirən bütün əlamətlər cəmlənib. Nadir, gözəl, yaraşıqlı, çox böyük zövqlə yaradılmış bir oteldir.

Əlbəttə, otelin üstünlüyü onun yerləşməsindən asılıdır. Bu otelin yerləşməsi də çox nadirdir. Dəniz kənarında, şəhərdən bir qədər aralı yerləşir. Buranın havası da çox təmizdir. Heydər Əliyev Beynəlxalq Aeroportuna da çox yaxındır, cəmi 10-15 dəqiqə ərzində aeroporta çatmaq mümkündür. Bakıdan çəkilən gözəl yol da rahatlığı artırır. Səkkizzolaqlı yol tikilib və bu iş davam edir. Ümid edirəm ki, bir ildən sonra buradan Sumqayıta qədər də yeni yol açılacaqdır. Bilgəh–Sumqayıt yolunun tikintisi indi uğurla gedir. Çox şadam ki, ölkəmizdə, Bakıda, Bilgəhdə dünya səviyyəli otel yaradılıbdır. «Jumeirah» otellər şəbəkəsi dünya şöhrətli şəbəkədir. Müxtəlif ölkələrdə otelləri vardır. Mən bəziləri ilə tanışam. Ümid edirəm ki, bu, «Jumeirah»ın ən gözəl otellərindən biri olacaqdır.

Azərbaycanda təkcə bu il üçüncü beşulduzlu otel açılır. Bir qədər əvvəl «Kempinski», sonra «Hilton» istifadəyə verilib, indi də «Jumeirah» oteli açılır. Bir ildə beşulduzlu 3 otelin açılması çox böyük hadisədir. Bu onu göstərir ki, investorlarda Azərbaycanın gələcəyinə, turizm potensialına çox böyük ümidlər, inam vardır. Ötən 15 il ərzində ölkəmizə 100 milyard dollardan artıq investisiya cəlb edə bilmişik. Təkcə keçən il 16 milyard, bu il hələ ki, hesablamalar gedir. Əminəm ki, vəsait Azərbaycan iqtisadiyyatına ondan artıq qoyulub. Bu vəsaitin bir hissəsi turizm infrastrukturunun yaradılmasına yönəldilir. Gələn il təkcə Bakıda

yenə də beşulduzlu 3 otel fəaliyyətə başlayacaqdır – «Marriott», «Four seasons» və «Bermond» otelləri. Beləliklə, iki il ərzində Bakıda, təkcə bir şəhərdə beşulduzlu, dünya şöhrətli 6 otel istifadəyə verilir. Bu, ölkəmizin ümumi inkişafını göstərir. Yerli və xarici şirkətlər Azərbaycana vəsait qoymaq üçün öz imkanlarını gücləndirirlər.

Azərbaycan yaşamaq, istirahət etmək üçün çox gözəl yerdir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Yeni infrastruktur layihələri icra edilir. Qədim Bakı nəzarət altındadır, dövlət tərəfindən qorunur. İçərişəhərdə təmir-bərpa işləri böyük zövqlə aparılır, bulvarımız yenidən qurulubdur. Bakıda yeni bulvar tikilir. Bir neçə aydan sonra açılışını qeyd edəcəyik. Yeni bulvar Bayraq Meydanı ilə birləşəcəkdir. İndiki bulvarımızın 4 kilometrinə əlavə ən azı 8 kilometr dənizkənarı gəzinti zolağı əlavə edilməlidir.

Belə gözəl otellərin Bakıda yaradılması şəxsən məni çox sevindirir. Onu da qeyd etməliyəm ki, təkcə Bakıda deyil, digər bölgələrdə də hazırda beşulduzlu bir neçə otel tikilməkdədir. Biri Qubada, üçü isə yeni yaradılan «Şahdağ» qış-yay turizm kompleksi zonasında. Bu otellərin istifadəyə verilməsi Azərbaycanın turizm potensialını daha da gücləndirəcəkdir. Bu il Azərbaycanda «Turizm ili» elan edilibdir. «Turizm ili»ndə dünya otel şəbəkələri Azərbaycanda gözəl otellər açır, gözəl memarlıq abidələri yaradır.

Mən sizi və Bakının bütün sakinlərini, Bakıya gələn qonaqları bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, bu otel çox uğurla işləyəcək, burada çox gözəl xidmət göstəriləcəkdir.

Fürsətdən istifadə edərək sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm, sizə işinizdə uğurlar arzulayıram.

## PAYTAXTIN SƏBAİL RAYONU ƏRAZİSİNDƏ YENİ PİYADA KEÇİDLƏRİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 28-də paytaxtın Səbail rayonu ərazisində yeni piyada keçidlərinin açılışlarında iştirak etmişlər.*

*«Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006–2007-ci illər üçün Tədbirlər Planı», eləcə də «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008–2013-cü illər üçün əlavə Tədbirlər Planı»na uyğun olaraq paytaxtda yüksək tələblərə cavab verən yolötürücü, körpü, tunel, yeraltı və yerüstü piyada keçidlərinin inşası davam etdirilir, yüksək keyfiyyətli avtomobil yolları salınır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə Neftçilər prospektində, Dəniz vağzalının önündə inşa edilən piyada keçidinin açılışında iştirak etdilər.*

*Piyada keçidinin göstəriciləri barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, keçidin tunelinin uzunluğu 107, eni 8, hündürlüyü isə 3 metrdir, iki çıxışı vardır. Çıxışlardan biri Milli park tərəfdə, digəri isə «Abşeron» mehmanxanasının önündədir. Keçiddə dörd eskalator və ilk dəfə olaraq bir əlil lifti quraşdırılmışdır. Qranit piltələrlə üzlənmiş keçidin pilləkənlərində sürüşkənliyi aradan qaldırmaq üçün xüsusi tədbirlər görülmüşdür.*

* * *

*Dəniz vağzalının qarşısındakı piyada keçidi ilə tanışlıqdan sonra dövlətimizin başçısı və xanımı metronun «Sahil» stansiyasının yanındakı yeraltı piyada keçidinin açılışında iştirak etmişlər.*

*Burada görülən işlərlə bağlı prezidentə məlumat verildi. Bildirildi ki, tunelin uzunluğu 220, eni 8 metrdir. Yağış sularının dənizə axıdılması üçün xüsusi boru xətti çəkilmişdir. Piyada keçidində ilk dəfə olaraq üfüqi eskalator quraşdırılmışdır. Səkkiz çıxışdan ibarət piyada keçidinin istifadəyə verilməsi ilə əhalinin təhlükəsiz hərəkəti üçün əlverişli şərait yaradılmışdır.*

* * *

*Metronun «Sahil» stansiyasının yanındakı piyada keçidi ilə tanışlıqdan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva paytaxtın Azneft meydanında inşa edilmiş 3 yeraltı keçidin açılışında iştirak etmişlər.*

*Burada görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi.*

*Bildirildi ki, buradakı tunellərdən birincisinin uzunluğu 104, eni 8, ikincisinin uzunluğu 58, eni 5, üçüncüsünün uzunluğu 76, eni isə 5 metrdir. Bu keçidlər də qranit piltələrlə üzlənmişdir. Keçidlərdə müasir işıqlandırma sistemi quraşdırılıb.*

* * *

*Prezident İlham Əliyev Azneft meydanında, Dövlət Neft Şirkətinin yaxınlığında daha bir yeraltı piyada keçidinin açılışında iştirak etmişdir.*

*Burada görülən inşaat işləri barədə də dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, tunelin uzunluğu 76, eni 6, hündürlüyü 3 metrdir. Keçidin iki çıxışı vardır. Onlardan biri Milli Parka, digəri isə Dövlət Neft Şirkətinin önünə çıxır. 4 eskalatorun quraşdırıldığı keçid müasir işıqlandırma sistemi ilə təchiz edilmişdir. Bu piyada keçidi də qranit piltələrlə üzlənib.*

*Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.*

# DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Dövlət Dəniz Administrasiyasının yeni inzibati binasının açılışı mərasimində iştirak etmişdir.*

*Ölkə həyatının bütün istiqamətlərində olduğu kimi, dənizçiliyin inkişafı sahəsində də son illər çox böyük nailiyyətlər əldə olunmuşdur. Azərbaycan dünyanın 170 dövlətinin qoşulduğu Beynəlxalq Dəniz Təşkilatının tamhüquqlu üzvüdür. Ötən dövrdə ölkəmiz bu təşkilatın dənizçilik sahəsində 20-dən artıq beynəlxalq konvensiyasına qoşulmuşdur. Dövlət Dəniz Administrasiyası gəmiçilik sahəsində fəaliyyət göstərən müəssisələr, təşkilatlar və Azərbaycanın Dövlət bayrağı altında üzən gəmilər tərəfindən bu konvensiyaların tələblərinin yerinə yetirilməsinə nəzarət işini həyata keçirərək müvafiq sahədə böyük uğurların qazanılmasını təmin etmişdir.*

*Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasətə uyğun olaraq beynəlxalq səviyyədə dəniz dövlətləri sırasında və müvafiq beynəlxalq təşkilatlarda respublikamızın nüfuzunun daha da artırılması istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi davam etməkdədir.*

*Ölkəmiz təkcə Beynəlxalq Dəniz Təşkilatı ilə deyil, həmçinin Beynəlxalq Əmək Təşkilatı, Avropa İttifaqının Dəniz Təhlükəsizliyi Agentliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlarla da əlaqələri inkişaf etdirməkdədir. Dövlət Dəniz Administrasiyasının yeni inzibati binasının istifadəyə verilməsi dəniz nəqliyyatı sahəsində çalışan mütəxəssislərə göstərilən yüksək dövlət qayğısının nümunəsidir.*

*Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov prezident İlham Əliyevə raport verdi.*

*Yeni inzibati binada yüksək şəraitin yaradıldığı qeyd olundu. Binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü ucaldılmışdır, ümummilli liderin dəniz gəmiçiliyi sahəsində xidmətlərini əks etdirən fotolardan ibarət guşə yaradılmışdır.*

*Prezident İlham Əliyev Azərbaycan Respublikasının bayrağı altında üzən müxtəlif tipli gəmilərin maketləri ilə də tanış oldu.*

*Sonra Azərbaycan prezidenti Dövlət Dəniz Administrasiyasının inzibati binasında yaradılan Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi ilə tanış oldu.*

*Mərkəzin fəaliyyəti barədə ətraflı məlumat verən Qüdrət Qurbanov bildirdi ki, bu Mərkəz ölkəmizin qoşulduğu «Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya»nın tələblərinin yerinə yetirilməsi məqsədilə Xəzəryanı ölkələrdə ilk dəfə olaraq Azərbaycanda yaradılıb. Milli Mərkəzin əsas funksiyaları Azərbaycan Respublikasının ərazi sularında üzən gəmilərin mövqeyinin peyk və radarlar vasitəsilə izlənilməsi, onların hərəkətinin təhlükəsizliyinin təmini, naviqasiya xəbərdarlıqlarına və hava haqqında proqnozlara dair müvafiq məlumatların gəmilərə çatdırılması, «Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları»na riayət olunmasına nəzarətin həyata keçirilməsi, gəmilərdən daxil olan həyəcan siqnallarının (SOS) və digər əldə edilmiş məlumatların aidiyyəti dövlət qurumlarına çatdırılmasının təmin edilməsi və əlaqələndirilməsinin təşkili, habelə beynəlxalq təşkilatlar daxil olmaqla, digər ölkələrin eyniadlı milli mərkəzləri və gəmiçilik şirkətləri ilə mütəmadi olaraq operativ əlaqənin yaradılması və informasiya mübadiləsinin həyata keçirilməsindən ibarətdir.*

*Mərkəz ilə tanışlıqdan sonra dövlətimizin başçısı inzibati binanın ayrı-ayrı otaqları, konfrans və iclas zalları ilə tanış oldu.*

## SEYNT-VİNSENT VƏ QRENADİNİN BAŞ NAZİRİ RALF QONZALVES İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Seynt-Vinsent və Qrenadinin Baş naziri Ralf Qonzalvesi qəbul etmişdir.*

*Baş nazir Ralf Qonzalves prezident İlham Əliyevə anadan olmasının 50 illiyi və ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə təbriklərini çatdırdı. Bakıda gedən sürətli inkişaf prosesinin şahidi olduğunu deyən qonaq ölkəsinin Azərbaycan ilə təhsil, turizm, sərmayə qoyuluşu, infrastruktur və digər sahələrdə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Seynt-Vinsent və Qrenadinin Baş naziri Ralf Qonzalvesin Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu vurğuladı.*

# BUZOVNA QOVŞAĞI TUNEL VƏ YOLÖTÜRÜCÜSÜNÜN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*29 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Buzovna qovşağı tunel və yolötürücüsünün açılışında iştirak etmişdir.*

*Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər planına uyğun olaraq paytaxtın müxtəlif rayonlarında müasir tələblərə cavab verən yolötürücüsü, körpü, tunel, yeraltı və yerüstü piyada keçidlərinin inşası davam etdirilir. Buzovna, Maştağa, Bilgəh qəsəbələrinə və Bakı şəhərinə rahat çıxışı təmin edən Buzovna yolötürücüsü və tunelinin inşası da paytaxtın yol-nəqliyyat infrastrukturunun yenidən qurulması ilə bağlı həyata keçirilən tədbirlərdəndir.*

*Nəqliyyat Nazirliyinin «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə inşa olunan Buzovna qovşağında tikinti işləri «Azvirt» Məhdud Məsuliyyətli Cəmiyyət tərəfindən həyata keçirilmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov Buzovna qovşağının texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, tunelin ümumi uzunluğu 365, eni 17, qapalı hissənin uzunluğu isə 41 metrdir. Yolötürücüsünün və tunelin tikintisində yüksəkkeyfiyyətli inşaat materiallarından istifadə olunmuşdur. Yolötürücüsü 9 bal gücündə zəlzələyə davamlılığa hesablanmışdır. İki zolaqdan ibarət yolötürücüsünün eni 5 metrdir. Sakinlərin təhlükəsizliyi üçün burada piyada keçidinin də inşa olunduğu bildirildi. Keçiddə və tuneldə yağış sularının axıdılması üçün drenaj xətləri çəkilmiş və nasoslar quraşdırılmışdır.*

*Görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## VERGİLƏR NAZİRLİYİ DEPARTAMENTİNİN İNZİBATİ BİNASININ QARŞISINDA SALINAN YENİ PARKDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*29 dekabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 29-da Vergilər Nazirliyinin Xüsusi Rejimli Vergi Xidməti Departamentinin inzibati binasının qarşısında salınmış yeni parkla tanış olmuşdur.*

*Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün dünya standartlarına uyğun istirahət guşələrinin yaradılması istiqamətində son illər ardıcıl tədbirlər görülür.*

*Salınan yeni parklar və yaşıllıq zolaqları, əhaliyə xidmət göstərən iaşə obyektləri, bağlarda və xiyabanlarda ən müasir tələblərə cavab verən infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir.*

*Vergilər naziri Fazil Məmmədov yeni parkda görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, bu park nəqliyyatın yüksək sürətlə hərəkət etdiyi, çoxzolaqlı prospektin kənarında salındığı üçün onun yaradılması zamanı səs izolyasiyasına əsaslanan yaşıllıq və su sistemlərinin sintezindən istifadə olunmuşdur ki, bu da ekoloji tarazlığın qorunmasına və parkda insanların rahat istirahətinə xidmət edəcəkdir. Parkda xeyli sayda müxtəlif növ dekorativ ağac və kol, o cümlədən rəngbərəng güllər əkilmişdir. Burada həmişəyaşıl bitki növlərinə daha çox üstünlük verilmiş, güllərdən buta şəkilli kompozisiya yaradılmışdır. Parkda xüsusi drenaj sistemi qurulmuş, torpaq örtüyü orqanik materiallarla zənginləşdirilmişdir. Ən müasir memarlıq üslubunda inşa edilən və 1 hektara yaxın ərazini əhatə edən parkda «Suyun nağılı» fəvvarələr sistemi qurulmuşdur. Buradakı 75 metrlik 2 su güzgüsü gözəlliyi ilə*

*diqqəti cəlb edir. Suyun fasiləsiz dövriyyəsini təmin etmək məqsədi ilə ərazidə 2 su anbarı və təmizləyici sistemlər yaradılmışdır. Parkda suvarma işləri avtomatik damcı sistemi ilə həyata keçirilir. Döşəmələrdə İtaliyadan gətirilən luzanna tipli daşlardan, qara Afrika mərmərindən istifadə olunmuşdur. İşıqlandırma və su sistemlərinin işinin fasiləsizliyi məqsədi ilə 630 kilovoltluq yeni yarımstansiya qurulmuşdur. Xüsusi layihə əsasında qurulan işıqlandırma sistemi gecə saatlarında həm parka, həm də inzibati binanın fasadına xüsusi gözəllik verir.*

*Vergilər Nazirliyinin Xüsusi Rejimli Vergi Xidməti Departamentinin inzibati binasının fasadının da əsaslı şəkildə yenidən qurulduğu bildirildi. Fasadın yenidən qurulmasında milli ornamentlərdən istifadə edilmişdir. İnşaat işlərində Türkiyə istehsalı olan limra daşından istifadə edilmişdir.*

*Dövlətimizin başçısı istifadə olunan inşaat materiallarının keyfiyyəti ilə maraqlandı.*

*Görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## NƏQLİYYATI İNTELLEKTUAL İDARƏETMƏ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*29 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Bakıda Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov Azərbaycan prezidentinə Mərkəz haqqında məlumat verərək bildirdi ki, 2008-ci ildə Bakıda nəqliyyatı intellektual idarəetmə sisteminin tətbiqi ilə bağlı Koreya Respublikasının «SK C&C» şirkəti ilə razılıq əldə olunmuş, yeni sistemin layihəsi hazırlanmış və icrasına başlanılmışdır. 2009-cu il aprelin 6-da dövlətimizin başçısının iştirakı ilə Mərkəzin təməlqoyma mərasimi keçirilmişdir. Bu il oktyabrın 4-də isə prezident İlham Əliyev Mərkəzdə görülən işlərlə tanış olmuşdur.*

*Azərbaycan prezidentinin diqqətinə çatdırıldı ki, Mərkəzin yaradılmasında əsas məqsəd Bakıda nəqliyyat sisteminin təkmilləşdirilməsindən, nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsindən, ictimai nəqliyyatın hərəkətinin tənzimlənməsindən və hərəkət marşrutlarının optimallaşdırılmasından ibarətdir.*

*Beşmərtəbəli binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur.*

*Prezident İlham Əliyev intellektual idarəetmə zalına gəldi, Mərkəzin fəaliyyəti ilə bağlı təqdimata baxdı. Bildirildi ki, burada 600 rəqəmsal görüntünü əks etdirən, dünyada ən böyük – 120 kvadratmetr sahəsi olan monitor quraşdırılmışdır. Monitor vasitəsilə 150 yol kəsişməsində nəqliyyatın hərəkət vəziyyəti, eləcə də 2 min avtobusun idarə edilməsi ilə bağlı məlumatı 192 kamera vasitəsilə əldə etmək mümkündür.*

*Qeyd edildi ki, Mərkəz cinayətkarlığın qarşısının alınmasında Daxili İşlər Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Nazirliyin 600 kamerasının qeydə aldığı görüntülərin də monitorinqi bu Mərkəzdə aparılacaqdır.*

**İ l h a m  Ə l i y e v:** Bu gün şəhərimizin tarixində çox əlamətdar bir gündür. Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi işə düşür. Gözəl Mərkəz yaradılıbdır. Bu Mərkəzin fəaliyyəti nəticəsində şəhər nəqliyyatının bir çox problemləri öz həllini tapacaqdır.

Dünyada buna bənzər 8 mərkəz vardır və onların arasında ən qabaqcıl və ən mütərəqqi texnologiyalara malik olanı Bakı Mərkəzidir. Qeyd etməliyəm ki, bu Mərkəzin yaradılması ideyası mənim Koreya Respublikasına səfərim zamanı ortaya çıxmışdır. O vaxt mən Seul şəhərinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin imkanları ilə tanış oldum və qərara gəldik ki, biz mütləq Bakıda belə sistem yaratmalıyıq. Düzdür, bu bir neçə il bundan əvvəl olan hadisədir. O vaxt Bakının tıxac problemləri o qədər kəskin deyildi, buna baxmayaraq, ölkəmizin və şəhərimizin gələcək inkişafını nəzərə alaraq qərara gəldik ki, bu sistemi mütləq Azərbaycanda, Bakıda quraq.

Çox şadam ki, Koreya tərəfi bu məsələyə çox müsbət yanaşdı. Koreya şirkətlərinin fəal iştirakı ilə bu sistem Azərbaycanda, Bakıda quruldu. Mənə izahat verildi və burada göstərildi ki, bu sistemin, bu Mərkəzin şəhər nəqliyyatına nə qədər böyük töhfəsi olacaqdır. Həm təhlükəsizlik məsələləri daha da geniş şəkildə öz həllini tapacaq, həm də yol hərəkətinin tənzimlənməsi üçün yeni imkanlar yaradılacaqdır. Yol hərəkətini daha mədəni şəkildə aparmaq üçün gözəl şərait yaradılır, nəzarət sistemi tam mükəmməldir. Əminəm ki, sistem tam şəkildə işə düşəndən sonra Bakının hər bir sakini öz həyatında bu Mərkəzin gözəl təsirini görəcəkdir.

Bu yenilikdir, irəliyə atılan uğurlu addımdır. Mərkəzdə işləyənlərin tam əksəriyyəti gənclərdir, bu məni çox sevindirir. Gənclər bizim gələcəyimizdir. Çox şadam ki, bu gün belə çətin

və mürəkkəb sistemi idarə edə bilən gözəl kadrlar vardır – hazırlıqlı, peşəkar…

Mən ümid edirəm ki, növbəti mərhələdə biz digər şəhərlərdə də bu sistemi quracağıq. Beləliklə, bir neçə ildən sonra ölkəmizin bütün şəhərləri bu gözəl sistemlə təmin ediləcəkdir. Bu, nəticə etibarilə dünya praktikasında nadir bir vəziyyətə gətirib çıxaracaqdır. Çünki qeyd etdiyim kimi, bu sistem səkkiz ölkədə var, ancaq bir və iki şəhəri əhatə edir.

Planlarımız ondan ibarətdir ki, bu sistem hər bir şəhərdə qurulsun. İndi nəinki Bakıda, bölgələrdə və digər şəhərlərdə də yol hərəkətinin intensivliyi artır, avtomaşınların sayı artır. Biz necə ki Bakı üçün konseptual yanaşmanı yaratmışıq, hər bir şəhər üçün də belə yanaşma olmalıdır.

Şəhərlərimiz inkişaf edir, əhali artır, nəqliyyat vasitələrinin sayı artır və beləliklə, bu sistemin bütün ölkə üzrə tətbiqinə ehtiyac vardır. Son illər ərzində şəhər nəqliyyatının idarə edilməsinin təkmilləşdirilməsi üçün digər vacib tədbirlər görülübdür. Kiçik marşrut avtobusları aradan qaldırılır, yeni, gözəl, rahat avtobuslar, gözəl taksilər gətirilir. Biz istəyirik ki, şəhər sakinləri nəqliyyatdan rahat istifadə etsinlər. Yeni yollar çəkilir, yeni arteriyalar açılır, mövcud olan yollar genişləndirilir, yol qovşaqları, körpülər, tunellər, keçidlər tikilir. Təkcə dünən biz bir neçə yerdə yeni keçidin açılışını qeyd etdik. Bu gün yeni tunelin açılışını qeyd etdik. Yəni biz artıq bu hadisələrə adət etmişik. Bu çox böyük vəsait və peşəkarlıq tələb edən məsələlərdir. Əgər, biz 4-5 il bundan əvvəl Bakının yol infrastrukturunun təkmilləşdirilməsi ilə məşğul olmasaydıq, tam əminliklə deyə bilərəm ki, bu gün Bakıda nəqliyyat dayanardı. Biz başqa böyük şəhərlərin problemlərini görürük. O şəhərlərə gedərkən görürük ki, tıxaclar saatlarla insanların vaxtını alır. Yol hərəkəti pik saatlarında iflic vəziyyətinə düşür.

Əgər vaxtilə bu işləri görməsəydik, Bakıda da eyni vəziyyət yarana bilərdi. Biz öz addımlarımızla, infrastruktur layihələrimizlə qabaqlayıcı tədbirləri görürük, imkan vermirik ki, tıxac Bakıda böyük problemə çevrilsin. O da həqiqətdir ki,

avtomaşınların sayı artır, insanların rifah halı yaxşılaşır. Görülən işlər, aparılan islahatlar nəticəsində ölkə vətəndaşları daha da yaxşı yaşayırlar, daha da çox maşınlar alırlar. Biz növbəti illərdə də Bakının yol nəqliyyatı sisteminin yaxşılaşdırılması üçün əlavə tədbirlər görəcəyik. Konkret planlar, vəsait vardır. Gələn ilin investisiya proqramında bu məsələlər öz həllini tapacaqdır.

Bununla bərabər, metronun tikintisi də davam etməlidir. Bu da nəqliyyatın yükünü azaldacaqdır. İndi hər il yeni metro stansiyası tikilir. Artıq 23 stansiyamız vardır. Konseptual plan tərtib edilibdir – 2015-ci və 2030-cu illərədək nə qədər stansiya istifadəyə veriləcəkdir. Bizim planımız ondan ibarətdir ki, Bakıda metro stansiyalarının sayı 70-ə çatsın. Bu, nadir bir proqramdır. Heç bir başqa şəhərdə belə qısa müddət ərzində 50-yə yaxın stansiyanın tikintisi proqramı yoxdur, ancaq Bakıda vardır.

Çalışacağıq ki, digər tədbirlərin görülməsi nəticəsində Bakıda nəqliyyat problemimizi daha da uğurla həll edək. Dünyada yeni texnologiyalar vardır. Biz o texnologiyaları gətiririk. İşıqforların sinxron şəkildə fəaliyyəti, yol qovşaqlarının, parkinq yerlərinin yaradılması. Bu gün mənə təqdimatda göstərildi, hansı imkanlar vardır. İndi Bakıda böyük ərazilərdə yeni parkinqlər tikilir. Gələn il minlərlə maşın üçün yeni parkinqlər yaradılacaqdır. Bu proses də davam etməlidir. Biz bu işlərə kompleks şəkildə yanaşırıq və beləliklə, gözəl şəhərimizə yaraşan nəqliyyat sistemimizi də qururuq. İndi bütün dayanacaqlarda elektron lövhələr, müşahidə kameraları mövcuddur. Bu özlüyündə şəhərimizdə təhlükəsizlik tədbirlərinin güclənməsinə bir töhfədir. Onsuz da Bakı çox təhlükəsiz, rahat şəhərdir. Gecə də, gündüz də, səhər də insanlar rahat gəzirlər, istirahət edirlər. Kriminogen durum çox yaxşıdır. Amma bu müasir videomüşahidə sistemləri cinayəti törətmək istəyənlər üçün də bir siqnaldır. Hər kəs bilir ki, heç bir cinayət cəzasız qalmayacaqdır. İndi müşahidə kameraları yol-nəqliyyat

hərəkətini tənzimləməyə kömək edir, bütövlükdə müşahidə üçün yaxşı bir vasitədir.

Ölkəmizin nəqliyyat sektoru çox uğurla inkişaf edir. Hər bir yerdə tikinti gedir. Magistral, şəhərlərarası yollar, kənd yolları tikilir. Nəqliyyat sektoruna qoyulan investisiyalar özünü doğruldacaqdır. Bu elə investisiyadır ki, dərhal gəlir gətirmir. Ancaq bu sahəyə qoyulan vəsait bir neçə ildən sonra öz bəhrəsini verəcəkdir. Harada ki yol çəkilir, orada yeni infrastruktur yaradılır, canlanma baş verir, investisiyalar gəlir. İndi bütün istiqamətlər üzrə gözəl avtobanlar tikirik, şəhərləri, kəndləri bir-biri ilə birləşdiririk. Görün, insanların həyatına, biznesin inkişafına bu nə qədər müsbət təsir göstərir. Gözəl, mənzərəli yerlərimizdə müasir otellər tikilir. Yol olmasa, heç kim bir manat vəsait qoymaz. Yol və işıq birincidir. Bu məqsədlə bizim investisiya proqramlarımızda ən çox vəsait yol-nəqliyyat sahəsinə qoyulur. Biz növbəti illərdə də bunu davam etdirəcəyik, həm Bakıda, həm bölgələrdə. Beləliklə, Azərbaycanda ən müasir yol-nəqliyyat infrastrukturu yaradılacaqdır. Artıq onun böyük hissəsi yaradılmışdır.

Nəqliyyatın digər sektorları da inkişaf edir. Dəmir yolu, hava nəqliyyatı, dəniz nəqliyyatı inkişaf edir, yeni təyyarələr, tankerlər, bərələr alınır, yeni beynəlxalq aeroportlar tikilir. Bu il Qəbələdə beynəlxalq aeroport tikilmişdir. Azərbaycanda son illər Naxçıvan, Gəncə, Zaqatala, Lənkəran, Qəbələ aeroportları inşa edilmişdir. Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni gözəl terminal binası və zolağı tikilir.

Nəqliyyat hər bir ölkə üçün vacib sahədir – xüsusilə coğrafi vəziyyəti əlverişli olan ölkələr üçün. Azərbaycan qitələrin arasında yerləşir. Əgər bu məsələlərə lazımi səviyyədə diqqət yetirməsək, coğrafi vəziyyətimiz bizə kömək etməyəcəkdir. Güclü nəqliyyat infrastrukturu yaradılır. Gəmiqayırma zavodu tikilir. Gəmiləri – bu da nəqliyyatdır – özümüz istehsal edəcəyik. Ələtdə, Xəzərdə ən böyük Beynəlxalq Ticarət Limanı tikilir. Bütün bu işlər çox böyük vəsait tələb edir. Biz bunu edirik və edəcəyik.

Biz bunu ölkəmizi gücləndirmək və insanlara gözəl xidmət göstərmək üçün edirik. Bu Mərkəz də çox böyük vəsait tələb etmişdir. Amma bunu edirik ki, insanlara xidmət göstərilsin, insanlar tıxaclarda vaxtlarını itirməsinlər, rahat gedib-gəlsinlər. Hər şey insanlar üçün, hər şey ölkə üçün, hər şey dövlət üçün! Budur prinsipimiz.

Bir daha demək istəyirəm ki, Azərbaycanda hər bir yeni obyektin açılması məni sevindirir. Xüsusilə bu dərəcədə müasir və gələcəyə istiqamətləndirilmiş bir müəssisənin yaradılması xüsusi xarakter daşıyır və məni daha çox sevindirir. Mən tam əminəm ki, şəhərimizin bütün sakinləri və şəhərə gələn qonaqlar bu Mərkəzin fəaliyyətini öz həyatlarında görəcəklər, onu hiss edəcəklər.

Sizə isə tövsiyəm ondan ibarətdir ki, bu Mərkəzi yaxşı idarə edəsiniz. Burada mövcud olan avadanlığa uyğun olan xidmət və menecment olmalıdır, əminəm ki, belə də olacaq. Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm və fəaliyyətinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı nəqliyyatı intellektual idarəetmə sistemində istifadə olunan avadanlıqla maraqlandı. Bildirildi ki, dayanacaqlarda quraşdırılan informasiya terminalı vasitəsilə avtobusların hərəkət cədvəli, dayanacağa çatma müddəti barədə məlumat almaq mümkündür. Bu cür terminal şəhərin 664 avtobus dayanacağında quraşdırılmışdır. Yerli mütəxəssislər tərəfindən hazırlanan və «Azəri» adı altında patentləşdirilən xüsusi avadanlıq isə Mərkəzlə avtobus sürücüləri arasında birbaşa əlaqəni təmin edir. Vaxt və məsafənin tənzimlənməsinə də imkan yaradan bu cihaz 3 minə yaxın avtobusda quraşdırılmışdır. Nəqliyyatda tətbiq olunacaq vahid ödəniş sistemi isə sərnişinlərin rahatlığını artıracaqdır.*

*Görülmüş işlərdən razılığını bildirən prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## BAKININ BÜLBÜL PROSPEKTİNDƏKİ PARKIN ƏSASLI YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*29 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Bakının Bülbül prospektindəki parkın əsaslı yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, parkın ərazisindəki asfalt örtüklü hissəyə yüksəkkeyfiyyətli mərmər üzlüklər döşənmiş, ərazidə həmişəyaşıl ağaclar və gül kolları əkilmişdir. Parkın mərkəzində yeni fəvvarə quraşdırılmışdır. Müasir üslubu ilə diqqəti cəlb edən bu fəvvarə parka xüsusi yaraşıq verir. Buradakı işıqlandırma sistemi yeniləri ilə əvəz olunmuşdur. Paytaxtın gözəl guşəsində yerləşən bu parkda sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Parkın əsaslı yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## BAKI METROPOLİTENİNİN YENİDƏN QURULMUŞ «KOROĞLU» STANSİYASININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*30 dekabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 30-da Bakı Metropoliteninin «Koroğlu» (keçmiş «Məşədi Əzizbəyov») stansiyasının yenidənqurmadan sonra açılışı mərasimində iştirak etmişlər.*

*«Koroğlu» stansiyasında dövlətimizin başçısını və xanımını Bakı Metropoliteninin əməkdaşları hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev stansiyanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bakı Metropoliteninin rəisi Tağı Əhmədov dövlətimizin başçısına və xanımına stansiyanın yeni yerüstü binası haqqında məlumat verdi. Bildirildi ki, 2010-cu ilin iyunundan etibarən Bakı Metropoliteninin birinci növbəsinə daxil olan bu stansiyada yenidənqurma işlərinə başlanılmışdır. Layihəni Avstriya şirkəti hazırlamış, tikinti-quraşdırma işlərini isə ABŞ şirkəti həyata keçirmişdir.*

*Stansiyada yaradılan şəraitlə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, yenidənqurma işləri çərçivəsində birinci vestibüldəki pavilyonun yerinə hündürlüyü 20 metr, səthinin sahəsi 1800 kvadratmetrədək olan şüşə-metal konstruksiyadan piramida şəklində yeni vestibül inşa edilmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva vestibüldə xalq qəhrəmanı Koroğlunun abidəsinin qoyulacağı postamentə və eskiz layihələrinə baxdılar, stansiya daxilində fəaliyyət göstərəcək ticarət köşkləri və istirahət guşələrində yaradılan şəraitlə tanış oldular.*

*Sonra platformaya enən prezident İlham Əliyevə əvvəlcə «SOS» həyəcan avadanlığı barədə məlumat verildi. Qeyd*

*olundu ki, bu avadanlıq vasitəsilə metropoliten işçiləri bütün məlumatları mərkəzə ötürə bilərlər.*

*Diqqətə çatdırıldı ki, stansiyanın çıxışlarının, vestibüllərinin, divarlarının üzlükləri dəyişdirilərək mərmər və qranitlə əvəzlənmişdir. Sərnişin platformasının və 32 sütunun hər biri yarıyadək mərmər, digər yarısı isə paslanmayan metalla üzlənib. Ümumilikdə 10 000 kvadratmetrədək üzləmə işləri yerinə yetirilmişdir. Stansiyada yeni materiallardan quraşdırılmış asma tavan müasir işıqlandırma sistemi ilə təchiz olunub. Burada Almaniya istehsalı olan üç eskalator quraşdırılmışdır. Yeni qurulan yerüstü vestibülü, texnoloji və xidməti sahələri havalandıran, su ilə təchiz edən müasir sistemlər işə salınıb. Azərbaycanda ilk dəfə kompüter texnologiyalarından istifadə olunmaqla şüşə-metal konstruksiyalı vestibüldə çoxrəngli müasir, enerjiyə qənaət edən LED tipli işıqlandırma sistemi tətbiq edilmişdir. Bakı Metropolitenində ilk dəfə olaraq stansiyanın vestibülündə yaşıl bağ salınıb.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, stansiyaya girişi asanlaşdırmaq üçün yerüstü nəqliyyat vasitələrinin intensiv olduğu ərazidə piyada keçidləri inşa olunmuşdur.*

*Dövlətimizin başçısı və xanımı keçidin texniki göstəricilərini əks etdirən stendlərə baxdılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov bildirdi ki, bu, ilk növbədə metrodan istifadə edən sərnişinlərin və ərazidə yaşayan sakinlərin təhlükəsizliyinə və sərbəst hərəkətinə xidmət edir. Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişməsində inşa olunan birinci və ikinci tunellərdə piyadaların hərəkəti üçün bütün zəruri şərait yaradılmışdır. Birinci tunelin uzunluğu 140, ikincisinin uzunluğu isə 65 metrdir. Hər iki tunelin eni 6 metrdir.*

*Dövlətimizin başçısı stansiyada yaradılmış şəraitdən razılığını bildirdi.*

## PAYTAXTIN HEYDƏR ƏLİYEV PROSPEKTİNDƏ SALINMIŞ PARKIN VƏ MUSİQİLİ ALOV FƏVVARƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*30 dekabr 2011-ci il*

*Dekabrın 30-da Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva paytaxtın Heydər Əliyev prospektində, Bakı Metropoliteninin «Koroğlu» stansiyasının qarşısında, köhnə sənaye müəssisələrinin yerində salınmış parkın və musiqili alov fəvvarəsinin açılışında iştirak etmişlər.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məlumat verdi ki, dövlətimizin başçısının tapşırığı ilə Bakının Nizami rayonu ərazisində xüsusi dizaynla salınan parka 3 tərəfdən giriş vardır. Bildirildi ki, əvvəllər sənaye müəssisələrinin yerləşdiyi bu ərazi uzun illər baxımsız vəziyyətdə olmuşdur. İndi burada salınmış əzəmətli park şəhərimizin ən maraqlı istirahət guşələrindən biridir. Nadir ağacların və gül kollarının əkildiyi parkda istirahət üçün hər cür şərait yaradılmışdır. Parkda 65 müasir oturacaq qoyulmuş, 82 işıq dirəyi quraşdırılmışdır.*

*Dövlətimizin başçısına və xanımına parkın ərazisində fəaliyyət göstərəcək müxtəlif iaşə obyektləri barədə də məlumat verildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkın və yaxınlıqdakı yaşayış binalarının eskiz layihələri ilə tanış oldular.*

*Bildirildi ki, ərazidə abadlıq və tikinti işləri davam etdiriləcəkdir. Görülən işlər nəticəsində bu ərazi müasirləşən paytaxtımızın gözəl guşələrindən birinə çevriləcəkdir.*

*Sonra dövlətimizin başçısı və xanımı parkın ərazisində quraşdırılmış musiqili alov fəvvarə kompleksi ilə tanış oldular.*

*Bildirildi ki, fəvvarədə quraşdırılmış işıq sistemi parka ecazkar gözəllik bəxş edir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva musiqili alov fəvvarə kompleksinin idarəetmə mərkəzinə baxdılar. Diqqətə çatdırıldı ki, kompleks bu mərkəzdən avtomatlaşdırılmış sistem vasitəsilə idarə olunur. Fəvvarənin postamenti yumru təpəcikdən ibarətdir. Musiqili alov fəvvarəsi ABŞ, Almaniya və İngiltərə istehsalı olan büllurdan və paslanmayan metaldan hazırlanıb. Tikinti işlərinə ABŞ, Almaniya və İngiltərə şirkətləri cəlb edilmişdir. Musiqili işıqlandırma işlərini İtaliya mütəxəssisləri yerinə yetirmişlər. Musiqili alov fəvvarə kompleksinin struktur hissəsinin konstruksiyası 60 kilometr/saniyə gücündə küləyə və 9 ballıq zəlzələyə davamlıdır. Alov simvolu cilalanmış paslanmayan metaldan və kristaldan ibarətdir. Audio-video sisteminin qurulduğu musiqili alov fəvvarə kompleksi lazer projektorları ilə işıqlandırılır.*

*Sonra dövlətimizin başçısı və xanımı musiqili alov fəvvarəsinin müxtəlif görüntülərini izlədilər.*

*Görülmüş işləri yüksək qiymətləndirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

2011-ci il arxada qalır. 2011-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. 2011-ci ildə ölkə qarşısında duran əsas vəzifələr öz həllini tapmışdır. Azərbaycanın uğurlu iqtisadi inkişafı təmin edilmişdir. 2011-ci ildə ölkə iqtisadiyyatının qeyri-neft sektoru böyük templərlə artmışdır. Qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artmışdır və bu da əvvəlki illərdə aparılan islahatların bariz nümunəsidir.

İqtisadiyyatın bütün sahələri inkişaf edir. Ölkəmizdə böyük quruculuq-abadlıq işləri aparılır. Azərbaycan bölgədə öz mövqelərini möhkəmləndirir. İqtisadi inkişafı göstərən bütün statistik göstəricilər çox müsbətdir. Ölkəmizin valyuta ehtiyatları artır. 40 milyard dollardan çox valyuta ehtiyatlarımız vardır. Ölkə iqtisadiyyatına milyardlarla dollar investisiya qoyulur və bu proses davam edir. İldən-ilə investisiya qoyuluşu daha da artır.

Bölgələrin inkişafı uğurla aparılır. Bu il ölkədə 100 minə qədər yeni iş yeri açılmışdır. Bütövlükdə son 8 il ərzində 1 milyondan artıq yeni iş yeri açılmışdır ki, onların mütləq əksəriyyəti daimi iş yeridir. Əhalinin pul gəlirləri təxminən 20 faiz artmışdır. İnflyasiyanın səviyyəsi təxminən 8 faiz civarındadır. 2011-ci ilin yekunlarına görə, yoxsulluq 8 faizdən aşağı olacaqdır. İşsizlik aşağı düşür. Azərbaycanda işsizlik 5,5 faizdir. Bu göstəricilər onu deməyə əsas verir ki, ölkəmiz çox dinamik və uğurla inkişaf edir. Dünyada və Avropada iqtisadi sahədəki mənfi proseslərə baxmayaraq, Azərbaycan inamla qabağa gedir.

Ölkədə bütün sosial məsələlər öz həllini tapmaqdadır. Bu il 900 minə yaxın pensiyaçının orta pensiyası təxminən 40 faiz artmışdır. Dekabrın 1-dən minimum əməkhaqqı artmışdır. Digər sosial proqramlar uğurla icra edilir. Məktəblər, xəstəxanalar, idman kompleksləri tikilir. Azərbaycan dinamik şəkildə inkişaf edir. Siyasi islahatlar uğurla aparılır. Ölkənin modernləşdirilməsi üçün konkret addımlar atılır. Korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılır. Bu mübarizənin gözəl nəticələrini görürük. Gələcək illərdə bu mübarizə daha da məqsədyönlü və ciddi olmalıdır. Bütün lazımi göstərişlər verilmişdir. Bir sözlə, biz müasir dövlət qururuq. Dərin milli-mənəvi dəyərlər, köklər üzərində müasir, dünyəvi, gələcəyə inamla baxan dövlət qururuq. Bu proses uğurla davam edir.

Bizi ən çox narahat edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Azərbaycan bütün dövrlərdə, xüsusilə son dövrdə öz səylərini daha da gücləndirir. Ancaq bildiyiniz kimi, bu məsələnin həlli təkcə bizdən asılı deyildir. Əfsuslar olsun ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi, danışıqlar prosesində göstərdiyi riyakarlıq, danışıqlardan faktiki olaraq imtina etməsi bu prosesə böyük zərbə vurmuşdur. Əfsuslar ki, hələ də dünya birliyi və bu məsələ ilə birbaşa məşğul olan tərəflər birmənalı şəkildə danışıqların pozulmasında günahkarın kim olduğunu açıq demirlər.

Müsbət bəyanatlar vardır. Biz bu bəyanatları eşidirik, onları dəstəkləyirik. Xüsusilə bu il yenilik ondan ibarətdir ki, həmsədr ölkələr status-kvonun qəbuledilməz olduğu haqqında dəfələrlə bəyanatlar vermişlər. Biz bu bəyanatları dəstəkləyirik. Ancaq bəyanatlardan sonra konkret addımlar atılmalıdır. Əfsuslar ki, bu addımlar atılmır.

Biz diplomatik və siyasi səylərimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqemiz vardır. Biz bu mövqedən bir addım da geri çəkilməyəcəyik. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Beynəlxalq birlik, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir. Dağlıq Qarabağ beynəlxalq birlik tərəfindən Azərbaycanın ərazisi

kimi tanınır. Münaqişə məhz bu prinsiplər üzərində öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçı qüvvələr işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qayıtmalıdırlar. Ancaq ondan sonra uzunmüddətli sülh təmin edilə bilər. Biz heç vaxt imkan verə bilmərik ki, əzəli Azərbaycan torpağında ikinci dəfə qondarma erməni dövləti yaradılsın. Bu bizim prinsipial mövqemizdir. Bu mövqe həm tarixə, həm hüquq normalarına, həm də ədalətə əsaslanır.

Bununla bərabər, biz iqtisadi sahədə olduğu kimi, hərbi sahədə də köklü islahatlar aparırıq. Hərbi gücümüz, hərbi potensialımız artır. 2011-ci ildə hərbi xərclərimiz 3 milyard dolları keçmişdir. Bu, Ermənistanın bütün xərclərindən çoxdur. Gələn il hərbi xərclər yenə də artacaqdır. Ən müasir silahlar, texnikalar, döyüş təyyarələri, döyüş helikopterləri, sursatlar gətirilir və gətiriləcəkdir. Bununla bərabər, bir neçə il bundan əvvəl yaradılmış Müdafiə Sənayesi Nazirliyinin xətti ilə Azərbaycanda 600 növ hərbiyönümlü məhsullar istehsal edilir. Biz gələcəkdə də hərbi potensialımızı gücləndirmək üçün səylərimizi əsirgəməyəcəyik. Bu gün Azərbaycanın hərbi potensialı bizə imkan verir ki, doğma torpaqlarımızı işğalçılardan istənilən yolla azad edək. Sadəcə olaraq, danışıqlara hələ ki, ümidlərimiz tükənməyib və bu danışıqlar davam etdirilməlidir.

2011-ci ildə ölkəmiz üçün çox vacib olan enerji sahəsində böyük uğurlar əldə edilmişdir. Azərbaycan öz mövqelərini möhkəmləndirə bilmişdir. İlin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında strateji enerji əməkdaşlığına dair çox vacib bəyannamə imzalanmışdır. Azərbaycan artıq Avropanı enerji, xüsusilə təbii qazla təmin edə biləcək ölkə kimi tanınır. Bizim imkanlarımız artır.

Bu il aşkar etdiyimiz yeni qaz yataqları və keçən il aşkarlanmış qaz yataqlarımız qaz potensialımızı xeyli dərəcədə artıra

bilmişdir. Biz uzun illər bundan sonra böyük qaz dövləti kimi, dünyada öz sözümüzü deyəcəyik.

2011-ci ildə bütün lazımi tranzit müqavilələri imzalanmışdır. Artıq Azərbaycan qazını dünyaya müxtəlif yollarla nəql etmək üçün bütün imkanlar vardır. Hesab edirəm ki, 2012-ci ildə zəngin qaz yataqlarımıza yeni böyük investisiyalar qoyulmalıdır. Bir neçə ildən sonra qaz potensialımız ölkəmiz üçün çox böyük dəyər kimi özünü göstərəcəkdir.

İqtisadiyyatın digər sahələrində inkişaf vardır. Kənd təsərrüfatı, sənaye və qeyri-neft sənayesi artır. 2011-ci ildə Azərbaycanda humanitar məsələlər də çox uğurla öz həllini tapmışdır. Azərbaycan tolerant, dözümlü ölkə kimi, dünyada öz sözünü deyir. Bu il I Beynəlxalq Humanitar Forum keçirilmişdir. Forumda iştirak etmiş bütün qonaqlar ölkəmizdən çox gözəl təəssüratlarla ayrılmışlar. Azərbaycanın nadir təcrübəsi – dinlərarası, millətlərarası, sivilizasiyalararası dialoqun aparılması üçün bizim nadir təcrübəmiz dünyanın diqqətini cəlb edir. Bizim müsbət təcrübəmiz, Azərbaycanda, cəmiyyətdə yaşanan gözəl ab-hava, bütün millətlərin, bütün konfessiya nümayəndələrinin bir ailə kimi yaşaması indiki dünyada nadir hadisədir. Əfsuslar olsun ki, dünyanın müxtəlif bölgələrində, müxtəlif qitələrdə ayrı-seçkilik, qarşılıqlı inamsızlıq, apatiya meyilləri güclənir. Bu çox təhlükəli meyillərdir. Azərbaycanın müsbət təcrübəsi öyrənilməlidir və geniş mənada bu təcrübədən başqa ölkələr də istifadə etməlidir.

2011-ci ildə ölkəmiz üçün çox vacib hadisə baş vermişdir. İlk dəfə olaraq Azərbaycan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu, böyük tarixi qələbədir. Hesab edirəm ki, 20 illik müstəqillik dövründə ən böyük qələbəmizdir. Çətin mübarizədə biz bütün dünya birliyinin inamını qazana bilmişik. İlk turdan başlayaraq sonuncu tura qədər Azərbaycan bu səsvermədə liderlik edirdi. Nəticə etibarilə dünyanın 155 ölkəsi Azərbaycana səs verdi, inandı, bizim siyasətimizi dəstəklədi. Azərbaycana çox böyük inam, etimad vardır. Çünki bizim siyasətimiz ədalətə söykənir. Bizim

siyasətimiz müstəqil siyasətdir. Mən son 8 ildə dəfələrlə bu barədə demişəm ki, Azərbaycan müstəqil siyasət aparır. Azərbaycanın öz yolu vardır. Bu, inkişaf, tərəqqi, demokratiya yoludur. Bu yol Azərbaycan xalqının iradəsi ilə seçilibdir. Bizim bütün addımlarımız Azərbaycan xalqının iradəsinə əsaslanır.

Gördüyümüz bütün işlərin təməlində Azərbaycan vətəndaşıdır, Azərbaycanın maraqlarıdır. Biz dövlət quruculuğu prosesində böyük uğurlar əldə etmişik. İndi bütün dünya Azərbaycanı dəstəkləyir. Dünya ictimaiyyəti deyəndə, ilk növbədə Birləşmiş Millətlər Təşkilatı yada düşür. Çünki budur dünya ictimaiyyəti. Dünya ictimaiyyətinin rəyi hər hansı bir kiçik təşkilatın, regional təşkilatın, yaxud da ki, hər hansı bir qeyri-hökumət təşkilatının rəyi deyildir. Dünya ictimaiyyətinin rəyi BMT-nin rəyidir, 155 ölkənin rəyidir. Bu dəstək, bu inam bizi daha da ruhlandırır. Biz növbəti iki ildə Təhlükəsizlik Şurasında ədalət prinsiplərini müdafiə edəcəyik.

Bu il müstəqilliyimizin bərpasının 20 illiyidir. İyirmi il ərzində ağır günlərimiz də, gözəl günlərimiz də olub. Gözəl günlərimiz daha da çox olub. Mən tam əminəm ki, gələcəkdə bizi ancaq gözəl günlər gözləyir. Azərbaycan daha da inkişaf edəcək, öz gücünü daha da artıracaqdır. 20 il müstəqillik onu göstərdi ki, Azərbaycan xalqı müstəqil xalq kimi yaşaya bilər və yaxşı yaşaya bilər. Azərbaycan dövləti bu gün bölgədə sabitləşdirici amil kimi özünü təqdim edir. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə icra edilə bilməz. İqtisadi, enerji, siyasi, diplomatik, regional əməkdaşlıq məsələlərində Azərbaycan bölgədə söz sahibidir. Biz bunu yaratmışıq, biz bunu qorumalıyıq. Ölkəmizi qorumalıyıq və qoruyacağıq.

Əziz dostlar!

Bu gün eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Mən bu gün dünyada yaşayan bütün azərbaycanlıları salamlayıram, onlara hörmət və məhəbbətimi ifadə edirəm. Azərbaycan xalqı böyük xalqdır. Bizim böyük tariximiz

və gözəl gələcəyimiz vardır. Dünyada yaşayan bütün azərbaycanlılar bilirlər ki, müstəqil və güclü Azərbaycan dövləti vardır. O dövlət ki, öz soydaşları haqqında daim düşünür, onların problemləri ilə yaşayır və onların rahat yaşaması üçün öz səylərini göstərir. Mən bütün dünya azərbaycanlılarını bu gözəl bayram münasibətilə təbrik edirəm.

Əziz həmvətənlər!

2012-ci il başlayır. Mən tam əminəm ki, 2012-ci ildə də ölkəmizi yalnız və yalnız uğurlar gözləyir. Bizim gördüyümüz bütün işlərin məqsədində, bir daha demək istəyirəm ki, Azərbaycan vətəndaşı, Azərbaycan ailəsi dayanır.

Mən bütün vətəndaşlara, bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik, ailə səadəti arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 31 dekabr 2011-ci il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

İsa Peyğəmbərin mübarək mövludu – müqəddəs Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, bu əziz gündə hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər və etiqadlar əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər.

Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın zəngin etno-mədəni palitrasında özünəməxsus yeri və rolu olan xristian icması, o cümlədən pravoslav etiqadlı həmvətənlərimiz ölkəmizdə gedən böyük quruculuq işlərində əsl vətəndaşlıq əzmi ilə yaxından iştirak edirlər.

Əziz dostlar!

Milad bayramı özündə yeniliyi, əmin-amanlığı, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 yanvar 2012-ci il*

# YENİ BULVARIN SALINMASI İLƏ BAĞLI GÖRÜLMÜŞ İŞLƏR, DÖVLƏT BAYRAĞI MEYDANI VƏ ONUN ƏTRAFINDA HƏYATA KEÇİRİLMİŞ TƏDBİRLƏRLƏ TANIŞLIQ

*12 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 12-də Bakı–Ələt avtomobil yolunun Dövlət Bayrağı Meydanına qədər olan hissəsinin tikintisi, yeni bulvarın salınması ilə bağlı görülmüş işlər, Dövlət Bayrağı Meydanı və onun ətrafında həyata keçirilmiş tədbirlərlə tanış olmuşlar.*

*Bakı–Ələt avtomobil yolunun Dövlət Bayrağı Meydanına qədər olan hissəsinin tikintisi layihəsinin icrası ilə bağlı görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Burada müasir standartlara cavab verən 8 zolaqdan ibarət yüksək səviyyəli yolun inşa olunduğu bildirildi. Piyadaların rahat gediş-gəlişini təmin etmək məqsədi ilə yolboyu piyada keçidləri də inşa olunacaqdır.*

*Dövlətimizin başçısına yeni salınan bulvarda aparılmış işlər barədə də məlumat verildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Meydanında və onun ətrafında həyata keçirilmiş abadlıq və quruculuq işləri ilə yaxından tanış oldular. Görülmüş işlər barədə prezidentə məlumat verildi.*

*Dövlətimizin başçısı və xanımı ərazidə inşa olunan yeni İdman-Konsert Kompleksinin tikintisinə də baxdılar. İnşaat işləri ilə tanışlıqdan sonra prezident İlham Əliyev həyata keçirilən tədbirlərlə bağlı icraçılara müvafiq tapşırıqlarını verdi.*

**QVATEMALA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OTTO FERNANDO PEREZ MOLİNAYA**

Hörmətli cənab Prezident!

Qvatemala Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qvatemala arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Qvatemala xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 yanvar 2012-ci il*

## KOREYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDRİ PAK Hİ TENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Koreya Respublikası Milli Assambleyasının sədri Pak Hi Tenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Əlaqələrimizin siyasi sahədə yüksək səviyyədə olduğunu qeyd edən prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığımızın yaxşı nəticələr verdiyini, ölkələrimiz arasında ticarət dövriyyəsinin sürətlə artdığını söylədi. Son illər Koreya şirkətlərinin Azərbaycan üçün vacib olan layihələrdə iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı bu əməkdaşlığın daha da genişləndirilməsində ölkəmizin maraqlı olduğunu dedi.*

*Pak Hi Te Koreya Respublikası Milli Assambleyasının sədri kimi, Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu ifadə etdi. O bildirdi ki, ölkəmizə səfərinin əsas məqsədi Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında diplomatik münasibətlərin yaradılmasının 20 illiyi ilə bağlı yubiley tədbirlərində iştirak etmək və ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi ilə bağlı müzakirələr aparmaqdır.*

*Görüşdə informasiya-kommunikasiya texnologiyaları, turizm və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsində ölkələrimizin maraqlı olduğu bildirildi.*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Hindistan münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 yanvar 2012-ci il*

**AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU XANIM KVENTİN BRAYSA**

Hörmətli xanım General-qubernator!

Milli bayramınız – Avstraliya Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Avstraliya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 yanvar 2012-ci il*

## ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSAYA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şri-Lanka arasında təşəkkül tapmış münasibətlər bundan sonra da öz inkişafını dostluq və əməkdaşlıq məcrasında davam etdirəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 yanvar 2012-ci il*

## NAZİRLƏR KABİNETİNİN 2011-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2012-ci İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA NİTQ*

*16 yanvar 2012-ci il*

Nazirlər Kabinetinin bugünkü toplantısında biz 2011-ci ilin yekunlarını müzakirə edəcəyik və 2012-ci ildə görüləcək işlər haqqında fikir mübadiləsi aparacağıq. 2011-ci ildə ölkə qarşısında duran bütün sosial və iqtisadi vəzifələr uğurla icra edilibdir. Nəzərdə tutduğumuz bütün planlar həyatda öz əksini tapıb və beləliklə, 2011-ci ildə ölkəmizin uğurlu inkişafı davam etmişdir.

Düzdür, bizdən asılı olmayan səbəblərə, neftin hasilatı aşağı düşdüyünə görə, ümumi iqtisadi göstəricilər o qədər də yüksək deyil, ancaq bu bizi narahat etməməlidir və narahat etmir. Çünki iqtisadiyyatımızın böyük hissəsi neft-qaz sektorunda formalaşır və beləliklə, neft hasilatının aşağı düşməsi istər-istəməz statistik göstəricilərə də təsir edir. Ancaq bir daha demək istəyirəm ki, bu templər bizi narahat etmir. Çünki ölkə iqtisadiyyatının uğurlu inkişafını şərtləndirən digər amillər – bu gün bu barədə danışacağıq – çox müsbətdir. Bütövlükdə iqtisadi artım 0,1 faiz təşkil etmişdir. Ancaq ölkə iqtisadiyyatının qeyri-neft sektoru 9,4 faiz artmışdır. Bu, gördüyümüz işlərin nəticəsidir. Bir neçə ildir ki, ölkə iqtisadiyyatının qeyri-neft

---

* Назирляр Кабинетинин 2011-ъи илин сосиал-игтисади инкишафынын йекунларына вя 2012-ъи илдя гаршыда дуран вязифяляря щяср олунмуш иъласында Игтисади Инкишаф назири Шащин Мустафайев, Баш назирин мцавини, Гачгынларын вя Мяъбури Кючкцнлярин ишляри цзря Дювлят Комитясинин сядри Яли Нясянов, Рабитя вя Информасийа Технолоэийалары назири Яли Аббасов вя Дювлят Сосиал Мцдафия Фондунун сядри Сялим Мцслцмов чыхыш етдиляр.

sektorunun inkişafı üçün praktiki addımlar atılır, proqramlar qəbul edilibdir, dövlət siyasəti də bu istiqamətdə aparılır və beləliklə, ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün bütün gözəl imkanlar yaradılmışdır. Bunun nəticəsidir ki, qeyri-neft iqtisadiyyatımız təxminən 10 faiz artmışdır. Nəzərə alsaq ki, qeyri-neft sektoru iş yerlərinin yaradılmasında həlledici rol oynayır, əlbəttə ki, bu, həm iqtisadi, həm sosial inkişafa müsbət təsir göstərir.

Sənaye istehsalı yenə də neft hasilatı aşağı düşdüyü üçün 5 faiz azalmışdır. Ancaq qeyri-neft sənayemiz 11,1 faiz artmışdır. Bu onu göstərir ki, bir neçə il əvvəl irəli sürdüyümüz sənayeləşmə təşəbbüsləri artıq öz gözəl nəticələrini verməkdədir. Nəzərə alsaq ki, əvvəlki illərdə təməlini qoyduğumuz müəssisələr bu il və gələn il istifadəyə veriləcək, görərik ki, gələcəkdə də qeyri-neft sənayesinin inkişafı üçün çox gözəl imkanlar vardır. İnflyasiya birrəqəmli səviyyədə qalmışdır – 7,9 faiz. Bu, müsbət göstəricidir. İnflyasiya birrəqəmli olduğu təqdirdə biz hesab edirik ki, bu, müsbət nəticədir. Əhalinin pul gəlirləri isə 19,6 faiz artmışdır. Bu statistik göstəricilər əyani şəkildə göstərir ki, insanların rifah halı yaxşılaşmışdır və beləliklə, inflyasiya ilə əhalinin pul gəlirləri arasındakı fərq kifayət qədər böyükdür. Əhalinin pul gəlirləri 2,5 dəfə çoxdur. Bu, iqtisadi inkişafımızı göstərən əsas makroiqtisadi göstəricilərdir. 2011-ci ildə investisiya qoyuluşu sahəsində rekord göstəriciyə nail ola bilmişik. İldən-ilə ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi artmaqdadır, böyük templərlə artır. 2010-cu ildə 17,6 milyard dollar investisiya qoyulmuşdur. 2011-ci ildə isə ilk dəfə olaraq investisiyalar 20 milyard dollara bərabərdir. Təkcə 2 il ərzində ölkə iqtisadiyyatına 37 milyard dollar vəsait qoyulmuşdur. Əvvəlki dövrdəki investisiyaları da əlavə etsək görərik ki, Azərbaycanda nə qədər böyük işlər görülür. Həm yerli, həm xarici investorlar ölkə iqtisadiyyatına maraq göstərirlər. Xarici investorlar ölkəmizin uğurlu inkişafına bizimlə bərabər, bizim kimi inanırlar. Bu investisiyaların təşkilində dövlət siyasəti həlledici rol oynayır. Çünki dövlət investisiyaları kifayət qədər böyükdür, bu il də belə olacaqdır. Dövlət tərəfindən investorları stimullaşdırmaq

üçün atılmış addımlar da bəhrəsini verir. 20 milyard investisiyanın 13 milyardı daxili investisiyalardır, 7 milyardı isə xarici investorların vəsaitidir. Burada da deyə bilərəm ki, bu tarazlıq, yəni bu çəkilər nisbəti müsbətdir. Xarici investorlar Azərbaycana investisiyaların qoyuluşunu davam etdirirlər. Daxili investorlar, yerli iş adamları və Azərbaycan dövləti isə ölkəmizin hərtərəfli, şaxələndirilmiş inkişafı üçün nə lazımdırsa edirlər.

2011-ci ildə böyük investisiya proqramı icra edilmişdir və dediyim bu rəqəmlərin böyük hissəsi dövlət hesabına təşkil edilmişdir, valyuta ehtiyatlarımız artmışdır. İlk dəfə olaraq Azərbaycanın bütün valyuta ehtiyatları 40 milyard dollar səviyyəsinə çatmışdır. İndiki məlumata görə bizim 41 milyard dollar vəsaitimiz vardır. Bu bizim strateji ehtiyatlarımızdır. Biz bu ehtiyatların idarə edilməsindən gəlir götürürük. Növbəti dövr üçün yeni konsepsiya hazırlanmışdır və biz valyuta ehtiyatlarımızı daha da çoxşaxəli formada idarə etməliyik. Bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir.

Sosial sahədə bizim siyasətimiz uğurla davam etmişdir, 2011-ci ildə maaşlar, pensiyalar artırılmışdır. 900 minə yaxın pensiyaçının təqaüdü təxminən 40 faiz artmışdır və bu da sosial siyasətimizin əsas istiqamətlərindən biridir. İnsanların rifah halı yaxşılaşır, ünvanlı sosial yardım alan ailələrin sayı 120 min təşkil edir. Öz maliyyə vəziyyətini yaxşılaşdıra bilməyən ailələrə dövlət daim diqqət göstərir və hər ailəyə orta hesabla ayda 106 manat müavinət verilir.

Mən dəfələrlə demişəm, bu gün bir daha bildirmək istəyirəm, biz bazar iqtisadiyyatı prinsiplərini rəhbər tuturuq. Sosial siyasətdə də çox uğurlu addımlar atırıq və sosialyönümlü dövlətin yaradılması istiqamətində çox böyük uğurlara nail olmuşuq.

Azərbaycanda orta pensiyanın səviyyəsi hazırda təqribən 180–190 dollar səviyyəsindədir. Orta maaş 460 dollara yaxındır. Deyə bilərəm ki, MDB məkanında bu çox gözəl göstəricidir. Ancaq bu bizi tam şəkildə qane edə bilməz. Növbəti illərdə görüləcək tədbirlər, həm ayrılacaq vəsait, həm

yaradılacaq yeni iş yerləri, həm də apardığımız uğurlu investisiya siyasətimiz bizə kömək edəcəkdir. Maaşlar, pensiyalar yenə də artmalıdır və artacaqdır.

Sosial obyektlərin tikilməsi prosesi davam etmişdir. Heç bir layihədə yubanma olmamışdır. Bəzi hallarda müvafiq qurumlar müəyyən layihələrə ayırdığımız vəsaitdən vaxtında istifadə edə bilməmişlər. Builki investisiya proqramımızda bu amili nəzərə almalıyıq, qüsurları aradan qaldırmalıyıq. 2011-ci il üçün o qədər böyük planlarımız olmuşdur ki, bəzi hallarda dövlət qurumları və onlarla bərabər işləyən şirkətlər bu həcmi icra edə bilməyiblər. Vaxt var idi ki, hansısa işi görmək üçün vəsaitimiz yox idi. İndi isə vəsaitimiz var, bəzi hallarda bu vəsaitin düzgün istifadə edilməsi sahəsində müəyyən problemlər yaranır. Biz bu problemləri bilirik və bu il, ondan sonrakı illərdə bu vəziyyəti yaxşılaşdırmaq üçün ciddi tədbirlər görəcəyik.

Ölkəmizdə səhiyyə ocaqlarının, məktəblərin tikintisi, təmiri davam etmişdir. 33 səhiyyə ocağı, 60-a yaxın məktəb tikilmiş və təmir edilmişdir, 4 olimpiya idman kompleksi, mədəniyyət ocaqları tikilib və təmir edilib. Quruculuq işlərini hər yerdə, o cümlədən bölgədə görürük. Bölgədəki vəziyyət yaxşılaşır, şəhərlərimiz gözəlləşir, abadlaşır. 2011-ci ildə 94 min yeni iş yeri açılmışdır ki, onun da 73 mini daimi iş yeridir. Bütövlükdə biz işsizliyə qarşı proqramı icra etməyə başladığımız 2003-cü ildən bu günə qədər 1 milyondan artıq yeni iş yeri açılmışdır. Hazırda Azərbaycanda işsizliyin səviyyəsi 2011-ci ildə daha da aşağı düşmüşdür və bu rəqəm 5,4 faizdir. İşsizliklə bərabər gedən yoxsulluğun səviyyəsi yenə də aşağı düşərək 7,6 faiz təşkil etmişdir. Bu göstəricilər həm müsbətdir, həm də ümidvericidir. Bilirik ki, 2012-ci il də bizim üçün uğurlu olacaqdır. Biz bu gün 2012-ci ildə görüləcək işlər haqqında danışacağıq.

2011-ci ildə xarici siyasətdə çox yaddaqalan və tarixi hadisələr baş vermişdir. Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu bizim böyük siyasi qələbəmizdir. Bu qələbə müstəqilliyimizin 20 illik yubileyinə təsadüf etmişdir.

Bu da rəmzi xarakter daşıyır. 20 il ərzində Azərbaycan dünya xəritəsində nəinki özünə layiq yerini tuta bilmişdir, dünya birliyinin mütləq əksəriyyətinin rəğbətini, hörmətini, inamını qazanmışdır. Əks təqdirdə heç vaxt 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləməzdi. 155 ölkənin etimadını, inamını qazanmaq çox çətin və eyni zamanda, məsuliyyətli işdir. Azərbaycanın uğurlu siyasəti, müstəqil siyasətimiz, prinsipial mövqemiz, etibarlı tərəfdaş kimi özümüzü təqdimetmə imkanlarımız bax, bu vəziyyətə gətirib çıxarmışdır. Biz bu qələbəni rəqabət şəraitində əldə edə bilmişik və növbəti iki il ərzində dünyanın bir nömrəli, ən mötəbər təşkilatında üzv kimi öz prinsipial mövqemizi göstərəcəyik. Mən bu barədə artıq demişəm, bir daha demək istəyirəm ki, biz bu qurumda ilk növbədə ədaləti müdafiə edəcəyik. Buna böyük ehtiyac vardır. Ədalət bəzi hallarda pozulur, beynəlxalq hüquq normalarına hörmətsizlik edilir, onlara riayət edilmir. Azərbaycan öz imkanları daxilində ədaləti və beynəlxalq hüququ bu mötəbər təşkilatda müdafiə edəcək, əlbəttə ki, bizim üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini də daim gündəlikdə saxlayacaqdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində əfsuslar olsun ki, 2011-ci ildə heç bir nəticə olmamışdır. Bunun yeganə və başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir, danışıqlarda qeyri-səmimi davranışıdır. Faktiki olaraq danışıqların pozulmasına, yaxud da ki, dondurulmasına Ermənistan tərəfi çox çalışmışdır. Danışıqlar iki tərəfin iştirakını tələb edir. Bir tərəf əgər danışıqlardan bu və ya digər formada boyun qaçırmaq istəyirsə, digər tərəfin imkanları da məhdudlaşır. 2011-ci ildə danışıqlar prosesində, bu məsələyə dair beynəlxalq qüvvələrin münasibətində müsbət hallar olmuşdur. Biz bunu inkar edə bilmərik. Deyə bilərəm ki, onlardan ən önəmlisi odur ki, üç həmsədr ölkə status-kvonun qəbuledilməz olduğunu bəyan etmişdir. Bu birinci bəyanatdır, yəni bundan əvvəlki illərdə belə bəyanatlar verilmirdi. Status-kvo dəyişdirilməlidir və ümidverici bəyanatdır. Əgər bu

bəyanatdan sonra həmsədr ölkələrin konkret təklifləri, addımları, hərəkətləri olarsa, münaqişəni tezliklə həll etmək mümkün olacaqdır. Sadəcə, bəyanat kimi qalacaqsa, onda danışıqların perspektivləri ümidverici olmayacaqdır.

Bu münaqişənin həllinin iki yolu var: danışıqlar yolu və hərb yolu. Üçüncü yol yoxdur. Bu münaqişə dondurulmuş münaqişə deyildir və olmayacaqdır. Kim fikirləşirsə ki, danışıqlarda əsas məsələ müharibənin qarşısını almaqdır, mən bununla razı deyiləm. Biz də müharibə istəmirik. Kim müharibə istəyər? Özü də bu qədər böyük uğurlara nail olan Azərbaycan dövləti. O demək deyil ki, danışıqlar prosesi kənarda qalacaq və bütün səylər müharibənin başlanmamasına yönəldiləcəkdir. Bu olmayacaqdır! Mən nə üçün bunu deyirəm? Çünki 2011-ci ildə həmsədrlər tərəfindən, xüsusilə ilin ikinci yarısında biz daha çox etimad tədbirlərinin gücləndirilməsinə, atəşkəs rejiminin pozulmamasına yönələn hərəkətləri və təşəbbüsləri görmüşük, nəinki danışıqların mahiyyətinə yönələn diqqəti. Biz də istəmirik ki, müharibə olsun. Ancaq bunun yolu var. O yol da hamıya bəllidir. Əvvəlki dövrdə də bəyan etmişik ki, 2009-cu ilin sonunda ATƏT-in Xarici İşlər nazirlərinin toplantısında iki tərəfə verilmiş təkliflərə prinsip etibarilə razılığımızı bildirmişik. Bu prinsipləri biz yox, həmsədrlər ortaya qoymuşlar. Əgər o prinsiplər hələ də qüvvədədirsə, onda bu münaqişə öz həllini tapa bilər. O prinsiplər haqqında mən ictimaiyyətə kifayət qədər məlumat vermişəm. Bir daha əsas məqamları təkrarlamaq istəyirəm. Azərbaycanın ərazi bütövlüyü şübhə altına qoyulmur, Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara qayıdırlar və gələcəkdə Dağlıq Qarabağın statusu haqqında qeyri-müəyyən vaxtda qeyri-müəyyən formada təkliflər irəli sürüləcəkdir. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan dövlətinin razılığı olmadan Dağlıq Qarabağa heç bir status verilə bilməz. Bu da təbiidir ki, Azərbaycan dövləti və xalqı heç vaxt Azərbaycandan kənarda Dağlıq Qarabağa heç bir statusa razılıq verə bilməz və verməyəcəkdir. Prinsiplər bundan ibarətdir. Biz danışıqları bu prinsiplər əsasında davam

etdirməyə hazırıq və əgər qarşı tərəf də belə addımlar atarsa, məsələ tezliklə öz həllini tapa bilər. Bununla bərabər, o da heç kimə sirr deyil ki, biz hərbi gücümüzü artırırıq və artıracağıq. 2010-cu ildən bu rəqəmləri mən dəqiq xatırlayıram. Başqa rəqəmləri də xatırlayıram, amma bu rəqəmləri yaddaşımda xüsusilə dəqiq saxlayıram – 2011-ci ildə hərbi məsələlərə 3 milyard 413 milyon dollar xərclənmişdir, 2012-ci ildə 3 milyard 474 milyon. Təxminən eyni rəqəmdir. İki ildə görün, biz ordu quruculuğuna nə qədər böyük vəsait sərf etmişik. Əvvəlki dövrdəki vəsaiti də əlavə etsək, biz də görərik, hamı da görər ki, bu gün Azərbaycan ordusu böyük imkanlara malikdir. Biz bölgədə ən güclü orduya malikik, maddi-texniki təchizat yüksək səviyyədədir, ən müasir silahlar, texnikalar, döyüş helikopterləri, döyüş təyyarələri, raketlər, artilleriya qurğuları – hamısını sadalamaq çətindir – alınır və bizimlə hərbi sahədə əməkdaşlıq edən ölkələrin coğrafiyası da genişlənir. Azərbaycanda istehsal olunan hərbi məhsulların sayı və çeşidi artmaqdadır. Biz 600-ə yaxın çeşiddə hərbi məhsul istehsal edirik. Bu gün Azərbaycan ordusu böyük qüvvədir, biz bu qüvvədən lazım olan halda istifadə edə bilərik və edəcəyik.

Qarşı tərəf də bunu bilir. Bizdə olan məlumata görə, qarşı tərəfdə – Ermənistanda Azərbaycanın hərbi imkanları ilə əlaqədar böyük təlaş və təşviş vardır. Biz bu məlumatları müxtəlif mənbələrdən alırıq və bizim imkanlarımıza cavab vermək üçün onların heç bir imkanı yoxdur. Necə ki, BMT Təhlükəsizlik Şurasına seçkilərdə onlar döyüş meydanından qaçmışlar. Əvvəlki dövrdə Ermənistan da orada namizəd idi. Sonra sakitcə oradan çəkildilər, bilirdilər ki, Azərbaycanla mübarizə apara bilməyəcəklər. Eləcə də biz əsl döyüş meydanından da onların qaçmalarını dəfələrlə görmüşük. Onlara aid olmayan torpaqlardan öz xoşları ilə çıxsalar, sülh bərpa oluna bilər.

Bizim hərbi potensialımız daha da artmalıdır. Hərbi xərcləri yüksək səviyyədə saxlayırıq. Müqayisə üçün deyə bilərəm ki, Ermənistanın ümumi xərcləri 2 milyard dollardır. Bizim hərbi

xərclərimiz ondan təxminən 2 dəfə çoxdur. İllər keçdikcə bu fərq daha da artacaq, Azərbaycanın hərbi gücü çoxalacaqdır. Hazırda imzalanmış kontraktların icrası nəticəsində, indi demək istəmirəm, bizim döyüş qabiliyyətimiz əhəmiyyətli dərəcədə artacaqdır və məsələnin həlli üçün biz az itkilərlə daha da böyük uğurlar əldə edə bilərik. Yenə də deyirəm, Azərbaycan sülhsevər dövlətdir. Biz çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq onu da bilirik ki, hər il və hər ay bizi qələbəyə yaxınlaşdırır. Hər il və hər ay Azərbaycan daha da güclü, Ermənistan daha da gücsüz olur.

2011-ci ildə xarici siyasətlə bağlı digər təşəbbüslər də çox müsbət olmuşdur, tərəfdaşlarımızın sayı artmaqdadır. Həm mənim xarici səfərlərim, həm xarici qonaqların – dövlət, hökumət başçılarının Azərbaycana səfərləri xarici siyasətimizin nə qədər uğurlu olduğunu göstərir. Bu təmaslar bu il də davam edəcəkdir. Yenə də deyirəm, Azərbaycan dünyada çox etibarlı tərəfdaş kimi tanınır və bu il əlavə təşəbbüslər, yeni təşəbbüslər irəli sürüləcəkdir.

2011-ci il Azərbaycanda «Turizm ili» elan edilmişdir. «Turizm ili» ərzində bu sahəyə daha da böyük diqqət göstərilmişdir. Biz Azərbaycanı müasir, yüksək səviyyəli və elitar turizm mərkəzinə çevirməliyik. Mən dünya turizm xəritəsində Azərbaycanın yerini belə görürəm. Beynəlxalq qurumlarla əlaqələrimiz güclənir. Müxtəlif tədbirlər keçirilmişdir. Bizim gözəl, təbii şəraitimizlə tanış olmaq üçün gələnlərin sayı da artmaqdadır. Keçən il təkcə Bakıda beşulduzlu 3 mehmanxana açılmışdır. Bu il ən azı yenə də Bakıda beşulduzlu 3 yeni mehmanxana açılacaqdır. Bölgələrdə də bu proses gedir. İndi bölgələrdə beşulduzlu mehmanxanalar tikilir, ən azı 4-ü tikilir. Ən vacib turizm mərkəzlərinə özüm baş çəkirəm, vəziyyətlə tanış oluram.

«Şahdağ» Turizm Kompleksi bu il istifadəyə veriləcəkdir. Bu da dünya miqyasında nadir xizək kurortu olacaqdır. Dünyanın ən gözəl xizək mərkəzlərindən biri olacaqdır. Çünki dünyanın ən gözəl yerlərində olan müsbət təcrübəni biz ora

gətiririk, tətbiq edirik. Yəni 2011-ci ili «Turizm ili» elan etməyimiz də hesab edirəm ki, düzgün addım idi.

2011-ci ildə gördüyümüz bütün işləri burada sadalamaq üçün bir neçə saat vaxt lazım olacaqdır. Əsas məqamları bu gün ifadə edirəm. Vacib məsələlərdən biri də odur ki, keçən il Azərbaycan Gəncliyi Proqramını qəbul etmişik. Bu çox konkret proqramdır. Bu sadəcə olaraq, formal xarakter daşımır. Proqramın bütün müddəaları konkret nəticələrə gətirib çıxaracaqdır. Gənclər Fondu yaradılıbdır. İndi orada təşkilatlanma prosesi gedir. Bu proses başa çatan kimi dövlət tərəfindən Gənclər Fonduna ilkin vəsaiti ayıracağıq ki, bu vəsaitdən səmərəli şəkildə istifadə edilsin, maksimum sayda gənclərimiz müxtəlif layihələrə cəlb olunsunlar. Bu fond qrantlar verəcək, müxtəlif proqramlar üzrə vəsait ayıracaqdır. Fondun fəaliyyəti haqqında danışmaq bəlkə bir qədər tezdir. Bilirik ki, əsas istiqamətlər hansılar olmalıdır. Bu fondun hesabına və dövlət vəsaiti hesabına biz daha da böyük sayda gəncləri quruculuq işlərinə cəlb etməliyik. Gənclərdə çox böyük potensial, böyük enerji vardır, vətənpərvərlik hissləri çox yüksəkdir. Hər bir vətəndaş kimi, onlar da istəyirlər ki, ölkə üçün yaxşı işlər görsünlər. Bu fondun və digər formatların hesabına biz gəncləri quruculuq işlərinə daha da fəal cəlb edəcəyik.

Qeyd etməliyəm ki, hazırda fəaliyyət göstərən Elmin İnkişafı Fondunun təcrübəsi də çox müsbətdir. Bu fondun xətti ilə müxtəlif proqramların icrasında gənclər, gənc alimlər də çox fəal iştirak edirlər. Gənclər Fondu da fəaliyyətini bu səpkidə, bu istiqamətdə aparmalıdır.

2011-ci ildə enerji sahəsində yaxşı işlər görülübdür. Bu, iqtisadiyyatımızın aparıcı sahəsidir. Bu gün də belədir, sabah da belə olacaqdır. Bu sahəyə daim böyük diqqət göstərilməlidir. Yeni elektrik stansiyalarının fəaliyyətə başlaması, yeni stansiyaların təməl daşının qoyulması, neft-qaz sahəsində görülən işlər – alternativ bərpa olunan enerji növlərinin

yaradılması sahəsində aparılan işlər – bütün bunlar göz qabağındadır. 2011-ci ildə bunları etmişik.

Azərbaycanın zəngin qaz potensialının dünya bazarlarına çıxarılması üçün 2011-ci ildə çox vacib hadisələr baş vermişdir. Bir neçə il ərzində üzərində işlədiyimiz tranzit məsələləri öz həllini tapmışdır. Azərbaycan qazı üçün, demək olar ki, indi qapılar, tranzit yolları açılır. Bu, ölkə iqtisadiyyatına, neft-qaz sektoruna əlavə investisiyaların gətirilməsinə imkan verəcəkdir. Bu investisiyalar 10 milyard dollarla ölçüləcəkdir. Yeni iş yerləri, yeni iş həcmləri açılacaqdır. Yerli şirkətlər indi bu işlərə daha hazırlıqlıdırlar, nəinki 1990-cı illərdə. O illərdə bizdə, demək olar ki, elə çox ciddi şirkətlər də yox idi. İndi neft-qaz sektorunda görülən işlər hesabına Azərbaycanda sahibkarlar daha da güclənmişlər. İnşaat, enerji, istehsal sahələrində bizim böyük imkanlarımız, texnoparklarımız vardır. Neft-qaz sənayesində istənilən vacib məhsulları, boruları, digər məhsulları özümüz istehsal edirik. Bu o deməkdir ki, veriləcək sifarişlərdə daha çox Azərbaycan şirkətləri iştirak edəcəklər və büdcəmizə daha çox vergilər ödəyəcək, daha çox iş yerləri açacaqlar. Bu zəncirvari reaksiya hər bir sahəyə öz müsbət təsirini göstərəcəkdir.

2011-ci ildə bu vacib hədəfə çata bilmişik. Tranzit məsələləri həll olunub. 2011-ci ildə yeni böyük qaz yatağı aşkarlanıb. «Abşeron» qaz yatağında uğurlu kəşfiyyat işləri aparılmışdır. İlkin məlumatlara görə «Abşeron» yatağında 350 milyard kubmetr qaz ehtiyatları vardır. Azərbaycan Dövlət Neft Şirkəti öz gücü hesabına 2011-ci ildə «Ümid» yatağını aşkar etmişdir. Orada da təxminən həcm eynidir. Bu bizim qaz potensialımızı xeyli dərəcədə artırır. 2011-ci ilin əvvəlində, düz bir il əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında qaz sahəsində strateji əməkdaşlıq haqqında bəyannamə imzalanmışdır. İl ərzində çox fəal və səmərəli işlər aparılmışdır. Xüsusi işçi qrupu yaradılmışdır. İşçi qrupuna Avropa Komissiyasının enerji üzrə komissarı və bizim Energetika və Sənaye nazirimiz rəhbərlik edir. Orada bütün bu məsələ ilə

bağlı maraqlı olan şirkətlər iştirak edir. Başqa ölkələrin iştirakı ilə artıq üçtərəfli formatda da görüşlər keçirilir. Bu yenilikdir. Bu yeniliyi yaradan amillər də bizim uğurlu enerji siyasətimizdir.

2011-ci il tarixdə Azərbaycanı böyük qaz dövlətinə və qaz ixracatçısına çevirən il kimi qalacaqdır. Biz bu il, ondan sonrakı illərdə daha da ciddi işləməliyik və əldə edilmiş razılaşmaları real layihələrə çevirməliyik. Bu layihələri real boru xətlərinə, real terminallara, real investisiyalara çevirməliyik və əminəm ki, çevirəcəyik.

Keçən il gördüyümüz işlər o qədər böyükdür və o qədər vacibdir ki, bu barədə bir neçə saat danışmaq olar. Mən öz giriş sözümdə əsas məsələlərə toxundum. İndi müzakirə zamanı bu məsələlərlə bağlı daha da geniş fikir mübadiləsi aparacağıq.

## YEKUN NİTQİ

Əminəm ki, 2011-ci il tarixdə uğurlu il kimi qalacaqdır. Çünki bütün sosial-iqtisadi göstəricilərimiz belə deməyə əsas verir. Bir daha demək istəyirəm ki, 2011-ci ildə bütün sosial-iqtisadi məsələlər uğurla və vaxtında həllini tapmışdır.

2012-ci il başlayır. Qarşımızdaki ili də uğurla başa vurmaq üçün fəal işləməliyik. Bütün proqramlar vaxtında icra edilməlidir. Strateji istiqamətlər düzgün müəyyən edilmişdir. Strateji hədəflərə çatmaq üçün konkret icra mexanizmləri də vardır – maliyyə resursları, icra mexanizmləri və peşəkarlıq. Bu amillər istənilən məsələnin həlli üçün bizə imkan verəcəkdir.

Əminəm ki, 2012-ci ildə də qarşıda duran bütün vəzifələr uğurla icra ediləcəkdir. 2012-ci ilin dövlət büdcəsi 2011-ci ilə görə daha böyükdür. Daha böyük vəsait nəzərdə tutulur. Bu vəsait iqtisadiyyatımızın inkişafına və şaxələndirilməsinə yönəldiləcəkdir. Bu bütün sosial proqramların və sosial infrastruktur layihələrinin icrasına imkan verəcəkdir. 2012-ci ilin dövlət büdcəsinin xərcləri təxminən 22 milyard dollara bərabərdir. Bu, tarixdə ən böyük göstəricidir. İcmal büdcə isə

təxminən 25 milyard dollar səviyyəsindədir. Bütün sosial proqramlar, sosial ödəmələr, sosial infrastruktur layihələri bu büdcə ilə uğurla icra ediləcəkdir. Elə etməliyik ki, büdcənin icrasını təmin edək. Bir daha demək istəyirəm ki, giriş sözümdə bu məsələyə toxundum. Bu bizim üçün bir yenilikdir. Bu yeniliyin başlıca səbəbi bizim artan iqtisadi və maliyyə imkanlarımızdır. Mən istəyirəm ki, ölkə qarşısında duran bütün vəzifələr tezliklə həllini tapsın. Bütün hökumət üzvlərinə və dövlət qurumlarına mənim tapşırığım bundan ibarətdir ki, işlər qısa müddət ərzində, yüksək keyfiyyətlə görülməlidir. Böyük sənaye potensialımız, şirkətlərimiz var. Xarici şirkətlər bizim investisiya layihələrimizdə iştirak edirlər və buna maraq göstərirlər. Biz bunu alqışlayırıq. Hesab edirəm ki, büdcənin investisiya hissəsini uğurla icra etmək üçün bütün imkanlarımız vardır. Elə etməliyik ki, büdcə maksimum dərəcədə icra edilsin.

Maliyyə intizamı daha da yüksək səviyyədə olmalıdır. Büdcə artdıqca məsuliyyət də artmalıdır. Dövlət tərəfindən qoyulacaq investisiyaların şəffaflığı tam şəkildə təmin edilməlidir. Yaxın zamanlarda mənə hökumət tərəfindən 2012-ci ilin investisiya proqramı təqdim ediləcəkdir. Bu proqramla bağlı müzakirələr daim gedir. Bizim 2004 və 2009-cu illərdə qəbul etdiyimiz regionların inkişafı dövlət proqramlarında strateji istiqamətlər müəyyən edilibdir. İnvestisiya Proqramı da o strateji seçim üzərində qurulub. Düzdür, həyat yerində durmur, yeni məsələlər ortaya çıxır, yeni layihələr icra edilməyə başlayır və biz təbii ki, daim dəqiqləşdirmə aparırıq, ancaq investisiya xərclərinin ümumi istiqamətləri aydındır. Deyə bilərəm ki, bütün sahələr bizim üçün prioritetdir. Ancaq bu prioritetlər içində daha çox sosialyönümlü infrastrukturun yaradılması əsas yer tutmalıdır.

Dövlət İnvestisiya Proqramı kifayət qədər böyük olacaqdır, 5,7 milyard manata bərabərdir. Bu vəsaitlə böyük işlər görmək olar. Bu, təkcə dövlət tərəfindən qoyulacaq sərmayədir. Özəl sektor da bu işlərə fəal şəkildə qoşulur. Hesab edirəm ki, 2012-

ci ildə də ölkə iqtisadiyyatına ən azı 2011-ci ilin səviyyəsində vəsait qoyulmalıdır.

Böyük infrastruktur layihələrinin icrası 2012-ci ildə davam etdiriləcəkdir. Mən xüsusi diqqəti içməli su və kanalizasiya layihələrinə yönəltmək istəyirəm. Əvvəlki dövrdə elektrik enerjisi, xüsusilə generasiya güclərinin yaradılması, qazlaşdırma ilə bağlı böyük işlər görülmüşdür. Düzdür, bu işlər davam etdirilir, mən bu barədə danışacağam. Ancaq içməli su və kanalizasiya layihələri bir qədər kölgədə qalmışdır. İndi bu sahəyə diqqət daha ciddidir və işlər daha da uğurla aparılır. Bu sahədə müasir menecment sistemi, müasir idarəetmə üsulları tətbiq edilir. Dünya praktikasında geniş şəkildə istifadə olunur. Artıq Bakıda və bütün bölgələrdə içməli su, kanalizasiya layihələri başlayır, yaxud da ki, hazırlıq mərhələsindədir.

Mən keçən il qarşıya vəzifə qoymuşdum ki, 2013-cü ilə qədər əsas layihələr öz həllini tapmalıdır, icra edilməlidir. Əgər biz buna nail olsaq 2013-cü ilin sonuna qədər bütün rayon mərkəzləri, bütün şəhərlər dayanıqlı, keyfiyyətli, təmiz içməli su ilə təmin ediləcək və heç vaxt tarixdə mövcud olmayan kanalizasiya sistemləri də dünya səviyyəsində qurulacaqdır. Bu sahədə 2011-ci ildə görülmüş işlər məni sevindirir. Vəsait vardır, Dövlət İnvestisiya Proqramında nəzərdə tutulacaqdır. Beləliklə, 2012-ci ildə işlərin müəyyən hissəsi icra ediləcəkdir.

Suvarma layihələri də böyük əhəmiyyət daşıyır. Bu da kənd təsərrüfatının inkişafı, işsizliyin aradan qaldırılması üçün vacib rol oynayır. Böyük meliorasiya layihələri icra edilib. Bir neçəsi neçə ildir ki, icra edilir. Taxtakörpü, Şəmkirçay layihələri böyük vəsait tələb edən layihələrdir. 2012-ci ildə bu layihələr qismən Dövlət Neft Fondunun xətti ilə, qismən dövlət büdcəsinin vəsaiti hesabına icra ediləcəkdir. Orada da işlər cədvəl üzrə gedir. Mən bu məsələni daim diqqətdə saxlayıram. 2012-ci ildə də bu iki böyük layihənin icrası davam etdiriləcəkdir.

Digər meliorativ layihələrə də vəsait ayırmalıyıq. Bu ikisi qlobal layihədir. On minlərlə hektar yeni əkin sahələri

dövriyyəyə veriləcəkdir. Bununla bərabər, kiçikhəcmli meliorasiya layihələrinə də diqqət yetirilməlidir.

Qazlaşdırma ilə bağlı 2012-ci ildə layihələr icra ediləcəkdir. Bu işlərin, demək olar ki, böyük hissəsi görülmüşdür. Yenə də qarşıya vəzifə qoyulubdur ki, 2013-cü ilin sonuna qədər texniki və coğrafi cəhətdən mümkün olan bütün layihələr, bütün rayonları əhatə edən layihələr başa çatdırılmalıdır. Əgər biz buna nail olsaq – mən buna şübhə etmirəm, sadəcə istəyirəm ki, tezliklə buna nail olaq – onda yaşayış məntəqələrinin 95 faizi qazla təmin ediləcəkdir.

İndi böyük şəhərlərdə, rayon mərkəzlərində bu işlər gedir. Biz artıq kəndlərdə də bu işlərin görülməsinə başlamışıq. Qeyd etməliyik ki, 2013-cü ilin sonuna qədər bu hədəfə çata bilərik. Bizim zəngin qaz ehtiyatlarımız vardır. Qazı dünyaya ixrac edirik və daha böyük həcmdə ixrac edəcəyik. Belə olan halda biz bunu maksimum şəkildə, yəni 95 faiz – bu maksimum bizim coğrafiyamızı nəzərə alsaq mümkündür – təmin etməliyik və edəcəyik.

İnvestisiya layihələri arasında elektrik enerjisi ilə bağlı layihələr xüsusi yer tutur. Keçən il «Şimal-2» Elektrik Stansiyasının təməl daşı qoyulmuşdur. Bu stansiya 2013-cü ilin sonuna qədər istismara verilməlidir. Stansiyanın istehsal gücü 400 meqavatdan çox olacaqdır. Baxmayaraq ki, indi istehlak etdiyimizdən daha da çox enerji istehsal edirik, biz daim qabağa baxmalıyıq. Ölkəmizin gələcək uğurlu inkişafını, gördüyümüz işləri və planlaşdırdığımız layihələri nəzərə alaraq bilməliyik ki, generasiyaya nə qədər əlavə vəsait ayrılmalıdır. Burada rəqəm səsləndi, iqtisadi inkişaf naziri dedi ki, hazırda adambaşına düşən ümumi daxili məhsul (ÜDM) 7 min dollardır. Biz qarşıya məqsəd qoymuşuq ki, məhz 2013–2023-cü illərdə ÜDM-i iki dəfə artıraq. Nəyin hesabına artıracağıq? Yeni müəssisələrin fəaliyyətə başlaması nəticəsində. Bizim iqtisadi artımımız real sektorun inkişafı hesabına baş verəcəkdir. Belə olan halda elektrik enerjisinə tələbat daha da artacaqdır. Əgər biz ixrac imkanlarımızı da əlavə etsək – hazırda Azərbaycan, demək olar

ki, qonşu ölkələrə elektrik enerjisi də ixrac edir – onda generasiya layihələrinə əlavə vəsait qoyulacaqdır və bu qoyulmalıdır.

Biz bu il böyük elektrik stansiyasının – «Cənub» Elektrik Stansiyasının istifadəyə verilməsini gözləyirik. Bu, 780 meqavat gücündə olan stansiyadır, müasir texnologiyalar əsasında qurulur. Füzuli rayonunda 25 meqavat gücündə su elektrik stansiyasının açılışını da bu il qeyd edəcəyik. Generasiya ilə paralel olaraq biz paylayıcı xətlərə də investisiya qoymalıyıq. Düzdür, indi bütövlükdə ölkədə elektrik enerjisi ilə problemlər yoxdur. Ancaq bölgələrdə bəzi hallarda fasilələr baş verir, işıqlar kəsilir və bunun başlıca səbəbi elektrik xətlərinin nasaz vəziyyətdə olmasıdır. Biz əsas diqqətimizi elektrik enerjisi güclərinin yaradılmasına yönəltmişik və bu vəzifəni icra etmişik. İndi – xüsusilə bu il və gələn il paylayıcı xətlərə investisiya qoyuluşunu təşkil etməliyik. Orada bütün işlər müasir standartlar səviyyəsində olmalıdır.

Bu məsələ ilə bağlı bir məqama da toxunmaq istəyirəm. Vaxtilə – bir neçə il bundan əvvəl bu sahə ilə bağlı ən ciddi məsələlər ödəməmələr idi. Elektrikin, qazın pulunu yığa bilmirdik. Orada həm çox qeyri-şəffaf, korrupsiyalaşmış sistem qurulmuşdu və digər tərəfdən, sayğaclaşma aşağı səviyyədə idi. Bəzi hallarda sayğaclaşmanın aşağı səviyyədə saxlanması da məhz korrupsiya məqsədləri güdürdü. Çünki sayğac olmadan orada istənilən xoşagəlməz hərəkətlərə yol vermək olar. İndi sayğaclaşma ilə bağlı işlər, demək olar ki, başa çatmaq üzrədir. Smart-kart tipli müasir sayğaclar quraşdırılır, artıq nəzarətçi ilə əhali arasında təmas tamamilə qırılıbdır. Heç kim gəlib qapını döyüb rüşvət almamalıdır, almır və almayacaqdır.

Belə olduqda itkilər də azalır. Əgər biz indi xüsusilə bölgələrdə paylayıcı şəbəkələrə lazımi səviyyədə investisiya qoysaq, onda itkilər də azalacaqdır. Beləliklə, hazırda Bakıda elektrik enerjisi haqqının yığımı 90 faizdən yuxarıdır. Ölkə üzrə də bu rəqəm təxminən bu səviyyədədir. Qaz sahəsində yığım yüksək səviyyədədir. Vaxtilə 20, 30, 40 faiz yığılırdı, bəlkə də heç

yığılmırdı. Bu məsələ də öz həllini tapıbdır və dediyim kimi, biz bunu investisiya proqramında nəzərə almalıyıq.

Telekommunikasiya sahəsində görülən işlər haqqında nazir məlumat verdi. Bu sahə də Azərbaycanda uğurla inkişaf edir. Bu il biz birinci Azərbaycan telekommunikasiya peykini orbitə buraxacağıq. Bu, tarixi hadisə olacaqdır. Azərbaycan kosmik sənaye yaradır. Azərbaycan kosmik sənayeyə malik olan ölkələr sırasına daxil edilir. Bu, uzaqgörən siyasətimizin nəticəsidir. Hesab edirəm ki, Azərbaycan bütün mütərəqqi və qabaqcıl texnologiyaları gətirməlidir. Biz gətiririk, tətbiq edirik, kadrları hazırlayırıq. Ölkəmizin həm siyasi çəkisi, həm iqtisadi gücü artacaqdır. Telekommunikasiya o sahələrdəndir ki, burada müxtəlif və hər bir ölkənin inkişafı üçün vacib olan amillər cəmləşir. Bu innovasiyadır, bilikdir, savaddır. Bu, böyük biznes sahəsidir. Ölkə iqtisadiyyatının inkişafı üçün bizə əlavə gəlirlər gələcəkdir. Bu, elmi-texniki tərəqqini şərtləndirən sahədir. Gələcəkdə informasiya-kommunikasiya texnologiyaları sahəsi dünyada aparıcı sahə olacaqdır və olmalıdır. Bu sahədə kim qabaqda gedirsə, o da söz sahibi olacaqdır. Bugünkü dünya bundan 10 il, 20 il əvvəlki dünya deyildir. Texnologiyalar, informasiya təhlükəsizliyi, kiberhücumlara qarşı təhlükəsizlik tədbirləri artıq ön plana çıxır və gələcək dövrün güclər nisbəti də məhz bu sahədə müəyyən ediləcəkdir. Ona görə biz bu sahəyə çox böyük diqqət göstərməliyik, göstəririk. Bu siyasət bu gün başlanmır, bir neçə il bundan əvvəl başlanmışdır. Mən çox şadam ki, beynəlxalq telekommunikasiya qurumlarının hesabatlarına görə Azərbaycan MDB məkanında qabaqcıl yerlərdədir. Bizdə azad internet fəaliyyət göstərir. Deyə billərəm ki, heç də hər bir ölkədə azad internet mövcud deyildir. İnternet istifadəçilərinin sayı artmaqdadır, mən bunu çox müsbət hal kimi qiymətləndirirəm. Uşaqlarımız, gənclərimiz artıq kompüterlə işləyirlər. Gələcək budur. Bu, məlumat, söz azadlığıdır, Azərbaycanda demokratik cəmiyyət mövcuddur və biz demokratik əsasları daha da gücləndirməliyik. Azad internet olan yerdə təbii ki, söz azadlığı da vardır və bu təbiidir. Bu sahə

həm təhlükəsizlik, həm inkişaf, həm bilik, həm biznes, həm gələcək nəslin hazırlanması üçün aparıcı sahə olmalıdır. Bizdə də elə olmalıdır. Biz gələcəkdə ölkəmizin inkişafı üçün iqtisadiyyatımızın şaxələndirilməsi sayəsində yaradılacaq vəziyyət hesabına bu sahədə də qabaqcıl yerlərdəyik. İndi bölgədə, gələcəkdə isə dünya miqyasında inkişaf etmiş ölkələrin sırasında olmalıyıq. Mən çox şadam ki, ölkəmizdə keçirilən ənənəvi «Bakutel» sərgisi hər il daha da böyük, mötəbər sərgi kimi özünü təqdim edir, gələn qonaqların sayı artır, şirkətlər maraq göstərirlər. İnvestisiya qoymaq istəyənlər görəndə ki, Azərbaycan dövləti də bu sahəyə böyük diqqət göstərir, kosmik sənaye yaradılır, birinci peyk buraxılır, çox böyük maraqla yanaşırlar. Yenə də qeyd edirəm, bu, birinci peykdir, sonuncu deyildir. Ondan sonra ikincisi, üçüncüsü olacaqdır. Güclü sənaye yaradılacaqdır. Beynəlxalq təşkilatlarla bu sahədə əməkdaşlığımız çox yaxşıdır. Dünyanın aparıcı İKT şirkətləri Azərbaycana çox böyük maraq və hörmətlə yanaşırlar.

2012-ci ildə ərzaq təhlükəsizliyi ilə bağlı tədbirləri daha da gücləndirməliyik. Bu sahədə görülən işlər müsbətdir. Biz bu il kənd təsərrüfatında böyük artıma nail ola bilmişik. Əkin sahələri, məhsuldarlıq artır. Xüsusilə taxılçılıqda məhsuldarlıq artır, bu çox müsbət haldır. Əminəm ki, görüləcək tədbirlər nəticəsində böyük fermer təsərrüfatlarının yaradılması və onlara dövlət tərəfindən dəstək, meliorativ tədbirlərin, fermerlərə güzəştli şərtlərlə bütün yanacağın, gübrələrin verilməsi, aqrolizinq, aqroservislərin fəaliyyəti hesabına biz bu sahədə uzunmüddətli, dayanıqlı inkişafı təmin edəcəyik.

Bir neçə il bundan əvvəl mən qarşıya vəzifə qoymuşdum ki, biz əsas ərzaq məhsulları ilə özümüzü təmin edək. Bu istiqamətdə böyük işlər görülmüşdür. İndi satış məntəqələrimizdə satılan məhsulların, yəni ərzaq məhsullarının böyük əksəriyyəti, mütləq əksəriyyəti Azərbaycanda istehsal olunan məhsullardır. Əgər biz keçmişi yada salsaq görərik ki, o vaxt yerli məhsulları tapmaq heç mümkün deyildi. İndi bizim yerli məhsullarımız heç xarici məhsuldan geri qalmır – həm key-

fiyyəti, həm onların müasir qablaşdırılması, xarici görünüşü, dadı baxımından. Bizim məhsullarımız, xüsusilə tərəvəz, meyvə məhsullarımız təbiidir. Dünyada buna orqanik deyirlər. Bakıya, Azərbaycana gələn bütün qonaqlar məəttəl qalırlar ki, bizdə necə gözəl, təbii meyvələr, tərəvəzlər vardır.

Bu bizim böyük sərvətimizdir. Biz bunu qorumalıyıq. Biz kənd təsərrüfatının inkişafını, xüsusilə meyvə-tərəvəz sahəsindəki inkişafını da keyfiyyəti itirmədən davam etdirməliyik. İndi müasir texnologiyalar vardır. Mənə bu yaxınlarda iqtisadi inkişaf naziri məruzə etmişdi, onlar Azərbaycanda da tətbiq edilir. Bağçılıq sahəsində müasir texnologiyalara uyğun şəkildə istixanalar tikilir. Kənd Təsərrüfatı Nazirliyi bu məsələlərlə məşğuldur. Bu, əlbəttə ki, məhsul istehsalının həcmini artıracaqdır. Ancaq bununla bərabər, biz keyfiyyətə və ən önəmlisi meyvələrin, tərəvəzlərin dadına da daim fikir verməliyik.

Bir müddət əvvəl qarşıya qoyulan vəzifə icra edilir. 2011-ci ildə dövlət tərəfindən verilən vəsait hesabına Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə böyük vəsait ayrılmışdır. Biz bu il – 2012-ci ildə də rekord göstəriciyə çatırıq – sahibkarlara güzəştli şərtlərlə 200 milyon manat kreditlər veriləcəkdir. Mən çox şadam ki, bu həm maliyyə dəstəyidir, həm də sahibkarlara çox yaxşı məsləhətlər, işə başlamaq üçün maddi imkanlardan asılı olaraq müxtəlif biznes-planlar verilir. Biz doğrudan da sahibkarlara çox böyük diqqətlə yanaşırıq. Mən deyə bilmərəm hansı başqa ölkədə belə yanaşma vardır. Fermerlərə güzəştli şərtlərlə yanacaq, gübrələr, aqrolizinq xətti ilə texnikalar verilir. Aqroservislər yaradılıbdır. İribuynuzlu cins mal-qara gətirilir, fermerlərə verilir. Ondan sonra güzəştli şərtlərlə kreditlər ayrılır. Bu il 200 milyon manat kredit veriləcəkdir. Daha sonra biznes-planlar, investisiya layihələri, 1 hektarlıq, 5 hektarlıq, 25 hektarlıq planlar hazırlanır. Yəni sahibkar sadəcə gəlib təkcə bu işi görməlidir. İndi bizdə keçən ilin sonunda azot gübrəsi zavodunun təməl daşı qoyuldu. Biz özümüzü gübrələrlə, azot gübrələri ilə tam şəkildə təmin edəcəyik, ixrac da edəcəyik. Bu

da aşağı qiymətlə veriləcəkdir. Bizim böyük qaz ehtiyatlarımız vardır. Biz o zavoda güzəştli şərtlərlə qazı verəcəyik ki, səmərəlilik artsın. Özümüzü təmin etmək üçün, bir daha demək istəyirəm ki, böyük işlər görülübdür. İşlər bu il də, gələn il də, ondan sonra da görüləcəkdir. Gərək biz indidən gələcəyi düşünək. İndi biz bir çox mövqelər üzrə özümüzü təmin edirik, ya da ki, bu il, yaxud gələn il təmin edəcəyik.

Bizdə quşçuluq sahəsində istehsal aşağı səviyyədə idi. İndi görüləcək tədbirlər nəticəsində 2012-ci və 2013-cü illərdə yeni tikiləcək quşçuluq fabriklərinin fəaliyyəti hesabına biz özümüzü quş əti ilə də təmin edəcəyik. Süd emalı, konserv kombinatları tikilir, bağçılıq, bitkiçilik inkişaf edir. Bitkiçilikdə biz hələ ki, idxaldan asılıyıq, bir müddət də asılı olacağıq. Ancaq bütün başqa mövqelər üzrə biz ya özümüzü təmin edirik, ya bir-iki ildən sonra tam şəkildə təmin edəcəyik. Sual yaranır ki, ondan sonra nə olacaqdır? Çünki biz indi kənd təsərrüfatının inkişafına böyük investisiyalar qoyuruq. Böyük təsərrüfatlar, zavodlar, fabriklər yaradılır. Azərbaycanda sahibkarlar sinfi yaradılıb. Onlar əldə edilən gəlirlərin bir hissəsini yeni müəssisələrə yönəldirlər. Belə olan halda 4-5 ildən sonra bizə əlavə xarici bazarlar lazım olacaq. İndi bizim ənənəvi bazarlarımız var. Bu bazarlarda Azərbaycan məhsullarına ehtiyac və tələbat vardır. Gələcəyə baxmalıyıq. Bizim potensialımız indiki ixrac imkanlarımızdan bəlkə bir neçə dəfə artıq olacaqdır. Ona görə mən İqtisadi İnkişaf Nazirliyinə müvafiq göstərişlər verdim. Çünki indi onların əlaqələri çox genişdir, biz müxtəlif ölkələrlə biznes- forumlar keçiririk.

Böyük maraq vardır, xarici əlaqələr artır və biz xarici bazarlara daha da məqsədyönlü şəkildə çıxmalıyıq. Öz biznes strukturlarımıza kömək etməliyik. Xarici siyasət sahəsində tərəfdaşlarla danışıqlarda bu mövzu daim mövcud olmalıdır. Bizə xarici bazarlar lazım olacaqdır. Ənənəvi bazarlara və yeni bazarlara daha da böyük həcmdə çıxmalıyıq. Azərbaycanda indi kənd təsərrüfatı emalı sənayesində elə gözəl məhsullar istehsal olunur ki, Avropa ölkələrinə də, Amerikaya da ixrac edilir. Belə

məhsulların sayı artacaqdır və biz – yeni bazarların tapılması ilə deyə bilməzdim, çünki onları tapmaq çətin deyildir – yeni bazarlara çıxmaq üçün baxmalıyıq ki, əlavə hansı tədbirləri görə bilərik.

Keçən ilin sonunda üzümçülüyün inkişafı ilə bağlı Dövlət Proqramı qəbul edilmişdir. Üzümçülüyün Azərbaycanda böyük ənənələri vardır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1970–1980-ci illərin əvvəllərində böyük üzüm bağları salınmışdır. Azərbaycanda 2 milyon ton üzüm istehsal edilirdi. Sovet məkanında ən böyük istehsalçı Azərbaycan idi. Ondan sonra antialkoqol kampaniyası nəticəsində nədənsə, ancaq Azərbaycanın üzüm bağları kəsildi, dağıdıldı. Nə Ukraynada, nə Gürcüstanda, nə Ermənistanda, nə Moldovada belə vəhşilik edilməmişdir. Bu da o vaxtkı sovet rəhbərliyinin Azərbaycana qarşı mənfi münasibətinin təzahürüdür. Həm sovet rəhbərliyi, həm də ki, burada oturanlar, yerli yaltaqlar çalışırdılar ki, tezliklə üzüm bağlarını qırsınlar, raport versinlər ki, biz burada sizin göstərişinizi icra edirik. Onların antimilli hərəkətləri nəticəsində bizim üzüm bağlarımız dağıdıldı. Bizim torpağımız 2 milyon ton üzüm verirdi. İndi 130 min ton. Həmin torpaq, həmin şərait, həmin iqlim, bu mümkündür. Ona görə də üzümçülüyün inkişafına dair Dövlət Proqramının məqsədi də məhz ondadır ki, biz bu sahəyə böyük diqqət göstərək. Düzdür, indi əvvəlki dövrdə salınmış üzüm bağlarının yerində başqa bitkilər əkilmişdir, ona baxmaq lazımdır. Böyük potensial, bazarlar da vardır. Bu sahəyə dövlət dəstəyi daha böyük və uzunmüddətli olmalıdır. Hamımız yaxşı bilirik ki, üzüm bağlarının salınması və yetişdirilməsi üçün kifayət qədər çox vaxt lazımdır. Hər halda, biz bu işə başlamışıq və bu işlər davam etdiriləcəkdir.

Məhsulların saxlanması ilə bağlı əsas məsələlər həllini tapmışdır. Kifayət qədər soyuducu anbarlar tikilmişdir. Mənə məruzə edildi ki, bu il də tikiləcəkdir. Taxıl anbarları da tikilir. Məhsulların saxlanması üçün və qiymətlərin normal vəziyyətdə olması üçün biz bu şəraiti yaradırıq.

Mən çox şadam ki, bayramlar ərəfəsində – həm Yeni il bayramı, ondan əvvəl Qurban bayramı ərəfəsində qiymətlərdə

artım müşahidə edilməmişdir. Bəzi hallarda qiymətlər aşağı düşür. Bu da çox yaxşı nəticədir, yaxşı göstəricidir. Bu onu göstərir ki, bazarlara nəzarət yüksək səviyyədədir. Möhtəkirliklə məşğul olanlara qarşı mübarizə aparılır və bu mübarizə daim aparılmalıdır. Bu hadisələr, bayram ərəfəsindəki vəziyyət onu göstərir ki, bu mübarizəni aparmaq mümkündür. Bütün aidiyyəti qurumlar vicdanla işləməlidirlər, süni qiymət artımına yol verməməlidirlər ki, kimsə burada əsassız varlansın, insanlar isə əziyyət çəksinlər. Biz maaşları, əmək haqlarını, pensiyaları qaldırırıq. Onsuz da bizim böyük investisiya layihələrimiz istər-istəməz qiymətin artımına gətirib çıxarır. Necə ola bilər ki, 20 milyard dollar investisiya qoyulsun və bunun inflyasiyaya təsiri olmasın?! Hələ inflyasiyanı 7,9 faiz səviyyəsində saxlamağımız böyük nailiyyətdir. Elə etməməliyik ki, burada biz dövlət hesabına, büdcə hesabına maaşları, pensiyaları artırırıq, kimsə bundan bəhrələnib dərhal qiymətləri qaldırsın. Bunlara qarşı ciddi mübarizə aparılmalıdır, aparılır, aparılacaqdır. Bizim siyasətimizə zidd olan adamlar, yaxud da ki, əsassız gəlirlər əldə etmək istəyənlər çox ciddi şəkildə cəzalandırılacaqlar. Mən bunu dəstəkləyirəm və bu məsələni daim diqqətdə saxlayacağam.

Keçən il Bakı və Bakı qəsəbələrinin inkişafı proqramı qəbul edilmişdir. Bu proqrama böyük ehtiyac var idi. Vaxtilə – bir neçə il bundan əvvəl buna oxşar proqram qəbul edilmişdir, müəyyən işlər görülmüşdür. Bu dəfə bu proqram daha konkretdir, daha qısamüddətlidir – 2011–2013-cü illər. Nəzərə alsaq ki, biz bu proqramı 2011-ci ilin yarısında başlamışıq, deməli, iki il yarım ərzində qəsəbələrdə bütün məsələlər öz həllini tapmalıdır. Bu, çox böyük vəzifədir, çox çətin vəzifədir. Amma hesab edirəm ki, iki il yarım ərzində biz bu məsələləri həll edə bilərik. Əgər belə fikirləşməsəydim, onda deyərdim ki, 2011–2015-ci illər. Yox, edə bilərik. İndi necə işlər başlayıb, mən görürəm ki, biz məqsədlərimizə çatmalıyıq. Qəsəbələrdə bütün infrastruktur yenilənməlidir, yenilənir. İndi elektrik xətləri, qazlaşdırma, kanalizasiya, içməli su, yollar ilə bağlı işlər gedir. Bütün

qəsəbələrdə sosial infrastruktur – məktəblər, tibb mərkəzləri, mədəniyyət ocaqları tam şəkildə təmir edilməlidir, yenidən yaradılmalıdır. Biz proqramı başlayandan sonra mən bir çox qəsəbələrdə şəxsən olmuşam – ümumiyyətlə, mütəmadi qaydada – Bakıətrafı qəsəbələrdə oluram – vəziyyətlə tanış olmuşam, göstərişlər vermişəm. Bir müddətdən sonra gedib yoxlayacağam ki, işlər necə gedir?! Mən, ümumiyyətlə, hər bölgədə işlərin gedişatını yoxlayıram. Bəzi hallarda bölgələrə hər gün getmək mümkün deyildir, amma burada – Bakıda hər gün getmək olar. Həftədə bir dəfə özüm gedib yoxlayacağam və elə olmalıdır ki, mən razı qalım. Mən deyəndə, xalq razı qalsın. Xalq razı qalarsa, mən də razı qalacağam. Bu məqsədlərə çatmaq üçün vəsait vardır. 2012-ci ilin investisiya proqramında da vardır, olacaqdır. Burada işlər keyfiyyətli və cədvəl üzrə aparılmalıdır.

Bu işlər Bakı Şəhər İcra Hakimiyyətinə və İqtisadi İnkişaf Nazirliyinə həvalə edilib. Onlar da birgə işləyirlər, nəzarət edirlər. Deyə bilərəm ki, müsbət hallarla yanaşı, mənfi hallar da vardır. Bu aylar ərzində böyük işlər görülmüşdür, ancaq bəzi hallarda tələskənliyə yol verilmişdir, biz keyfiyyətdə uduzmuşuq. Son nəzarəti özüm aparacağam. Ona görə indidən deyirəm ki, bu məsələ ilə məşğul olan bütün qurumlar və podratçılar, iş icraçıları məsuliyyətlə yanaşsınlar. Kim keyfiyyətsiz iş görəcəksə, əgər bu şirkətdirsə, qüsurlarını öz hesabına bərpa edəcəkdir, dövlət qurumudursa, ciddi cəzalandırılacaqdır. Bu proqramı 2013-cü ilin sonuna qədər başa çatdırsaq, onda qəsəbələrdə, bir daha demək istəyirəm ki, bütün sosial infrastruktur məsələləri öz həllini tapacaqdır. Bundan əlavə, qəsəbələrdə iş yerlərinin açılması üçün müvafiq göstərişlər verilmişdir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə bu vəsait artıq 2011-ci ildən ayrılmağa başlanmışdır. Əvvəlki dövrdə Fondun xətti ilə vəsait ancaq bölgələrə gedirdi. 2011-ci ildə Bakı qəsəbələrinə 25 faiz vəsait yönəldilib, 2012-ci ildə bu rəqəm 30-40 faiz olacaqdır.

2012-ci ildə sosial infrastrukturun tikintisi həm Bakıda, həm bölgələrdə davam etdiriləcəkdir – məktəblər, xəstəxanalar, olimpiya kompleksləri inşa ediləcəkdir. İndi 10 olimpiya kompleksi tikilir. Üç kompleksin tikintisi üçün hazırlıq işləri gedir. Uşaq bağçaları təmir edilməlidir və onların sayı artırılmalıdır. Müvafiq göstərişlər verilibdir. Hesab edirəm ki, 2012-ci ildə bu sahədə də ciddi dönüş yaradılacaqdır, həm şərait, həm təminat yaxşılaşdırılacaqdır. Təminatla bağlı maliyyə naziri mənə bir neçə təklif vermişdir. Mən onları dəstəkləyirəm. Bu təkliflər əsasında, xüsusilə uşaqları yeməklə təmin etmək üçün yeni müasir sistem qurulmalıdır. Dünya praktikasından istifadə etməliyik. Əgər biz o təklifləri reallaşdıra bilsək hər bir uşaq, hər bir valideyn görəcəkdir ki, bu sahədə də çox ciddi və müsbət dönüş yaranmışdır.

Ordu quruculuğu ilə bağlı mən giriş sözümdə fikirlərimi bildirdim. Qeyd etmək istəyirəm ki, 2012-ci ildə də həm maddi-texniki təchizatla bağlı məsələlər həll olunacaqdır, həm hərbi hissələrin binalarının əsaslı təmiri məsələləri həllini tapacaqdır. Mən qarşıya vəzifə qoymuşam ki, bütün hərbi hissələrimizin binaları yüksək səviyyədə təmir edilsin, bəlkə də yeniləri tikilsin, yeni hərbi bazalar, hərbi şəhərciklər yaradılmalıdır. Orduda xidmət edənlər üçün yaxşı şərait yaradılmalıdır. Həm məişət, həm iş şəraiti yaxşı olmalıdır. Onlar çətin, ağır şəraitdə, bəzi hallarda soyuqda, istidə xidmət edirlər. Bütün hərbi hissələrdə, ilk növbədə təmas xəttində yerləşən hərbi hissələrdə 2012–2013-cü illərdə yaşayış, xidmət aparmaq üçün bütün infrastruktur yenilənməlidir, yenidən yaradılmalıdır. Hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün konkret tədbirlər görülür. 20 il qüsursuz xidmət göstərmiş gizirlər, zabitlər dövlət tərəfindən mənzillərlə təmin ediləcəklər.

Məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün çox böyük işlər görülür. Baş nazirin müavini Əli Həsənov da kifayət qədər dolğun məlumat verdi. Doğrudan da böyük işlər görülür. Daha da çox işlər görüləcəkdir. Keçən il də yeni şəhərciklərin açılışını qeyd etmişdik, bu il də qeyd edəcəyik.

Hesab edirəm ki, bu il bu məsələlərə nəzərdə tutduğumuzdan ən azı iki dəfə çox vəsait sərf edilməlidir, ən azı iki dəfə, bəlkə də üç dəfə. Bu da ən vacib məsələdir. Əli Həsənov məlumat verdi ki, köçkünlər arasında olan yoxsulluq 70 faizdən 18 faizə düşmüşdür. Bu, böyük nəticədir. Amma ölkə üzrə bu göstərici 7,6 faizdir.

Biz bu vəziyyəti yaxşılaşdırırıq, daha da ciddi şəkildə yaxşılaşdırmalıyıq. Ona görə məcburi köçkünlər üçün yeni tikiləcək şəhərciklərin sayı da çoxalmalıdır. Yataqxanalarla bağlı, o da proqramda vardır. Biz gərək köçkünləri fin evlərindən, yataqxanalardan yaxşı mənzillərə köçürək. Bütün bu işlər vəsait tələb edir. Onsuz da böyük vəsait ayrılır. Hələ ki, mən rəqəmləri dəqiq demək istəmirəm. Bu məsələ hökumətdə indi müzakirə edilir. Ən azı nəzərdə tutduğumuzdan iki dəfə artıq olmalıdır.

2011-ci ildə ekoloji tədbirlər görülmüş, 7 milyon ağac əkilmişdir. Mən çox şadam ki, «Ekologiya ili» başa çatdıqdan sonra da bu sahə diqqət mərkəzində qalır, belə də olmalıdır. 2012-ci il üçün də konkret təkliflər hazırlayın! Yəqin ki, bu təkliflər var, baxacağıq, vəsait ayrılacaqdır. Bu ekoloji tədbirlər hər bir vətəndaş üçün çox vacibdir.

2011-ci ildə 32 kənddə modul tipli sutəmizləyici qurğu istifadəyə verilmişdir və təkcə keçən il 50 minə yaxın əhali, hansı ki təmizlənməmiş sudan istifadə edirdi, təmiz su içir. 2012-ci ildə də bu proqram davam etdirilməlidir.

Çirklənmiş ərazilərin təmizlənməsi prosesi gedir. Balaxanı poliqonu parka dönüb. Vaxtilə o bəlkə də ölkəmizin ən bərbad ekoloji vəziyyətdə olan, fəlakət vəziyyətində olan bir yeri idi. Balaxanı zibilxanasını görən adam dəhşətə gəlirdi. Şəhər əhalisi sadəcə olaraq, oradan qalxan tüstünü görürdü və bu tüstü bütün şəhəri bürüyürdü. İndi o zibilxananın yerində parklar salınıb, 100 hektar ərazidə poliqon yaradılıb, ağaclar əkilib, müasir sistemlər qurulur. Buraya zibil gətirən bütün maşınlar dezinfeksiya olunur. Budur müasir yanaşma. Orada məişət tullantılarının yandırılması zavodu uğurla tikilir. Azərbaycan

dövləti böyük vəsait ayırmışdır. Ümid edirəm ki, zavod bu il açılacaqdır və bu, ekoloji tədbirlərə ən böyük töhfəmiz olacaqdır.

Sənayeləşmə ilə bağlı işlər gedir, texnoparklar fəaliyyət göstərir. Sumqayıt Texnologiya Parkı öz fəaliyyətini genişləndirir. Keçən il çox vacib qərarlar verilmişdir. Balaxanıda yeni Texnologiya parkı, Sumqayıtda Kimya parkı yaradılacaq, iş yerləri açılacaqdır. Kimya kompleksində istehsal olunan məhsullardan özəl qurumlar, şirkətlər istifadə etməlidirlər. Yerlər ayrılıbdır, kommunikasiyalar, infrastruktur yaradılır. Təki sahibkarlar, iş adamları gəlsinlər, orada iş görsünlər, biz də kömək edəcəyik.

Bu il də sənayeləşmə üçün əlavə imkanlar yaradılacaqdır. Gəncədə yeni alüminium zavodu işə başlayacaqdır. Bu, böyük hadisədir. Alüminium sənayesinin inkişafı üçün böyük addımdır. Ancaq birinci addımdır. Metallurgiya sənayesinin inkişafına böyük diqqət göstərilməlidir. Bu sahədə də böyük imkanlar vardır. Nəzərə alsaq ki, bizdə kifayət qədər metal qırıntıları var, onlardan səmərəli istifadə edilməlidir. Xaricdən indi məhsullar gətirilir. Bizim Daşkəsəndə filiz yataqlarımız vardır. Güclü metallurgiya sənayesinin yaradılması gündəliyimizdədir və biz bunu edəcəyik.

Burada qeyd olundu ki, müasir texnologiyalara əsaslanmış sement zavodu tikilir – İsveçrə şirkəti tərəfindən – bu il istifadəyə veriləcəkdir. Ondan sonra növbəti sement zavodu tikilir. Elə etməliyik ki, növbəti 3-4 il ərzində özümüzü tam şəkildə sementlə təmin edək. Tələbatımız da artır, ancaq bunu etmək üçün imkanlar vardır.

Biz gərək özəl investorları stimullaşdıraq, onlara şərait yaradaq ki, bu sahəyə daha çox investisiya qoysunlar. Dövlət də kömək göstərməlidir. Bu sahədə özümüzü tikinti materialları ilə tam təmin etməliyik. Keçən ilin sonunda bir neçə zavodun açılışında iştirak etdim.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tam ciddiliyi ilə davam etdirilməlidir. 2011-ci ildə bu sahədə çox böyük işlər

görülmüşdür. 2012-ci ildə daha da böyük işlər görülməlidir. Bu mübarizə heç vaxt dayanmamalıdır, daim aparılmalıdır. Həm cəza tədbirləri, inzibati tədbirlər və həm də institusional tədbirlər olacaq, sistem xarakterli dəyişikliklər ediləcəkdir. Mənim sərəncamımla bütün nazirliklər, dövlət qurumları «Elektron hökumət»in fəaliyyəti, biznes sahəsində icazələrin verilməsi məsələlərində şəffaflıq, operativlik, elektron xidmətlərin göstərilməsi ilə bağlı təkliflərini təqdim edib. Dünya praktikası var, müsbət praktika var, Avropa İttifaqının təcrübəsi var.Yaxşı təcrübəni götürməliyik.

Mən demirəm ki, biz oradakı bütün yenilikləri tətbiq etməliyik. Bu mümkün deyildir. Bəzi hallarda milli mentalitetimizə zidd olan təşəbbüsləri burada heç vaxt tətbiq edə bilmərik. Ancaq müsbət, bizə lazım olan praktikanı tətbiq etməliyik, xüsusilə bu sahədə.

Nəhayət, son məsələyə toxunmaq istəyirəm. 2012-ci ildə Yay Olimpiya oyunları keçiriləcək. Biz bu oyunlara ciddi hazırlaşırıq. 2011-ci ildə kifayət qədər lisenziyalar əldə etmişik. Dünya, Avropa çempionatlarında qələbələr qazanmışıq, yəni ümidlərimiz böyükdür. 2012-ci ildə bizim on olimpiya kompleksimiz tikiləcəkdir. Böyük olimpiya stadionunun tikintisi artıq fəal fazaya keçəcəkdir. 65 minlik böyük olimpiya stadionu tikilir. Tofiq Bəhramov adına Respublika stadionunda təmir-bərpa işləri aparılır ki, Bakıda qızlar arasında keçiriləcək dünya çempionatına hazır olsun. Digər idman obyektləri tikilməkdədir. Böyük gimnastika kompleksi, Bakı «Kristal» İdman-Konsert Kompleksi tikilir. Bu sahəyə həmişə olduğu kimi, böyük diqqət göstərilmişdir. 2012-ci ildə həm ölkə daxilində olan hadisələr, həm Olimpiya oyunlarına hazırlıq, Olimpiya oyunlarının keçirilməsi nəzərdə tutulur. Mən hesab edirəm ki, biz 2012-ci ili «İdman ili» elan etməliyik. Bu məsələ ilə bağlı öz fikrimi bildirirəm və müvafiq sərəncamı da hazırlayın ki, bu gün mən bunu imzalayım.

Beləliklə, 2012-ci il başlayır. 2012-ci ildə görüləcək işlər çoxdur. Hamıdan fəallıq, fədakarlıq, vicdan və qələbə əzmi gözləyirəm. Sağ olun.

## GÜRCÜSTAN PARLAMENTİNİN SƏDR MÜAVİNİ, GÜRCÜSTAN–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN SƏDRİ FRİDON TODUANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Gürcüstan parlamentinin sədr müavini, Gürcüstan–Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Fridon Toduanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurlu inkişafından məmnunluğunu bildirdi. Ölkələrimiz arasında əməkdaşlığın siyasi, iqtisadi və investisiya qoyuluşu sahələrində yüksək səviyyədə olduğunu deyən prezident İlham Əliyev əlaqələrimizin inkişafında parlamentlərarası əməkdaşlığın əhəmiyyətini qeyd etdi.*

*Azərbaycana səfərindən məmnunluğunu bildirən Fridon Todua ölkəmizə ikinci dəfə səfər etdiyini və ötən dövr ərzində Azərbaycanda çox böyük inkişaf proseslərinin şahidi olduğunu dedi.*

## MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ VLADİMİR FİLAT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Moldova Respublikasının Baş naziri Vladimir Filatı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Moldova Respublikasının Baş naziri Vladimir Filatla Varşavada keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. Azərbaycan ilə Moldova arasında ikitərəfli əlaqələrin inkişaf tarixinin müsbət olduğunu qeyd edən prezident İlham Əliyev yeni mərhələdə münasibətlərimizin inkişafına təkan verməyin vacibliyini bildirdi. Ölkələrimiz arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsi üçün də yaxşı potensialın olduğunu dedi. Prezident İlham Əliyev Baş nazir Vladimir Filatın ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycan ilə Moldova arasında münasibətlərin həmişə dostluq prinsiplərinə əsaslandığını deyən Baş nazir Vladimir Filat ölkələrimizin əlaqələrinin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminliyini vurğuladı. Baş nazir ümidvar olduğunu bildirdi ki, ölkəmizə səfəri Azərbaycan ilə Moldova arasında ikitərəfli əlaqələrin gələcək inkişafı ilə bağlı məsələlərin müzakirə edilməsinə yaxşı imkan yaradacaqdır.*

## ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ ERİK RUBİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də ABŞ Dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini Erik Rubini qəbul etmişdir.*

*ABŞ Dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini Erik Rubin Azərbaycana səfərindən məmnunluğunu bildirdi. Erik Rubin Amerika Birləşmiş Ştatları Prezidentinin və Dövlət katibinin tapşırığı ilə ölkəmizə səfər etdiyini vurğuladı. O, dövlətimizin başçısını Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi və ölkəmizin «Eurovision» mahnı müsabiqəsinin qalibi olması münasibətilə təbrik etdi. Erik Rubin 2012-ci ildə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin mövcud baza üzərində daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

*Ötən ilin Azərbaycan üçün əhəmiyyətli il olduğunu vurğulayan dövlətimizin başçısı 2011-ci ildə müstəqilliyimizin 20 illiyinin qeyd olunmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev 2012-ci ildə Azərbaycan ilə ABŞ arasında ikitərəfli formatda münasibətlərin daha da genişləndirilməsi istiqamətində yaxşı nəticələr əldə ediləcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin inkişafına göstərdikləri diqqətə görə ABŞ-ın prezidentinə və Dövlət katibinə minnətdarlığını ifadə etdi.*

*Görüşdə 2012-ci ildə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

# TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN TÜRKİYƏ–AZƏRBAYCAN PARLAMENTLƏR-ARASI DOSTLUQ QRUPUNUN HƏMSƏDRİ NECDET ÜNÜVARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Türkiyə Böyük Millət Məclisinin Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Necdet Ünüvarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Necdet Ünüvar 2003-cü ildə ölkəmizə səfəri zamanı ulu öndər Heydər Əliyevlə görüşünü ehtiramla xatırlatdı. O, Türkiyə Böyük Millət Məclisinin Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri kimi, ölkələrarası, o cümlədən parlamentlərarası əlaqələrin genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və tərəfdaşlıq əlaqələrinin yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi, ikitərəfli münasibətlərin daha da genişləndirilməsi ilə bağlı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# İRAQ PARLAMENTİ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ HAMMAM HAMUDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da İraq Respublikası parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Hammam Hamudinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İraq arasında ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluğunu bildirdi. Bir müddət əvvəl İraqın Xarici İşlər nazirinin Azərbaycana səfər etdiyini vurğulayan prezident İlham Əliyev ölkələrimizin bütün sahələrdə əməkdaşlığı inkişaf etdirmək əzmində olduğunu dedi. İkitərəfli münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin önəmini qeyd edən dövlətimizin başçısı İraq parlamentini təmsil edən böyük nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*İraq parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Hammam Hamudi parlamentdə İraqın bütün bölgələrini təmsil edən böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etməsindən məmnunluğunu bildirdi. Artıq İraqda sabit cəmiyyətin formalaşdığını deyən Hammam Hamudi ölkəsinin qonşu dövlətlərlə, xüsusilə Azərbaycanla müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət və investisiya qoyuluşu sahələrində əməkdaşlığı genişləndirməyə maraqlı olduğunu vurğuladı.*

# QANLI YANVAR FACİƏSİNİN 22-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2012-ci il*

*Qanlı 20 Yanvar hadisələrindən 22 il keçir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümumxalq hüzn günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad etdi.*

*1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. 22 il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun qoşun birləşmələri Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucaldılar.*

*Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğından 22 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, həmin faciənin ağrısı ilə yaşayır, bu vəhşiliyi törədənlərə dərin nifrətini bildirir. Hər il yanvarın 20-də minlərlə insan Şəhidlər xiyabanını ziyarət edir, Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad edir.*

*20 Yanvar faciəsi mahiyyətinə görə dövlətin öz xalqına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ, Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. O gecə keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar Haqqında*

*Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdur. Respublikanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin isə bu faciədən sonra da yenə xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən əllərini çəkmədilər. Onların əksinə olaraq, həmin vaxt Moskvada yaşayan ümummilli liderimiz Heydər Əliyev həyatını təhlükədə qoyaraq faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndərimiz cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.*

*Lakin bu qanlı qırğın Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışından sonra 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.*

*Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.*

## GƏNCƏ ŞƏHƏRİNƏ VƏ GORANBOY RAYONUNA SƏFƏR

*21 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Gəncə şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Sonra Azərbaycan prezidentinə Gəncə şəhərinin baş meydanında görülmüş işlər barədə məlumat verildi.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, son illər regionların inkişafı istiqamətində görülən işlər Gəncədə şəhər infrastrukturunun yenilənməsi, sosial və istehsal təyinatlı yeni müəssisələrin işə düşməsi ilə müşayiət olunmuşdur. Gəncənin inkişaf proqramı işlənib hazırlanmışdır və bu proqram hazırda uğurla icra edilir.*

*Prezident İlham Əliyevin dəfələrlə Gəncəyə etdiyi səfərlər şəhərin həyatında mühüm dəyişikliklərin əldə olunması ilə yadda qalıb. Dövlətimizin başçısı Gəncənin müasirləşdirilməsi istiqamətində işlər aparılarkən milli xüsusiyyətləri də unutmamağı tövsiyə etdi. Gəncənin tarixi simasını və ənənəvi memarlıq üslubunu qoruyub saxlamaqla, şəhəri müasirləşdirmək barədə qərar da Azərbaycan prezidentinin tövsiyələrinə uyğun qəbul olunmuşdur. Bundan başqa, prezident İlham Əliyevin tapşırığına əsasən, Gəncənin memarlıq ansamblına şəhərin qədimliyini nəzərə çarpdıran monumentalizm ünsürlərinin əlavə edilməsi qərara alındı. Prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın diqqət və qayğısı nəticəsində Gəncədə tarixi-memarlıq abidələrinin bərpası sahəsində böyük işlər görülmüşdür.*

## Cavad xan küçəsində aparılmış abadlıq-quruculuq işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Gəncəyə səfəri çərçivəsində Cavad xan küçəsində aparılmış abadlıq-quruculuq işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı küçənin əvvəlki görüntülərini əks etdirən stendlərə baxdı.*

*Məlumat verildi ki, uzunluğu 435 metr olan küçədə yerləşən binaların və digər tikililərin fasadlarında tarixi və müasir memarlıq elementləri vəhdət təşkil edir. Küçədə bərpa edilən binalar əsasən XIX əsrin ikinci yarısında tikilmiş tarixi binalardır.*

*Prezident İlham Əliyev Cavad xan küçəsində Gəncənin mədəniyyət işçiləri ilə görüşdü.*

**Şahnaz Haşımova** (*Xalq artisti):* Cənab Prezident, xoş gəlmisiniz! Allah Sizə, Mehriban xanıma, ailənizə cansağlığı versin. Gözümüzün kökü saralmışdı ki, filarmoniyamız nə vaxt tikiləcəkdir.

**İlham Əliyev:** Artıq başlayıb.

**Şahnaz Haşımova:** Ömrünüz uzun olsun. Hamının adından Sizə «sağ olun» – deyirəm. Sayənizdə şəhərimiz dəqiqəbədəqiqə inkişaf edir.

**İlham Əliyev:** Bilirsiniz ki, mən Gəncədə dəfələrlə olmuşam. Gəncəni tanımaq mümkün deyildir. Qısa müddət ərzində Elmar çox yaxşı işlər görüb.

**Tarzən Fikrət Verdiyev:** «Göygöl» ansamblı 43 il bundan əvvəl yaradılıb – ulu öndərimizin yadigarıdır. O vaxt mənim 22 yaşım var idi. Gəncə filarmoniyası «Göygöl» ansamblının bazasında yaradılıb. Bu da ulu öndərimizin yadigarıdır. Siz isə Gəncənin yeni dövlət filarmoniyasının təməlini qoyursunuz. Mən bu filarmoniyanın bədii rəhbəriyəm. Cənab Prezident, yadınızdadırsa, Neft Şirkətində neftçilər ansamblı yaratmışdıq. Sonra Gəncəyə qayıtdım, bu şəhərin inkişafını

gördüm və qərara gəldim ki, qalan qüvvəmi Gəncənin mədəni həyatının inkişafına sərf edim.

**İ l h a m Ə l i y e v:** Mən bilirəm ki, gəncəlilər bu günü gözləyirdilər. Elmara deyirəm ki, belə getsə, Gəncə Bakını keçəcək.

**F i k r ə t V e r d i y e v:** İncəsənət adamlarına çox böyük ilham vermisiniz. Sizin qayğınız bizi daha yaxşı çalışmağa, konsert salonlarında, eləcə də Gəncə filarmoniyasının səhnəsində daha həvəslə çıxışlara ruhlandırır.

**İ l h a m Ə l i y e v:** Bəli, Gəncə böyük incəsənət mərkəzinə çevrilməlidir. Burada beynəlxalq tədbirlər, festivallar keçiriləcəkdir. Bu, Gəncənin mədəni həyatı üçün çox böyük əhəmiyyət kəsb edir. Bu vaxta qədər burada çox iş görülüb. Bu gün böyük zavod açılır, hərtərəfli inkişaf gedir.

* * *

*Cavad xan küçəsi ilə tanışlığı davam etdirən prezident İlham Əliyevə məlumat verildi ki, Nizami Gəncəvinin mənsub olduğu Şeyxzamanovlar nəslinin yaşadığı ev də burada yerləşir. Bundan başqa, Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə «Azərbaycan» qəzetinin ilk nömrəsinin dərc olunduğu tarixi mətbəənin binası əvvəlki görkəminə qaytarılmışdır. AXC-nin qurucularından olan Xasməmmədov qardaşlarının yaşadığı ev, həmçinin 1899-cu ildə tikilən və alman mühəndisi Zingerin yaşadığı ev də Cavad xan küçəsinin tarixi tikililərindəndir. Qeyd edildi ki, küçədəki bütün tarixi binaların üzərinə lövhələr vurulmuşdur.*

*Dövlətimizin başçısı Gəncə sakinləri ilə görüşdü.*

**S a k i n l ə r:** Xoş gəlmisiniz! Cənab Prezident, Gəncəni gəncəlilərə qaytardığınız üçün çox minnətdarıq. Şəhərimizdə əsl mənada inkişaf gedir. Bütün gəncəlilər adından Sizə minnətdarlığımızı bildiririk.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Çox şadam ki, Gəncə hər gün yeniləşir, Gəncədə işlər yaxşı gedir.

**S a k i n:** Bizim Gəncəmiz gündən-günə gözəlləşir, abadlaşır. Gördüyünüz bu küçə çox bərbad halda idi.

**İ l h a m  Ə l i y e v:** Yadımdadır, mən burada olmuşam.

**S a k i n:** Doğrudan da bu küçə əsl kurort şəhərinin küçəsinə çevrilibdir. Ona görə də Sizə minnətdarlığımızı bildiririk. Siz çox gözəl işlər görürsünüz, biz Sizin daxili və xarici siyasətinizi səmimi-qəlbdən bəyənirik, onu alqışlayırıq və müdafiə edirik. Biz ulu öndərimizin də, Sizin də yürütdüyünüz siyasəti dəstəkləmişik. Çox sağ olun, biz gəncəlilər Sizə minnətdarıq.

* * *

*Aparılmış abadlıq-quruculuq işlərindən sonra sanki muzeyə çevrilmiş Cavad xan küçəsində kərpic imitasiyasına xüsusi yer verilmiş, dəmir haşiyələr və məhəccərlər Gəncə memarlığına uyğun hazırlanmışdır. Binaların dam örtükləri də yenidən qurulmuş, qapılar və darvazalar milli şəbəkə formasında hazırlanmışdır. Küçəyə kanalizasiya xətləri çəkilmiş, qaz və su boruları yerin altına salınmışdır. Küçə boyu 9 min kvadratmetr sahədə qranit piltələr döşənmiş, müxtəlif yerlərdə 7 fəvvarə quraşdırılmışdır. Gələcəkdə burada xalça, misdöymə, dulusçuluq və digər tətbiqi sənət nümunələri ilə məşğul olan sənətkarlar üçün xüsusi emalatxanaların tikilməsi də nəzərdə tutulur. Küçə boyu milli adət-ənənələri təsvir edən heykəllər qoyulmuşdur.*

*Dövlətimizin başçısı Gəncə ziyalıları ilə də görüşdü.*

**Z i y a l ı:** Sizin sərəncamlarınızdan sonra bizim maddi-mədəni mühitlə bağlı 800-dən artıq abidəmiz aşkarlanıb. Bu küçəmiz, buradakı 50-dən artıq bina təmir olunub. Məqsədimiz Gəncənin maddi-mədəni irsinə aid ensiklopediya hazırlamaqdır. Çünki bədnam qonşularımız tarixi abidələrimizi öz adlarına çıxırlar. Gəncə ziyalıları Sizə ümid bəsləyir. Üçtərəfli görüşdə də Sizə uğurlar diləyirik. İcazə verin, bir neçə kəlmə də mən deyim. Gəncə respublikamızın ikinci böyük şəhəridir. Gəncənin ən böyük problemlərindən olan su, kanalizasiya, enerji, qaz

sisteminin yenidən qurulmasına dair sərəncam verdiniz. Çox sağ olun ki, Gəncəni gəncəlilərə yenidən bəxş etdiniz.

**İ l h a m Ə l i y e v:** Düzdür, Gəncə çox qədim, gözəl tarixi şəhərdir. Qədim simasını saxlamaqla, yeni müasir yanaşma ilə daha da gözəlləşir. Parklar, binalar bərpa edilir, gözəl küçələr salınır, dünya səviyyəli şəhərə çevrilir.

**Z i y a l ı:** Cənab Prezident, Şərqdə siyasi, Qərbdə iqtisadi böhranın tüğyan etdiyi bir dövrdə öz iqtisadi inkişaf modeli ilə uğur qazanan Azərbaycanın bu yüksəlişinə görə Sizə minnətdarıq və xoşbəxt gələcəyimizi Sizinlə görürük. Bir daha Sizə «Xoş gəlmisiniz» – deyirik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**Z i y a l ı:** Allah Heydər Əliyevə qəni-qəni rəhmət etsin! O, milli-mənəvi dəyərlərimizin inkişafı üçün çox böyük işlər görmüşdür. Novruz bayramı gələndə camaat ev-eşiyini səliqə-sahmana salır, küçələri təmizləyirdi. İndi Gəncə o qədər gözəlləşib ki, daha küçə süpürməyə ehtiyac yoxdur.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**Z i y a l ı:** Bir söz də demək istəyirəm. Uzun illərdir mən bu şəhərdə yaşayıram, bura mənim vətənimdir. Yüz il yaşayın, mərdsiniz, möhkəmsiniz, səbirlisiniz, ailənizə, özünüzə cansağlığı, uzun ömür arzu edirəm. Elmə verdiyiniz qiymətə görə də alimlər adından Sizə təşəkkür edirəm. Akademiyada bizim şöbəmizi yaratdınız, bu da böyük işdir. Neçə illərdir ona nail ola bilmirdik. Biz hələ kənd təsərrüfatına, fermerlərə, kənd təsərrüfatında çalışanlara kömək etməliyik. Biz buna hazırıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, mən sizi görülən bütün bu işlər münasibətilə təbrik edirəm. Şadam ki, qısa müddət ərzində Gəncədə çox böyük quruculuq işləri aparılıb. Gəncəyə daim böyük diqqət göstərilmişdir. Bu diqqət bu gün də vardır. Mən istəyirəm ki, hər bir şəhərdə belə gözəl işlər aparılsın. Bütövlükdə ölkəmizdə, hər bir yerdə çox sürətli və uğurlu inkışaf gedir.

Mən həmişə deyirəm ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Belə getsə, Gəncə də ən gözəl şəhər olacaqdır və olmalıdır. Sağ olun.

## «DET AL» Alüminium MMC-nin Gəncə alüminium zavodu kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də «DET AL» Alüminium MMC-nin Gəncə alüminium zavodu kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı kompleksin maketinə baxdı.*

*Məlumat verildi ki, «DET AL» alüminium kompleksinin ümumi ərazisi 74 hektardır. Burada birinci faza elektroliz, anod prosesləri, fasiləsiz metaltökmə və istiyayma zavodları, 110 kilovoltluq yarımstansiya, silisium düzləndirici yarımstansiya, elektroliz zavodunun idarəetmə mərkəzi, gil-torpaq qəbulu, quru qaztəmizləmə, kompressor sahələri, dövri su sistemləri və soyutma qüllələri, qazpaylayıcı stansiya, yanğınsöndürmə sistemləri, fülorid, anod və katod karbon bloku anbarları, inzibati bina və laboratoriya binası tikilmişdir. Bu obyektlərin ümumi sahəsi 57 min kvadratmetrdir. Kompleksin daxilində uzunluğu 2,1 min metr olan dəmiryol xətti çəkilmiş, 1200 metr uzunluğunda beton, 2 min metr uzunluğunda asfalt yollar salınmış, 74 hektar ərazidə yaşıllaşdırma və abadlıq işləri aparılmışdır.*

*Qeyd edildi ki, 2008-ci ildə dövlətimizin başçısının iştirakı ilə təməli qoyulmuş kompleksdə məhsul istehsalı 3 zavodda sistemli şəkildə həyata keçirilir. Birinci mərhələdə yeni zavodda ildə 50 min ton ilkin alüminium istehsal edəcək 240 kiloamperlik 84 elektroliz təknəsi quraşdırılmışdır. Zavodda bişmiş anodlu təknələr qurulmuşdur. Burada müasir quru qaztəmizləmə sistemləri vasitəsilə atmosferə atılan tullantıların 98,5 faiz təmizlənməsi həyata keçirilir.*

*Gəncə «DET AL» alüminium kompleksinin işə başlaması nəticəsində birinci mərhələdə 640 nəfər işlə təmin ediləcəkdir.*

İşçilərin orta aylıq əməkhaqqı 450 manat olacaqdır. Zavodun tikintisinə Gəncədən və respublikamızın digər regionlarından 2000-dən çox işçi cəlb edilmişdir. Yerli gənc mühəndislər üçün texnologiyanı daha dərindən öyrənmək məqsədi ilə təlimlər təşkil olunmuşdur. Elektroliz proseslərindən çıxan maye metal fasiləsiz metaltökmə və istiyayma zavoduna daşınır. Burada hər birinin uzunluğu 60 metr olan və yüksək avtomatlaşdırma səviyyəsinə malik iki tökmə avadanlığı quraşdırılmışdır. Bu konveyerlərin məhsuldarlığı saatda 20 tona qədərdir və istehsal edilən külçələr «DET AL AZE» loqotipinə malik olmaqla 22,5 kiloqramdır.

Prezident İlham Əliyev kompleksin elektroliz zavodunda istehsalatda istifadə olunan avadanlığa baxdı. Bildirildi ki, burada beynəlxalq standartlara cavab verən məhsullar hazırlanır. Zavodda istehsala başlanması və davamlılığın təmini üçün tələb olunan keyfiyyətdə xammalın tədarükü vacib məsələlərdən biridir. Bu məqsədlə Hollandiya, İndoneziya, Çin, Rusiya, Monqolustan, Latviya, Venesuela, Tacikistan kimi ölkələrdən 15 adda xammal gətirilmişdir.

Prezident İlham Əliyev «DET AL» Alüminium MMC-nin Gəncə alüminium zavodu kompleksi ilə bağlı stendlərə və videoçarxa baxdı.

Sonra dövlətimizin başçısı zavodun mərkəzi idarəetmə ofisində oldu. Məlumat verildi ki, burada bütün istehsal prosesi kompüterlər vasitəsilə avtomatlaşdırılmış şəkildə aparılır. Hər 3 müəssisədə xammalın qəbulundan məhsul istehsalınadək bütün proses dəqiq şəkildə icra olunur. Mövcud idarəetmə sistemi baş verə biləcək bütün nasazlıqların qarşısını almağa qadirdir.

Sonra prezident İlham Əliyev kompleksin fasiləsiz metaltökmə və istiyayma zavoduna gəldi. Dövlətimizin başçısı zavodu işə saldı, istehsal prosesini izlədi.

Alüminium sənayesinin inkişafı məqsədi ilə ölkəmizdə alüminium yarımfabrikat məhsullarının istehsalını nəzərdə tutan metalyayma layihəsi üçün dövlət tərəfindən 2010-cu ildə

güzəştli kredit ayrılmışdır. Layihə çərçivəsində isti və soyuq metalyayma zavodlarının tikintisi, eləcə də boyama xəttinin qurulması nəzərdə tutulur. Layihənin illik məhsuldarlığı müxtəlif ölçüdə 35 min ton adi alüminium rulon və vərəqlərin istehsalı, 15 min ton məhsulun isə boyanmasından ibarətdir. Burada tikinti sektoru üçün nəzərdə tutulan və sifarişçinin istəyindən asılı olaraq 0,2–0,6 mm qalınlığında müxtəlif rənglərdə alüminium rulonların istehsalı planlaşdırılır. İstiyayma zavodunun tikintisi tamamlanıb və gələn aydan avadanlığın quraşdırılmasına başlanılacaqdır. Soyuq yayma zavodunun isə tikintisinə start verilib və bu ilin aprelinədək tamamlanaraq avadanlığın quraşdırılması həyata keçiriləcəkdir. Layihənin 2013-cü ilin aprelinədək həyata keçirilməsi nəzərdə tutulur. Layihə çərçivəsində 300 yeni iş yerinin açılması planlaşdırılır.

Dövlətimizin başçısına məlumat verildi ki, yeni alüminium zavodu ilə yanaşı, Gəncədə poladəritmə kompleksinin tikintisi layihəsi çərçivəsində də bir sıra işlər görülmüşdür. Belə ki, poladəritmə kompleksinin inşa ediləcəyi sahədə torpaq və qazma işləri həyata keçirilmiş, ərazi təmizlənmiş və tikinti prosesinin başlanması üçün hazır vəziyyətə gətirilmişdir.

Əraziyə baxan prezident İlham Əliyevə məlumat verildi ki, poladtökmə zavodunun layihələndirmə işləri həyata keçirilmiş, dəmir filizini zənginləşdirmə, pelet və ardıcıl reduksiya zavodlarından ibarət olan «DET AL» inteqrallaşdırılmış polad layihəsinin inkişaf etdirilməsi istiqamətində layihələndirmə işləri yerinə yetirilmişdir. Burada pelet zavodunun tikintisi işləri davam etdiriləcək, martda istehsal gücü 850 min ton olan yeni «DRI» zavodunun tikintisi başlanacaqdır. 2013-cü ildə yeni pelet zavodunun tikintisi başa çatdırılacaq, «DRI» zavodunun tikintisi davam etdiriləcəkdir. Bundan başqa, martda istehsal gücü 750 min ton olan yeni polad zavodunun tikintisinə başlanılacaqdır. 2014-cü ildə yeni «DRI» zavodunun tikintisi başa çatdırılacaq, polad zavodunun tikintisi davam etdiriləcəkdir. 2016-cı ildə isə Gəncədə yeni polad zavodunun tikintisi başa çatdırılacaqdır. İstehsal olunan məhsullara bey-

*nəlxalq sertifikatlar alınacaqdır. 2012–2016-cı illərdə həyata keçiriləcək layihəyə 630 milyon dollar investisiya qoyulacaq, işçilərin sayı 3 min 800 nəfərə çatdırılacaqdır.*

## GƏNCƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 yanvar 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 21-də Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

Əziz dostlar, bu gün nəinki Gəncənin, ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz ölkə iqtisadiyyatı üçün çox böyük əhəmiyyət kəsb edən Gəncə alüminium zavodunun açılışını qeyd edirik. Bu doğrudan da böyük hadisədir, ölkəmiz uğurla və sürətlə inkişaf edir. Ölkəmizdə bütün proqramlar icra edilir.

Bu zavodun təməli 2008-ci ildə qoyulmuşdur. Mən o günü yaxşı xatırlayıram. Biz burada təməl daşını qoyduq və ondan sonra bildiyiniz kimi, dünyada maliyyə və iqtisadi böhran başlandı. Bu böhran alüminium sənayesinə də mənfi təsirini göstərdi, qiymətlər aşağı düşdü və bütövlükdə maliyyə bazarında böhran yarandı. Beləliklə, zavodun tikintisi bir qədər uzandı. Buna baxmayaraq, Azərbaycan dövləti bu zavodun inşasına dəstəyini əsirgəmədi. Zavodun fəaliyyəti üçün çox mühüm əhəmiyyət kəsb edən böyük yarımstansiya tikildi, müxtəlif dövrlərdə kreditlər verildi, özəl sektor Azərbaycanın iqtisadiyyatına və gələcəyinə çox böyük inamla yanaşdı. Bu amillər nəticəsində bu gün bu zavodun açılışını qeyd edirik.

Zavodun özəlliyi ondan ibarətdir ki, bu, qeyri-neft sektoruna qoyulan böyük sərmayədir və burada istehsal olunan məhsullar ixrac ediləcək, bizim artan tələbatımızı da təmin edəcəkdir. Biz bu gün zavodun birinci fazasının açılışını qeyd edirik. Burada 50 min ton yüksək keyfiyyətli alüminium istehsal olunacaqdır. 2013-cü ildə ikinci fazanın işə düşməsi nəticəsində zavodun istehsal gücü 100 min tona çatacaqdır və ondan sonrakı dövrdə əlavə vəsaitin qoyuluşu hesabına biz bu həcmi 200 min tona qədər artıracağıq.

Bu doğrudan da ölkə iqtisadiyyatı üçün böyük layihədir. Həm gəlirli layihədir, həm yeni iş yerlərinin açılması üçün bizə şərait yaradır. Mənə verilən məlumata görə, burada 600-dən artıq insan işləyir. Vaxtilə böhrana görə dayanmış gil-torpaq zavodu da bu yaxınlarda işə başlamışdır. Orada da 1200 insan işləyir. Bütövlükdə son aylar ərzində 2000-ə yaxın insan işlə təmin edilibdir. Bu zavodun tikintisi Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Bu yaxınlarda Nazirlər Kabinetinin toplantısında mən bir daha bu məsələ ilə bağlı fikirlərimi bildirdim. Azərbaycanda güclü sənayeləşmə prosesi gedir. Yeni sənaye müəssisələri yaradılır, özəl sektorun inkişafı üçün dövlət dəstəyini əsirgəmir, kiçik və orta sahibkarlıq inkişaf edir. Kiçik və orta sahibkarlığın inkişafı ilə paralel olaraq böyük sənaye müəssisələrinin yaradılmasına da iri ehtiyac vardır. Gəncə alüminium zavodu bu sıradan olan zavoddur.

Bu, böyük sənaye mərkəzidir. Biz Azərbaycanda müasir səviyyədə alüminium sənayesinin yaradılması üçün bu gün birinci addımı atırıq. Əminəm ki, gələcəkdə dediyim rəqəmlərə çatacağıq. Zavodun istehsal gücünü indikindən 4 dəfə artıracağıq və təbii ki, burada yeni imkanlar yaradılacaq, yeni iş yerləri açılacaq və Azərbaycanın qeyri-neft potensialı daha da güclənəcəkdir. Bu sahə də bizim üçün prioritetdir. Biz qeyri-neft iqtisadiyyatımızın inkişafı üçün uzun illərdir ki, çalışırıq, təşəbbüslərimizi irəli sürürük və gözəl nəticələri də görürük. 2011-ci ilin yekunlarına görə, Azərbaycanda qeyri-neft sektoru təxminən 10 faiz artmışdır. Neftlə, qazla zəngin olan ölkə üçün bu həddən artıq vacibdir. Biz gələcəyimizi şaxələndirilmiş iqtisadiyyatda görürük. Biz gələcəyimizi dayanıqlı iqtisadiyyatda görürük. Təbii resurslarımız bizim üçün sadəcə olaraq, bir vasitədir ki, ölkəmizi hərtərəfli şəkildə inkişaf etdirək və güclü qeyri-neft iqtisadiyyatı yaradaq. Bu istiqamətdə atılan addımlar çox sevindiricidir. Zavodun fəaliyyətə başlaması, bir daha demək istəyirəm ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafına da böyük təkan verəcəkdir.

Alüminium zavodunun tikintisi özündə regional inkişaf proqramını da ehtiva edir. Bu proqrama da böyük diqqət göstərilir. Bütün bölgələr inkişafdadır, quruculuq, abadlıq işləri gedir, yeni iş yerləri açılır. Beləliklə, regional inkişaf üçün bu zavodun böyük əhəmiyyəti vardır. Burada poladəritmə kompleksinin tikintisi də uğurla gedir və bu zavodun təməl daşı qoyulan zaman böyük metallurgiya kompleksinin təməl daşı qoyulmuşdur. Metallurgiya sənayesinin yaradılması istiqamətində də çox ciddi işlər gedir. Əminəm ki, yaxın zamanlarda Azərbaycanda yeni bir istehsal sahəsi – metallurgiya sahəsi öz fəaliyyətinə başlayacaqdır. Bir tərəfdən, biz ölkəmizin daxili tələbatını ödəyəcəyik və güclü ixrac potensialı da yaradılacaqdır.

Bunlar elə sahələrdir ki, bunun üçün bazarlar axtarmağa ehtiyac yoxdur. Çünki daim tələb olunan məhsullardır. Bizim artan sənaye potensialımız və həyata keçirilən proqramlar və dünyada bu məhsullara olan tələbat daim bu zavodlara dəstək olacaqdır. Bir daha deməк istəyirəm ki, bu sahədə görülən işlər Azərbaycanın ümumi inkişaf strategiyasını əhatə edir. Bu strategiya müasirlik, yenilik strategiyasıdır. Biz istəyirik ki, bütün sahələrdə ən qabaqcıl təcrübəni tətbiq edək. Burada istehsal olunan alüminium dünya səviyyəli məhsullardandır. Belə zavodların tikintisi kadr hazırlığı üçün də böyük əhəmiyyətə malikdir. Burada işləyən peşəkar kadrlar yaxşı maaş almalıdırlar. Mənə verilən məlumata görə, bu məsələ də öz həllini tapır.

Bir sözlə, belə zavodların tikintisi və yeni sənaye sahələrinin yaradılması prosesi çox sevindiricidir. Xüsusilə dünyada davam edən və yeni mərhələsi gözlənilən maliyyə və iqtisadi böhran zamanında Azərbaycanda böyük sənaye müəssisələrinin yaradılması bizim düzgün yolda olduğumuzu göstərir. Biz inkişafdayıq. İqtisadiyyat, sənaye potensialımız artır. Sosial proqramlar icra edilir, maaşlar, pensiyalar artır. Keçən ilin yekunları ilə bağlı keçirilən Nazirlər Kabinetinin toplantısında bütün bu rəqəmlər səslənmişdir. 2011-ci ildə ölkə

iqtisadiyyatına 20 milyard dollar vəsait qoyulmuşdur, ondan əvvəlki ildə 17,6 milyard. Böyük məbləğdir və bu vəsait hesabına ölkəmizin hər bir bölgəsi inkişaf edir, böyük proqramlar icra edilir. O cümlədən bu bölgənin və Gəncənin inkişafı ilə bağlı konkret proqramlar, infrastruktur proqramları icra edilir, işsizliyin aradan qaldırılması üçün konkret addımlar atılır. 2012-ci ildə sosial infrastrukturun yaradılması ilə bağlı daha da böyük vəsait ayrılacaqdır. Məktəb tikintisi davam etdirilir.

Gəncənin içməli su ilə təmin edilməsi üçün konkret layihələr icra edilir, kanalizasiya sistemi yenidən qurulur. Şəhərdə çox böyük abadlıq işləri aparılır. Mən Gəncədə tez-tez oluram və bu gün səhər tezdən şəhərlə bir daha tanış oldum və görürəm ki, doğrudan da çox böyük və çox dəyərli işlər görülür. Şəhər gözəlləşir, abadlaşır, binalar təmir edilir, yeni parklar salınır, yeni ictimai yerlər yaradılır. Biz bu gün səhər Gəncə Dövlət Filarmoniyasının təməl daşını qoyduq. Bilirəm ki, bu da gəncəlilərin uzun illərdir arzuladıqları bir hadisədir. Əminəm ki, yaxın 2 ildə memarlıq cəhətdən çox gözəl və möhtəşəm Gəncə filarmoniyası da öz işinə başlayacaqdır.

Gəncədə olduğu kimi, hər bir bölgədə bütün sahələr üzrə konkret işlər görülür. İş yerləri, qeyri-neft sektoru, özəl sahibkarlığın inkişafı, yeni nəhəng sənaye müəssisələrinin yaradılması, məktəblər, tibb ocaqları, mədəniyyət ocaqları, abadlıq işləri – bax, ölkəmiz bu cür inkişaf edir. Gəncə alüminium zavodunun timsalında Azərbaycanın sənaye potensialının inkişafını görürük. Mən sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. İstehsal gücü 50 min ton olan bu zavodun fəaliyyətə başlaması birinci addımdır, amma çox böyük addımdır. Bu zavodun tikintisinə çox böyük vəsait qoyulmuşdur, həm özəl qurumlar tərəfindən, həm də dövlət infrastruktur layihələrini təqdim etməklə dəstəyini göstərmişdir. Əgər hər şey planlarımız əsasında getsə, bu zavodun istehsal həcmi ən azı 4 dəfə artacaq, yeni metallurgiya

kompleksi tikiləcək və beləliklə, ölkə iqtisadiyyatı üçün əvəzolunmaz töhfə veriləcəkdir.

Bu gözəl hadisə münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm, bütün gəncəlilərə cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun.

## Nizaminin məqbərəsi ətrafında aparılmış yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Gəncədə dahi Nizaminin məqbərəsi ətrafında aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı məqbərənin ətrafında görülən işlərlə bağlı stendlərə baxdı. Məlumat verildi ki, dahi Nizaminin Gəncədəki məqbərəsinin yenidən qurulması ölkəmizdə aparılan abadlıq-quruculuq işlərinin tərkib hissəsidir. 7 min 540 kvadratmetr sahəyə qranit lövhə döşənmiş, dörd hovuz, iki şəlalə və fəvvarə inşa edilmiş, beş buta qranitlə üzlənmiş, süni göl və körpü yenidən təmir olunmuşdur.*

*Prezident İlham Əliyev Nizami Gəncəvinin məzarı üzərinə gül dəstəsi qoydu.*

*Nizami irsi uzun zamandan bəri dünya elmi-ədəbi fikrinin diqqət mərkəzindədir. Ölkəmizdə dahi şairin əsərləri dəfələrlə nəşr olunmuş, ədəbi irsinin öyrənilməsi və tanıdılması istiqamətində xeyli iş görülmüş, çoxlu sayda tədqiqatlar aparılmış, eləcə də dünya nizamişünaslığında ilk dəfə olaraq əsərlərinin elmi-tənqidi mətni hazırlanmışdır. Bu proseslərin intensivləşməsi əsasən Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi ərəfəsinə təsadüf edir. Dahi şairin yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı ilk qərar 1939-cu ildə qəbul edilmişdir.*

*Keçən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən «Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərar*

*Nizami irsinin və ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin sistemli araşdırılması üçün geniş perspektivlər açmışdır.*

*Prezident İlham Əliyevin ötən ilin dekabrında Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncamı Nizami yaradıcılığının daha mükəmməl tədqiqinə stimul verərək şairin xatirəsinin əbədiləşdirilməsi istiqamətində də mühüm addımdır.*

## «Xəmsə» abidə kompleksində Nizami Gəncəvinin heykəlinin açılışı mərasimi

*Yanvarın 21-də Azərbaycan prezidenti İlham Əliyev Gəncəyə səfəri çərçivəsində «Xəmsə» abidə kompleksində Nizami Gəncəvinin heykəlinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı dahi şairin heykəlinin üzərindən örtüyü götürdü, önünə gül dəstəsi qoydu.*

*Məlumat verildi ki, Nizami Gəncəvinin əsərlərinin motivlərinə həsr olunmuş kompleksin inşasında qədim Azərbaycan memarlığına istinad edilmişdir. «Xəmsə» abidə kompleksi 8 künc, bürc, şam, çarhovuz və digər elementlərdən istifadə edilərək ucaldılmışdır. Kompleksdə Nizami Gəncəvinin «Leyli və Məcnun», «Sirlər xəzinəsi», «Yeddi gözəl», «Xosrov və Şirin», «İskəndərnamə» poemalarının hər birinə aid abidə qoyulmuşdur. Bununla da Nizami yaradıcılığını əks etdirən nadir bir sənət abidəsi ərsəyə gəlmişdir.*

*Keçmişə bağlılıq, əcdadlarımızdan gələn mədəni dəyərlərin qorunub saxlanılması prezident İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsiplərindən biridir. Nizami Gəncəvinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atılan mühüm addımlardan olan «Xəmsə» abidə kompleksi də ölkə başçısının Nizami yaradıcılığına verdiyi önəmi bir daha təsdiqləyir.*

## Nərimanov parkının açılışı mərasimi

*Yanvarın 21-də Azərbaycan prezidenti İlham Əliyev Gəncəyə səfəri çərçivəsində Nəriman Nərimanov parkının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı parkın əvvəlki və sonrakı görüntülərini əks etdirən stendlərə baxdı, burada yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, ümumi sahəsi 4 min 823 kvadratmetr olan Nəriman Nərimanov parkında geniş tikinti-quruculuq və abadlıq işləri aparılmış, yeni fəvvarə inşa edilmişdir. Gəncə sakinlərinin və şəhərə gələn qonaqların istirahəti üçün hər cür şəraitin yaradıldığı parkda görkəmli dövlət xadimi və mütəfəkkir Nəriman Nərimanovun büstü qoyulmuşdur. Burada salınan yaşıllıq zolaqları parkı istirahət üçün əvəzsiz məkana çevirmişdir.*

*Bildirildi ki, Gəncədə park və xiyabanların əsaslı təmiri və yenidən qurulması, o cümlədən Nəriman Nərimanov parkının gözoxşayan görkəmə qaytarılması bölgələrimizin inkişafı istiqamətində atılan mühüm addımlardan biridir.*

*Parkda yaradılmış şəraitlə tanış olan prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

## Bayraq Meydanının açılışı mərasimi

*Yanvarın 21-də Azərbaycan prezidenti İlham Əliyev Gəncədə Bayraq Meydanının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Gəncə çayının sağ sahilində inşa olunan Bayraq Meydanı son dövrdə şəhərdə həyata keçirilən mühüm layihələrdən biridir. Burada 110 metr hündürlükdə dalğalanan üçrəngli bayrağın uzunluğu 50, eni 25 metr, postamentin hündürlüyü isə 4 metrdir. Meydandakı qranit lövhənin üzərində Azərbaycanın Dövlət himni və gerbi əks olunmuşdur. Meydanın ətrafında abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.*

*Prezident İlham Əliyev Dövlət bayrağını qaldıran xüsusi qurğunun düyməsini basdı.*

*Görülmüş işlərdən razılığını bildirən dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Heydər Əliyev Mərkəzinin təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 21-də Gəncə şəhərində Heydər Əliyev Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev Heydər Əliyev Mərkəzinin layihəsi ilə tanış oldu. Qeyd edildi ki, Mərkəzin yaxınlığında eni 20, uzunluğu 50, hündürlüyü isə 36 metr olan «Zəfər tağı» inşa ediləcəkdir. «Zəfər tağı»nın ətrafı seyr etmək üçün 30 metr hündürlüyündə meydançası da olacaqdır. Meydançaya qalxmaq üçün 2 lift və pilləkənin quraşdırılması nəzərdə tutulur. Bildirildi ki, Mərkəzin 3 mərtəbədən ibarət olacaq binasının ümumi sahəsi 4 min 500 kvadratmetrdir. Birinci mərtəbədə sərgi zalı, ikinci mərtəbədə Azərbaycanın tarixini və müasir inkişafını əks etdirən ekskursiya zalı, elektron və adi kitabxana, üçüncü mərtəbədə köməkçi otaqlar, müşavirə-konfrans zalı və 400 yerlik iclas zalı olacaqdır.*

*Prezident İlham Əliyev Mərkəzin təməlini qoydu.*

*Dövlətimizin başçısı beton qarışığı tökən qurğunun düyməsini basdı, Mərkəzin tikintisinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Gəncə Dövlət Filarmoniyası binasının təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Gəncə Dövlət Filarmoniyası binasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Məlumat verildi ki, filarmoniyanın köhnə binası qəzalı vəziyyətdə olduğu üçün onun sökülməsinə, «Bakı» kinoteatrı və Uşaq Yaradıcılıq Mərkəzinin yerində isə yeni binanın tikilməsinə qərar verilmişdir. Bir hektardan çox ərazidə tikiləcək altımərtəbəli yeni binada layihə üzrə 1200 tamaşaçı yeri olan konsert zalı, 2 kinozal, açıq havada yay estrada meydanı, şəkil qalereyası, baxış qülləsi yaradılacaqdır. Hündürlüyü 26 metrə yaxın olacaq binada restoran və kafelərin, o cümlədən 800 kvadratmetrlik yeraltı qarajın tikilməsi də nəzərdə tutulur.*

*Prezident İlham Əliyev Gəncə Dövlət Filarmoniyasının təməlini qoydu.*

*Dövlətimizin başçısı beton qarışığı tökən qurğunu işə saldı.*

## «İmamzadə» kompleksində aparılmış təmir-bərpa və tikinti işlərinin gedişi ilə tanışlıq

*Yanvarın 21-də Azərbaycan prezidenti İlham Əliyev Gəncədəki «İmamzadə» kompleksində aparılmış təmir-bərpa və tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı kompleksin eskiz layihələri ilə tanış oldu. Məlumat verildi ki, kompleksin yerləşdiyi 2 hektardan çox ərazidə indiyədək xeyli iş görülmüşdür. 10 000 kvadratmetrdən çox əraziyə asfalt örtüyü salınmış, 4 min 400 poqonmetr bəzəkli səki daşları döşənmişdir. Hazırda ərazidə uzunluğu 100, eni 15 metr olan sahədə dini ayinlərin icrası üçün müxtəlif tikililər inşa edilir, müasir işıqlandırma sistemi quraşdırılır. Layihə üzrə nəzərdə tutulan 36 günbəz artıq inşa edilmiş, 5 böyük günbəzin quraşdırılması isə başa çatmaq üzrədir. Dövlətimizin başçısının müvafiq sərəncamı ilə Prezidentin ehtiyat fondundan ayrılan 3 milyon manat vəsait hesabına həyata keçirilən təmir-bərpa və tikinti işləri yüksək keyfiyyətlə icra olunur.*

*Bildirildi ki, «İmamzadə», yaxud «Göy imam» türbəsində beşinci imam Məhəmməd Bağırın oğlu İbrahim dəfn olunmuşdur. «İmamzadə» türbəsinin tikintisi XIV əsrin sonu – XV əsrin əvvəllərinə təsadüf edir. Ətrafındakı məscid, sərdaba və*

*digər türbələr isə XVII–XVIII əsrlərdə inşa edilmişdir. Bütün bu tikililər əzəmətli dini-tarixi kompleks kimi bu günədək qorunub saxlanmışdır. «İmamzadə» kompleksi sonuncu dəfə XIX əsrdə bərpa edilmişdir. Buna görə də kompleksdə bərpa işlərinə ehtiyac duyulurdu. Prezident İlham Əliyevin kompleksin bərpası ilə bağlı imzaladığı sərəncam isə bu baxımdan tarixi əhəmiyyətə malikdir.*

*Dövlətimizin başçısı kompleksdə işlərin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## «Qala» kompleksinin tikinti işlərinin gedişi ilə tanışlıq

*Yanvarın 21-də Azərbaycan prezidenti İlham Əliyev Gəncədə inşa olunan «Qala» kompleksinin tikinti işlərinin gedişi ilə, Gəncənin Bakıdan girişinin eskiz layihəsi ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, inşasına ötən ilin aprelində başlanılan «Qala» kompleksi şəhərin girişində, Gəncə–Bakı magistral yolunun hər iki tərəfində tikilir. Yolun sağı və solu genişləndirilərək 22 metrə çatdırılmışdır. Qala divarının hər birinin uzunluğu 47, hündürlüyü 15 metr, qala qülləsinin hündürlüyü isə 22 metrdir. Yolboyu hər iki tərəfdə istinad divarları tikilir. Qalanın Gəncə qapılarının eni 5, hündürlüyü 7 metrdir. Yuxarı hissədə 6 metr diametrində Gəncənin gerbi və gerbin hər tərəfində tuncdan hazırlanmış şir heykəlləri qoyulacaqdır.*

*Qeyd edildi ki, qalanın qarşısında «Xəmsə» bulağı inşa olunacaqdır. Bundan başqa, «Qala» və Nizami Gəncəvinin məqbərə kompleksləri arasındakı 4,6 kilometrlik yol yenidən qurulur. Yolboyu Nizaminin «Xəmsə»sinə daxil olan əsərlərin adları həkk edilmiş 5 nəhəng kitab-abidə memarlıq elementi, habelə şairin ölməz qəhrəmanlarının obrazlarını canlandıran heykəllərin ucaldılması və fəvvarələrin tikilməsi nəzərdə tutulur. Yolboyu park zolağı salınacaq, 3 fəvvarə inşa ediləcəkdir.*

*Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## GORANBOY RAYONUNA SƏFƏR

*21 yanvar 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 21-də Gəncəyə səfərini başa çatdıraraq Goranboy rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Goranboy şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Azərbaycan prezidentinə abidə ətrafında aparılmış abadlıq və tikinti-quruculuq işləri barədə məlumat verildi.*

### Təmas xəttindəki «N» saylı hərbi hissədə

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 21-də Goranboy rayonuna səfəri çərçivəsində təmas xəttindəki «N» saylı hərbi hissədə olmuşdur.*

*Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Müdafiə naziri Səfər Əbiyev dövlətimizin başçısına cəbhənin təmas xəttindəki mövcud vəziyyət barədə məlumat verdi. Bildirildi ki, cəbhə xəttində vəziyyət tam nəzarət altındadır. İndi təmas xəttində yerləşən hərbi birləşmələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm addımlar atılır. Yeni silah və sursatlarla təchizat nəticəsində Azərbaycan Ordusu düşmənlə mübarizədə daha ciddi nəticələrə nail olur. Silahlı qüvvələrin döyüş qabiliyyəti, texniki təchizatı, zabit kadrlarının hazırlıq səviyyəsi, əsgərlərin mənəvi-psixoloji durumu bu nəticənin əldə olunmasında mühüm rol oynayır. Bu gün hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti də yüksək səviyyədədir. Əsas*

*komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsilli, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi ardıcıl şəkildə həyata keçirilir. Silahlı Qüvvələrin Ali Baş Komandanının təmas xəttində yerləşən bölgələrimizə mütəmadi səfərləri və əsgərlərimizlə keçirdiyi görüşlər isə onları Vətəni qorumağa, işğal altındakı torpaqlarımızı azad etmək üçün hər zaman savaşa qalxmağa ruhlandırır. Güclü ordu potensialımız bizi əsas məqsədimizə – işğal edilmiş torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır. İndi Azərbaycan Ordusu həm peşəkarlıq, həm də maddi-texniki bazasının üstünlüyü baxımından bölgədə ən güclüdür. Azərbaycanın hərbi xərcləri artıq 3 milyard 500 milyon dollara yaxındır. Hərbi məqsədlər üçün büdcədən ayrılan vəsaitlərin artması dövlətin ordunun möhkəmləndirilməsinə olan diqqətinin və ölkəmizin təhlükəsizliyi, xarici təhdidlərin aradan qaldırılması kimi məsələlərdə nümayiş etdirdiyi həssaslığın təzahürüdür. Bunu şərtləndirən digər amillər isə obyektiv əsaslara söykənir. Çünki Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır.*

*Prezident İlham Əliyev xidmətdə fərqlənən bir qrup hərbçini medal və qiymətli hədiyyələrlə təltif etdi.*

**İ l h a m Ə l i y e v:** Bu gün xidmətdə fərqlənən döyüşçülərə təltiflər də verildi. Siz bu təltiflərə layiqsiniz. Xidmətdə biliklərinizi, peşəkarlığınızı, Vətənə sədaqətinizi göstərmisiniz və bu ağır, çətin şəraitdə düşmənlə üzbəüz, ön cəbhədə, təmas xəttində xidmət edirsiniz.

Bütün hərbi hissələrdə xidmət edən əsgərlər, zabitlər böyük qiymətə layiqdirlər. Amma xüsusilə ön cəbhədə, düşmənlə üz-üzə olan mövqelərdə olan döyüşçülərə xüsusi diqqət göstərilməlidir və onların fəaliyyəti xüsusilə qiymətləndirilməlidir.

Ordu quruculuğu prosesi uğurla gedir. Keçən il, ondan əvvəlki illərdə silahlar, texnikalar alınıb. Bu gün göstərilən silahların bir hissəsi yeni alınmış silahlardır. Həm özümüz istehsal edirik, həm də ki, dünyanın aparıcı istehsalçılarından

lazımi texnikanı alırıq və alacağıq. Bu gün döyüş potensialına görə ordumuz bölgənin ən qüdrətli ordusudur.

Hərbçilərin maddi təminatı da yaxşılaşır. Bir neçə gün bundan əvvəl Nazirlər Kabinetinin toplantısında bu məsələ ilə bağlı fikirlərimi bir daha bildirdim. Qeyd etdim ki, həm maaşlar artır və artacaqdır, həm də 20 il ərzində qüsursuz xidmət göstərmiş zabitlər, gizirlər dövlət tərəfindən mənzillərlə təmin ediləcəklər. Bu proses başlanmışdır, çox böyük vəsait tələb edən təşəbbüsdür. Ancaq biz bunu etməliyik, çünki zabitlərimiz, Vətənə sədaqətlə, peşəkarlıqla xidmət edənlər dövlət tərəfindən daha da böyük dəstəyi görməlidirlər.

Bu bizim gözəl dağlarımızdır. Bu dağların bir hissəsi düşmən tərəfindən işğal edilib. Buradan, bizim döyüş mövqelərimizdən sonra keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudları başlayır. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Sovet dövründə Dağlıq Qarabağın müəyyən ölçüdə muxtariyyəti olmuşdur, muxtar vilayət idi, ancaq yenə də Azərbaycan Respublikasının tərkibində. Bu gün də dünya birliyi Dağlıq Qarabağı Azərbaycan torpağı kimi qəbul edir, tanıyır və bu belə də olmalıdır. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. «Qarabağ» sözü Azərbaycan sözüdür. Mən şübhə etmirəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Hazırda Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda işğal edilmiş torpaqlarda da Azərbaycan dövlətinin suverenliyi bərpa edilməlidir və ediləcəkdir. Dağlıq Qarabağda Azərbaycan bayrağı dalğalanmalıdır və dalğalanacaqdır. Mən buna şübhə etmirəm. Bizim artan siyasi gücümüz, hərbi potensialımız o müqəddəs günü yaxınlaşdırır.

Bu gün Azərbaycan yüksək dərəcədə inkişaf edir. Əvvəlki dövrlərlə müqayisədə, sözün əsl mənasında, çox böyük inkişaf yolu keçmişdir. Müharibənin ilk illərində xarici dəstəyin hesabına ermənilər və onlara kömək edən xarici havadarlar torpağımızın zəbt edilməsinə nail oldular. Düzdür, müharibə dövrünün son mərhələsində Azərbaycan Ordusu bir neçə kəndi düşməndən azad edərək əhalisinin oraya qayıtmasına şərait

yaratdı. Müharibənin ilk illərində nizami ordumuz yox idi. Ermənilər xüsusilə xaricdən alınan dəstəyə görə, muzdluların, xarici dövlətlərin dəstəyi hesabına torpaqlarımızı zəbt etmişlər. Bu gün isə Azərbaycan Ordusu Ermənistan ordusundan bir neçə dəfə üstündür. İqtisadi göstəricilər haqqında danışmaq bəlkə də yersizdir. Bizim iqtisadi potensialımız Ermənistanınkından bəlkə 10 dəfə artıqdır. Bu gün ordumuz həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də maddi-texniki təchizat baxımından bölgənin ən qüdrətli ordusudur. Biz yenə də ordumuzu gücləndiririk. Bu il hərbi məsələlərin həlli üçün böyük vəsait nəzərdə tutulur. Texnikalar, silahlar, döyüş təyyarələri, helikopterlər, müasir cihazlar alınır. Biz texnoloji inkişafa üstünlük veririk.

Müasir dövrdə döyüş meydanında nəticəni həm rəşadət, Vətənə bağlılıq, sədaqət, həm də texnologiyalar müəyyən edir. Yeni texnologiyalar müasir dövrdə döyüş meydanında həlledici rol oynayır. Biz müasir texnologiyaları tətbiq edirik. Bu gün burada da mənə göstərildi. Biz düşmənin mövqelərini çox yaxşı görürük, onların hərəkətlərini də görürük. Bunu onlar da bilirlər. Çalışırıq ki, ərazi bütövlüyümüzü qan tökülmədən bərpa edək. Bu məqsədlə danışıqlar aparılır. Hələ ki, bu danışıqların heç bir nəticəsi olmayıb. Bununla bərabər, ərazi bütövlüyümüzü istənilən yolla, o cümlədən hərbi yolla həll etmək bizim suveren hüququmuzdur. Bu hüququ bizə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi verir. Hər bir dövlət özünü müdafiə etmək üçün bütün imkanlardan istifadə edə bilər və etməlidir. Ona görə biz hərbi gücümüzün artırılmasına əlavə vəsait ayıracağıq. Hərbi potensialın gücləndirilməsi üçün əlavə tədbirlər görəcəyik. Görülən bütün bu tədbirlərlə yanaşı, döyüş hazırlığı, ruh yüksəkliyi döyüş meydanında öz sözünü deməlidir və deyəcəkdir.

Çox şadam ki, Azərbaycan gəncləri vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Hər bir Azərbaycan vətəndaşı Qarabağ ağrısı ilə yaşayır. Bu bizim böyük yaramızdır və bu yara sağalmayana qədər Azərbaycan xalqı rahat yaşaya bilməz. Mən bir daha

demək istəyirəm ki, bugünkü reallıq, bölgədə gedən proseslər və Ermənistan ilə Azərbaycan arasındakı qüvvələr nisbəti bizim nikbinliyimizi artırır. Sizin bu ağır dağlıq şəraitində, şaxtada, soyuqda uğurlu xidmət aparmağınız nikbinliyimizi daha da artırır.

Biz bütün hərbi şəhərciklərimizi tikəcəyik, bərpa edəcəyik. Xüsusi proqram qəbul edilib. Xidmət şəraiti çox yaxşı olmalıdır. 2012-ci ildə dövlət büdcəsində bu məqsədlə böyük vəsait nəzərdə tutulub. İndi böyük hərbi bazalar tikilir. Hərbi Dəniz Donanması üçün Xəzər hövzəsində böyük hərbi baza tikilir. Bütün hərbi hissələrdə, bütün bölgələrdə yeni, müasir şəhərciklər, bazalar tikilməlidir, əsgərlərin, zabitlərin şəraiti yaxşı olmalıdır. Burada, dağlıq ərazilərdə xidmət aparmaq üçün çətinliklər vardır. O tərəf düşməndir – bir kilometr o tərəfə düşməndir. Siz onları görürsünüz, onlar da sizi görür. Bizi düşməndən fərqləndirən odur ki, biz öz torpağımızdayıq. Onlar bizim torpaqlarımızı zəbt ediblər. Bizim başqa dövlətin ərazisinə iddiamız yoxdur. Baxmayaraq ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Mənim tövsiyələrimlə əlaqədar alimlərimiz bu tarixə dair gözəl kitablar, elmi əsərlər yaratmışlar. Xüsusilə, İrəvan xanlığı bizim qədim tarixi torpağımızdır. İrəvan xanlığı, Zəngəzur, Qarabağ bizim ərazimizdir. Buradan – siz xidmət apardığınız yerdən, döyüş mövqelərindən Gülüstan kəndi görünür. Həmin o Gülüstan kəndidir ki, orada müqavilə imzalanmışdır. Bu müqavilədən və Türkmənçay müqaviləsindən sonra ermənilər kütləvi şəkildə indiki İran ərazisindən buraya köçürülmüşlər. Ermənilər özləri 1978-ci ildə Dağlıq Qarabağda ermənilərin İrandan Dağlıq Qarabağa köçürülməsinin 150 illik tarixini əks etdirən abidə ucaltmışlar. Əgər onlar iddia edirlərsə ki, Dağlıq Qarabağ onların tarixi torpağıdır, necə ola bilər ki, ermənilərin Dağlıq Qarabağa köçürülmələrinin 150 illiyini 1978-ci ildə onlar öz təşəbbüsləri ilə qeyd ediblər. O vaxt özləri də etiraf ediblər ki, 1828-ci ildə onlar bizim torpağımıza gəliblər. Ondan sonra azərbaycanlıları yavaş-yavaş sıxışdırmağa başladılar. XX əsrdə

bolşevik inqilabından sonra Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtariyyət verilmişdir. O da bir cinayət idi. Bolşevik hökumətinin azərbaycanlılara qarşı böyük cinayəti idi. O muxtariyyətin heç bir əsası yox idi. Çünki o vaxt bu bölgənin əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Muxtar vilayəti yaratmaqla onlar bu vəziyyəti şərtləndirdilər. Sovet İttifaqının dağılması ərəfəsində o vaxt Dağlıq Qarabağda separatçı meyillərə rəvac verildi. Xüsusi İdarəetmə Komitəsi yaradıldı. Keçmiş Azərbaycan rəhbərliyinin böyük cinayətidir ki, onlar bununla razılaşdılar. Xüsusi İdarəetmə Komitəsi faktiki olaraq Dağlıq Qarabağı Azərbaycandan ayırırdı. Moskvadan bir nümayəndə gətirilmişdi. O da ermənilərin mövqeyini müdafiə edirdi. Ondan sonrakı tarixi siz yaxşı bilirsiniz. Ancaq biz ədaləti bərpa edəcəyik və edirik.

Bugünkü müstəqil Azərbaycan dövləti dünyada böyük hörmətlə, rəğbətlə qarşılanır. Tərəfdaşlarımızın sayı artır, beynəlxalq mövqelərimiz güclənir. Dünya ictimaiyyəti bizə inanır. Keçən ilin sonunda BMT Təhlükəsizlik Şurasına üzv seçildik. 155 ölkə bizi dəstəklədi. Ermənistan isə qorxaqcasına o mübarizədən çıxdı. Çünki bilirdi ki, onları bəlkə də heç 10–20 ölkə dəstəkləməz. Bu onu göstərir ki, bizim siyasi çəkimiz nədən ibarətdir.

Biz ordu quruculuğuna daim diqqət göstəririk, vəsait ayırırıq. Keçirilən hərbi paradlar bizim gücümüzü göstərir. Ərazi bütövlüyümüzü bərpa etmək üçün bütün imkanlar vardır. Bunu biz də bilirik, düşmən də, bu məsələ ilə məşğul olan vasitəçilər də bilirlər. Sülhü əldə etmək üçün bir şərt vardır: Ermənistanın işğalçı qüvvələri torpaqlarımızdan öz xoşu ilə rədd olmalıdır. Hələ ki, gec deyildir.

Mən sizə xidmətdə uğurlar arzulayıram. Arzu edirəm ki, siz bütün döyüş vəzifələrini həmişə olduğu kimi, şərəflə yerinə yetirəsiniz və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün səylərinizi göstərəsiniz.

**525 məcburi köçkün ailəsi üçün inşa edilmiş**

**məhəllənin açılışı mərasimi**

*Azərbyacan prezidenti İlham Əliyev yanvarın 21-də Goranboyda 525 məcburi köçkün ailəsi üçün inşa edilmiş beşmərtəbəli 9 yaşayış binasından ibarət məhəllənin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirə abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Sonra Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov prezident İlham Əliyevə Naftalan şəhərində məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları sanatoriyalardakı ağır şərait və Goranboyda məcburi köçkün ailələri üçün hündürmərtəbəli yaşayış binalarından ibarət məhəllənin baş planı və texniki-iqtisadi göstəriciləri barədə məlumat verdi.*

*Qeyd edildi ki, buradakı mənzillər bir, iki, üç və dördotaqlıdır. Məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə salınan bu məhəllədə bütün lazımi tədbirlər görülmüşdür. Mənzillərin elektrik, istilik və su ilə təchizatı yüksək səviyyədə həyata keçirilmişdir.*

*Bildirildi ki, ümumiyyətlə, Goranboy rayonu ərazisində indiyədək 2 min 150 ailə, o cümlədən 208 daimi məskunlaşmamış qaçqın və 1942 məcburi köçkün ailəsi üçün 6 qəsəbə və 690 mənzilli beşmərtəbəli 12 binadan ibarət bir məhəllə salınmışdır.*

*Prezident İlham Əliyev Xocalı rayonundan məcburi köçkün Qədim Sadıqovun mənzilində oldu. Mənzildə yaradılan şəraitlə yaxından tanış olan dövlətimizin başçısı məcburi köşkün ailəsi ilə söhbət etdi.*

**İlham Əliyev:** Necəsiniz, nə var, nə yox?

**Qədim Sadıqov:** Çox sağ olun.

**İlham Əliyev:** Siz Naftalanda yaşayırdınız?

**Qədim Sadıqov:** Bəli, «Goran» sanatoriyasında.

**Qədim Sadıqovun həyat yoldaşı:** Çox pis vəziyyətdə yaşamışıq.

**İ l h a m  Ə l i y e v:** Şəkilləri gördüm.

**Q ə d i m  S a d ı q o v:** 20 ildir Naftalan şəhərində yaşayırdıq. Çox pis vəziyyətdə yaşayırdıq.

**İ l h a m  Ə l i y e v:** O vaxt orada bütün sanatoriyalar pis vəziyyətdə idi. Şərait çox pis idi. İndi gözəl mənziliniz vardır. Bütün şərait yaradılmışdır. Burada rahat yaşamaq olar.

**Ə l i  H ə s ə n o v:** Bu ailə çox böyük faciələr yaşayıb. Xanımın atası, anası Xocalıdan çıxanda həlak olublar. Bir nəsildən 28 nəfər şəhid olub. Ümumiyyətlə, orada elə bir ailə yoxdur ki, itkisi olmasın.

**Q ə d i m  S a d ı q o v:** Hörmətli cənab Prezident! Bizə yaratdığınız bu gözəl şəraitə görə Sizə ailəmiz adından minnətdarlığımızı bildiririk. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Burada yaşamaq üçün hər cür şərait, uşaqlar üçün musiqi məktəbi vardır. Torpaqlarımız işğaldan azad olunandan sonra əvvəlki yerdə daha da gözəl evlər tikəcəyik. Xocalını, Şuşanı mütləq yenidən quracağıq.

*Sonra Azərbaycan prezidenti məhəllədə inşa olunmuş Xocalı şəhər 1 saylıi musiqi məktəbində yaradılmış şəraitlə tanış oldu.*

*Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Xocalıdan olan məcburi köçkünlərlə görüşlərini əks etdirən fotostendlər yaradılmışdır. Burada ayrıca «Xocalı faciəsi – xalqın qan yaddaşı» adlı fotoguşə də vardır. Foyedə həmçinin ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə mədəniyyətin inkişafına göstərdikləri diqqət və qayğını, eləcə də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələri əks etdirən guşələr yaradılmışdır.*

*Daha sonra dövlətimizin başçısı yeni məhəllənin sakinləri və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

# GORANBOY RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 yanvar 2012-ci il*

*Yanvarın 21-də Azərbaycan prezidenti İlham Əliyevin rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü olmuşdur.*

Sizi təbrik edirəm. Burada doğrudan da gözəl şəhərcik yaradılmışdır. Bir il əvvəl burada birinci evlər istifadəyə verilmişdir. O vaxt da gəlmişdim, bu layihələrlə tanış olmuşdum. O vaxt tikinti gedirdi və mənə məruzə edildi ki, burada gözəl beşmərtəbəli evlərdən ibarət şəhərcik tikiləcəkdir. Bu gün evlər hazırdır və siz artıq bu evlərə köçməyə başlayırsınız. Şərait də yaxşıdır, artıq bu bir standartdır. Bu standart həmişə gözlənilir – yaraşıqlı, işıqlı, gözəl evlər. Sizin əvvəlki yaşayış yeriniz o qədər də uyğun deyildi. Orada göstərilən fotoşəkillərdən görünür. Naftalan şəhərində, köhnə sanatoriyalarda məskunlaşmışdınız. Orada vəziyyət çox ağır idi. Burada isə vəziyyət müqayisəedilməz dərəcədə fərqlidir. Bütün şərait var, gözəl, yaraşıqlı musiqi məktəbi, orta məktəb, uşaq bağçası. Bütün infrastruktur yaradılıbdır.

Goranboy rayonunda belə layihələrin sayı artmaqdadır. Mən yaxşı xatırlayıram, 2002-ci ildə ulu öndər Aşağı Ağcakənd kəndində yeni salınmış qəsəbənin açılışında iştirak etmişdir. Mən də iştirak edirdim, Əli müəllim də. Yadımdadır, biz dayanmışdıq, ulu öndər ürək sözlərini deyirdi. Bu, birinci belə addım idi. Birinci və çox önəmli! Çünki Aşağı Ağcakənd yaşayış məntəqəsi qədim Azərbaycan torpağıdır, həmişə də Azərbaycan torpağı olmuşdur. Tarixən də Azərbaycan torpağıdır və orada Ermənistandan köçən qaçqınları və Xocalı köçkünlərini yerləşdirmək doğrudan da böyük bir hadisə idi.

O vaxtdan bu günə qədər biz bu sahədə ulu öndərin yolu ilə gedirik. Onun tövsiyələrini yerinə yetiririk, vəsiyyətinə sadiqik. Artıq beşinci ildir ki, bir dənə də olsun çadır şəhərciyi yoxdur. 2007-ci ildə sonuncunu ləğv etdik. Gözəl binalar tikilir,

qəsəbələr salınır, 70-dən yuxarı qəsəbə salınmışdır. On minlərlə köçkün gözəl şəraitlə təmin edilmişdir. Goranboy rayonunda da belə tədbirlərin sayı çoxdur. Keçən ilin fevralında burada idim. 2009-cu ildə Veyisli kəndində buna oxşar tədbirdə iştirak etmişəm. Bu gün də sizinlə birlikdəyəm. Bir ay əvvəl – dekabr ayında Ağcabədi rayonunda gözəl şəhərciyin açılışında iştirak etmişik. Bir neçə gün əvvəl Nazirlər Kabinetinin toplantısında mən qarşıya vəzifə qoydum ki, bu məqsədlər üçün nəzərdə tutduğumuz məbləğin üstünə əlavə vəsait ayırmalıyıq, 110 milyon manat nəzərdə tutulmuşdur. Mən Nazirlər Kabinetinə tapşırıq verdim ki, bu məbləği 2-3 dəfə artıraq və məsələ müzakirə edildi. Bu il tikintilərə 300 milyon manat sərf ediləcəkdir. Bu vəsaitlə 14 minə qədər köçkün gözəl evlərə, qəsəbələrə köçürüləcəkdir.

Bu doğrudan da böyük təşəbbüslərdir, böyük vəsait tələb edir. Ancaq maliyyə vəziyyətimiz də yaxşılaşır. Ölkə qarşısında duran ən vacib məsələ hansıdır?! Ən vacib məsələ köçkünləri normal evlərlə, mənzillərlə təmin etməkdir.

Hər bir sahə prioritetdir. Əgər iqtisadiyyat inkişaf etməsə, maddi imkanlarımız da olmayacaq. Maddi imkanları hansı istiqamətə yönəltmək dövlətin siyasətindən asılıdır. Bizim siyasətimiz çox açıqdır, aydındır, birmənalıdır. Bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı bizim bütün işlərimizin təkanverici amilidir. Hər şey ən ağır vəziyyətdə yaşayanlar üçündür, insanlar üçündür. Bizdə ən ağır vəziyyətdə köçkünlər yaşayır. Nazirlər Kabinetinin toplantısında çıxışında Əli müəllim qeyd etdi ki, köçkünlərin arasında yoxsulluq 74 faizdən 18 faizə düşmüşdür. Çox yaxşı göstəricidir, ancaq yenə də çoxdur. Çünki ölkə üzrə bu göstərici 8 faizdən aşağıdır. Biz həm evlərin tikintisi, həm köçkünlərin məşğulluğunun artırılması istiqamətində daha da böyük addımlar atmalıyıq, atacağıq və əminəm ki, yoxsulluq daha da aşağı düşəcəkdir.

Bilirsiniz ki, köçkünlər bütün kommunal ödənişlərdən azaddırlar. Bu bizim dövlət siyasətimizdir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra gözəl evləri həmin torpaqlarda tikəcəyik. Ondan sonra orada iş yerləri də, infrastruktur da yaradılacaqdır. O vaxt bu güzəştlərə ehtiyac qalmayacaqdır.

Amma nə qədər ki, müvəqqəti yaşayış yerlərində yaşayırsınız, bu güzəştlər olmalıdır. Bu gün buraya gəlməmişdən əvvəl təmas xəttində oldum, əsgərlərlə, zabitlərlə görüşdüm. Təmas xətti düz Dağlıq Qarabağın, keçmiş muxtar vilayətin hüdudlarında yerləşir. Çox şadam ki, hərbçilərdə ruh yüksəkliyi, döyüş qabiliyyəti, yeni texnika, silahlar, sursatlar, təminat yüksək səviyyədədir. Qarşı tərəfə baxarkən bir daha əmin oldum, bir daha fikirləşdim ki, biz mütləq o torpaqlara qayıdacağıq.

Bu inam getdikcə artır. Mən buna ürəkdən inanıram və istəyirəm ki, hər bir vətəndaş buna inansın. Biz qayıdacağıq və qayıtmaq üçün nə lazımdır, onu edirik. Həm danışıqlar aparırıq, həm iqtisadiyyatımızı gücləndiririk, siyasi təşəbbüslərlə çıxış edirik, hərbi gücümüzü artırırıq.

Vaxt gələcək bu üstünlük reallığa çevriləcək, həyatda öz əksini tapacaqdır. Bizim vətəndaşlar bu torpaqlara qayıtmalıdırlar, qayıdacaqlar. Əsrlər boyu o torpaqlarda biz yaşamışıq, biz də yaşayacağıq. Biz bütün səyləri buna yönəldirik. Əfsuslar olsun ki, bu hələ mümkün deyildir. Ancaq məndə zərrə qədər şübhə yoxdur ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Ancaq hələ ki bu mümkün deyildir. Sizin üçün belə gözəl evlər tikilir. Bir daha demək istəyirəm ki – mən, demək olar, hər dəfə köçkünlərlə görüşəndə bunu qeyd edirəm – bura yaxşıdır, ancaq müvəqqətidir. Bundan da gözəl evlər Xocalıda, Kəlbəcərdə, Laçında və bütün başqa torpaqlarımızda tikiləcək.

2012-ci ili bu gözəl tədbirlə başlayırıq. Bu gün eyni zamanda, Gəncədə ölkəmizin inkişafı üçün çox vacib olan böyük alüminium zavodunun və digər obyektlərin açılışını qeyd etdik. Çox şadam ki, biz 2012-ci ili məhz bu gözəl tədbirlərdən başlayırıq. Nəzərə alsaq ki, bu il bu məqsədlər üçün, yəni köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün rekord məbləğ ayrılacaq, belə görüşlər, belə tədbirlər çox olacaqdır.

## Şahmat məktəbinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 21-də Goranboya səfəri çərçivəsində şahmat məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.Məlumat verildi ki, məktəbin tikintisinə 2011-ci ilin əvvəlində başlanılmışdır. Yüksək səviyyədə aparılmış inşaat işləri ötən ilin sonlarında başa çatdırılmışdır. İkimərtəbəli məktəb Goranboyda uşaqların şahmatın sirlərinə dərindən yiyələnmələri üçün lazımi avadanlıqla təchiz olunub. Məktəbin ətrafında müasir işıqlandırma sistemi quraşdırılıb, yaşıllıqlar salınıbdır.*

*Məlumat verildi ki, şahmat məktəbi əvvəllər məşğələlərin keçirilməsi üçün lazımi şəraiti olmayan binada yerləşirdi. Məktəb üçün şəhərin Heydər Əliyev prospektində ümumi sahəsi 300 kvadratmetr olan yeni bina inşa edilib. Müasir memarlıq üslubunda tikilmiş məktəbin həyətində uşaqların açıq havada şahmat oynamaları üçün də geniş sahə yaradılıb. Məktəblə tanışlıq zamanı Azərbaycan prezidentinin diqqətinə çatdırıldı ki, binanın hər iki mərtəbəsində oyun zalları təşkil olunub. Məktəbdə prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsilin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotogüşələr yaradılıb.*

*Qeyd edildi ki, şahmat məktəbi respublika səviyyəli yarışlara da ev sahibliyi etməyə hazırdır. Təsadüfi deyildir ki, Goranboy şahmatçıları son illərdə beynəlxalq və respublika şahmat turnirlərində medal, diplom və kuboklara layiq görülmüşlər. Prezident İlham Əliyev məktəbdə yaradılan şəraiti yüksək qiymətləndirdi.*

**Mədəniyyət evinin əsaslı təmir və yenidənqurmadan sonra açılışı mərasimi**

*Yanvarın 21-də Azərbaycan prezidenti İlham Əliyev Goranboy Mədəniyyət Evinin əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 1960-cı ildə istifadəyə verilən Mədəniyyət evi uzun müddət təmir olunmadığından yararsız hala düşmüşdü. Burada əsaslı təmir və yenidənqurma işlərinə 2011-ci ilin yanvarında başlanılıb. Görülən təmir-bərpa işləri nəticəsində binanın zalı, foyesi və otaqları yenidən qurulmuş, giriş hissəsi müasir memarlıq üslubunda inşa edilmişdir. Müasir avadanlıqla təchiz edilən Mədəniyyət evinin binası üzlük daşla örtülüb. Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə mədəniyyətin və incəsənətin inkişafına göstərdikləri qayğını əks etdirən fotoguşələr yaradılıb.*

*Qeyd edildi ki, Mədəniyyət evinin akt zalında rayon əhəmiyyətli tədbirlərin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait vardır. İnzibati otaqlar binanın ikinci mərtəbəsində yerləşir. Dövlətimizin başçısı Mədəniyyət evinin böyük zalı ilə də tanış oldu. Bildirildi ki, 400 nəfərlik zalda müxtəlif tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılıb. Prezident İlham Əliyev Goranboy şəhər uşaq incəsənət məktəbinin xor kollektivinin ifasında bəstəkar Oqtay Zülfüqarovun «Mehriban insanlar» mahnısını dinlədi. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Goranboy Mədəniyyət Evinin nəzdində rayonun mədəni həyatında fəal iştirak edən xalq teatrı və folklor qrupu ilə yanaşı, müxtəlif dərnəklər də fəaliyyət göstərir.*

*Mədəniyyət evi ilə tanış olan Azərbaycan prezidenti kollektivə uğurlar arzuladı.*

**Yeni Azərbaycan Partiyası Goranboy rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 21-də Yeni Azərbaycan Partiyası (YAP) Goranboy rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, binanın tikintisinə 2010-cu ilin noyabrında başlanılmışdır. 400 kvadratmetr sahəsi olan ikimərtəbəli binanın həyətində YAP-ın yaradıcısı ulu öndər Heydər Əliyevin portreti,*

ikinci mərtəbədə isə büstü qoyulub. Büstün ətrafında ümummilli liderin və YAP-ın sədri, prezident İlham Əliyevin partiya qurultaylarında iştiraklarını əks etdirən fotolar vardır. Ümumilikdə inzibati bina 9 otaqdan və konfrans zalından ibarətdir. 80 nəfərlik konfrans zalında respublika və rayon əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulub. Buradakı bütün otaqlarda səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi də xüsusi diqqətdə saxlanılıbdır. Bütün otaqlar lazımi avadanlıqla təchiz edilib. Binada ilin bütün fəsillərinə uyğun müasir havalandırma və digər sistemlər quraşdırılıb, həyətyanı sahə yaşıllaşdırılıb.

Bildirildi ki, partiyanın rayon təşkilatı 1995-ci ilin yanvarında 38 ilk ərazi təşkilatının iştirakı ilə təsis olunub. Rayon təşkilatının üzvlərinin 33 faizini gənclər, 51 faizini isə qadınlar təşkil edir. Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

**Şəhər 3 saylı tam orta məktəbin yeni binasının açılışı mərasimi**

Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Goranboy şəhər 3 saylı tam orta məktəbin yeni binasının açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, 420 şagirdin təhsil alacağı rus dili təmayüllü məktəbin binası Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuşdur. Qeyd edildi ki, məktəbin 1935-ci ildə tikilmiş əvvəlki binası son dövrlərdə tamamilə yararsız və qəzalı vəziyyətdə idi. Təhsil ocağının yeni binasının tikintisinə ötən ilin əvvəllərində başlanılmış, bunun üçün 0,5 hektar torpaq sahəsi ayrılmışdır. İkimərtəbəli bina qısa müddətdə müasir tələblər səviyyəsində inşa olunmuşdur.

Prezident İlham Əliyev məktəblə yaxından tanış oldu. Foyedə ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsilin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşə yaradılmışdır. Məktəbin sinif otaqlarında,

*laboratoriyalarında və müxtəlif təyinatlı digər otaqlarda yüksək səviyyəli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.*

*Dövlətimizin başçısı siniflərdə dərs prosesi üçün yaradılmış şəraitlə tanış oldu. Məlumat verildi ki, məktəbin akt zalı müxtəlif tədbirlərin keçirilməsi üçün əlverişli şəraitə malikdir. Şagirdlər nəzəri biliklərini laboratoriyalarda təcrübələrlə daha da möhkəmləndirəcəklər. Prezident İlham Əliyev məktəbin müasir tələblərə cavab verən idman zalında Sinqapurda keçirilmiş yeniyetmələrin I Yay Olimpiya oyunlarında Yunan–Roma güləşi yarışlarında Qızıl medal qazanmış Elmar Muxtarov, idmanın müxtəlif növləri üzrə Goranboydan olan dünya, Avropa və Azərbaycan çempionları və digər gənc idmançılarla görüşdü. Qeyd olundu ki, son illərdə respublikamızın bölgələrində, o cümlədən Goranboy rayonunda da bədən tərbiyəsi və idman hərtərəfli inkişaf edir. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi üçün silsilə və kompleks tədbirlər reallaşdırılır. Xüsusi vurğulandı ki, prezident İlham Əliyevin 2012-ci ili ölkəmizdə «İdman ili» elan etməsi bu sahənin daha da inkişafına təkan verəcəkdir.*

*İnformatika otağında yaradılan şəraitlə tanışlıq zamanı bildirildi ki, bütün kompüterlər internetə qoşulmuşdur.Məktəbin direktoru dövlətimizin başçısına Goranboy camaatı adından dərin minnətdarlığını bildirdi.*

**İlham Əliyev:** Sağ olun. Bizdə əfsuslar olsun ki, hələ də qəzalı vəziyyətdə məktəblər vardır.

**Direktor:** Şəhər 3 nömrəli məktəb yeganə rus dili təmayüllü məktəbdir. Çox bərbad vəziyyətdə idi. İndi uşaqlar böyük sevinc içindədirlər.

**İlham Əliyev:** Rus məktəbi kimi fəaliyyət göstərir. Amma burada ruslar azdır.

**Direktor:** Azdır. Amma xarici dövlətə gedib orada oxuyub qayıdırlar.

**İlham Əliyev:** Bəli. Əlbəttə, oxumaq lazımdır. Rus dilini də bilmək lazımdır.

**D i r e k t o r:** 61 müəllimimiz vardır. Onların adından Sizə dərin minnətdarlığımı bildirirəm.

*Məlumat verildi ki, məktəbin inzibati otaqları rahatlığı ilə diqqəti cəlb edir. Məktəbin kitabxanasında 5 mindən artıq ədəbiyyat toplanıb. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini əks etdirən guşə də yaradılıbdır. Məktəbdə şagirdlərin asudə vaxtlarının təşkili üçün də hər cür şərait vardır. Dövlətimizin başçısı məktəbdə yaradılmış şəraitdən razılığını bildirdi, kollektivə uğurlar arzuladı.*

**Nizami Gəncəvi adına parkın açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 21-də Goranboya səfəri çərçivəsində Nizami Gəncəvi adına parkın açılışında iştirak etmişdir. Dövlətimizin başçısına məlumat verildi ki, park Goranboy şəhərinə Goran istiqamətindən girişdə yerləşir. Parkın giriş qapısı müasir üslubda inşa olunmuşdur. Burada dahi Azərbaycan şairi Nizami Gəncəvinin möhtəşəm heykəli ucaldılıb. Abidənin ətrafında şairin «Xəmsə»sinə daxil olan «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl» və «İsgəndərnamə» poemalarının kompozisiyasını əks etdirən mozaik fotolar yaradılmışdır.*

*Azərbaycan prezidenti parkı gəzdi, burada yaradılan şəraitlə tanış oldu. Qeyd edildi ki, 1,1 hektar ərazini əhatə edən park il yarım ərzində başdan-başa yenidən qurulmuşdur. Burada yaradılan 3 fəvvarə ətrafa xüsusi yaraşıq verir. Sakinlərin üstüörtülü iki istirahət guşəsindən istifadə edə biləcəkləri park uşaqların daha çox xoşuna gələcəkdir. Çünki bu istirahət guşəsində xalq nağıllarının motivlərini əks etdirən kompozisiyalar yaradılmışdır. Parkda müasir işıqlandırma, fəvvarələrin işləməsi və yaşıllıqların suvarılması üçün suvarma sistemləri quraşdırılmış, müasir bulaq kompleksi inşa edilmiş, oturacaqlar qoyulmuşdur.*

*Prezident İlham Əliyev parkda yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*23 yanvar 2012-ci il*

*Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə gəlmişdir.*

*Azərbaycan dövlətinin başçısını Soçinin «Adler» Beynəlxalq Aeroportunda Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEV İLƏ GÖRÜŞ

*Soçi*

*23 yanvar 2012-ci il*

*Yanvarın 23-də Soçidə işgüzar səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev «Grand Polyana» mehmanxanasının «Qəbullar evi»nə gəlmişdir. Azərbaycan prezidenti İlham Əliyevi «Qəbullar evi»ndə Rusiya prezidenti Dmitri Medvedev qarşıladı. Dövlət başçıları əvvəlcə xatirə şəkli çəkdirdilər.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin görüşü oldu.*

**D m i t r i  M e d v e d e v**: Hörmətli İlham Heydər oğlu, Sizi ürəkdən salamlayıram!

Şadam ki, Soçidə bizim qış görüşləri ənənəsi davam edir. Bu həm də Rusiya–Azərbaycan əməkdaşlığının necə inkişaf etməsi barədə fikir mübadiləsi aparmaq, gələcək haqqında söhbət etmək və keçən il baş verənləri qiymətləndirmək üçün yaxşı imkandır. Hesab edirəm ki, bunlar yaxşı nəticələrdir. Həm iqtisadi, həm də humanitar baxımdan bir neçə çox vacib, ciddi tədbirlər keçirilmişdir. Əlbəttə, regionumuzda vəziyyətin necə inkişaf etməsini də nəzərdən keçirməliyik. Üçtərəfli – Ermənistan prezidentinin iştirakı ilə görüşümüz də çox vacibdir. Son illərdə bu cür görüşlərin sayı yetərincə çox olub. Bəzi məsələlərdə irəliləmişik, bəzilərində hələ də ciddi çətinliklər qalır. Lakin bu, faydalı dialoqdur. Ümid edirəm ki, bu cür əlaqələr gələcəkdə də davam edəcəkdir. Sizi bu qarlı havada Soçidə bir daha ürəkdən salamlayıram. Ümid edirəm ki, Siz burada ünsiyyət saxlamaqla bərabər, həm də bir qədər dincələ biləcəksiniz.

**İ l h a m  Ə l i y e v**: Məni Soçiyə səfərə dəvət etməyinizə görə çox sağ olun, Dmitri Anatolyeviç!

Bu həqiqətən də çox yaxşı ənənədir. Bu, görüşməyə, ünsiyyət saxlamağa imkan verir, hərçənd bizim görüşlərimiz

yetərincə intensiv xarakter daşıyır, elə keçən ay da Moskvada görüşmüşdük. Dövlətlərimiz arasında münasibətlərin xarakteri və ruhu, onların dinamizmi, daimi məsləhətləşmələr və bütün istiqamətlər üzrə ikitərəfli əməkdaşlıq potensialının artması da bunu əks etdirir. Mən razıyam ki, keçən il bizim ikitərəfli işlərimiz də çox uğurlu olmuşdur: qarşılıqlı siyasi əlaqələr möhkəmlənmiş, yeni təşəbbüslər irəli sürülmüşdür, əmtəə dövriyyəsinin artımı on faizlərlə ölçülür, onun strukturu yaxşılaşır. İkitərəfli münasibətlərin bütün spektri üzrə çox müsbət dinamika görürük. Bu bizi çox sevindirir. 2011-ci ildə bu tərəfdaşlıq daha böyük əməli işlərlə möhkəmlənməyə başlamışdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi yollarının axtarışı üzrə səylərinizi davam etdirdiyinizə görə də Sizə təşəkkür etmək istəyirəm. Çoxlu görüşlər keçirilmişdir. Sizin qeyd etdiyiniz kimi, ümidverici məqamlar da, bədbinlik hissini gücləndirən məqamlar da olmuşdur. Lakin proses davam edir və Sizin bu səyləri davam etdirməyiniz də əlavə nikbinlik hissi aşılayır. Regionda sülhün bərqərar olması üçün Azərbaycan bu münaqişənin tezliklə tənzimlənməsində maraqlıdır. Fürsətdən istifadə edərək şəxsən Sizə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsində Rusiya tərəfindən göstərilmiş dəstəyə görə bir daha təşəkkür etmək istəyirəm.

**D m i t r i  M e d v e d e v:** Sizi bir daha təbrik edirəm.

**İ l h a m  Ə l i y e v**: Çox sağ olun. Bu dəstək çox effektiv, səmərəli, səmimi olmuşdur. Sizi əmin etmək istəyirəm ki, biz qarşıdakı 2 ildə Təhlükəsizlik Şurasında Sizinlə sıx əlaqədə işləyəcək və bizi dəstəkləmiş bütün ölkələrin – onların sayı 155-dir – ümidlərini doğrultmağa çalışacağıq. Bu imkana görə bir daha təşəkkürümü bildirir və ümid edirəm ki, 2012-ci il də bizim münasibətlərdə çox uğurlu olacaqdır.

## TƏBİİ QAZIN ALQI-SATQISINA DAİR MÜQAVİLƏYƏ 5 SAYLI ƏLAVƏ SAZİŞİN İMZALANMASI MƏRASİMİNDƏ İŞTİRAK

*Soçi*

*23 yanvar 2012-ci il*

*Görüşdən sonra prezidentlər İlham Əliyev və Dmitri Medvedevin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) və Rusiyanın «Qazprom-eksport» Məhdud Məsuliyyətli Cəmiyyəti arasında təbii qazın alqı-satqısına dair müqaviləyə 5 saylı əlavə saziş imzalandı.*

*Sənədi ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və «Qazprom» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Aleksey Miller imzaladılar.*

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*Soçi*

*23 yanvar 2012-ci il*

*Yanvarın 23-də Soçidə «Grand Polyana» mehmanxanasının «Qəbullar evi»ndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü olmuşdur.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsələlər müzakirə edildi.*

*Görüşün yekunlarına dair Birgə Bəyanat qəbul olundu.*

## AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİNƏ DAİR BİRGƏ BƏYANAT

*Soçi*

*23 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqların yekunlarına əsasən Birgə Bəyanat qəbul etmişlər.*

*Bəyanatda deyilir:* «Azərbaycan Respublikasının, Rusiya Federasiyasının və Ermənistan Respublikasının prezidentləri Rusiya Federasiyasının Prezidentinin dəvəti ilə 2012-ci il yanvarın 23-də Soçidə görüşmüş və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin gedişini və perspektivlərini müzakirə etmişlər.

Üç ölkənin dövlət başçıları 2008-ci il noyabrın 2-də onların görüşündə Moskva Bəyannaməsinin qəbul edildiyi vaxtdan keçən dövr ərzində Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair böyük həcmdə iş görüldüyünü qeyd etdilər. Prezidentlər bəyan etdilər ki, intensiv danışıqlar nəticəsində Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Prinsiplərinin razılaşdırılması məsələsində irəliləyiş əldə edilmişdir.

Azərbaycan Respublikasının və Ermənistan Respublikasının prezidentləri sülh sazişinin hazırlanmasına keçməyin vacibliyini nəzərə alaraq indiyə qədər görülmüş iş hesaba alınmaqla, Əsas Prinsiplər barədə razılaşma əldə edilməsini sürətləndirməyə hazır olduqlarını bildirdilər.

Hər iki prezident Rusiya Federasiyasının və ATƏT-in Minsk qrupunun həmsədrləri olan digər ölkələrin vasitəçilik fəaliyyətini yüksək qiymətləndirmiş və ümid etdiklərini bildirdilər ki, Rusiya, ABŞ və Fransa həmsədrlər olaraq, münaqişənin tənzimlənməsində bundan sonra da regionda tam sülh və sabitlik bərqərar olana qədər fəal rol oynayacaqlar.

Azərbaycan Respublikasının, Rusiya Federasiyasının və Ermənistan Respublikasının prezidentləri 2011-ci il martın 5-də Soçidə qəbul edilmiş Birgə Bəyanatın müddəalarını inkişaf etdirərək həmsədrlərin ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə birlikdə işləyib hazırladıqları, atəşkəs xətti boyunca təhqiqatlar aparılması mexanizmi haqqında məruzəni nəzərə aldılar və bu işi davam etdirməyi tapşırdılar.

Prezidentlər təsdiqlədilər ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi baxımından etimadın möhkəmlənməsi tədbirlərindən biri tərəflər arasında humanitar əlaqələrin inkişaf etdirilməsidir. Bununla əlaqədar, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının prezidentləri ziyalıların, elmi və ictimai dairələrin nümayəndələri arasında dialoqun daha da möhkəmlənməsinə hazır olduqlarını bəyan etdilər».

## Səfər başa çatdı

*Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını Soçinin «Adler» Beynəlxalq Aeroportunda Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabı Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı münasibətlər bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq, mehriban qonşuluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 yanvar 2012-ci il*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, dost xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan–Küveyt münasibətlərinin, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 yanvar 2012-ci il*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BORİS TADİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Serbiya münasibətlərinin inkişafı yolunda səylərimiz bundan sonra da əlaqələrimizin hərtərəfli genişlənməsinə, dostluq və əməkdaşlığımızın möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Serbiya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 yanvar 2012-ci il*

## LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Litva Dövlətinin Bərpası Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Litva münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Çox şadam ki, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq əlaqələri bu gün dinamik inkişaf yoluna qədəm qoyaraq yeni məzmun kəsb etməkdədir.

Münasibətlərimizin istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində inkişafı istiqamətində atdığımız addımlar əməkdaşlığımızın dərinləşməsi üçün yeni perspektivlər açır. Ümidvaram ki, bu perspektivlərin gerçəkləşməsi naminə bundan sonra da birgə səylər göstərəcəyik.

Hörmətli xanım Prezident, belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Litva xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 yanvar 2012-ci il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Estoniya arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, əlaqələrimizin əhatə dairəsinin genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 yanvar 2012-ci il*

## BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

Əlahəzrət!

Bruney-Darüssalamın milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Bruney-Darüssalam arasındakı münasibətlər xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 yanvar 2012-ci il*

## FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ TƏRƏFİNDƏN GƏTİRİLMİŞ TORPAQSORAN QURĞULARA, YEDƏK VƏ TƏCHİZAT GƏMİLƏRİNƏ VƏ TƏDQİQAT KATERİNƏ BAXIŞ

*24 yanvar 2012-ci il*

*Kür çayının daşması nəticəsində baş vermiş hadisələrin təkrarlanmaması üçün dövlət başçısının fərmanına uyğun olaraq Fövqəladə Hallar Nazirliyi tərəfindən Niderland Krallığının «Damen» şirkətinin istehsal etdiyi «CSD-500» torpaqsoran qurğuları, Türkiyənin Tuzla şəhərində istehsal olunmuş yedək və təchizat gəmiləri, tədqiqat kateri Bakıya gətirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də gətirilən qurğulara, yedək və təchizat gəmilərinə və tədqiqat katerinə baxış keçirdi.*

*Prezident İlham Əliyev torpaqsoran qurğular, yedək və təchizat gəmiləri, tədqiqat kateri ilə tanış olmaq üçün Yaxt Kluba gəldi. Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov gətirilmiş qurğular, gəmilər və kater barədə prezident İlham Əliyevə məruzə etdi. Bildirildi ki, Niderland Krallığının «Damen» şirkətinin istehsal etdiyi «CSD-500» torpaqsoran qurğular su səthindən 14 metr dərinliyə qədər məsafədə dibdərinləşdirmə işlərini yerinə yetirir.*

*Dövlətimizin başçısı torpaqsoran qurğunun kapitan körpüsü ilə tanış oldu. Qurğunun ən müasir naviqasiya avadanlığı ilə təchiz olunduğu bildirildi. Torpaqsoran qurğuların istehsal prosesindən və dibdərinləşdirmə tədbirləri zamanı tətbiqindən bəhs edən film göstərildi.*

*Yedək və təchizat gəmilərinin göstəriciləri barədə də dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, Tuzlada istehsal edilmiş yedək və təchizat gəmilərindən biri 1200, digər ikisi isə 900 at gücünə malikdir (YQ-1, YQ-2, YQ-3). Bu gəmilər torpaqsoran qurğuları müvafiq məsafələrə yedəkdə apararaq təchizat işlərini təmin edəcəkdir. Göyərtəsindəki 10 ton*

yükqaldırma qabiliyyətinə malik teleskopik kran müxtəlif növ təchizat və köməkçi işləri yerinə yetirmək imkanına malikdir.

Qeyd olundu ki, göstərilən işlərin həyata keçirilməsi üçün Fövqəladə Hallar Nazirliyinin Xəzər Hövzə Qəza-Xilasetmə Xidmətinin nəzdində Dibdərinləşdirmə İşləri İdarəsinin yaradılması nəzərdə tutulmuşdur. Dibdərinləşdirmə işlərinin dəqiq həyata keçirilməsi üçün Neftçala, Salyan və Sabirabad rayonları əhatə olunmaqla, bütün Kür çayı boyunca batimetriya işləri artıq başa çatdırılmışdır. Bu tədbirlərin Neftçala, Salyan və Sabirabad rayonlarında planlı şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Tələb olunan işləri görmək üçün hər rayonda bir torpaqsoran qurğu, bir yedək-təchizat və bir kiçik yedək gəmisi işləyəcəkdir. Müasir avadanlıqlarla təchiz edilmiş tədqiqat kateri isə hər üç rayonun ərazisində batimetriya işlərini həyata keçirəcəkdir.

Çayın dibindən sorularaq çıxarılan su-qrunt qarışığı suyun üzərində qalma qabiliyyətli kompozit materialdan hazırlanmış borular, quru ərazidə isə polietilen borular ilə durulducu hovuzlara töküləcək, sonra isə müvafiq istiqamətdə çaya axıdılacaq, qrunt isə texnika vasitəsilə kənara daşınacaqdır. Durulducu hovuzların layihə işləri başa çatdırılmışdır və yaxın vaxtlarda icrasına başlanılacaqdır. Ümumi sahəsi 202 hektar olan durulducu hovuzların ikisi Neftçalada, dördü Salyanda, üçü isə Sabirabadda inşa ediləcəkdir. Neftçala, Salyan, Sabirabad rayonlarının ərazilərində 1,3 milyon kubmetr qruntun çıxarılması nəzərdə tutulur.

Gətirilmiş qurğular, gəmilər və katerlə yaxından tanış olan prezident İlham Əliyev sonda torpaqsoran qurğunun işləmə prosesini də izlədi.

**İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏR**
*25 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 25-də İsveçrəyə işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

*Yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfərə gəlmişdir.*

*Prezident İlham Əliyev Sürixdən Davos şəhərinə yola düşdü.*

## İSVEÇRƏ PREZİDENTİ XANIM EVELİNE VİDMER ŞLÜMF İLƏ GÖRÜŞ

*Davos*

*25 yanvar 2012-ci il*

*Yanvarın 25-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti xanım Eveline Vidmer Şlümfün görüşü olmuşdur.*

*İsveçrənin prezidenti xanım Eveline Vidmer Şlümf Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu və bu münasibətlərin daha da genişləndirilməsinin zəruriliyi qeyd edildi.*

*Azərbaycan ilə İsveçrə arasında enerji, ekologiya və digər sahələrdə əməkdaşlığın əhəmiyyətinin vurğulandığı görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## **İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERES İLƏ GÖRÜŞ**

*Davos*

*25 yanvar 2012-ci il*

*Yanvarın 25-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti Şimon Peresin görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlər ətrafında fikir mübadiləsi aparıldı, iqtisadi, elmi tədqiqatlar və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edildi.*

## ABŞ DÖVLƏT KATİBİNİN İQTİSADİYYAT, ENERGETİKA VƏ KƏND TƏSƏRRÜFATI MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ ROBERT HORMATS İLƏ GÖRÜŞ

*Davos*

*25 yanvar 2012-ci il*

*Yanvarın 25-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatları Dövlət katibinin iqtisadiyyat, energetika və kənd təsərrüfatı məsələləri üzrə müavini Robert Hormats ilə görüşü olmuşdur.*

*R.Hormats ABŞ prezidentinin və Dövlət katibinin salamlarını Azərbaycan prezidentinə çatdırdı. Dövlət katibinin müavini Azərbaycanda gedən inkişaf proseslərini, xüsusilə də iqtisadiyyat və sənaye sahələrində aparılan uğurlu islahatların Ağ evdə yüksək qiymətləndirildiyini dedi.*

*Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində görülən tədbirlərin, eləcə də qeyri-neft sektoruna qoyulan sərmayələrin müsbət nəticələr verəcəyinə əminliyini ifadə edildiyi görüşdə regional məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

*Görüşdə həmçinin iqtisadi əməkdaşlıq üzrə Azərbaycan–ABŞ Hökumətlərarası Birgə Komissiyasının yaxın vaxtlarda keçiriləcək iclasının əməkdaşlığın konkret sahələrinin müzakirəsi baxımından əhəmiyyəti vurğulandı.*

## «OMV AG» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU GERHARD ROİSS İLƏ GÖRÜŞ

*Davos*

*25 yanvar 2012-ci il*

*Yanvarın 25-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avstriyanın «OMV AG» şirkətinin baş icraçı direktoru Gerhard Roiss ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Avstriyanın «OMV AG» şirkəti arasında əməkdaşlıq, o cümlədən Nabukko qaz kəməri layihəsinin perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2012-ci il*

*Yanvarın 26-da Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Respublikasının Prezidenti Viktor Yanukoviçin görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, enerji sektorunda əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

*Ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənməsi üçün yaxşı potensialın olduğu bildirilən görüşdə Azərbaycan–Ukrayna əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu. Yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin münasibətlərimizin daha da genişlənməsində əhəmiyyəti qeyd edildi.*

## «UBS GLOBAL» ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ KASPAR VİLLİGER İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2012-ci il*

*Yanvarın 26-da Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «UBS Global» şirkətinin Direktorlar Şurasının sədri Kaspar Villiger ilə görüşü olmuşdur.*

*Görüşdə İsveçrənin hazırda ən böyük banklarından olan «UBS» bankı ilə Azərbaycan arasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məsələləri müzakirə olundu. Bundan başqa, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə maliyyə əməkdaşlığı sahəsində əlaqələrin qurulması barədə fikir mübadiləsi aparıldı.*

*Azərbaycana səfərlərini, ulu öndər Heydər Əliyev ilə görüşlərini xatırladan Kaspar Villiger prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin sürətlə inkişaf etdiyini dedi.*

## AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGER İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2012-ci il*

*Yanvarın 26-da Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger ilə görüşü olmuşdur.*

*Görüşdə «Cənub Qaz Dəhlizi» layihəsinin inkişafı və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Avropanın Azərbaycan qazına böyük ehtiyacının olduğu qeyd edilən görüşdə qarşıdakı dövrdə mavi yanacağın ölkəmizdən Avropaya nəql olunması məsələsinin həllinin vacibliyi vurğulandı.*

*Görüşdə 2011-ci ilin yanvarında Bakıda prezident İlham Əliyevin və Avropa Komissiyasının sədri Jose Manuel Barrozunun imzaladıqları «Cənub Qaz Dəhlizi» haqqında Birgə Bəyannamə»nin enerji sahəsindəki əlaqələrin inkişafında rolu qeyd edildi. Bundan başqa, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji əməkdaşlığında 2011-ci ildə əldə olunan nailiyyətlərin bu il də real həyatda əksini tapmasının əhəmiyyəti vurğulandı.*

## DÜNYA İQTİSADİ FORUMUNUN TƏSİSÇİSİ VƏ İCRAÇI SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2012-ci il*

*Yanvarın 26-da Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvab ilə görüşü olmuşdur.*

*Azərbaycanın Dünya İqtisadi Forumunda iştirakının və ildən-ilə artan fəallığının əhəmiyyətinin qeyd edildiyi görüşdə son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində gedən inkişafla bağlı fikir mübadiləsi aparıldı.*

*Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvab qeyd etdi ki, Azərbaycanın bu inkişafı dünyanın və Avropanın bir sıra nüfuzlu və böyük şirkətlərinin ölkəmizə marağını daha da artırır.*

*Görüşdə gələcəkdə yeni layihələr üzərində işləməyin əhəmiyyəti vurğulandı.*

# ALMANİYANIN «DEUTSCHE BANK»ININ MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİ ÜZRƏ İCRAÇI DİREKTORU PETER TİLS VƏ İDARƏ HEYƏTİNİN ÜZVÜ YÜRGEN FİGEN İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2012-ci il*

*Yanvarın 26-da Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın «Deutsche Bank»ının Mərkəzi və Şərqi Avropa ölkələri üzrə icraçı direktoru Peter Tils və İdarə Heyətinin üzvü Yürgen Figen ilə görüşü olmuşdur.*

*Görüşdə regionun aparıcı ölkəsi olan Azərbaycanda gedən sürətli iqtisadi inkişaf proseslərinin önəmi vurğulandı, respublikamız ilə Almaniyanın «Deutsche Bank»ı arasında əməkdaşlıq əlaqələrinin qurulmasının əhəmiyyəti qeyd olundu. Həmçinin görüşdə Azərbaycan ilə «Deutsche Bank» arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## BEYNƏLXALQ QIZIL XAÇ KOMİTƏSİNİN PREZİDENTİ YAKOB KELLENBERGER İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2012-ci il*

*Yanvarın 26-da Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidenti Yakob Kellenberger ilə görüşü olmuşdur.*

*Görüşdə humanitar əməkdaşlığa dair fikir mübadiləsi aparıldı, əsir və itkin düşmüş, girov götürülmüş şəxslərlə bağlı məsələlərdə Beynəlxalq Qızıl Xaç Komitəsinin rolu qeyd edildi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ SAYED YUSUF RAZA GİLANİ İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2012-ci il*

*Yanvarın 26-da Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Sayed Yusuf Raza Gilani ilə görüşü olmuşdur.*

*Sayed Yusuf Raza Gilani Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi münasibətilə prezident İlham Əliyevi təbrik etdi.*

*Görüşdə əlaqələrimizin yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi və bunun çox böyük əhəmiyyətə malik olduğu vurğulandı. Azərbaycan və Pakistanın bir-birini həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlar çərçivəsində daim dəstəklədiyi bildirildi və bu dəstəyin bundan sonra da davam etdirilməsinin önəmi qeyd olundu.*

*Görüşdə ölkələrimiz arasında neft-qaz, infrastruktur, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

**«RWE» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU YURGEN QROSSMAN İLƏ GÖRÜŞ**
*Davos*

*26 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Davosda «RWE» şirkətinin baş icraçı direktoru Yurgen Qrossman ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «RWE» şirkəti arasında uğurlu əməkdaşlığın davam etdiyi bildirildi və əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Energetika sahəsində əməkdaşlığın önəminin qeyd olunduğu görüşdə «Şahdəniz» qaz yatağının işlənilməsi ilə bağlı məsələlər müzakirə edildi.*

## «MİCROSOFT İNTERNATİONAL» ŞİRKƏTİNİN PREZİDENTİ, «MİCROSOFT» KORPORASİYASININ VİTSE-PREZİDENTİ JAN KURTUA İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2012-ci il*

*Yanvarın 26-da Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Microsoft İnternational» şirkətinin prezidenti, «Microsoft» Korporasiyasının vitse-prezidenti Jan Kurtua ilə görüşü olmuşdur.*

*Jan Kurtua ölkəmiz ilə əməkdaşlığın səviyyəsindən razılığını bildirdi, qeyri-qanuni proqram təminatının qarşısının alınmasında, piratçılığa qarşı mübarizədə Azərbaycanın regionda nümunə olduğunu vurğuladı. Bildirdi ki, təmsil etdiyi şirkət informasiya təhlükəsizliyinin təmin olunmasında Azərbaycan ilə əməkdaşlığa hazırdır.*

*Prezident İlham Əliyev Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafına böyük əhəmiyyət verildiyini, bu sahənin inkişafının ölkəmizdə prioritet elan edildiyini vurğuladı.*

*Görüşdə «Microsoft»un böyük regional informasiya-hesablama mərkəzinin Azərbaycanda yaradılması məsələsi bir daha müzakirə edildi və bununla bağlı işlərin sürətləndirilməsi qərara alındı.*

## «HOLCİM GROUP» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ MARKUS AKERMAN İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Davosda «Holcim Group» şirkətinin İdarə Heyətinin sədri Markus Akerman ilə görüşmüşdür.*

*Görüşdə «Holcim Group» şirkətinin Azərbaycandakı fəaliyyətindən, ölkəmizə investisiya qoymasından və bu şirkətin Qaradağ sement zavodunun tikintisində iştirakından məmnunluq ifadə olundu.*

*Azərbaycanda birlikdə təməli qoyulan yeni sement zavodunun bu il istifadəyə veriləcəyinin vurğulandığı görüşdə bunun iqtisadi əlaqələrimizin genişlənməsində önəmli hadisə olduğu bildirildi.*

## «EDİSSON» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU BRUNO LESKÖR İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2012-ci il*

*Yanvarın 26-da Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Edisson» şirkətinin baş icraçı direktoru Bruno Leskör ilə görüşmüşdür.*

*Görüşdə Cənubi Avropa regionunun təbii qazla təmin edilməsi ilə bağlı müzakirələr aparıldı.*

## BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Davosda Böyük Britaniyanın York Hersoqu şahzadə Endryu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, bu sahədə əməkdaşlığın perspektivləri müzakirə edildi.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2012-ci il*

*Yanvarın 27-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin bütün sahələrdə yüksək səviyyədə inkişafından məmnunluq ifadə olundu. Azərbaycan və Polşa prezidentlərinin müxtəlif tədbirlərdə mütəmadi görüşlərinin bu münasibətlərin daha da inkişafına töhfə verdiyi vurğulandı.*

*Görüşdə Azərbaycan ilə Polşa arasında bir sıra sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi, o cümlədən enerji sahəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DAVOSDA DÜNYA İQTİSADİ LİDERLƏRİNİN QEYRİ-RƏSMİ TOPLANTISINDA İŞTİRAK

*Davos*

*27 yanvar 2012-ci il*

*Yanvarın 27-də Davosda «Dünya iqtisadi liderlərinin qeyri-rəsmi toplantısı – 2012-ci ilin öhdəliklərinin müəyyənləşdirilməsi» mövzusunda lanç əsnasında panel keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etdi.*

## DAVOSDA «AVRASİYANIN GƏLƏCƏYİ» SESSİYASINDA İŞTİRAK

*Davos*

*27 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Davosda «Avrasiyanın gələcəyi» adlı sessiyada iştirak etmişdir.*

*İsveçrənin Davos şəhərində 42-ci Dünya İqtisadi Forumunun illik toplantısında müasir dövrün siyasi-iqtisadi problemlərinin, eləcə də qlobal inkişafın doğurduğu əsas problemlərin həlli üçün işgüzar tərəfdaşlığın genişlənməsi ilə bağlı məsələlər müzakirə olundu.*

*Toplantıda 100-dən artıq ölkədən 2500-dən çox nümayəndə, o cümlədən dövlət və hökumət başçıları, eləcə də tanınmış şirkətlərin təmsilçiləri, iqtisadçılar, alimlər, ekspertlər, beynəlxalq təşkilatların və KİV-lərin rəhbərləri iştirak etdilər.*

*Forum çərçivəsində «Avrasiyanın gələcəyi» adlı sessiya keçirildi.*

*Azərbaycan prezidenti İlham Əliyev sessiyada çıxış etdi.*

*Dövlətimizin başçısı ölkəmizin keçdiyi tarixi inkişaf yolundan, demokratik ənənələrə söykənən dövlətçilik tarixindən danışaraq bildirdi ki, Şərqdə ilk demokratik respublika məhz Azərbaycanda 1918-ci ildə yaradılıb.*

*Prezident İlham Əliyev ölkəmizin XX əsrin sonlarında müstəqilliyini yenidən bərpa etdiyini bildirdi, 20 il ərzində Azərbaycanda dövlət quruculuğu, demokratiyanın təmin olunması, siyasi-iqtisadi sahələrdə görülən işlərə, ictimai-siyasi sabitlik və digər məsələlərə toxundu. Azərbaycan prezidenti diqqətə çatdırdı ki, son illər ölkəmizdə ictimai-siyasi sabitliyin təmin olunması və demokratiyanın inkişafında böyük addımlar atılıb.*

*Azərbaycanın zəngin enerji ehtiyatlarına malik olduğunu vurğulayan dövlətimizin başçısı bu gün respublikamızın Avropanın enerji təhlükəsizliyinin təmin olunması işində fəal iştirak etdiyini və bu sahədə böyük nailiyyətlər qazanıldığını, həmçinin əlverişli coğrafi-siyasi məkanda yerləşən ölkəmizin beynəlxalq aləmdə regional əməkdaşlığa mühüm töhfələr verdiyini də bildirdi.*

*Azərbaycanın beynəlxalq nüfuzunun durmadan artdığını qeyd edən prezident İlham Əliyev dedi ki, ölkəmizdə bu gün qeyri-neft sektoruna da böyük diqqət yetirilir.*

*Dövlətimizin başçısı ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları, sənayeləşdirmə və digər sahələrin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən işlərdən danışdı. Prezident İlham Əliyev dedi ki, dünyada baş verən maliyyə böhranına baxmayaraq, Azərbaycanda dinamik inkişafın və iqtisadiyyatın çoxşaxəliliyinin təmin olunmasında böyük işlər görülmüşdür.*

*Prezident İlham Əliyev Azərbaycanda təhsilin inkişafına dövlət səviyyəsində göstərilən diqqəti də qeyd etdi.*

*Azərbaycanın qarşısında bütün sahələrin inkişafı ilə əlaqədar mühüm vəzifələrin durduğunu bildirən dövlətimizin başçısı ölkəmizin bu istiqamətdə səylərini davam etdirəcəyinə və yeni uğurlara nail olacağına əminliyini bildirdi.*

*Sessiyada eyni zamanda, Ukrayna prezidenti Viktor Yanukoviç və Rusiyanın VTB Bankının prezidenti Andrey Kostin də çıxış etdilər.*

*Sonda suallar cavablandırıldı.*

## İORDANİYANIN BAŞ NAZİRİ AUN AL XASAUNA İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2012-ci il*

*Yanvarın 27-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Krallığının Baş naziri Aun Al Xasauna ilə görüşü olmuşdur.*

*Azərbaycan Respublikası ilə İordaniya Krallığı arasında dostluq və əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğu bildirilən görüşdə hər iki ölkənin müxtəlif sahələrdə bir-birinə dəstək verməsinin əhəmiyyəti vurğulandı.*

*Görüşdə müxtəlif sahələri əhatə edən ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCANA HƏSR OLUNMUŞ İNTERAKTİV SESSİYADA İŞTİRAK

*Davos*

*27 yanvar 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Davosda Azərbaycana həsr olunmuş interaktiv sessiyada iştirak etmişdir.*

*Tədbirin aparıcısı, Davos Forumunun icraçı direktoru Börge Brend iştirakçıları Azərbaycana həsr edilmiş interaktiv sessiyada salamlayaraq, ölkəmizin davamlı inkişaf yolunda olduğunu bildirdi. Azərbaycanın coğrafi baxımdan strateji mövqedə yerləşdiyini qeyd edən Börge Brend dünyada maliyyə böhranının mövcud olduğu bir dövrdə ölkəmizin qeyri-neft sektorunda 9 faiz iqtisadi artıma nail olduğunun əhəmiyyətini vurğuladı və bu tədbirdə Azərbaycan iqtisadiyyatında çoxşaxəliliyin müzakirə mövzusu olacağını dedi.*

*Börge Brend Azərbaycanda neft sektoru ilə bərabər, qeyri-neft sektorunun da sürətlə inkişaf etdiyini bildirdi.*

*Davos Forumunun icraçı direktoru Azərbaycanın perspektivləri, regiondakı rolu, ölkəyə qoyulan investisiyalarla bağlı dövlətimizin başçısı İlham Əliyevin fikirlərinin böyük maraq doğurduğunu da vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Əvvəlcə, bu cür görüşü təşkil etdiyiniz üçün sizə minnətdarlığımı bildirmək istəyirəm. Yenidən Davosa gəlməyimə şadam. Bu dəfə Azərbaycana həsr olunmuş xüsusi tədbirdə iştirak edirik. Bu gün Azərbaycanın Davosda daha geniş şəkildə təqdim olunduğuna şadam. Burada bizim ənənəvi xalçalarımız və milli mətbəximiz sərgilənir. Burada da özümüzü Bakıdakı kimi hiss etdik. Ölkəmiz uğurla inkişaf edir. Son bir neçə ildə iqtisadi inkişaf göstəriciləri doğrudan da heyranedicidir. 2004-cü ildən etibarən bu, 300 faiz təşkil edib. Əlbəttə, biz anlayırıq ki, bu artımın ən böyük hissəsi

neft və qaz sektorunun payına düşür. Bu da 20 ildir müstəqil yaşayan bir ölkə üçün təbii haldır.

Keçid dövrünü yaşayan hər bir ölkə bütün resurslarından, təbii sərvətlərindən istifadə etməlidir ki, güclü iqtisadiyyat qursun. Bu bizim məqsədimiz və siyasətimiz idi. Çoxmilyardlı iri sərmayələrin neft və qaz sektoruna cəlb edilməsi bizə iqtisadiyyatımızı şaxələndirməyə kömək edir. İndi qarşımıza yeni məqsəd qoymuşuq – üç dəfə artmış ümumi daxili məhsulu yenidən ikiqat artırmaqdır. İqtisadiyyatı əsasən qeyri-enerji sektorunun inkişaf etdirilməsi hesabına ikiqat artırmaq istəyirik.

Neft və qaz hasil edən ölkə kimi, biz həmişə ümumi daxili məhsula qeyri-enerji və enerji ümumi daxili məhsulu nöqteyi-nəzərindən baxırıq. Beləliklə, keçən il qeyri-neft sənayesi 11 faiz, qeyri-neft sektoru isə 9 faiz artıb. Bu gün qarşıda duran məqsədimiz ölkənin müasirləşdirilməsi, şaxələndirilməsi və növbəti 10-12 il ərzində sürətli inkişafıdır. Çünki ölkənin regionlarının inkişafı ilə bağlı ilk proqram 2004-cü ildə qəbul olunmuşdur. Bununla da 2014-cü ildə biz 10 illik inkişafın yeni mərhələsinə başlayacağıq. Biz çox sayda xarici sərmayələrdən bəhrələnirik. Son 15 ildə qoyulan sərmayələrin ümumi həcmi təqribən 110 milyard dollar təşkil edib. Təkcə keçən il ölkəyə 20 milyard dollar məbləğində sərmayə yatırılıb ki, bunun da 7 milyardı xarici sərmayələrin payına düşür. Bu da onu göstərir ki, Azərbaycan hələ də xarici şirkətlər üçün cəlbedici ölkədir və bu, təkcə neft və qaz ilə bağlı deyildir.

İndi neft və qaz sahəsində sərmayələrin həcmi düşməkdədir, çünki əsas layihələrin icrası başa çatıb. Sənaye, turizm və xidmət sahələrinə qoyulan sərmayələr artmaqdadır. Neft və qaz satışından əldə etdiyimiz maliyyə resurslarını iqtisadiyyatın real sektorlarına – informasiya texnologiyaları, təhsil sahələrinə yönəltmişik.

Bir neçə il əvvəl mən bəyan etdim ki, biz «qara qızıl»ı insan kapitalına çevirməliyik. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yalnız yüksək səviyyəli texnoloji tərəqqiyə, yüksək səviyyəli təhsilə nail olmaqla inkişaf etmiş ölkəyə çevrilmək

mümkündür. Buna görə də biz gənclərimizi dünyanın aparıcı universitetlərində təhsil almağa göndəririk və yaxşı nəticələr görürük.

Biz artıq özümüzü çox gözəl sərmayə mühiti olan ölkə kimi tanıtmışıq. Azərbaycana birbaşa xarici sərmayə axını hər hansı MDB ölkəsindən daha yüksəkdir. İqtisadiyyatın rəqabətədavamlılığı da artmaqdadır. Davos İqtisadi Forumunun reytinqinə əsasən, Azərbaycan iqtisadiyyatın rəqabətədavamlılığına görə 55-ci, MDB-də isə birinci yerdə qərarlaşır. Bu bizim üçün çox mühüm nailiyyətdir. Belə ki, bu bizim apardığımız şaxələndirmə siyasətinin artıq bəhrə verdiyini sübut edir.

Enerji sektoru iqtisadiyyatımızda üstünlük təşkil etməkdə davam edəcəkdir. Bu təbiidir, çünki neft istehsalı təqribən 50 milyon ton təşkil edir. Qaz istehsalı isə bu il 30 milyard kubmetrə yaxın olacaqdır. Yeni layihələr və sərmayələrlə bu rəqəm 50 milyarda da çata bilər. Beləliklə, qeyri-enerji iqtisadiyyatımızda nə qədər artım əldə etməyə çalışmağımıza baxmayaraq, enerji həmişə ümumi daxili məhsulda üstünlük təşkil edəcəkdir. Azərbaycanın iqtisadi və enerji siyasəti, həmçinin ölkənin siyasi çəkisinə transformasiya olunur.

Avropa İttifaqı bizi Azərbaycan qazını Avropaya çatdıracaq «Cənub Qaz Dəhlizi»nə töhfə verən və bunu mümkün edən ölkə kimi qiymətləndirir. Ötən bir neçə ay ərzində biz çox mühüm nailiyyətlər əldə etmişik, tranzitə dair sazişlər və böyük həcmdə Azərbaycan qazını Avropa ölkələrinə çatdıracaq qaz boru kəmərinin tikintisinə dair sazişlər imzalamışıq. Bu öz növbəsində bizə hələ 1994-cü ildə başladığımız ilk enerji layihələrindən daha çox fayda gətirəcəkdir. Çünki o zaman bu qədər genişmiqyaslı fəaliyyəti yerinə yetirə biləcək şirkətlər yox idi. İndi isə bizim iri tikinti şirkətlərimiz – xidmət, enerji, qeyri-enerji sahələrində fəaliyyət göstərən şirkətlərimiz vardır ki, onlar da qaz yataqlarına qoyulan bu 20 milyard dollarlıq sərmayənin bir hissəsi olacaqdır. Belə ki, bu sərvət çoxşaxələnmiş bir üsulla yayılacaqdır.

Ümumiyyətlə, iqtisadiyyatda hazırda rol oynayan nailiyyətlərimizdən biri də şəffaflıqdır. Azərbaycan Beynəlxalq Şəffaflıq Təşəbbüsünə 8 il əvvəl qoşulub və indi həmin təşəbbüsün tamhüquqlu üzvüdür. Biz enerji sektorumuzda tam şəffaflığa nail olmuşuq. İndi sistemi dəyişirik. Bu yanaşmanı bütövlükdə maliyyə sistemində tətbiq edirik. Beləliklə, gələcək üçün perspektivlər müsbətdir, iqtisadiyyat sabit, davamlı, özünü təmin edəndir, enerji sektorundan güclü dəstək alır və ölkənin strateji gələcəyinin tam aydın mənzərəsini yaradır. Ən ali məqsədimiz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirməkdir. Bizim bütün qurumlarımız və nazirliklərimiz bunun üzərində çalışırlar. Bu gün rabitə və texnologiya, maliyyə, ekologiya və təbii sərvətlər nazirləri də buradadırlar. Onlar da təmsil etdikləri sektorlar haqqında daha geniş məlumat verəcəklər.

* * *

*Sonra aparıcı regional və beynəlxalq məsələlərin hazırkı vəziyyəti ilə bağlı dövlətimizin başçısından fikirlərini bölüşməsini xahiş etdi.*

**İ l h a m  Ə l i y e v:** Azərbaycan 20 ildir ki, müstəqil dövlətdir, müstəqil siyasətə və strategiyaya malikdir. Bizim bütün siyasi təşəbbüslərimiz, xüsusilə regional əməkdaşlıqla bağlı təşəbbüslərimiz çox müsbət zəmin əsasında qurulub. Bizim məqsədimiz xeyli sayda regional dövlətlərin iştirak etdiyi layihələr və əməkdaşlıq vasitəsilə tərəfdaşlıq qurmaqdır. Coğrafi mövqe baxımından Azərbaycan İpək yolunun üstündə, Avropa ilə Asiyanın kəsişməsində çox əlverişli məkanda yerləşir. Bizim təşəbbüslərimiz regional dövlətləri əhatə edir və onlar da Azərbaycanın inkişafından və fəaliyyətindən bəhrələnirlər. Beynəlxalq səviyyədə bizə çox böyük dəstək göstərilir. Biz bunu daim hiss edirik. Belə ki, təşəbbüslərimizin çoxu beynəlxalq birlik tərəfindən dəstəklənir. Lakin bu dəstəyin ən yaxşı göstəricisi Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına üzv seçilərkən özünü göstərdi. Bu, asan

məsələ deyildi. Mühüm məsələ ondan ibarət idi ki, bu seçkilərdə 155 dövlət Azərbaycana səs verdi.

*Daha sonra prezident İlham Əliyev neftdən gələn gəlirlərin insan kapitalına yönəldilməsi, gənclərin xarici ölkələrdə təhsili, peşə hazırlığı ilə bağlı sualları cavablandırdı.*

– Bu, qarşımızda duran mühüm məsələlərdən biridir. Ölkəmizdə neft sektoruna nisbətən qeyri-neft sektorunda daha çox ixtisaslı kadrlara ehtiyacımız vardır. Enerji sektorunda çox yaxşı kadrlarımız, geoloqlarımız çalışır və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti təhsil sahəsinə böyük investisiyalar qoyur. Şirkətin bununla bağlı proqramı da vardır.

Bizim indiki şəraitdə menecerlərə ehtiyacımız var. Özəl və ya dövlət şirkətlərinin iqtisadiyyatın hansı sahəsinə aid olub-olmamasından asılı olmayaraq, inkişaf etmiş ölkələrdəki kimi, idarəçiliyi bacaran menecerlərə, xidmət sahəsində ixtisaslı kadrlara ehtiyac vardır. Təkcə ötən il Bakıda beşulduzlu 3 mehmanxana istifadəyə verilib. Bu il isə daha beşulduzlu 3 mehmanxana açılacaqdır. Burada işləyəcək kadrlar hazırlanmalıdır. Sözsüz ki, biz buna investisiya qoyuluşu ilə nail ola bilərik. Bu, məsələnin bir tərəfidir. Əsas məsələ isə bununla bağlı beynəlxalq təcrübə və əməkdaşlıqdan yararlanmaqdır. Bizim maliyyələşdirmə məsələləri ilə bağlı problemimiz yoxdur. İnformasiya texnologiyalarının və təhsilin inkişafı bizdə prioritet sahələrdir.

*Dövlətimizin başçısı informasiya-kommunikasiya texnologiyaları ilə bağlı suallara da cavab verdi.*

– İşlə təminolunma, innovasiya, texnologiyalar, təhsil və biznes – gələcək bu sahələrlə bağlıdır. Bu baxımdan informasiya texnologiyaları sahəsi bizim üçün ən prioritet sahələrdən biridir. 2004-cü ildə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyini yaratmışıq. Həmin vaxtdan keçən dövr ərzində bu sahədə böyük irəliləyişə nail olmuşuq. Azərbaycanda regional informasiya texnologiyaları mərkəzi yaratmışıq. Bakıda hər il «Bakutel» adlı beynəlxalq informasiya texnologiyaları konfrans və sərgisi keçirilir. Kosmik sənaye, ilk telekommunikasiya

peyki – bu birincidir, lakin sonuncu olmayacaqdır – 3G texnologiyası, artıq 4G lisenziyası üzərində işləyirik. Hazırda «Elektron hökumət» və «Elektron imza» layihələrini təqdim etməyi planlaşdırırıq. Bir neçə ay əvvəl mən bununla bağlı sərəncam imzaladım. Bu sərəncama əsasən, bütün nazirliklər və dövlət agentliklərinə elektron xidmətlərin siyahısını hazırlamaq və təqdim etmək tapşırılmışdır.

* * *

*Yaponiyanın mühəndislik və inşaat, neft kimyası, neftayırma sahələri və bütün növ karbohidrogen layihələri ilə məşğul olan GGC şirkətinin prezidenti və icraçı direktoru digər ölkələrdə fəaliyyətlərini genişləndirdiklərinə baxmayaraq, Azərbaycanda hələ buna nail ola bilmədiklərini və bu arzuda olduqlarını bildirdi.*

**İ l h a m  Ə l i y e v:** Hazırda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) Bakıda yeni neftayırma və neft-kimya zavodlarının inşasına bir neçə milyard dollarlıq investisiya qoymağı planlaşdırır. Bu zavodlarda ən son texnologiyalar tətbiq ediləcəkdir. Biz şirkətlərə deyə bilmərik ki, hansı sahəyə investisiya qoy, ya qoyma. Şirkətlər bunda sərbəstdirlər. Prezident kimi, mənim üçün sənaye sahəsinin inkişafına qoyulan investisiya daha önəmlidir. Hazırda ölkəmizdə sənayenin inkişaf proqramı vardır. Biz strateji layihələr üçün maliyyələşməni və investisiya qoyuluşunu öz hesabımıza həyata keçiririk. ARDNŞ hazırda milyardlarla dollar həcmində investisiyalar qoyur. Siz bizim neft şirkəti ilə əməkdaşlıq həyata keçirə bilərsiniz.

## Səfər başa çatdı

*Yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını İsveçrənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**MİSİR ƏRƏB RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ ALİ ŞURASININ SƏDRİ MARŞAL MƏHƏMMƏD HÜSEYN TANTAVİYƏ**

Hörmətli cənab Tantavi!

Port-Səid şəhərindəki stadionda baş vermiş iğtişaşlar nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və bütün Misir xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 fevral 2012-ci il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*3 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Almaniyaya işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

*Fevralın 3-də Azərbaycan prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına işgüzar səfərə gəldi.*

## ALMANİYANIN SABİQ XARİCİ İŞLƏR NAZİRİ HANS-DİTRİX GENŞER İLƏ GÖRÜŞ

*Münhen*

*3 fevral 2012-ci il*

*48-ci Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 3-də Münhendə Almaniyanın sabiq Xarici İşlər naziri Hans-Ditrix Genşer ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin rolu, Azərbaycan–Almaniya ikitərəfli münasibətləri, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## AVSTRALİYANIN XARİCİ İŞLƏR NAZİRİ KEVİN RUD İLƏ GÖRÜŞ

*Münhen*

*3 fevral 2012-ci il*

*Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münhendə Avstraliyanın Xarici İşlər naziri Kevin Rud ilə görüşmüşdür.*

*Görüşdə Avstraliyanın Xarici İşlər naziri Kevin Rud ölkəsinin Azərbaycan ilə əlaqələrin müxtəlif sahələrdə inkişafında maraqlı olduğunu bildirdi, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsindən məmnunluğunu ifadə etdi.*

*Prezident İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsinin dünyanın əksər dövlətlərinin ölkəmizə dəstəyinin nümunəsi olduğunu dedi.*

*Dövlətimizin başçısı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.*

*Görüşdə ikitərəfli münasibətlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## ABŞ DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON İLƏ GÖRÜŞ

*Münhen*

*4 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Münhendə Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Hillari Klinton ilə görüşmüşdür.*

*Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunan görüşdə əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi. Azərbaycanın antiterror koalisiyasının tərkibində Əfqanıstandakı sülhyaratma əməliyyatlarında iştirakı yüksək qiymətləndirildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

## SERBİYANIN XARİCİ İŞLƏR NAZİRİ VUK YEREMİÇ İLƏ GÖRÜŞ

*Münhen*

*4 fevral 2012-ci il*

*Almaniya Federativ Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Serbiyanın Xarici İşlər naziri Vuk Yeremiç ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olmasından, siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə edildi. Ölkələrimizin müxtəlif sahələrdə bir-birinə verdikləri dəstəyin önəmi vurğulandı. Serbiyada yol tikintisində Azərbaycan şirkətlərinin iştirakı ilə bağlı bu yaxınlarda Bakıda imzalanan müqavilənin əhəmiyyəti qeyd olundu.*

## FİNLANDİYANIN XARİCİ İŞLƏR NAZİRİ ERKKİ TUOMİOYA İLƏ GÖRÜŞ

*Münhen*

*4 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Münhendə Finlandiyanın Xarici İşlər naziri Erkki Tuomioya ilə görüşmüşdür.*

*Azərbaycan ilə Finlandiya arasında ikitərəfli münasibətlərin inkişaf etdiyi bildirilən görüşdə əlaqələrimizin daha da genişlənməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## TƏHLÜKƏSİZLİK KONFRANSININ «ENERJİ, EHTİYATLAR VƏ ƏTRAF MÜHİT: YENİ TƏHLÜKƏSİZLİK PARAMETRLƏRİ» MÖVZUSU MÜZAKİRƏLƏRİNDƏ İŞTİRAK

*Münhen*

*4 fevral 2012-ci il*

*Almaniyada işgüzar səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev fevralın 4-də 48-ci Münhen Təhlükəsizlik Konfransının əsas tədbirlərindən olan «Enerji, ehtiyatlar və ətraf mühit: yeni təhlükəsizlik parametrləri» mövzusunda müzakirələrdə iştirak etmişdir.*

*Tədbirin aparıcısı İsveç Krallığının Xarici İşlər naziri Karl Bildt Azərbaycan prezidenti İlham Əliyevə və digər qonaqlara bu konfransda iştirak etdiklərinə görə minnətdarlığını bildirdi.*

*Aparıcı Karl Bildt prezident İlham Əliyevi müzakirələrin əsas məruzəçisi kimi təqdim etdi.*

**Karl Bildt** *(İsveç Krallığının Xarici İşlər naziri):* Çıxış etmək üçün möhtərəm iştirakçılarımız vardır. Burada Azərbaycan prezidenti İlham Əliyev iştirak edir. O, 2003-cü ildən Azərbaycanın Prezidentidir. Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger, «Alyans»ın sədri Maykl Dikman, «Qreenpeace» Beynəlxalq təşkilatının icraçı direktoru Kumi Naidu, Ukrayna prezidenti Viktor Yanukoviç də tədbirdə iştirak edirlər. Qısa təqdimatdan sonra sözü Azərbaycan prezidenti İlham Əliyevə veririk.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Çox sağ olun, təşəkkür edirəm. Hər şeydən əvvəl Münhen Təhlükəsizlik Konfransının təşkilatçılarına dəvətə görə minnətdarlıq etmək istərdim. Yenidən buraya gəldiyimə və bu cür əhəmiyyətli məsələ ilə bağlı çıxış etdiyimə görə çox şadam. Bilirsiniz ki, Azərbaycan neft istehsal edən ən qədim ölkələrdəndir. Azərbaycanda sənaye üsulu ilə ilk neft XIX əsrin ortalarında istehsal edilib. O vaxtdan bəri çox şeylər dəyişib. Müstəqillik bərpa ediləndən sonra xalq öz sərvətlərinin sahibi oldu, 20 il ərzində enerji ehtiyatlarının səmərəli istifadəsi sayəsində iqtisadiyyatı şaxələndirilmiş ölkəyə çevrildi. Keçən əsrin 90-cı illərinin ortalarında ölkəmizin təşəbbüsü ilə həyata keçirilən layihələr Qafqaz və Xəzər regionlarının enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişdi və Avropanın da enerji xəritəsini dəyişməkdədir.

Xəzər dənizindən Aralıq dənizinə neft nəql edən böyük boru kəməri kimi inşa edilən enerji dəhlizi Azərbaycan və tərəfdaşları üçün faydalı olmaqla yanaşı, gələcək layihələrimiz üçün də çox səmərəlidir. Azərbaycan həm də nəhəng qaz ehtiyatlarına malik ölkə kimi tanınır. 1 trilyon kubmetrdən çox qaz ehtiyatı olan «Şahdəniz» dünyada ən böyük qaz yataqlarından biridir. 2010-cu ildə və ötən il kəşf edilən yeni yataqlar qaz ehtiyatlarının 2,5 trilyon kubmetrdən çox olduğunu sübut edib. Bu ehtiyatlar həm bizim, həm də tərəfdaşlarımız və istehlakçılarımız üçün yetərincə olacaqdır.

Hazırda daha geniş enerji dəhlizinin yaradılması üzərində işləyirik – təkcə neft sahəsini deyil, qaz sahəsini də əhatə edəcək. İndi regionumuzun enerji təhlükəsizliyinə əhəmiyyətli dərəcədə təsir göstərəcək mühüm qərarların qəbul edildiyi enerji layihələrimizin çox vacib və çətin mərhələsindəyik. Ancaq bazarlar olmadan layihələrimizi tam şəkildə həyata keçirə bilməyəcəyik. Azərbaycanın açıq dənizə birbaşa çıxışı yoxdur. Şaxələndirilmiş boru kəməri şəbəkəsi bizə neft və qazımızı müxtəlif istiqamətlərə nəql etməyə imkan verir. Buna görə də

şaxələndirmə istehsalçı ölkə kimi, bizim üçün çox böyük əhəmiyyətə malikdir. Bu, istehlakçılar üçün də əhəmiyyət kəsb edir. Biz istehlakçılar arasında enerji təhlükəsizliyi məsələsində düzgün balans tapmalıyıq və düşünürəm ki, tapırıq. Tranzit ölkələrin də maraqlarını unutmaq olmaz. Buna görə də maraqların balansı və tərəfdaşlarımızın maraqlarına adekvat yanaşma layihələrimizin uğurla reallaşması üçün əsas səbəbdir.

Bu gün – 2012-ci ilin əvvəlində bu konfransda çıxış edərək mən «Cənub Qaz Dəhlizi»nin gələcəyi ilə bağlı daha nikbinəm. Nikbinliyi artıran bir neçə səbəb vardır. Birincisi, yeni qaz yataqlarının kəşfi, artıq mövcud olan nəqletmə infrastrukturu, baxmayaraq ki, bunun sayı elə də çox deyildir. İkincisi, Avropada bizim enerji ehtiyatlarımıza artan tələbat, o cümlədən Avropa institutları və Azərbaycan arasındakı olduqca məhsuldar əməkdaşlıq son bir neçə ildə əsl tərəfdaşlıq münasibətlərinə çevrilib. Avropa Komissiyası prezidentinin 2011-ci ildə Azərbaycana səfəri və «Cənub Qaz Dəhlizi» ilə bağlı bəyannamənin imzalanması və hörmətli Ottingerin həmsədrlik etdiyi işçi qrupunun yaradılması. Bu amillər gələcək planlarımızla bağlı çox müsbət mənzərə yaradır. Keçən il baş verən əhəmiyyətli hadisələrdən biri Azərbaycanın qaz ehtiyatlarının Avropa bazarına çıxması üçün böyük qapı olacaq Azərbaycan və Türkiyə arasında qaz tranzitinə dair Anlaşma sazişinin imzalanması idi. Biz indi çox nadir bir vəziyyətdəyik. Avropa bazarına ehtiyacımız vardır. Bu, böyük bazardır və bu bazar qanunvericilik və qanun normaları ilə tənzimlənir. Avropa bazarının da təchizatla bağlı alternativ mənbələrə ehtiyacı vardır.

Biz şaxələndirmə və enerji təhlükəsizliyi ilə bağlı çox danışırıq. Bu iki məsələ bir-biri ilə birbaşa bağlıdır. Amma avropalı istehlakçılar üçün şaxələndirmə və enerji təhlükəsizliyindən bəhs edəndə, ilk növbədə eyni mənbəli marşrutların şaxələndirilməsindən daha çox mənbələrin şaxələndirilməsindən danışmalıyıq. Baxmayaraq ki, marşrutların şaxələndirilməsi də əhəmiyyətlidir. Belə ki, Azərbaycan

avropalı istehlakçılar üçün yeni mənbədir, yaxındır, dostdur. Əgər güclü «Cənub Dəhlizi»nin inşasında planlarımızın həyata keçirilməsinə müvəffəq olsaq, gələcək onilliklərdə enerji sahəsində çox məhsuldar və qarşılıqlı faydalı əməkdaşlıq mərhələsinə daxil olacağıq.

Enerji təhlükəsizliyi və proqnozlaşdırma olmadan heç bir ölkə gələcək inkişafı ilə bağlı planlar qura bilməz. Biz Fukusimadakı elektrik stansiyasında baş verən faciədən sonra müxtəlif enerji mənbələrinə münasibətdə dəyişikliklər və yanaşmalar haqqında bilirik.

Mən təkcə ehtiyatlara malik, istehsalçı, nəql edən və potensial tranzit bir ölkə kimi deyil, həm də öz təbii resursları və təbiətinə qayğı ilə yanaşan bir ölkə kimi, öhdəliyimizlə bağlı da bir neçə kəlmə demək istərdim. Bir əsrdən artıqdır ki, Azərbaycanın neft ehtiyatları ətraf mühitin mühafizəsinə heç bir hörmət qoyulmadan işlənilib. Bizim keçmişimizdə «ətraf mühit» anlayışı faktiki olaraq bir o qədər də lazımınca qiymətləndirilməyib. Bu gün öhdəliyimiz onilliklər boyunca suda və quruda neft istehsalından qalan o «miras»ı təmizləmək və həmçinin qlobal ətraf mühitin mühafizəsi işinə töhfəmizi verməkdir. Buna görə də baxmayaraq ki, neftimiz, qazımız və bazarlarımız var, biz indi bərpa olunan enerji sahələrinə sərmayə yatırırıq. Düşünürük ki, bu, öhdəliyimizin bir hissəsidir. Su enerjisinə sərmayə yatırırıq. Keçən ildən başlayaraq, günəş və külək enerjisinə sərmayə qoymağa başlamışıq. Ona görə yox ki, alternativ mənbələrə ehtiyacımız var, ona görə ki, biz keçmiş və gələcək nəsillərimiz qarşısında öhdəlik kimi yanaşdıq. Bu gün ekoloji mühafizə ilə bağlı məsələlərlə yanaşı, enerji təhlükəsizliyi, enerji ehtiyatlarını birlikdə müzakirə edirik. Azərbaycan öz rolunu oynamağa, enerji təhlükəsizliyini təmin etməyə, şaxələndirməyə və təbiətimizi mühafizə etməyə hazırdır.

* * *

*Daha sonra mövzu ilə bağlı fikir mübadiləsi davam etdirildi və suallar verildi.*

**S u a l: Bizim sərmayə yatıra biləcəyimiz ölkələrdə siyasi vəziyyət və coğrafi dəhlizlə bağlı çox danışırıq. Buna görə də sualımı cənab Dikmana ünvanlayıram. Çünki gələcək biznes risklərini müəyyən etmək və onun üzərində işləmək Sizin səlahiyyətiniz çərçivəsindədir. Bir il əvvəl Misir və Tunisdə baş verən iğtişaşların şahidi olduq. Sizin bir il ərzində enerji ilə zəngin ölkələrdə siyasi vəziyyətlə bağlı risklərin qiymətləndirilməsindəki fəaliyyətinizdə dəyişiklik varmı? Misir kimi ölkələrin təcrübəsindən misal gətirərək – burada Azərbaycan prezidenti də iştirak edir – öz siyasi strukturuna görə Mübarəkin devrilməsindən əvvəlki Misirə çox bənzəyən Azərbaycan kimi ölkəyə sərmayə yatıracaqsınızmı?**

**İ l h a m Ə l i y e v:** Mən faktiki olaraq, Azərbaycandakı vəziyyəti Misirdəki vəziyyət kimi təqdim etməyə cəhd olunan suala şərh vermək istərdim. Bu qəribə suala ən yaxşı cavab iştirakçıların reaksiyası oldu. Bayaqkı şəxsin savadından irəli gələrək bilmədiyi bir neçə göstəricini diqqətə çatdırmaq istəyirəm. Mənim 8 illik prezidentlik dövrümdə Azərbaycanda ümumi daxili məhsul 3 dəfə – 300 faiz artıb. Yoxsulluğun səviyyəsi 50 faizdən 7,6 faizə enib. İnflyasiyanın səviyyəsi 5,4 faiz təşkil edir. Son 8 ildə 1 milyondan artıq iş yeri yaradılıb. Xarici borc bizim ümumi daxili məhsulumuzun 6 faizini təşkil edir. İqtisadiyyatın şaxələnməsi sabitdir. Siyasi vəziyyət sabitdir, çoxpartiyalı sistemimiz var. Parlamentdə təmsil olunan 10-dan çox partiyamız, azad mətbuatımız vardır. Bizdə söz, din azadlığı vardır. Nəhayət, bizdə azad internet vardır. Qeyd etmək istərdim ki, bizim regionda heç də bütün ölkələrdə azad internet yoxdur. Azərbaycanda internet istifadəçilərinin sayı 50 faizdən artıqdır və bu rəqəm artmaqdadır.

Azərbaycanda müasir, sabit cəmiyyət vardır. Kimsə Azərbaycanda Misirdə baş verən hadisələr kimi nə isə görmək

istəyirsə, sizi əmin edirəm ki, nəyisə arzu edib-etməməyinizdən asılı olmayaraq bunu görməyəcəksiniz.

## Səfər başa çatdı

*Fevralın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına işgüzar səfərini başa çatdıraraq Vətənə qayıtmışdır.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

# FRANSA–QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDR MÜAVİNİ, FRANSA–AZƏRBAYCAN İŞÇİ QRUPUNUN RƏHBƏRİ, SENATOR XANIM NATALİ QULENİN BAŞÇILIQ ETDİYİ PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Fransa–Qafqaz dostluq qrupunun sədr müavini, Fransa–Azərbaycan işçi qrupunun rəhbəri, Senatda Mərkəzçi və Respublikaçı birlik siyasi qrupunun üzvü, senator xanım Natali Qulenin başçılıq etdiyi parlament nümayəndə heyətini qəbul etmişdir. Nümayəndə heyətinə senatorlar xanım Silvi Qo-Şavan, Jah-Mari Bokel, Erve More, Andre Rexar və Cani Lorju daxildir.*

*Dövlətimizin başçısı Fransa Senatında qondarma «erməni soyqırımı»nın inkar edilməsinə görə cəza nəzərdə tutan qanunun müzakirəsi zamanı tutduqları ədalətli mövqeyə görə xanım Natali Quleyə və digər senatorlara təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Fransa Senatında müzakirə olunan bu qanunu tarixi təhrif edən, demokratiyaya, söz azadlığına zidd olan, yalan və saxta məlumatlara əsaslanan təşəbbüs kimi dəyərləndirərək onun qüvvəyə minməyəcəyinə ümidvar olduğunu bildirdi.*

*Xanım Natali Qule özünün və ölkəmizə səfər edən senatorların Azərbaycan ilə əlaqələrin genişləndirilməsində səylərini əsirgəməyəcəyini vurğuladı və Bakıda keçirdikləri görüşlər zamanı bu istiqamətdə Azərbaycan ictimaiyyətinə ətraflı məlumatlar verəcəklərini dedi.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ VƏ GÜRCÜSTAN BÖHRANI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Filip Lefortu qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı.*

# TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ NEJDƏT ÖZƏLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Nejdət Özəlin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Nejdət Özəl Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyi qeyd olundu, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Nejdət Özəlin ölkəmizə səfərinin bu əlaqələrin daha da genişləndirilməsi işinə xidmət edəcəyi vurğulandı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## FİNLANDİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ

Hörmətli cənab Niinistö!

Finlandiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Finlandiya münasibətləri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da ardıcıl şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Finlandiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 fevral 2012-ci il*

# NƏRİMANOV VƏ SURAXANI RAYONLARINDAKI KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*8 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Bakının Nərimanov və Suraxanı rayonlarında yerləşən körpələr evi-uşaq bağçalarının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov əvvəlcə Nərimanov rayonundakı 305 saylı körpələr evi-uşaq bağçasında görülmüş əsaslı təmir və yenidənqurma işləri barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, müəssisə 1964-cü ildən fəaliyyət göstərir. Bu körpələr evi-uşaq bağçasının 75 yerlik ikimərtəbəli binasında 4 qrup var. Dövlət başçısının tapşırıqlarına əsasən bina qısa vaxt ərzində yüksək standartlara uyğun olaraq əsaslı şəkildə yenidən qurulub, müasir avadanlıq və mebel dəstləri ilə təmin edilmişdir.*

*Azərbaycan prezidenti ayrı-ayrı otaqlara baxdı, görülmüş işlərin keyfiyyəti ilə maraqlandı. Körpələr evi-uşaq bağçasında müasir istilik sistemi quraşdırıldığı, daimi isti və soyuq su ilə təchiz edildiyi qeyd olundu. Bildirildi ki, burada uşaqların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Müəssisənin həyatında də abadlıq və quruculuq işləri görülüb, ərazi asfaltlanıb, müasir işıqlandırma sistemi quraşdırılıbdır.*

* * *

*Sonra prezident İlham Əliyev Suraxanı rayonunun Əmircan qəsəbəsindəki 313 saylı körpələr evi-uşaq bağçasının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış oldu. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov buradakı vəziyyətlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Qeyd edildi ki, iki mərtəbədən ibarət körpələr evi-uşaq bağçasının binası 1959-cu ildə istismara verilib. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq müəssisənin binasında əsaslı bərpa və yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib. 80 yerlik və dörd qrupdan ibarət körpələr evi-uşaq bağçasında qəsəbənin balaca sakinləri üçün bütün lazımi şərait yaradılıb. Burada yeni qazanxana istismara verilib, müəssisədə istilik sistemi quraşdırılıb, bina isti və soyuq su ilə təchiz edilib, ehtiyat su anbarı inşa olunub. Körpələr evi-uşaq bağçasının bir hektara yaxın ərazisində abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Həyətyanı sahədə uşaqlar üçün istirahət guşələri yaradılıb. Ərazi asfaltlanıb, daş örtüklər döşənib. Binada və ərazidə müasir işıqlandırma sistemi quraşdırılıbdır.*

*Əsaslı təmir və yenidənqurma işləri ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Albaniyanın Baş naziri Sali Berişanı qəbul etmişdir.*

*Baş nazir Sali Berişa ilə müxtəlif beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırladan dövlətimizin başçısı onun ölkəmizə ilk səfərinin ikitərəfli münasibətlərimizin genişləndirilməsi baxımından önəmli olduğunu qeyd etdi. Azərbaycan ilə Albaniya arasında əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə ümidvar olduğunu bildirən prezident İlham Əliyev səfər zamanı əlaqələrimizin genişləndirilməsinə dair aparılacaq müzakirələrin, qəbul olunacaq qərarların ölkələrimizin bir-birinə daha da yaxınlaşması baxımından əhəmiyyətini qeyd etdi.*

*Albaniyanın Baş naziri Sali Berişa Azərbaycana səfər etməsindən böyük şərəf duyduğunu dedi. Albaniyalılar üçün Azərbaycanın dost ölkə olduğunu vurğulayan Baş nazir bildirdi ki, səfərinin əsas məqsədi ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərini daha da inkişaf etdirməkdir. Əlaqələrimizin möhkəmlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən Sali Berişa bu cür səfərlərin gələcəkdə də davam edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Albaniyanın Baş naziri Sali Berişa Albaniya İctimai Televiziyasının müxbirinin sualına cavab verdilər.*

**İ l h a m  Ə l i y e v:** Bizim çox yaxşı münasibətlərimiz, möhkəm əlaqələrimiz vardır. Cənab Baş nazir ilə müxtəlif beynəlxalq tədbirlərdə çox tez-tez görüşürük. Lakin biz ilk

dəfədir ki, Azərbaycanda görüşdük. Mən cənab Baş naziri bir neçə dəfə səfərə dəvət etmişəm və onu burada görməyimdən şadam.

Bu gün biz bir çox məsələlərə – siyasi əməkdaşlıq, iqtisadi əlaqələr, enerji sahəsində əməkdaşlığa dair geniş müzakirələr apardıq. Bütün bu məsələlərə dair fikirlərimiz üst-üstə düşür. Şübhəm yoxdur ki, bu səfərdən sonra ölkələrimiz arasında əlaqələrin daha sürətli inkişafının şahidi olacağıq və çox gözəl nəticələr əldə edəcəyik.

**S a l i  B e r i ş a**: Prezident İlham Əliyevə göstərdiyi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirirəm. Səfərimin əsas məqsədi iki ölkə arasında dostluq əlaqələrini və münasibətləri daha da möhkəmləndirməkdir. Mənim üçün, Albaniya xalqı üçün Azərbaycan yaxın dost ölkədir. Mən cənab prezident İlham Əliyev ilə əvvəllər olduğu kimi, bu dəfə keçirdiyim səmimi görüşdə də eyni mühitin, isti münasibətin və iradənin şahidi oldum. Cənab Prezidenti Albaniyaya səfərə dəvət etmişəm və onunla tamamilə razıyam ki, bundan sonra iki ölkə arasında münasibətlərdə yeni səhifələrin açılması üçün daha da sıx işləyəcəyik.

# NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAY İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə NATO arasında mövcud proqramlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## ARGENTİNANIN TURİZM NAZİRİ KARLOS ENRİKİ MEYER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Argentina Respublikasının Turizm naziri Karlos Enriki Meyeri qəbul etmişdir.*

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Argentina Respublikası arasında son illər ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Argentinada Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının əməkdaşlığımızın daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi. Ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsində qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Argentinanın Turizm naziri Karlos Enriki Meyerin Azərbaycana səfərinin münasibətlərimizin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Argentinanın Turizm naziri Karlos Enriki Meyer ölkəsinin Azərbaycan ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu dedi. Əməkdaşlığın inkişafında qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayan qonaq bu baxımdan rəhbərlik etdiyi nazirlik tərəfindən Azərbaycanın turizm sektoru nümayəndələrinin Argentinaya təşkil olunacaq səfərinin önəmini qeyd etdi. O, Azərbaycanda hər il keçirilən ənənəvi turizm sərgisində ölkəsinin turizm şirkətlərinin də iştirak etmək arzusunda olduğunu bildirdi.

Görüşdə əlaqələrimizin möhkəmlənməsində 2013-cü ildə Argentinada keçiriləcək Azərbaycan mədəniyyəti günlərinin önəmi qeyd olundu.

**TÜRKMƏNİSTAN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Türkmənistanın Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Türkmənistan arasındakı ənənəvi dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Türkmənistan xalqının rifahı və tərəqqisi naminə dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 fevral 2012-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər naziri Şeyx Abdullah bin Zayid əl-Nəhəyyanı qəbul etmişdir.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə sürətli inkişafından məmnunluğunu bildirən dövlətimizin başçısı əlaqələrimizin qarşıdakı illərdə də möhkəmlənəcəyinə əminliyini ifadə etdi. Siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimizin yeni mərhələyə qədəm qoyduğunu vurğulayan prezident İlham Əliyev əməkdaşlığımızın regionda sülhə və sabitliyə xidmət edəcəyini dedi. Dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyini vurğuladı.*

*Xarici İşlər naziri Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayid əl-Nəhəyyanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin dövlət başçısının Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələrin inkişafından məmnun olduğunu dedi. Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayid əl-Nəhəyyanın rəhbərliyi altında əlaqələrimizin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayid əl-Nəhəyyanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin dövlət başçısına çatdırmağı xahiş etdi.*

## BELÇİKAYA İŞGÜZAR SƏFƏR

*14 fevral 2012-ci il*

*Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Brüssel aeroportunda Belçikanın yüksək səviyyəli dövlət və hökumət rəsmiləri qarşıladılar.*

## AVROPA XALQ PARTİYASININ PREZİDENTİ UİLFRİD MARTENS İLƏ GÖRÜŞ

*Brüssel*

*14 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Brüsseldə Avropa Xalq Partiyasının (AXP) prezidenti Uilfrid Martens ilə görüşmüşdür.*

*Görüşdə Avropa Xalq Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi vurğulandı, bu cür əlaqələrin ölkəmizin Avropa İttifaqına inteqrasiyasına böyük töhfə verdiyi bildirildi.*

*Ötən həftə Avropa Xalq Partiyası tərəfindən Avropa Parlamentində təşkil edilmiş «Avropa İttifaqı–Azərbaycan: tərəfdaşlıq üçün yeni üfüqlər» adlı konfransın əhəmiyyəti qeyd edildi.*

*Görüşdə Avronest Parlament Assambleyası çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyi vurğulandı.*

# NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSEN İLƏ GÖRÜŞ

*Brüssel*

*15 fevral 2012-ci il*

*Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də NATO-nun Baş katibi Anders Foq Rasmussen ilə görüşmüşdür.*

*NATO-nun Baş katibi dövlətimizin başçısını Alyansın mənzil-qərargahının önündə böyük səmimiyyətlə qarşıladı, dəvəti qəbul edib NATO-nun mənzil-qərargahına gəldiyinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Azərbaycan–NATO tərəfdaşlığını yüksək qiymətləndirən Baş katib ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə prezident İlham Əliyevi təbrik etdi.*

*NATO-nun Fərdi Tərəfdaşlığın Əməliyyat Planının təsdiq olunmasının Azərbaycan–NATO əməkdaşlığının genişləndirilməsinə əhəmiyyətini qeyd edən Baş katib ölkəmizin antiterror koalisiyası çərçivəsində Əfqanıstanda sülhyaratma əməliyyatlarında fəal iştirakına görə təşəkkür etdi.*

*Prezident İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə təbriklərinə görə NATO-nun Baş katibinə minnətdarlıq etdi.*

*Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz NATO–Azərbaycan tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi üçün bundan sonra da səylərini artıracaqdır.*

*Prezident İlham Əliyev Azərbaycanın Avroatlantik strukturlara inteqrasiya istiqamətində fəaliyyətini bundan sonra da davam etdirəcəyini, Azərbaycan ilə NATO arasında etibarlı tərəfdaşlıq əlaqələrinin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.*

# NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSEN İLƏ BİRGƏ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLAR

*Brüssel*

*15 fevral 2012-ci il*

*Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun Baş katibi Anders Foq Rasmussen Alyansın Brüsseldəki mənzil-qərargahında mətbuat nümayəndələri qarşısında birgə bəyanatla çıxış etmişlər.*

## NATO-nun Baş katibi Anders Foq Rasmussenin bəyanatı

Azərbaycan prezidenti cənab İlham Əliyevi burada, NATO-nun mənzil-qərargahında salamlamaqdan olduqca məmnunam. NATO Azərbaycan ilə tərəfdaşlığını yüksək dəyərləndirir. Biz Əfqanıstanda Azərbaycanın verdiyi töhfələrə görə minnətdarıq. Bizim bir çox siyasi prioritetlərimiz və təhlükəsizlik sahəsində maraqlarımız üst-üstə düşür. Uzun illər əməkdaşlığımızı və dialoqumuzu qurmuşuq. Münasibətlərimiz Avropa və Avroatlantik təhlükəsizliyinə töhfə verir.

Cənab Prezident, Sizin bugünkü səfəriniz Çikaqo sammiti ərəfəsində NATO-nun tərəfdaş ölkələrlə apardığı məsləhətləşmələrə verdiyi əhəmiyyəti nümayiş etdirir. Sizinlə əməkdaşlığımızı və regional, eləcə də beynəlxalq səviyyədə bizi narahat edən məsələləri müzakirə etdik. Həmçinin gələcəkdə hansı şəkildə birgə işləmək imkanlarını da müzakirə etdik. İşimizi birgə müzakirə etmək məqsədi ilə bir azdan NATO-nun bütün 28 müttəfiq ölkəsi ilə birgə toplantı keçirəcəyik və bizi narahat edən məsələləri dinləyəcəyik. Bu, NATO-nun tərəfdaşları qarşısında götürdüyü öhdəlikdir. Xüsusilə də mən Əfqanıstanda apardığımız əməliyyatları müzakirə etmək istərdim. Azərbaycan

həmin əməliyyatlara həm hərbçiləri ilə, həm də hava məkanından istifadə etmək hüququ kimi töhfə verir. Biz bu dəstəyi yüksək dəyərləndiririk. Əməkdaşlığımız digər sahələri də əhatə edir. Dekabrda biz Fərdi Tərəfdaşlığın Əməliyyat Planı üzərində razılığa gəldik. Bu yeni plan qarşıdakı 2 ildə əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün yaxşı zəmin yaradacaqdır.

Azərbaycan mühüm regionda əhəmiyyətli tərəfdaşdır və gələcəkdə mən Sizinlə apardığım işin davam etdirilməsini səmimiyyətlə arzulayıram.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Cənab Baş katib, ölkəmiz haqqında söylədiyiniz xoş sözlərə və dəvətə görə Sizə minnətdaram. NATO-nun mənzil-qərargahında yenidən olmağıma və ikitərəfli münasibətlərimizə aid olan bir çox mühüm məsələləri müzakirə etməkdən çox şadam. NATO ilə Azərbaycan arasında münasibətlərin çox yaxşı tarixi vardır. Keçən əsrin 90-cı illərinin əvvəllərindən Azərbaycan Avroatlantik strukturlara inteqrasiya olmaqda çox fəal idi. Silahlı Qüvvələrimiz daxilində islahatlar aparırıq və mən çalışıram onları NATO standartlarına uyğunlaşdırım. Əməkdaşlığımızın bu hissəsinin Silahlı Qüvvələrimizə çox böyük təsiri vardır. NATO-nun dünyanın müxtəlif yerlərində aparılan əməliyyatlarındakı iştirak hərbi qulluqçularımıza öz bacarıqlarını artırmaqda yardımçı olmuş və onlar NATO-dakı həmkarlarından bir çox məsələləri öyrənmişlər.

Biz Əfqanıstanda ilk vaxtlardan olmuşuq. Dediyiniz kimi, hava məkanından və ərazimizdən keçmək imkanını yaradırıq. Çox şadam ki, Əfqanıstana daşınan yüklər baxımından Azərbaycanın tranzit ölkə kimi əhəmiyyəti artır. Bu gün bu sahədə gələcək əməkdaşlığımızı müzakirə etdik. Əməkdaşlığımızı bu sahədə genişləndirmək məqsədilə yeni təklifləri müzakirə etməyə hazırıq. Biz Əfqanıstanda qulluq etmək məqsədi ilə hərbçilərimizi oraya ezam edirik. Bu,

Əfqanıstanda beynəlxalq sülh qüvvələrinin apardıqları əməliyyatlar baxımından üzərimizə götürdüyümüz öhdəliyin bir hissəsidir. Bu gün mən cənab Baş katibə məlumat verdim ki, biz Əfqanıstanın milli ordusunun qəyyumlar fonduna töhfə vermək məsələsini də nəzərdən keçiririk. Eyni zamanda, biz Diplomatik Akademiya və Sərhəd Qoşunları Akademiyamızda əfqan diplomatları üçün təlim kursları təşkil edirik. İstehkamçı və digər humanitar məsələlər üzərində işləyirik və əməkdaşlığımızı genişləndirməyə hazırıq.

Bu gün həmçinin regional təhlükəsizlik məsələləri, xüsusən də Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı aparılan danışıqları müzakirə etdik. Cənab Baş katibi danışıqların hazırkı durumu ilə tanış etdim və bir daha ümidvar olduğumuzu bəyan etdik ki, münaqişə mümkün qədər tez və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəkdir. Bunun üçün Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib.

Bu gün apardığımız müzakirələrin müəyyən hissəsi enerji təhlükəsizliyinə həsr olunmuşdur. Bu, bütün ölkələrin – həm hasilatçı, həm istehlakçı ölkələrin milli təhlükəsizliyinin olduqca mühüm elementidir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkəyə çevrilir və əminəm ki, çevriləcəkdir. Avropadakı istehlakçılarımız, həmçinin NATO-nun üzvü olan dövlətlərdir. Bu mövzu müzakirələrimizin və məsləhətləşmələrimizin bir hissəsidir.

Baş katibə etdiyi dəvətə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Münasibətlərimizin inkişaf etməsindən və dəyişməsindən məmnunluğumu bildirirəm. Ümidvaram ki, əlaqələrimiz uğurla inkişaf edəcəkdir və qarşılıqlı maraqlara ortaq dəyərlərə əsaslanacaqdır.

## BRÜSSELDƏ NATO-nun ŞİMALİ ATLANTİKA ŞURASINDA ÜZV DÖVLƏTLƏRİN NATO YANINDA DAİMİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Brüssel*

*15 fevral 2012-ci il*

*Prezident İlham Əliyev Belçikaya işgüzar səfəri çərçivəsində fevralın 15-də NATO-nun Şimali Atlantika Şurasında üzv dövlətlərin NATO yanında daimi nümayəndələri ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

*Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra 20 il ərzində keçdiyi inkişaf yolundan danışan dövlətimizin başçısı ölkəmizdə siyasi, iqtisadi, sosial və digər sahələrdə uğurlu islahatların aparıldığını bildirdi.*

*Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanda aparılan uğurlu islahatlar, siyasi-iqtisadi sabitliyin bərpa olunması, siyasi sistemin möhkəmləndirilməsi sürətli iqtisadi inkişafla nəticələnmiş, ölkəmizə böyük həcmdə investisiyalar qoyulmuşdur. Zəngin neft-qaz ehtiyatlarına malik olan Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır.*

*Ölkəmizin qazandığı nailiyyətlərin təməlində düşünülmüş siyasətin dayandığını deyən prezident İlham Əliyev xarici siyasətimizin uğurlarından danışarkən Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmləndiyini bildirdi.*

*Azərbaycan prezidenti ölkəmizin beynəlxalq təşkilatlar, o cümlədən NATO ilə uğurlu əməkdaşlığını qeyd etdi.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bir daha ölkəmizin mövqeyini diqqətə çatdırdı. Bildirdi ki, münaqişə beynəlxalq*

*hüququn norma və prinsipləri çərçivəsində, yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır.*

*Sonra üzv ölkələrin NATO yanında daimi nümayəndələri çıxış etdilər. Onlar təmsil etdikləri ölkələrin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bildirdilər.*

*Daimi nümayəndələr Azərbaycanın NATO ilə əməkdaşlığına toxunaraq ölkəmizin Əfqanıstanda sülhyaratma əməliyyatlarında iştirakını yüksək qiymətləndirdilər. Bildirdilər ki, təmsil etdikləri ölkələr Azərbaycanla münasibətlərə böyük əhəmiyyət verir.*

*Çıxış edənlər Azərbaycanın iqtisadi inkişafını vurğulayaraq ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki rolunun önəmini qeyd etdilər.*

*Sonra prezident İlham Əliyev daimi nümayəndəliklərin rəhbərlərinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki rolu və digər məsələlərlə bağlı suallarına cavab verdi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri fevralın 15-də başa çatmışdır.*

*Brüsselin aeroportunda prezident İlham Əliyevi Belçika Krallığının yüksək vəzifəli dövlət və hökumət rəsmiləri yola saldılar.*

*** * ***

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev qarşıladılar.*

## QUSAR RAYONUNA SƏFƏR

*16 fevral 2012-ci il*

*Fevralın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qusar rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Qusar şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin ətrafında görülmüş işlər barədə məlumat verildi. Bildirildi ki, abidənin yerləşdiyi Heydər Əliyev Xatirə Kompleksində Heydər Əliyev Mərkəzi, uşaq əyləncə meydanı, ictimai iaşə obyekti inşa olunmuş, geniş abadlıq-quruculuq işləri aparılmış, yaşıllıq zolaqları salınmışdır. Abidənin yaxınlığında inşa olunmuş Heydər Əliyev Mərkəzi möhtəşəmliyi ilə kompleksin görkəminə xüsusi yaraşıq verir.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Fevralın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qusarda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, Heydər Əliyev Mərkəzinin ikimərtəbəli binasının tikintialtı sahəsi 1060, ümumi sahəsi 1420 kvadratmetrdir. Mərkəzdə yaradılan Heydər Əliyev Muzeyindəki fotoşəkillər və sənədlər ümummilli liderin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əhatə edir. Muzeydə ulu öndərin büstü qoyulmuşdur. Buradakı fotolardan aydın görünür ki, ümummilli lider istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə ölkəmizə rəhbərlik etdiyi illərdə gələcəyə*

*hesablanan siyasət reallaşdırılmış, Vətəninin və xalqının rifahı naminə mühüm işlər görmüşdür. Ulu öndərin ikinci dəfə hakimiyyətə gəlişi ilə ölkəmiz tənəzzül dövründən tərəqqi mərhələsinə qədəm qoymuşdur. Məhz bu dövrdə Azərbaycanın beynəlxalq nüfuzu artmağa başlamış, respublikamız regional və beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarına çevrilmiş və onları reallaşdırmışdır. Bu gün ölkəmizdə bütün sahələrdə müşahidə olunan uğurlu inkişafın təməlində Heydər Əliyevin müdrik siyasi zəkası və uzaqgörənliyi durur.*

*Dövlət başçısına məlumat verildi ki, Mərkəzdə iclas zalı və elektron kitabxana yaradılmışdır. Bu kitabxana çoxlu sayda müxtəlif ədəbiyyatlarla zənginləşdirilmişdir. Kitabxanada quraşdırılan 16 kompüterdən istifadə etməklə istənilən elektron kitabı oxumaq mümkündür. Mərkəzdə yaradılmış rəsm və xalçaçılıq dərnəkləri gənc nəslin qədim adət-ənənələrimizə bağlılığını artırır, onların rəsm və xalçaçılığın sirlərini öyrənmələrinə yardımçı olur.*

*Prezident İlham Əliyev Mərkəzdəki 118 yerlik kinozal ilə tanış oldu. Sonra dövlətimizin başçısı Mərkəzin ikinci mərtəbəsindən ətrafı seyr etdi. Azərbaycan prezidentinə kompleksin ərazisində görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verildi.*

*Prezident İlham Əliyev Mərkəzin Xatirə kitabına ürək sözlərini yazdı. Daha sonra dövlətimizin başçısı kompleksin ərazisində inşa olunmuş kafedə yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, kafedə sakinlərin istirahəti üçün hər cür şərait vardır.*

*Prezident İlham Əliyev kafenin yay meydançasından Qusar şəhərinin mənzərəsini seyr etdi. Dövlətimizin başçısına Qusarda görülmüş işlər, eləcə də gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verildi.*

*Kompleksin ərazisində yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev tövsiyə və tapşırıqlarını verdi.*

**Şahmat mərkəzinin açılışı mərasimi**

*Fevralın 16-da prezident İlham Əliyev Qusara səfəri çərçivəsində Şahmat mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Şahmat mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, Şahmat mərkəzində yeniyetmələrin və gənclərin idmanın bu növü ilə məşğul olmaları üçün geniş imkanlar yaradılmışdır. İkimərtəbəli bina həm də rayonun ümumi görkəminə əlavə çalarlar qatır. Şahmat mərkəzinin ümumi həyətyanı sahəsi 1500 kvadratmetrdir.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, bina əvvəllər «Nizami» kinoteatrı kimi fəaliyyət göstərmişdir. 2009-cu ildə burada əsaslı təmir və yenidənqurma işləri aparılmış və müasir tələblərə cavab verən şahmat mərkəzi yaradılmışdır. Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idmanın müxtəlif sahələri, o cümlədən şahmatın inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət stend quraşdırılmışdır.*

*Prezident İlham Əliyev zalda gənc şahmatçıların məşq prosesini izlədi. Sonra dövlətimizin başçısı foyedə quraşdırılmış monitorlarda 2008-ci və 2011-ci illərdə Qusar rayonuna səfərlərini əks etdirən görüntülərə baxdı.*

*Şahmat mərkəzində yaradılmış şəraiti yüksək qiymətləndirən dövlətimizin başçısı tövsiyə və tapşırıqlarını bildirdi.*

**Qusar Rayon Mərkəzi Xəstəxanasının açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 16-da Qusara səfəri çərçivəsində Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayev dövlətimizin başçısına məlumat verdi ki, 170 çarpayılıq Qusar Rayon Mərkəzi Xəstəxanasının təməli 2008-ci ildə prezident İlham Əliyevin iştirakı ilə qoyulmuşdur. Tikintisi Dövlət Neft Şirkətinin vəsaiti hesabına həyata keçirilmiş xəstəxananın ümumi sahəsi 2,9*

hektardır. Ərazidə əsas korpus, vərəm dispanseri və yoluxucu xəstəliklər şöbəsinin binalarından əlavə, 12 müxtəlif yardımçı tikili və qurğu inşa olunmuşdur. Xəstəxana bütün lazımi inventar və avadanlıqla təchiz edilmişdir.

Qeyd olundu ki, ölkəmizdə tibb müəssisələrinin ən son elmi-texniki yeniliklərə əsaslanan avadanlıqla təchiz olunması, ilk növbədə əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini yüksəltməyə xidmət edir. Bu həm də dövlətimizin səhiyyə sahəsinin müasirləşdirilməsi istiqamətində gördüyü işlərin tərkib hissəsidir. Respublikamızda səhiyyə xidmətinin səviyyəsinin qaldırılması və bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində Heydər Əliyev Fondu xüsusi fəallıq göstərir. İndi Azərbaycanın bütün bölgələrində mürəkkəb cərrahiyyə əməliyyatları aparılır, istənilən xəstəliyin müalicəsi mümkündür. Son illərdə ölkəmizdə 400-dək səhiyyə müəssisəsi inşa olunmuş və ya əsaslı təmir edilmişdir. Ölkəmizdə dövlət səhiyyə müəssisələrində əhaliyə xidmət pulsuzdur.

Xəstəxana binasının foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin tibb sahəsinin inkişafına göstərdikləri qayğını əks etdirən fotostendlər yaradılmışdır. Xəstəxanada şüa-diaqnostika, qəbul, təcili tibbi yardım, poliklinika, doğum, ginekologiya, pediatriya, terapiya, cərrahi-stasionar, anesteziologiya, reanimasiya şöbələri, qadın məsləhətxanası, əməliyyat bloku yaradılmışdır.

Dövlətimizin başçısı xəstəxananın dördüncü mərtəbəsindəki əməliyyat bloku ilə tanış oldu. Məlumat verildi ki, əməliyyat bloku ən son avadanlıqla təchiz olunmuşdur. Burada ekspress laboratoriya, reanimasiya zalı, palatalar və intensiv terapiya palataları vardır. Xəstəxanada quraşdırılan avadanlıq inkişaf etmiş ölkələrdə istehsal olunmuşdur. Bu avadanlıq səhiyyə sahəsində müasir tibbi əməliyyatlarda istifadə edilir.

# QUSAR RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 fevral 2012-ci il*

*Səhiyyə ocağında yaradılan şəraitlə tanış olandan sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

– Yenidən Qusarda olmağımdan çox məmnunam. Xüsusilə biz sizinlə gözəl gündə görüşürük. Bu gün Qusar rayon xəstəxanasının açılışını qeyd etdik. Əminəm ki, bu xəstəxana qusarlıların xidmətində olacaqdır. Xəstəxananın təməlini biz bərabər qoyduq. Bu, şimal zonasının ən böyük xəstəxanasıdır, ən müasir avadanlıq quraşdırılıb, ən gözəl şərait yaradılıb və bütün şöbələr nəzərdə tutulub. Xəstəxana ilə tanış olarkən bir daha gördük ki, istənilən inkişaf etmiş ölkənin standartlarına cavab verir, bəlkə daha üstündür.

Xəstəxananın açılışı doğrudan da böyük hadisədir, ümid edirəm ki, burada göstəriləcək tibbi xidmət də yüksək səviyyədə olacaqdır. Quraşdırılan yeni, ən müasir avadanlıq, əlbəttə ki, insanların sağlamlığının keşiyində duracaqdır. Ancaq bu avadanlıqla işləmək üçün həkimlər təlim kursları keçməlidirlər. Bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir və burada insanlara ən gözəl xidmət göstərilməlidir. Bütövlükdə şimal zonasının səhiyyə məsələləri uğurla həll olunur, əvvəlki dövrlərdə ətraf rayonların hamısında tibb mərkəzləri tikilmişdir. Qubada Müalicə-Diaqnostika Mərkəzi tikilmişdir. Siyəzəndə hələ 2004-cü ildə Dövlət Neft Şirkəti tərəfindən xəstəxana tikilmişdir. Xaçmazda, Şabranda və nəhayət, Qusarda bu xəstəxananın açılışını qeyd etdik. Beləliklə, şimal zonasının əsas səhiyyə məsələləri öz həllini tapır. Bütövlükdə ölkə üzrə hər bir bölgədə yeni xəstəxanalar, diaqnostika mərkəzləri açılır və açılacaqdır.

Təbii ki, Bakı şəhərində də bu proses geniş vüsət almışdır. Bakıda son illər ərzində ən müasir xəstəxanalar tikilmişdir. Bu

xəstəxanaların fəaliyyətə başlaması Bakını bölgənin, yəni regionun, o cümlədən səhiyyə sahəsində mərkəzinə çevirəcəkdir. Xəstəxananın tikintisini Dövlət Neft Şirkəti icra etmişdir. Dövlət Neft Şirkəti Azərbaycanın və bölgənin, regionun ən böyük şirkətidir, böyük funksiyaları, vəzifələri vardır, Azərbaycan iqtisadiyyatının əsas hissəsi neft-qaz sektoruna aiddir. Bununla bərabər, Dövlət Neft Şirkəti çoxsaylı sosial proqramları icra edir. Qusar rayonunun inkişafında da Dövlət Neft Şirkəti fəal iştirak edir, yeni parklar salınır, yeni muzeylər açılır. Bu sosial funksiya hesab edirəm ki, qusarlıların ürəyincə olmalıdır.

Qusar rayonunun inkişafı ilə bağlı konkret proqramlar icra edilir. Mən dəfələrlə Qusarda olmuşam və çox şadam ki, bu rayonda həm sosial, həm infrastruktur layihələri icra edilir. Şahdağ Elektrik Stansiyası bir müddət bundan əvvəl tikilmişdir. Bu stansiya bütün şimal zonasını elektrik enerjisi ilə təchiz edir. Rayonun inkişafı yollar tikilmədən mümkün deyildir. Bu məqsədlə Bakı–Quba–Qusar avtomobil yolu tikilir və Quba–Qusar hissəsi indi tikilməkdədir. Əvvəlki dövrdə burada olarkən biz Samur–Həzrə kənd yolunun açılışını qeyd etdik. Ancaq Həzrədən o tərəfdə yaşayan sakinlər də müraciət etmişlər ki, onların yolları da abadlaşsın və bu qərar da verildi. İndi Zuxul kəndinə qədər yeni yolun çəkilişi davam edir. Bu layihə başa çatandan sonra 30-a yaxın kənd artıq gözəl yoldan istifadə edəcəkdir.

Əvvəlki dövrdə Qusarda gözəl Olimpiya İdman Kompleksi açılmışdır. 20-yə yaxın məktəb tikilib və təmir edilmişdir. İndi gözəl xəstəxana açılır. Rayonun inkişafı üçün lazım olan maliyyə dəstəyi də verilir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara kreditlər ayrılır və ölkə miqyasında qeyri-neft sektorunda ən böyük investisiya layihəsi də məhz Qusar rayonunda həyata keçirilir. Şahdağ qış-yay xizək mərkəzinin tikintisi sürətlə və uğurla gedir.

Qeyri-neft sektorunda, xüsusilə turizm sektorunda ən böyük sərmayə Azərbaycanda Qusar rayonuna qoyulur. Bu

sərmayənin əsas hissəsini dövlət öz üzərinə götürmüşdür. Dövlət büdcəsi hesabına hazırda burada üç mehmanxana tikilir, istirahət zonaları, yollar salınır, bütün kommunikasiyalar çəkilir – işıq, qaz, su, kanalizasiya. Çox şadam ki, özəl sektor da bizim təşəbbüslərə qoşulmuşdur. Özəl sektor tərəfindən də mehmanxanalar tikilməkdədir.

Beləliklə, Şahdağ Xizək Mərkəzi dünyanın ən gözəl mərkəzlərindən birinə çevriləcəkdir. Buraya gələcək turistlərin sayı hesab edirəm ki, minlərlə ölçüləcəkdir.

Təbii ki, bu, rayonun inkişafına çox böyük təkan verəcək, yüzlərlə, bəlkə minlərlə yeni iş yerləri açılacaq və Qusar rayonu Azərbaycanın turizm mərkəzinə çevriləcəkdir. Biz bu layihəni bir neçə il bundan əvvəl başlamışdıq. Onu da demək istəyirəm ki, layihə mənim təşəbbüsümlə başlanmışdır.

Rayonun sosial infrastrukturunun təkmilləşdirilməsi üçün konkret addımlar atılır. Dövlət Neft Şirkəti burada böyük qazlaşdırma layihələrini icra edir. Rayon mərkəzi qazlaşdırılıbdır. İndi ətraf kəndlərdə qazlaşdırma işi gedir. Hələ ki qazlaşdırma istədiyimiz səviyyədə deyil, ancaq qarşıya vəzifə qoyulubdur ki, gələn ilin sonuna qədər Qusar rayonunda maksimum kəndlər qazlaşdırılsın. Bununla bərabər, içməli su və kanalizasiya xətlərinin yenilənməsi layihəsi də başlamaq üzrədir. Bu layihə də çox vacibdir.

Bütövlükdə ölkəmiz inamla inkişaf edir. Bütün iqtisadi göstəricilərimiz yüksək səviyyədədir. Dünyada hökm sürən maliyyə və iqtisadi böhran dövründə beynəlxalq maliyyə qurumları Azərbaycanın iqtisadi reytinqini artırırlar. Avropanın inkişaf etmiş ölkələrinin reytinqləri aşağı düşdüyü halda, Azərbaycanın reytinqi qalxır. Bu, ölkəmizdə görülən işlərin nəticəsidir. İş olan yerdə nəticə də olur. Biz işləyirik və özü də yaxşı işləyirik.

Qusar rayonunun inkişafı daha çox turizmlə, kənd təsərrüfatı ilə bağlı olacaqdır. Biz bu gözəl təbiəti qorumalıyıq. Bu, böyük dəyər, böyük sərvətdir. Həm təmiz hava, həm gözəl şərait, gözəl dağlar. Biz öz işimizlə, konkret layihələrimizlə bu gözəlliyə

əlavə gözəllik qatmalıyıq. Qusar şəhəri də abadlaşır. Gözəl parklar salınır, yollar çəkilir, şəhərin bütün infrastrukturu yenilənir və gələcəkdə bu proses daha da sürətlə gedəcəkdir.

Bu gün bu gözəl xəstəxananın açılışı həm qusarlılar, həm də bütün Azərbaycan vətəndaşları üçün çox vacibdir və qiymətlidir. Qusarlıların burada sağlamlığını bərpa etmək üçün bütün şərait vardır. Mənim yeganə xahişim ondan ibarətdir ki, rayon sakinləri gəlsinlər, heç olmasa ildə bir dəfə burada müayinədən keçsinlər. Ölkəmiz düzgün istiqamətdə inkişaf edir, yolumuz açıqdır, niyyətlərimiz təmizdir. Biz ölkəmizi gücləndirəcəyik.

Azərbaycan bu bölgədə sabitlik, təhlükəsizlik adasıdır, inkişaf məkanıdır. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayırlar. Bu da bizim böyük üstünlüyümüzdür, böyük dəyərimizdir. Biz bunu qiymətləndirməliyik və ölkəmizdə yaşayan bütün xalqlar arasında bu qardaşlığı, dostluğu daha da möhkəmləndirməliyik. Çox şadam ki, müstəqillik dövründə də – birinci iki ili istisna etmək şərti ilə – bu gözəl ənənələr yaşayır. Müstəqilliyimizin ilk illərində o vaxtkı iqtidar bütün sahələrdə, o cümlədən milli münasibətlər sahəsində çox böyük səhvlər buraxmışdır, deyə bilərəm ki, cinayətlər törətmişdir. Ulu öndər Heydər Əliyevin Azərbaycana qayıdışından sonra bütün məsələlər öz həllini tapdı və Azərbaycana xas olan dostluq, həmrəylik, qarşılıqlı dəstək meyilləri yenə də gücləndi.

Hər bir vətəndaş dinindən, dilindən, millətindən asılı olmayaraq, Azərbaycanın qiymətli, dəyərli vətəndaşıdır. Bizi bəzi başqa ölkələrdən fərqləndirən məhz budur. Heç vaxt heç bir yerdə ayrı-seçkiliyə yol verilməyəcək və verilmir. Bunun qarantı mənəm – Azərbaycan Prezidenti! Heç vaxt Azərbaycanda milli zəmində qarşıdurma olmayıbdır və olmayacaqdır. Əksinə, bizim təcrübəmiz dünya ictimaiyyəti tərəfindən öyrənilir. Necə ola bilir ki, müxtəlif dillərdə danışan, müxtəlif dinlərin nümayəndələri bir ailə kimi, problemsiz yaşayırlar?! Biz öz həyatımızla və siyasətimizlə sübut edirik ki, bu mümkündür.

Bizim beynəlxalq mövqelərimiz də güclüdür. Azərbaycan dünyanın ən mötəbər qurumunun – BMT Təhlükəsizlik Şurasının üzvüdür. Bu, böyük məsuliyyət, böyük etimaddır, gördüyümüz işlərin böyük nəticəsidir.

2012-ci il də ölkəmiz üçün uğurlu olacaqdır. Mən buna şübhə etmirəm. Hər bir vətəndaş öz yerində ölkəmizin, doğma Azərbaycanımızın inkişafına dəyərli töhfəsini verməlidir. Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Bütün qusarlılara cansağlığı və yeni uğurlar arzulayıram.

Çox sağ olun.

## Qubanın Qırmızı qəsəbəsində yəhudi icmasının nümayəndələri ilə görüş

*Fevralın 16-da prezident İlham Əliyev Qusara səfəri çərçivəsində yolüstü Qubanın Qırmızı qəsəbəsində yəhudi icmasının nümayəndələri ilə görüşmüşdür.*

*Qəsəbə sakinləri dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

**S a k i n l ə r:** Xoş gəlmisiniz, cənab Prezident! Hər dəfə buradan keçəndə bizimlə görüşürsünüz. Qəsəbəmiz gözəlləşir, daha da gözəl olacaq, yaraşıqlı evlər tikilir. Bir daha «Xoş gəlmisiniz» –deyirik.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, mən hər dəfə buradan keçəndə sizinlə görüşürəm. Bu dəfə də ənənəni pozmadım. Qəsəbəniz gözəlləşir. Bu gün buradayam. Bu gün Qusarda yeni xəstəxananın açılışında iştirak etdik. İndi sizin qəsəbənin hər iki tərəfində xəstəxana vardır. Həm Qubada, həm də Qusarda. Buradan Qusara 10–15 dəqiqəlik yoldur. Yeni xəstəxana həm də sizə xidmət edəcəkdir. Orada bütün müasir diaqnostika avadanlığı vardır. Sizə də məsləhət görürəm ki, gedib müayinə olunasınız.

İndi su layihəsi icra edilir, Qusarda da, burada da. Kanalizasiya xətləri də çəkiləcək. Keçən dəfə körpü məsələsi qaldırılmışdı. Körpünün tikintisi bu ilin investisiya proqramında

vardır. Nəqliyyat Nazirliyində onun layihəsi hazırlanır. Bu il tikintisinə başlayacaqlar.

**S a k i n:** Çox gözəl olar, qədim körpüdür, Qubanın rəmzidir. Dedilər ki, bu körpüdən maşın da işləyəcəkdir.

**İ l h a m Ə l i y e v:** Mən tapşırıq verdim. Bir halda ki, tikilir, elə tiksinlər avtomaşın da keçə bilsin. İndi orada – dağlarda işlər gedir. Tez-tez gəlməli olacağam. Odur ki, tez-tez görüşəcəyik.

**S a k i n l ə r:** İnşallah! Allahın köməyi ilə. Təki sağlıq olsun. Sizinlə görüşmək çox xoşdur.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## Şahdağ qış-yay turizm kompleksinin tikintisinin birinci mərhələsi üzrə tamamlama işləri ilə tanışlıq

*Fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Şahdağ qış-yay turizm kompleksinin tikintisinin birinci mərhələsi üzrə tamamlama işləri ilə tanış olmuşlar.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev kompleksin tikintisinin gedişi ilə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, Şahdağ qış-yay turizm kompleksi dünyadakı bu tipli komplekslərdən nadirliyi və universallığı ilə fərqlənəcəkdir. Kompleksin tikintisinə hazırlıq işlərinə 2006-cı ildən başlanılmışdır. Həmin il keçirilən tenderdə dünyanın aparıcı şirkətləri qalib gəlmişdir. 2009-cu ilin sentyabrında prezident İlham Əliyevin iştirakı ilə bu kompleksin təməli qoyulmuşdur.*

*Diqqətə çatdırıldı ki, Şahdağ qış-yay turizm kompleksi Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının ərazisində yerləşir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Şahdağ qış-yay turizm kompleksinə çəkilən avtomobil yolu genişləndirilir, körpülər salınır, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilir və digər müvafiq işlər görülür. Tikintinin*

aparıldığı ərazi ekoloji təmizliyi, flora və faunasının zənginliyi ilə seçilir. Bu turizm obyekti dəniz səviyyəsindən 1300–2300 metr yüksəklikdədir. Turizm kompleksinin əsas hissəsi isə dəniz səviyyəsindən 1440–1640 metr yüksəklikdəki yaylaqda yerləşir. Kompleksin 2058 hektar ərazisi vardır. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən biri olan Şahdağ qış-yay turizm kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənəcək və ilboyu fəaliyyət göstərəcəkdir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açacaqdır. Turistlər yay mövsümündə də burada mənalı istirahət edə biləcəklər.

Prezident İlham Əliyev kompleksin lift bazasında həyata keçirilmiş işlərlə maraqlandı. Bildirildi ki, artıq lift bazasında tamamlama işləri görülür. Bu baza kompleksə 2-3 günlük istirahətə gələn turistlər üçün nəzərdə tutulmuşdur. Baza biri yeraltı olmaqla, üç mərtəbədən ibarətdir. Burada xizək avadanlığı kirayəsi bölməsi də vardır.

Dövlətimizin başçısına xizək bölməsində istifadə olunacaq və turistlərin ixtiyarına veriləcək xizək avadanlığı barədə məlumat verildi. Bazada uşaqların dağ-xizək idmanı ilə məşğul olmaları və əylənmələri üçün də hərtərəfli şərait yaradılmışdır. Almaniya istehsalı olan avadanlıqdan qarın bərkidilməsində və xizək trassının lazımi səviyyəyə gətirilməsində istifadə olunacaqdır. Burada birinci mərhələ çərçivəsində 9 kanat yolu fəaliyyət göstərəcəkdir.

Diqqətə çatdırıldı ki, lift bazasındakı oteldə 40 otaq, restoran, bar, kafe, bilyard otağı, dükanlar, konfrans salonu, tibb məntəqəsi, əməkdaşlar üçün otaqlar, 10 lift, avtomobil dayanacağı və digər obyektlər vardır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva nümunə üçün yaradılan otel otaqlarında şəraitlə tanış oldular.

Daha sonra yüksəklikdən kompleksin ərazisini seyr edən dövlətimizin başçısına məlumat verildi ki, birinci mərhələ çərçivəsində qaz-generator stansiyasının tikintisi, bütün zəruri

*daxili kommunikasiyalar və xarici infrastruktur üzrə də xeyli iş görülmüşdür. Kompleksə Qusar rayonundan 35,7 kilometr uzunluğunda ortatəzyiqli qaz kəməri çəkilmişdir. 35 kilometrlik kanalizasiya sistemi də istifadəyə hazırdır. 29 kilometr uzunluğunda fiber lifli rabitə xəttinin çəkilişi tamamlanmaq üzrədir. 32,6 kilometrlik 110 kilovoltluq elektrik xəttinin inşası davam edir. İçməli su kəmərinin və təmizləyici qurğuların inşası da başa çatdırılmışdır.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya kompleksdə növbəti mərhələdə həyata keçiriləcək infrastruktur işləri barədə ətraflı məlumat verildi. Bildirildi ki, dövlətimizin başçısının tapşırıqlarına əsasən, Şahdağ qış-yay turizm kompleksinin ərazisində otellər şəbəkəsi yaradılır. Artıq «Resort» otelində tamamlama işləri görülür. Yeddimərtəbəli oteldə turistlərə prezident nömrəsi, VİP-suit otaq, hər biri ikinəfərlik 170 nömrə, müxtəlif tədbirlərin keçirilməsi üçün 3 konfrans salonu, 6 restoran, SPA mərkəzi, üzgüçülük hovuzu, uşaq bağçası, xizək kirayəsi məntəqəsi, xizək məktəbi, yeraltı dayanacaq xidmət göstərəcək və digər xidmətlər təklif olunacaqdır. «Resort» otelinin yaxınlığında daha iki yüksək səviyyəli otel fəaliyyət göstərəcəkdir. Həmin otellərdən birinin artıq bünövrəsi qoyulmuş, digərinin isə hazırlıq işləri aparılır. Yaxınlıqda ən müasir standartlara cavab verən ticarət mərkəzi də fəaliyyət göstərəcəkdir. Ərazidə bir kiçik otelin inşası da tamamlanmaq üzrədir. Burada turistlər üçün 26 otaq, sağlamlıq klubu, restoran, bar, kafe və digər əyləncə mərkəzləri nəzərdə tutulur. Həmin otelin yaxınlığında elektrik stansiyası tikilir.*

*Diqqətə çatdırıldı ki, Şahdağ qış-yay turizm kompleksi dünya turizm sənayesində xüsusi layihələrdən biri olacaqdır. Layihənin növbəti mərhələləri çərçivəsində yeni kanat yolları salınacaq, qolf meydançası, müxtəlif klublar, kiçik mehmanxanalar, pansionat, Şahdağ Gənclər Mərkəzi, 900 nömrəlik «Relax» mehmanxana şəbəkəsi, 200 nəfərlik diskoteka binası inşa olunacaq, at ferması fəaliyyət göstərəcəkdir.*

Qeyd olundu ki, kompleksin birinci mərhələsi üzrə tikinti işləri dövlət tərəfindən maliyyələşdirilir. Tikintiyə nəzarəti Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan Şahdağ qış-yay turizm kompleksinin müdiriyyəti həyata keçirir. Kompleksin inşasının növbəti mərhələlərində özəl sektorun da yaxından iştirakı nəzərdə tutulmuşdur.

Komplekslə yaxından tanış olan prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya əyləncə mərkəzlərinin yerləşəcəyi məhəllə barədə ətraflı məlumat verildi.

Dövlətimizin başçısı növbəti mərhələdə həyata keçiriləcək tədbirlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.

**FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAHMUD ABBASA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş ağır avtomobil qəzası nəticəsində məktəblilərin həlak olması xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Fələstin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 fevral 2012-ci il*

# FRANSANIN NƏQLİYYAT NAZİRİ VƏ FRANSA PREZİDENTİNİN DİPLOMATİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Fransa Respublikasının Nəqliyyat naziri Tierri Marianini və Fransa prezidentinin diplomatiya məsələləri üzrə müşaviri Damien Lorası qəbul etmişdir.*

*Nəqliyyat naziri Tierri Mariani Fransa prezidenti Nikola Sarkozinin məktubunu dövlətimizin başçısına təqdim etdi. Fransalı qonaq ölkəsinin Azərbaycan ilə tərəfdaşlıq əlaqələrini bundan sonra da inkişaf etdirəcəyinə əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı Fransa prezidenti Nikola Sarkozinin məktubunda ikitərəfli münasibətlərimizin inkişafına dair səmimi fikirlərə görə minnətdarlıq etdi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev «erməni soyqırımı»nın inkar edilməsinə görə cəza nəzərdə tutan qanunun qüvvəyə minməyəcəyinə ümidvar olduğunu dedi.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 fevral 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Andrey Kovatçevin başçılıq etdiyi Avropa Par ëlamentinin Xarici Əlaqələr Komitəsində müxtəlif siyasi partiyaları təmsil edən deputatlardan ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Parlamenti və Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji, təhlükəsizlik və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİYEVƏ**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Bolqarıstan arasındakı dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir. Əminəm ki, bu ənənələrə əsaslanan dövlətlərarası münasibətlərimiz, bir çox sahələri əhatə edən ikitərəfli əməkdaşlığımız və çoxşaxəli əlaqələrimiz bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 fevral 2012-ci il*

## QEYDLƏR

**1. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatı adlanır. – 5.

**2. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 6,81,83,86,87, 102,113,116,117,124,160,178,179,191,217,245,259,284,305,329

**3. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 9, 23, 218,271,317.

**4. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədə-

niyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 8–10,19–20,49–50,69,70,85–93,94–105,106–108,110–111,137,44–145,146,150,153,156–157,171,172,173,182,222,223, 247, 251,254,344,347.

**5. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun

Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 10,19,49,69,74,92,105,137,144,222,247,251, 254.

**6. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Maniladadır (Filippin). Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 12.

**7. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 13,117,179, 220,243.

**8. Çexiya,** Ç e x i y a   R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 17,18,42.

**9. Mikayıl Hüseynov,** M i k a y ı l  Ə l ə s g ə r  o ğ l u (1905–1992) – Azərbaycan memarı və memarlıq tarixçisi. Müasir Azərbaycan memarlığının banilərindən biri. Memarlıq doktoru, professor. Azərbaycan və SSRİ EA-nın həqiqi üzvü olmuşdur. M.Hüseynovun layihələri ilə Bakıda və respublikanın digər şəhərlərində, eləcə də Moskvada, Düşənbədə yaşayış, ictimai və mədəni-məişət binaları tikilmişdir. Bakıda M.F.Axundov adına Milli Kitabxana, EA şəhərciyi kompleksi, Bakı Metropoliteninin «Nəriman Nərimanov», «Nizami», «Elmlər Akademiyası» stansiyaları M.Hüseynovun ən görkəmli əsərlərindəndir. M.Hüseynov Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı və Sosialist Əməyi Qəhrəmanı idi. – 19.

**10. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 21,323,329–334.

**11. Qambiya,** Q a m b i y a  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 10,3 min $km^2$, əhalisi 1,9 milyon nəfərdir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Banjul şəhəridir. – 22.

**12. Yəhya Cammeh** (d.1965) – Qambiyanın siyasi və dövlət xadimi. 1994-cü ildən 20 yanvar 2017-ci ilə qədər Qambiya Respublikasının Prezidenti olmuşdur. – 22.

**13. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 25.

**14. Mahmud Kərimov,** M a h m u d  K ə r i m  o ğ l u (1948–2013) – fizik, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik. 2001–2013-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 25.

**15. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874,884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də

ermәni tapdağı altındadır. – 26,57,83,87, 99, 103,104,116,176,177,192,193,242,244,245,250,259,261, 262,263,305,306,316,333,334,350.

**16. ATӘT-in Minsk qrupu** – 1992-ci il martın 24-dә yaradılmışdır. 1997-ci ildә Minsk qrupunun tәrkibinә aşağıdakı dövlәtlәr daxil olmuşdur: Azәrbaycan, Ermәnistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyә, Danimarka vә İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sәdr – Rusiya vә İtaliya rәhbәrlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ vә fransalı hәmsәdrlәri var. Qrupun әsas vәzifәsi Ermәnistan–Azәrbaycan münaqişәsinin sülh yolu ilә aradan qaldırılmasına vә Dağlıq Qarabağ probleminin dinc vasitәlәrlә hәll edilmәsinә bilavasitә kömәk etmәkdir. – 26,57,102,117,263.

**17. Amerika Birlәşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlәt. Şimaldan Kanada, cәnubdan Meksika, şәrqdәn Atlantik okeanı vә qәrbdәn Sakit okeanla әhatә olunur. Sahәsi 9,5 milyon $km^2$, әhalisi 325,6 milyon nәfәrә yaxındır. İnzibati cәhәtdәn 50 ştat vә Kolumbiya federal paytaxt dairәsinә bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayәndәlәr Palatası vә Senat) ABŞ Konqresidir. Dövlәt başçısı prezidentdir. Paytaxtı Vaşinqton şәhәridir. – 26,40,143,174,217,263,276,306.

**18. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illәrdә Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illәrdә bir sıra mәsul vәzifәlәrdә çalışmışdır. 1998-ci ildә Rusiya Federasiyası Prezidenti Administrasiyasının rәhbәri, 1998–99-cu illәrdә FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumәtinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri tәyin edilmişdir. 2012-ci ilin mart ayında yenidәn Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 27,31,90, 91, 133.

**19. Heydәr Әliyev,** H e y d ә r Ә l i r z a o ğ l u (1923–2003) – Müstәqil Azәrbaycan dövlәtinin memarı vә qurucusu, xalqımızın ümummilli lideri, görkәmli dövlәt xadimi, Azәrbaycan

Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi

vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya

inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 27,39,49,59,63,73,76,80,91,103, 109,126,134,144,152,218,221,222,234,237,247,252,254,279,335.

**20. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 32.

**21. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatorudur. İmperator Hirohitonun oğludur. – 32.

**22. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 33.

**23. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının

Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 33.

**24. Qətər,** Q ə t ə r  d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı əmirdir. Paytaxtı Doha şəhəridir. – 34,35.

**25. Həməd bin Xəlifə əl-Tani** (d.1952) – 1995–2013-cü illərdə Qətər əmiri olmuşdur. O, 1997-ci ildə regionda ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 34.

**26. Bəhreyn,** B ə h r e y n  d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 766 km$^2$, əhalisi 1,5 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manama şəhəridir. – 36.

**27. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2002-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda, siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 36.

**28. Zərifə xanım Əliyeva,** Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazır-

lanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 39, 147.

**29. Tamerlan Əliyev,** T a m e r l a n   Ə z i z   o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 39.

**30. Oqtay Əsədov,** O q t a y   S a b i r   o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. – 39.

**31. Artur Rasizadə,** A r t u r   T a h i r   o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf», «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 39,58,64,257,264,273,301,303,314,327,334.

**32. Ramiz Mehdiyev,** R a m i z   Ə n v ə r   o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci

katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 39,58,64,257,264,273,301, 303,314,327,334.

**33. Vatslav Klaus** (d.1941) – 2003–2013-cü illərdə Çexiya Respublikasının Prezidenti olmuşdur. – 42.

**34. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 44.

**35. Tunis,** T u n i s R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 45.

**36. Munsef əl-Mərzuqi** (d.1945) – Tunis siyasətçisi və dövlət xadimi, hüquq mühafizəçisi, yazıçı, həkim, 2011–2014-cü illərdə Tunis Respublikasının Prezidenti olmuşdur. – 45.

**37. Kuba,** K u b a R e s p u b l i k a s ı –Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleya, dövlətin və hökumətin başçısı Dövlət Şurasının sədridir. Paytaxtı Havana şəhəridir. – 46.

**38. Raul Kastro Rus** (d.1931) – Kuba inqilabçısı və dövlət xadimi. 2008-ci ildən Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının sədri və Kuba Silahlı Qüvvələrinin Baş Komandanıdır. – 46.

**39. Myanma,** M y a n m a İ t t i f a q ı R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada, Hind-Çin yarımadasının şimal-qərb hissəsində zəif inkişaf etmiş ölkə. 1989-cu ilə qədər Birma adlanırdı. Sahəsi 678,5 km$^2$, əhalisi 55 milyon nəfərdir. İnzibati ərazisi 7 milli və 7 administrativ vilayətə bölünür. Paytaxtı Neypyido şəhəridir. – 47.

**40. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 48,273–301.

**41. Nəsimi,** S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə öldürülmüşdür. – 55.

**42. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1984) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fondunun rəhbəridir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 92,153.

**43. Arzu Əliyeva,** A r z u  İ l h a m  q ı z ı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın kiçik qızı, Heydər Əliyevin nəvəsi. Film prodüseri. – 92.

**44. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. –95–105,250.

**45. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 99,250.

**46. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 103.

**47. Xosrov bəy Sultanov,** X o s r o v b ə y P a ş a b ə y o ğ -l u (1879–1947) – Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət və siyasi xadimi, ilk hərbi naziri. 1919-cu ildə Müvəqqəti Qarabağ general-qubernatorluğunun dəstələri Xosrov bəyin başçılıq etdiyi Azərbaycan əsgərləri tərəfindən darmadağın edilmişdi.

Xosrov bəy Sultanov Aprel işğalından sonra mühacirətdə yaşamışdır. – 105.

**48. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avro-

panın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 105,224.

**49. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian - Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 119.

**50. Nikola Sarkozi** (d.1955) –Fransanın dövlət və siyasi xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 119,349.

**51. Yuri Qaqarin** (1934–1968)–SSRİ təyyarəçi-kosmonavtı, dünyada ilk kosmonavt, Sovet İttifaqı Qəhrəmanı. – 139.

**52. Törə Qədirova** (d.1927) – tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi. 1968-ci illərdə Azərbaycan SSR Səhiyyə Nazirliyinin Baş Uşaq nevropatoloqu, 1988–97-ci illərdə Azərbaycan Nevropatoloqlar Cəmiyyətinin sədri olmuşdur. –144.

**53. Oqtay Şirəliyev,** Oqtay Kazım oğlu (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 144,146,150.

**54. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə roman xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 181.

**55. 1990-cı ilin 20 yanvarı** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 220–221.

**56. Cavad xan** (1748 – 1804) – Gəncə xanı (1785–1804), Ziyadoğlu nəslindən idi. Cavad xan dövründə Qazax, Borçalı, Şəmsəddil, Şamxor və s. yerlər Gəncə xanlığına daxil idi. Gürcüstan Rusiyaya birləşdikdə (1801) Cavad xan Şəmsəddilə qoşun göndərib 29 kəndi Gəncə xanlığı ərazisinə qatdı. Rusiya Cavad xana narazılığını bildirdi və Şəmsəddildən əl çəkməsini tələb etdi. 1803-cü ilin noyabrında çar generalı P.D.Sisianovun komandanlığı ilə Gəncəyə qoşun göndərildi. R.D.Sisianovun tabe olmaq tələbini rədd edən Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. – 223.

**57. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 224,234–235,255.

**58. Nəriman Nərimanov,** N ə r i m a n N ə c ə f o ğ l u (1870–1925) – görkəmli dövlət xadimi, yazıçı və publisist, həkim. 1917-ci ildən Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur.

1920-ci il aprelin 27-də Azərbaycanda sovet hakimiyyətinin qələbəsi ərəfəsində Nərimanov qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçildi. O, Azərbaycan xalqının maraqlarını müdafiə etdiyinə görə 1922-ci ildə Moskvaya çağırılır və SSRİ-nin I Sovetlər qurultayında (1922) SSRİ MİK-nin sədri seçilir. – 236.

**59. İmamzadə piri,** İ m a m z a d ə t ü r b ə s i , G ö y i m a m – orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Bağırın oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general-mayor İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 metr, diametri 4,4 metrdir. Günbəzə mavi kaşıdan üzlük çəkilmişdir. «Göy imam» adı da bununla əlaqədardır. – 238–239.

**60. Küveyt,** K ü v e y t d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 266.

**61. Cabir əs-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 266.

**62. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 8 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 267,307.

**63. Boris Tadiç** (d.1958) – Serbiya siyasətçisi, Serbiya Demokratlar Partiyasının sədri. 2004–2012-ci illərdə Serbiya Respublikasının Prezidenti olmuşdur. – 267.

**64. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüs şəhəridir. – 268.

**65. Dalya Qribauskayte** (d.1956) – Litva siyasətçisi. 2009-cu ildən Litva Respublikasının Prezidentidir. – 268.

**66. Estoniya,** E s t o n i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Tallinn şəhəridir. – 269.

**67. Toomas Hendrik İlves** (d.1953) – Estoniya siyasətçisi, diplomat, jurnalist, AŞPA-nın sabiq üzvü. 2006–2016-cı illərdə Estoniya Respublikasının Prezidenti olmuşdur. – 269.

**68. Bruney,** B r u n e y D a r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 425 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavan şəhəridir. – 270.

**69. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsidir. – 270.

**70. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya

İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 273–301.

**71. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 81,9 min km$^2$, əhalisi 201 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 284.

**72. Mikrosoft** – müxtəlif hesablama texnikası – şəxsi kompüterlər, oyun konsolları, KPK, mobil telefonlar, dünyada daha çox yayılmış platforma proqramları, «Vindovs» əməliyyat sistemləri istehsal edən ən böyük transmilli kompaniya 1975-ci ildə yaradılmışdır. Mikrosoftun texnikası 80-dən çox ölkəyə ixrac, proqramları isə 45 dilə tərcümə edilmişdir. Mənzil-qərargahı Redmond (ABŞ) şəhərindədir. – 286.

**73. Hillari Klinton** (d.1947) – hüquqşünas, siyasi xadim. Prezident Klintonun həyat yoldaşı. 2001-ci ildən Nyu-York ştatından Amerika Senatına üzv seçilmişdir. 2009–2013-cü illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 306.

**74. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. – 317.

**75. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü

illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 317.

**76. Albaniya,** A l b a n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3,3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 321–322.

**77. Sali Berişa** (d.1944) – Albaniyanın dövlət və siyasi xadimi. 1992–97-ci illərdə Albaniya Respublikasının Prezidenti, 2005-ci ildən Albaniyanın Baş naziridir. – 321–322.

**78. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 327–334.

**79. Anders Foq Rasmussen** (d.1953) – Danimarka siyasətçisi. 2009–2014-cü illərdə NATO-nun Baş katibi, 2001–2009-cu illərdə isə Danimarkanın Baş naziri olmuşdur. – 329–331.

**80. Fələstin dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən B.Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 348.

**81. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının sədri (Fələstin dövlətinin prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 348.

**82. Rosen Plevneliyev** (d.1964) –Bolqarıstan siyasətçisi və sahibkarı. 2012–2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 351.

## Şəxsi adlar göstəricisi


**Abbasov Əli** – 8
**Abdullayev Rövnəq** – 56, 260
**Abutalıbov Hacıbala** – 37,58,64,257,264,273,301, 303,314,319–320,327
**Akerman Markus** – 287
**Akihito** – 32
**Al Xasauna Aun** – 294
**Appaturay Ceyms** – 323
**Aşurbəyov Əjdərbəy** – 71, 72
**Atambayev Almazbek** – 60, 63
**Badli şah əl-Mutasimu** – 44
**Barrozu Joze** – 280
**Berişa Sali** – 321–322
**Berdıməhəmmədov Qurbanqulu**– 325
**Bildt Karl** – 309
**Bolkiah Həssənal** – 270
**Bojenov Sergey** – 27
**Bradtken Robert** – 26
**Brend Börge** – 295
**Brays Kventin** – 186
**Brayzə Mətyu** – 143
**Camal Nigar** – 10
**Cammeh Yəhya** – 22
**Cavad xan** – 223
**Çukanoviç Milo** – 67
**Dati Rəşidə** – 69
**Dikman Maykl** – 309
**Diriöz Hüseyn** – 21
**Endryu(York Hersoqu)** – 289
**Əhmədinejad Mahmud** – 265
**Əhmədov Tağı** – 171
**Əl-Xəlifə Həməd** – 36

**Əl-Maliki Nuri** – 83
**Əl-Mərzuqi Munsef** – 45
**Əl-Nəhəyyan Abdullah** – 326
**Əl-Tani Həməd** – 34
**Əl-Tani Təmim** – 35
**Əs-Sabah əl-Cabir** – 266
**Əliyev Cənnət** – 97
**Əliyev Əziz** – 39, 146, 147
**Əliyev Heydər** – 10,19,49,69,74,92,105,137,144, 222,247,251, 254
**Əliyev Tamerlan** – 39
**Əliyeva Arzu** – 92
**Əliyeva Leyla** – 92, 153
**Əliyeva Mehriban** – 8–10,19–20,49–50,69,70,85–93, 94–105,106–108,110–111,137, 144–145,146,150,153,156–157, 171,172,173,182,222,223,247, 251,254,344,347
**Əliyeva Zərifə xanım** – 39, 147
**Ərdoğan Rəcəb Tayyib** – 317
**Əsədov Oqtay** – 39
**Əsgərov Cahangir** – 29
**Fasye Bernar** – 26,57
**Figen Yürgen** – 282
**Fillat Vladimir** – 216
**Frayzer Uilyam** – 40
**Genşer Hans-Ditrix** – 304
**Gəncəvi Nizami** – 19,224,234–235,255
**Gilani Sayed** – 284
**Gül Abdullah** – 317
**Hamudi Hammam** – 219
**Haşımova Şahnaz** – 223
**Heydərov Kəmaləddin** – 271
**Həsənov Əli** – 94
**Hormats Robert** – 276
**Hüseynov Mikayıl** – 19
**Havel Vatslav** – 42

**Xasməmmədovlar** – 224
**İlves Toomas** – 269
**İbrahim** – 238
**Kastro Raul** – 46
**Kellenberger Yakov** – 283
**Kovatçe Andrey** – 350
**Kərimov İslam** – 59
**Kərimov Mahmud** – 25
**Kurtua Jan** – 286
**Klinton Hillari** – 306
**Kim Yen Nam** – 43
**Klaus Vatslav** – 42
**Komorovski Bronislav** – 290
**Kostin Andrey** – 28
**Kırac Mustafa** – 23
**Kurado Haruhiko** – 12
**Kubiş Van** – 13
**Qarayev Əbülfəs** – 19
**Qasımov Eldar** – 10
**Qədirova Törə** – 144
**Qonzalves Ralf** – 160
**Qribauskayte Dalya** – 268
**Qrossman Yurgen** – 285
**Qule Natali** – 315
**Qusman Mixail** – 85–93,112–140
**Qurbanov Qüdrət** – 159
**Lefort Filip** – 316
**Leskör Bruno** – 288
**Mahmud Abbas** – 348
**Mariani Tierri** – 349
**Martens Uilfrid** – 68, 328
**Masias Karlos** – 38
**Medvedev Dmitri** – 30,41,59,60,90,133,258–264
**Mehdiyev Ramiz** – 39,58,64,91,257,264,273,301, 303,314,327,334
**Meyer Karlos** – 324
**Merkel Angela** – 119

**Məmmədov Ziya** – 161, 164, 172
**Molina Otto** – 183
**Məhəmməd Bağır** – 238
**Məmmədov Fazil** – 162
**Miller Aleksey** – 260
**Muxtarov Elmar** – 254
**Naidu Kumı** – 309
**Nazarbayev Nursultan** – 33
**Nəsimi İmadəddin** – 55
**Nərimanov Nəriman** – 236
**Niinistö Sauli** – 318
**Ottinger Günter** – 280, 309
**Özəl Nejdət** – 317
**Pak Hi Te** – 184
**Paşazadə Allahşükür** – 70
**Patil Pratibha** – 185
**Peres Şimon** – 275
**Plevneliyev Rosen** – 351
**Popov İqor** – 26
**Puşkin Aleksandr** – 129
**Putin Vladimir** – 27,31,90,91,133
**Racapaksa Mahinda** – 187
**Rasizadə Artur** – 39,58,64,257,264,273,301, 303,314,327–334
**Rasmussen Anders** – 329, 330–331
**Rəhmon Emoməli** – 59
**Roiss Gerhard** – 277
**Rubin Erik** – 217
**Rud Kevin** – 305
**Ryutte** – 119
**Saakaşvili Mixeil** – 24
**Sadıqov Qədim** – 246–247
**Sadıqov Ruslan** – 108
**Sarkisyan Serj** – 361, 362
**Sarkozi Nikola** – 119, 349
**Seyn Theyn** – 47

**Şeyxzamanovlar** – 224
**Sultanov Xosrov bəy** – 105
**Şirəliyev Oqtay** – 144, 146, 150
**Şvab Klaus** – 281
**Tadiç Boris** – 267
**Tələbani Cəlal** – 83
**Tiomioya Erkki** – 308
**Torkunov Vasili** – 125
**Ture Hamadun** – 11
**Todua Fridon** – 215
**Uqulava Qiqi** – 24
**Ünüvar Necdət** – 218
**Verdiyev Fikrət** – 223–224
**Villiger Kaspar** – 279
**Vidmer-Şlumf Eveline** – 48, 274
**Yanukoviç Viktor** – 278
**Zatlers Valdis** – 66
**Zebari Noşyar** – 83
**Zinger** – 224
**Zülfüqarov Oqtay** – 252

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Ağcabədi** | – 94–105 |
| **Ağdam** | – 99 |
| **Albaniya** | – 321–322 |
| **Almaniya** | – 151,174,282,303–314 |
| **Amerika Birləşmiş Ştatları** | – 26,40,143,174,217,263,276, 306 |
| **Argentina** | – 324 |
| **Asiya** | – 15, 298 |
| **Avrasiya** | – 5, 217 |
| **Avropa** | – 5,15,177,217,297,298,310,311 |
| **Avstraliya** | – 186, 305 |
| **Avstriya** | – 10 |
| **Belçika** | – 327–334 |
| **Berlin** | – 137 |
| **Bəhreyn** | – 36 |
| **Birləşmiş Ərəb Əmirlikləri** | – 326 |
| **Bolqarıstan** | – 351 |
| **Brüssel** | – 327–334 |
| **Bruney-Darüssalam** | – 270 |
| **Buzovna** | – 161 |
| **Cənubi Avropa** | – 288 |
| **Cənubi Qafqaz** | – 132,151,316,323 |
| **Çexiya** | – 17, 18, 42 |
| **Dağlıq Qarabağ** | –26,57,83,87,99,103,104,116, 176,177,192,193,242,244,245, 250,259,261,262,263,305, 306,316,333,334,350 |
| **Davos** | – 273–301 |
| **Estoniya** | – 269 |
| **Əfqanıstan** | – 329,330,331,332 |
| **Əmircan** | – 320 |
| **Fələstin** | – 348 |

**Finlandiya** – 308,318
**Fransa** – 26,57,69,263,315,349
**Gəncə** – 168, 222–239
**Goranboy** – 240–256
**Gürcüstan** – 17, 215, 316
**Gülüstan** – 244
**Həştərxan** – 27
**Həzrə** – 340
**Hindistan** – 185
**Hollandiya** – 119
**Xəzər dənizi** – 15,111,133,134,310
**Xocalı** – 246,247,248,250
**İmişli** – 52
**İndoneziya** – 294
**İngiltərə** – 174
**İraq** – 83, 219
**İran** – 244, 265
**İrəvan xanlığı** – 244
**İsrail** – 9, 275
**İsveçrə** – 273–301
**İzmir** – 23
**Kanada** – 9
**Kəlbəcər** – 99, 250
**Koreya XDR** – 43
**Koreya Respublikası** – 165, 184
**Küveyt** – 266
**Qafqaz** – 77, 133, 134
**Qambiya** – 22
**Qazax** – 142
**Qazaxıstan** – 33
**Qəbələ** – 52, 168
**Qətər** – 34, 35
**Qobustan** – 110–111
**Qrenadin** – 160
**Quba** – 343
**Qusar** – 335–347
**Qırğızıstan** – 60,63

**Qvatemala** – 183
**Laçın** – 95–105, 250
**Latviya** – 66
**Lənkəran** – 168
**Litva** – 268
**London** – 50
**Malayziya** – 44
**Meksika** – 38
**Mərkəzi Asiya** – 323
**Mərkəzi Avropa** – 14–16, 282
**Misir** – 302,313
**Moldova** – 216
**Monteneqro** – 67
**Moskva** – 58–64,89,125,126,137,245
**Münhen** – 304–314
**Naxçıvan** – 168
**Neftçala** – 272
**Orta Asiya** – 15
**Pakistan** – 284
**Paris** – 69,137
**Polşa** – 290
**Port-Səid** – 302
**Roma** – 92
**Rumıniya** – 10
**Rusiya** – 6–7,26,27,28,30,31,41,58–64,85–93,112–140,119,133, 134
**Sabirabad** – 271
**Salyan** – 271
**Serbiya** – 267, 307
**Seynt-Vinsent** – 160
**Slovakiya** – 17–18
**Soçi** – 257–264
**Sumqayıt** – 49–56
**Suraxanı** – 319–320
**Şərqi Avropa** – 282

**Şimali Qafqaz** – 77
**Şri-Lanka** – 187
**Şuşa** – 103
**Tacikistan** – 59
**Tbilisi** – 24
**Tunis** – 313
**Türkiyə** – 9,23,218,271,278
**Türkmənistan** – 325
**Ukrayna** – 278
**Vatikan** – 92, 137
**Yaxın Şərq** – 5
**Zaqatala** – 168
**Zuxul** – 340

# MÜNDƏRİCAT

«BAKUTEL–2011» XVII AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*22 noyabr 2011-ci il* ........................................ 5

ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN III QURULTAYININ İŞTİRAKÇILARINA

*23 noyabr 2011-ci il* ........................................ 6

«BAKUTEL–2011» XVII BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

*23 noyabr 2011-ci il* ........................................ 8

BEYNƏLXALQ TELEKOMMUNİKASİYA TƏŞKİLATININ BAŞ KATİBİ HAMADUN TURE İLƏ GÖRÜŞ

*23 noyabr 2011-ci il* ........................................ 11

ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ HARUHİKO KURADONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 noyabr 2011-ci il* ........................................ 12

BMT-nin AVROPA İQTİSADİ KOMİSSİYASININ İCRAÇI BAŞ KATİBİ YAN KUBİŞ İLƏ GÖRÜŞ

*23 noyabr 2011-ci il* ........................................ 13

MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNİN ƏMƏKDAŞLIQ PROQRAMININ BAKIDA KEÇİRİLMİŞ X NAZİRLƏR KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*23 noyabr 2011-ci il* ........................................ 14

SLOVAKİYADA ƏSASLI TƏMİR EDİLƏRƏK BAKIYA GƏTİRİLMİŞ SƏRNİŞİN VAQONLARINA BAXIŞ

*24 noyabr 2011-ci il* ........................................................................ *17*

«NİZAMİ» KİNOTEATRININ BİNASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*24 noyabr 2011-ci il* ........................................................................ *19*

NATO BAŞ KATİBİNİN MÜAVİNİ HÜSEYN DİRİÖZ İLƏ GÖRÜŞ

*24 noyabr 2011-ci il* ........................................................................ *21*

QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ

*28 noyabr 2011-ci il* ........................................................................ *22*

TÜRKİYƏNİN İZMİR VİLAYƏTİNİN VALİSİ MUSTAFA CAHİT KIRACIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2011-ci il* ........................................................................ *23*

TBİLİSİ ŞƏHƏRİNİN MERİ QİQİ UQULAVA İLƏ GÖRÜŞ

*28 noyabr 2011-ci il* ........................................................................ *24*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ MƏRKƏZİ ELMİ KİTABXANASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*28 noyabr 2011-ci il* ........................................................................ *25*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*30 noyabr 2011-ci il* ........................................................................ *26*

RUSİYA FEDERASİYASININ HƏŞTƏRXAN ŞƏHƏRİNİN MERİ SERGEY BOJENOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 noyabr 2011-ci il* ........................................................................ *27*

RUSİYANIN «VTB» BANKININ PREZİDENTİ, İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*1 dekabr 2011-ci il* ........................................................................ *28*

HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA YENİ AEROVAĞZAL KOMPLEKSİNDƏ APARILMIŞ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*3 dekabr 2011-ci il* ........................................................................ *29*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*5 dekabr 2011-ci il* ........................................................................ *30*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ, «YEDİNAYA ROSSİYA» PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*5 dekabr 2011-ci il* ........................................................................ *31*

YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*10 dekabr 2011-ci il* ........................................................................ *32*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*10 dekabr 2011-ci il* ........................................................................ *33*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

*10 dekabr 2011-ci il* ........................................................................ *34*

QƏTƏR DÖVLƏTİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

*10 dekabr 2011-ci il* ........................................................................ *35*

BƏHREYNİN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

*10 dekabr 2011-ci il* .......... *36*

NƏSİMİ RAYONUNDAKI 96 SAYLI UŞAQ BAĞÇASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*10 dekabr 2011-ci il* .......... *37*

MEKSİKA SENATININ ÜZVÜ KARLOS XİMENES MASİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 dekabr 2011-ci il* .......... *38*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2011-ci il* .......... *39*

ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN NƏQLİYYAT KOMANDANI UİLYAM FREYZER İLƏ GÖRÜŞ

*12 dekabr 2011-ci il* .......... *40*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*19 dekabr 2011-ci il* .......... *41*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

*19 dekabr 2011-ci il* .......... *42*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI ALİ XALQ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM YEN NAMA

*19 dekabr 2011-ci il* .......... *43*

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏRHUM SULTAN BADLİ ŞAHA

*19 dekabr 2011-ci il* .......... *44*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MUNSEF ƏL-MƏRZUQİYƏ

*19 dekabr 2011-ci il* ........................................................................................ *45*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR
ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO
RUSA

*19 dekabr 2011-ci il* ........................................................................................ *46*

MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB THEYN SEYNƏ

*19 dekabr 2011-ci il* ........................................................................................ *47*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
XANIM EVELİNE VİDMER-ŞLUMPFA

*19 dekabr 2011-ci il* ........................................................................................ 48

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*19 dekabr 2011-ci il* ........................................................................................ *49*

SUMQAYIT ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*19 dekabr 2011-ci il* ........................................................................................ *51*

ATƏT-in MİNSK QRUPUNUN FRANSALI SABİQ HƏMSƏDRİ
BERNAR FASYE İLƏ GÖRÜŞ

*19 dekabr 2011-ci il* ........................................................................................ *57*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR
SƏFƏR

*20 dekabr 2011-ci il* ........................................................................................ *58*

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI
ŞURASININ QEYRİ-RƏSMİ İCLASINDA İŞTİRAK

*20 dekabr 2011-ci il* ........................................................................................ *59*

QIRĞIZISTAN PREZİDENTİ ALMAZBEK ATAMBAYEV İLƏ GÖRÜŞ

*20 dekabr 2011-ci il* ........................................................................................ *63*

«MODERNLƏŞMƏ SİYASƏTİ: YENİ İQTİSADİ VƏ SOSİAL ÇAĞIRIŞLAR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*20 dekabr 2011-ci il* ........................................................................................ *65*

LATVİYANIN SABİQ PREZİDENTİ, «ZATLERSİN İSLAHATLARI PARTİYASI»NIN SƏDRİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*21 dekabr 2011-ci il* ........................................................................................ *66*

MONTENEQRONUN SABİQ PREZİDENTİ VƏ BAŞ NAZİRİ, MONTENEQRO SOSİALİSTLƏRİNİN DEMOKRATİK PARTİYASININ SƏDRİ MİLO ÇUKANOVİÇ İLƏ GÖRÜŞ

*21 dekabr 2011-ci il* ........................................................................................ *67*

AVROPA XALQLARI PARTİYASININ PREZİDENTİ UİLFRİD MARTENSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 dekabr 2011-ci il* ........................................................................................ *68*

AVROPA PARLAMENTİNİN DEPUTATI, PARİSİN 7-ci RAYONUNUN MERİ XANIM RƏŞİDƏ DATİ İLƏ GÖRÜŞ

*21 dekabr 2011-ci il* ........................................................................................ *69*

ƏJDƏRBƏY MƏSCİDİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*22 dekabr 2011-ci il* ........................................................................................ *70*

YENİ GƏTİRİLMİŞ HƏRBİ HELİKOPTERLƏRƏ BAXIŞ

*22 dekabr 2011-ci il* ........................................................................................ *79*

DÜNYA AZƏRBAYCANLILARINA

*22 dekabr 2011-ci il* ........................................................................................ *80*

İRAQIN XARİCİ İŞLƏR NAZİRİ HOŞYAR ZEBARİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 dekabr 2011-ci il* ........................................................................................ *83*

ƏLƏT–ASTARA YOLUNUN 9-cu KİLOMETRLİYİNDƏ YENİ SALINMIŞ DAİRƏVİ YOLUN VƏ İKİ YOL QOVŞAĞININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*23 dekabr 2011-ci il* ........................................................................................ *84*

«ROSSİYA» DÖVLƏT TELEKANALININ «HAKİMİYYƏT FORMULU» VERİLİŞİNƏ MÜSAHİBƏ

*23 dekabr 2011-ci il* ........................................................................................ *85*

AĞCABƏDİ RAYONUNDA QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN İNŞA EDİLMİŞ YAŞAYIŞ BİNALARINDAN İBARƏT MƏHƏLLƏDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*24 dekabr 2011-ci il* ........................................................................................ *94*

«BAKI AĞ ŞƏHƏR»İN TƏMƏL DAŞININ QOYULMASI MƏRASİMİNDƏ İŞTİRAK

*24 dekabr 2011-ci il* ........................................................................................ *106*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*24 dekabr 2011-ci il* ........................................................................................ *109*

QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNDA İNŞA EDİLMİŞ MUZEYİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*26 dekabr 2011-ci il* ........................................................................................ *110*

İTAR–TASS AGENTLİYİ VƏ «ROSSİYA-24» TELEKANALINA MÜSAHİBƏ

*26 dekabr 2011-ci il* ........................................................................................ *112*

QARADAĞ RAYONUNDA «AAC» MÜASİR TİKİNTİ MATERİALLARI ZAVODUNUN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*26 dekabr 2011-ci il* ........................................................................................ *141*

ABŞ-ın AZƏRBAYCANDAKI SƏFİRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*27 dekabr 2011-ci il* ........................................................................................ *143*
UŞAQ NEVROLOJİ XƏSTƏXANASINDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*27 dekabr 2011-ci il* ........................................................................................ *144*

ƏZİZ ƏLİYEV ADINA AZƏRBAYCAN DÖVLƏT HƏKİMLƏRİ TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTUNUN ƏSASLI TƏMİRDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*27 dekabr 2011-ci il* ........................................................................................ *146*

RESPUBLİKA DİAQNOSTİKA MƏRKƏZİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*27 dekabr 2011-ci il* ........................................................................................ *150*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ APARILMIŞ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*27 dekabr 2011-ci il* ........................................................................................ *152*

«JUMEİRAH BİLGAH BEACH HOTEL» KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 dekabr 2011-ci il* ........................................................................................ *153*

PAYTAXTIN SƏBAİL RAYONU ƏRAZİSİNDƏ YENİ PİYADA KEÇİDLƏRİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 dekabr 2011-ci il* ........................................................................................ *156*

DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 dekabr 2011-ci il* ........................................................................................ *158*

SEYNT-VİNSENT VƏ QRENADİNİN BAŞ NAZİRİ RALF QONZALVES İLƏ GÖRÜŞ

*29 dekabr 2011-ci il* ........................................................................................ *160*

BUZOVNA QOVŞAĞI TUNEL VƏ YOLÖTÜRÜCÜSÜNÜN
AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*29 dekabr 2011-ci il* ........................................................................................ *161*

VERGİLƏR NAZİRLİYİ DEPARTAMENTİNİN İNZİBATİ
BİNASININ QARŞISINDA SALINAN YENİ PARKDA
GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*29 dekabr 2011-ci il* ........................................................................................ *162*

NƏQLİYYATI İNTELLEKTUAL İDARƏETMƏ MƏRKƏZİNİN
AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*29 dekabr 2011-ci il* ........................................................................................ *164*

BAKININ BÜLBÜL PROSPEKTİNDƏKİ
PARKIN ƏSASLI YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI
VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*29 dekabr 2011-ci il* ........................................................................................ *170*

BAKI METROPOLİTENİNİN YENİDƏN QURULMUŞ
«KOROĞLU» STANSİYASININ AÇILIŞI MƏRASİMİNDƏ
İŞTİRAK

*30 dekabr 2011-ci il* ........................................................................................ *171*

PAYTAXTIN HEYDƏR ƏLİYEV PROSPEKTİNDƏ SALINMIŞ
PARKIN VƏ MUSİQİLİ ALOV FƏVVARƏSİNİN AÇILIŞI
MƏRASİMİNDƏ İŞTİRAK

*30 dekabr 2011-ci il* ........................................................................................ *173*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ
YENİ İL BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
XALQINA TƏBRİK

*31 dekabr 2011-ci il* ........................................................................................ *175*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*5 yanvar 2012-ci il* ........................................................................................... *181*

YENİ BULVARIN SALINMASI İLƏ BAĞLI GÖRÜLMÜŞ İŞLƏR, DÖVLƏT BAYRAĞI MEYDANI VƏ ONUN ƏTRAFINDA HƏYATA KEÇİRİLMİŞ TƏDBİRLƏRLƏ TANIŞLIQ

*12 yanvar 2012-ci il* ........................................................................ *182*

QVATEMALA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OTTO FERNANDO PEREZ MOLİNAYA

*13 yanvar 2012-ci il* ........................................................................ *183*

KOREYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDRİ PAK Hİ TENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 yanvar 2012-ci il* ........................................................................ *184*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ

*16 yanvar 2012-ci il* ........................................................................ *185*

AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU XANIM KVENTİN BRAYSA

*16 yanvar 2012-ci il* ........................................................................ *186*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSAYA

*16 yanvar 2012-ci il* ........................................................................ *187*

NAZİRLƏR KABİNETİNİN 2011-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2012-ci İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA NİTQ

*16 yanvar 2012-ci il* ........................................................................ *188*

YEKUN NİTQİ ........................................................................ *198*

GÜRCÜSTAN PARLAMENTİNİN SƏDR MÜAVİNİ, GÜRCÜSTAN–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN SƏDRİ FRİDON TODUANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 yanvar 2012-ci il* ........................................................................................ *215*

MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ VLADİMİR FİLAT İLƏ GÖRÜŞ

*18 yanvar 2012-ci il* ........................................................................................ *216*
ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ ERİK RUBİN İLƏ GÖRÜŞ

*18 yanvar 2012-ci il* ........................................................................................ *217*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN TÜRKİYƏ–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN HƏMSƏDRİ NECDET ÜNÜVARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 yanvar 2012-ci il* ........................................................................................ *218*

İRAQ PARLAMENTİ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ HAMMAM HAMUDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 yanvar 2012-ci il* ........................................................................................ *219*

QANLI YANVAR FACİƏSİNİN 22-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2012-ci il* ........................................................................................ *220*

GƏNCƏ ŞƏHƏRİNƏ VƏ GORANBOY RAYONUNA SƏFƏR

*21 yanvar 2012-ci il* ........................................................................................ *222*

GƏNCƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 yanvar 2012-ci il* ........................................................................................ *230*

GORANBOY RAYONUNA SƏFƏR

*21 yanvar 2012-ci il* ........................................................................................ *240*

GORANBOY RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 yanvar 2012-ci il* ........................................................................... *248*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*23 yanvar 2012-ci il* ........................................................................... *257*
RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ
MEDVEDEV İLƏ GÖRÜŞ

*23 yanvar 2012-ci il* ........................................................................... *258*

TƏBİİ QAZIN ALQI-SATQISINA DAİR MÜQAVİLƏYƏ
5 SAYLI ƏLAVƏ SAZİŞİN İMZALANMASI MƏRASİMİNDƏ
İŞTİRAK

*23 yanvar 2012-ci il* ........................................................................... *260*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN
PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*23 yanvar 2012-ci il* ........................................................................... *261*

AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA
PREZİDENTLƏRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN
TƏNZİMLƏNMƏSİNƏ
DAİR BİRGƏ BƏYANAT

*23 yanvar 2012-ci il* ........................................................................... *262*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*24 yanvar 2012-ci il* ........................................................................... *265*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH
ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*24 yanvar 2012-ci il* ........................................................................... *266*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BORİS TADİÇƏ

*24 yanvar 2012-ci il* ........................................................................... *267*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ
XANIM DALYA QRİBAUSKAYTEYƏ

*24 yanvar 2012-ci il* ........................................................................................ *268*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*24 yanvar 2012-ci il* ........................................................................................ *269*
BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI
HƏSSƏNAL BOLKİAHA

*24 yanvar 2012-ci il* ........................................................................................ *270*

FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ TƏRƏFİNDƏN
GƏTİRİLMİŞ TORPAQSORAN QURĞULARA, YEDƏK VƏ
TƏCHİZAT GƏMİLƏRİNƏ VƏ TƏDQİQAT KATERİNƏ BAXIŞ

*24 yanvar 2012-ci il* ........................................................................................ *271*

İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏR

*25 yanvar 2012-ci il* ........................................................................................ *273*

İSVEÇRƏ PREZİDENTİ XANIM EVELİNE VİDMER ŞLÜMF İLƏ
GÖRÜŞ

*25 yanvar 2012-ci il* ........................................................................................ *274*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERES İLƏ GÖRÜŞ

*25 yanvar 2012-ci il* ........................................................................................ *275*

ABŞ DÖVLƏT KATİBİNİN İQTİSADİYYAT, ENERGETİKA VƏ
KƏND TƏSƏRRÜFATI MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ ROBERT
HORMATS İLƏ GÖRÜŞ

*25 yanvar 2012-ci il* ........................................................................................ *276*

«OMV AG» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU GERHARD
ROİSS İLƏ GÖRÜŞ

*25 yanvar 2012-ci il* ........................................................................................ *277*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR
YANUKOVİÇ İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il* ........................................................................................ *278*

«UBS GLOBAL» ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ KASPAR VİLLİGER İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il* ........................................................................................ *279*

AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGER İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il* ........................................................................................ *280*

DÜNYA İQTİSADİ FORUMUNUN TƏSİSÇİSİ VƏ İCRAÇI SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il* ........................................................................................ *281*

ALMANİYANIN «DEUTSCHE BANK»ININ MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİ ÜZRƏ İCRAÇI DİREKTORU PETER TİLS VƏ İDARƏ HEYƏTİNİN ÜZVÜ YÜRGEN FİGEN İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il* ........................................................................................ *282*

BEYNƏLXALQ QIZIL XAÇ KOMİTƏSİNİN PREZİDENTİ YAKOB KELLENBERGER İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il* ........................................................................................ *283*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ SAYED YUSUF RAZA GİLANİ İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il* ........................................................................................ *284*

RWE ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU YURGEN QROSSMAN İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il* ........................................................................................ *285*

«MİCROSOFT İNTERNATİONAL» ŞİRKƏTİNİN PREZİDENTİ, «MİCROSOFT» KORPORASİYASININ VİTSE-PREZİDENTİ JAN KURTUA İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il* ........................................................................................ *286*

«HOLCİM GROUP» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ MARKUS AKERMAN İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il ........................................................................ 287*

«EDİSSON» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU BRUNO LESKÖR İLƏ GÖRÜŞ

*26 yanvar 2012-ci il ........................................................................ 288*

BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*27 yanvar 2012-ci il ........................................................................ 289*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ GÖRÜŞ

*27 yanvar 2012-ci il ........................................................................ 290*

DAVOSDA DÜNYA İQTİSADİ LİDERLƏRİNİN QEYRİ-RƏSMİ TOPLANTISINDA İŞTİRAK

*27 yanvar 2012-ci il ........................................................................ 291*

DAVOSDA «AVRASİYANIN GƏLƏCƏYİ» SESSİYASINDA İŞTİRAK

*27 yanvar 2012-ci il ........................................................................ 292*

İORDANİYANIN BAŞ NAZİRİ AUN AL XASAUNA İLƏ GÖRÜŞ

*27 yanvar 2012-ci il ........................................................................ 294*

AZƏRBAYCANA HƏSR OLUNMUŞ İNTERAKTİV SESSİYADA İŞTİRAK

*27 yanvar 2012-ci il ........................................................................ 295*

MİSİR ƏRƏB RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ ALİ ŞURASININ SƏDRİ MARŞAL MƏHƏMMƏD HÜSEYN TANTAVİYƏ

*3 fevral 2012-ci il ........................................................................ 302*

ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*3 fevral 2012-ci il ........................................................................ 303*

ALMANİYANIN SABİQ XARİCİ İŞLƏR NAZİRİ HANS-DİTRİX GENŞER İLƏ GÖRÜŞ

*3 fevral 2012-ci il* ........................................................................ *304*

AVSTRALİYANIN XARİCİ İŞLƏR NAZİRİ KEVİN RUD İLƏ GÖRÜŞ

*3 fevral 2012-ci il* ........................................................................ *305*

ABŞ DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON İLƏ GÖRÜŞ

*4 fevral 2012-ci il* ........................................................................ *306*

SERBİYANIN XARİCİ İŞLƏR NAZİRİ VUK YEREMİÇ İLƏ GÖRÜŞ

*4 fevral 2012-ci il* ........................................................................ *307*

FİNLANDİYANIN XARİCİ İŞLƏR NAZİRİ ERKKİ TUOMİOYA İLƏ GÖRÜŞ

*4 fevral 2012-ci il* ........................................................................ *308*

TƏHLÜKƏSİZLİK KONFRANSININ «ENERJİ, EHTİYATLAR VƏ ƏTRAF MÜHİT: YENİ TƏHLÜKƏSİZLİK PARAMETRLƏRİ» MÖVZUSU MÜZAKİRƏLƏRİNDƏ İŞTİRAK

*4 fevral 2012-ci il* ........................................................................ *309*

FRANSA–QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDR MÜAVİNİ, FRANSA–AZƏRBAYCAN İŞÇİ QRUPUNUN RƏHBƏRİ, SENATOR XANIM NATALİ QULENİN BAŞÇILIQ ETDİYİ PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 fevral 2012-ci il* ........................................................................ *315*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ VƏ GÜRCÜSTAN BÖHRANI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORT İLƏ GÖRÜŞ

*7 fevral 2012-ci il* ........................................................................ *316*

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ NEJDƏT ÖZƏLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 fevral 2012-ci il* ........................................................ *317*

FİNLANDİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ

*8 fevral 2012-ci il* ........................................................ *318*

NƏRİMANOV VƏ SURAXANI RAYONLARINDAKI KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*8 fevral 2012-ci il* ........................................................ *319*

ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞ

*9 fevral 2012-ci il* ........................................................ *321*

NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAY İLƏ GÖRÜŞ

*10 fevral 2012-ci il* ........................................................ *323*

ARGENTİNANIN TURİZM NAZİRİ KARLOS ENRİKİ MEYER İLƏ GÖRÜŞ

*11 fevral 2012-ci il* ........................................................ *324*

TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*14 fevral 2012-ci il* ........................................................ *325*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ

*14 fevral 2012-ci il* ........................................................ *326*

BELÇİKAYA İŞGÜZAR SƏFƏR

*14 fevral 2012-ci il* ........................................................................................ *327*

AVROPA XALQ PARTİYASININ PREZİDENTİ UİLFRİD MARTENS İLƏ GÖRÜŞ

*14 fevral 2012-ci il* ........................................................................................ *328*

NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSEN İLƏ GÖRÜŞ

*15 fevral 2012-ci il* ........................................................................................ *329*

NATO-nun BAŞ KATİBİ ANDERS FOQ RASMUSSEN İLƏ BİRGƏ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLAR

*15 fevral 2012-ci il* ........................................................................................ *330*

BRÜSSELDƏ NATO-nun ŞİMALİ ATLANTİKA ŞURASINDA ÜZV DÖVLƏTLƏRİN NATO YANINDA DAİMİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 fevral 2012-ci il* ........................................................................................ *333*

QUSAR RAYONUNA SƏFƏR

*16 fevral 2012-ci il* ........................................................................................ *335*

QUSAR RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 fevral 2012-ci il* ........................................................................................ *339*

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA

*17 fevral 2012-ci il* ........................................................................................ *348*

FRANSANIN NƏQLİYYAT NAZİRİ VƏ FRANSA PREZİDENTİNİN DİPLOMATİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ İLƏ GÖRÜŞ

*18 fevral 2012-ci il* ........................................................................................ *349*

AVROPA PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 fevral 2012-ci il* ........................................................ *350*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİYEVƏ

*20 fevral 2012-ci il* ........................................................ *351*

QEYDLƏR ........................................................ *352*

*Şəxsi adlar göstəricisi* ........................................................ *379*

*Coğrafi adlar göstəricisi* ........................................................ *384*

**Texniki redaktor** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,75. Uçot nəşr vərəqi 26,25. Tirajı 5000.
Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.